**AZƏRBAYCAN TARİX QURUMU**

**Azerbaijan Historical Society – Азербайджанское Историческое Общество**

# TARİX VƏ GERÇƏKLİK

## THE HISTORY & REALITY

## ИСТОРИЯ И РЕАЛЬНОСТЬ

**2024, №1**

**2007-Cİ İLDƏN NƏŞR OLUNUR**

**(2010-cu ilin fevralında 3129 sayla Ədliyyə Nazirliyində qeydə alınmışdır)**

**2024**

**BAKI – 2024**

**Baş redaktor:**
**Editor-in-Chief:**
**Главный редактор:**

T.e.d., prof., Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı **T.T.Mustafazadə**
Prof. Dokt., Honored Worker of Science, Laureate of the State Prize **T.T.Mustafazadeh**
Д.и.н., проф., Заслуж. деятель науки, Лауреат государственной премии **T.T.Мустафазаде**

**REDAKSİYA ŞURASI**
Azərbaycan

**Yaqub Mahmudov –** Akademik
**Musa Qasımlı -** AMEA-nın müxbir üzvü.
**Kərim Şükürov** - t.e.d., prof.
**Abbas Seyidov -** t.e.d, prof.
**Adil Mirabdullayev -** siy.e.d. prof.
**Allahverdi Əlimirzəyev -** t.ü.f.d., dos.
**Fəzail Ağamalı -** t.e.d., prof.
**Hacı Həsənov -** t.ü.f.d., prof.
**İlqar Niftəliyev -** t.ü.f.d., dos.
**İradə Məmmədova -** t.ü.f.d. dos.
**Qafar Cəbiyev -** t.e.d., prof.
**Mahir İbrahimov -** t.ü.f.d.
**Mais Əmrahov -** t.e.d., prof.
**Şahin Fərzəliyev -** t.e.d., prof.
**Tofiq Nəcəfli -** t.e.d., dos.

**Beynəlxalq heyət**

**Cezmi Eraslan -** Prof. Dokt. (Türkiyə)
**Halil Bal –** Prof. Dokt. (Türkiyə)
**İqor Turitsin -** t.e.d, Prof. (Rusiya)
**Sebahattin Şimşir -** Prof. Dokt. (Türkiyə)
**Selma Yel** - Prof. Dokt. (Türkiyə)
**Hakan Yılmaz** - (Turkey)

**İŞÇİ HEYƏT**

**Aqil Əhmədov -** t.ü.f.d., dos.
**Elmar Məhərrəmov -** t.ü.f.d., dos.
**Əzizağa Ələkbərov -** t.ü.f.d., dos.
**Güntəkin Nəcəfli -** t.ü.f.d., dos.
**İradə Məmmədova** (*baş redaktorun müavini*) - t.ü.f.d., dos.
**Mahir İbrahimov** (*məsul katib*) **-** t.ü.f.d.,
**Mərziyyə İskəndərova -** t.ü.f.d., dos.
**Nərminə Əmirbəyova** - t.ü.f.d., dos.
**Pərvanə Mustafazadə** - siy. e.ü.f.d.
**Pərvin Ahənçi** - t.ü.f.d., dos.
**Səidə Hacıyeva -** t.ü.f.d., dos.
**Şəhla Məmmədli-** böyük elmi işçi.
**Şirin Bünyadova** - t.e.d., prof.

**EDİTORİAL BOARD**
Azerbaijan

**Yagub Mahmudov -** full member of ANAS, prof.
**Musa Gasimli –** corresp. mem. of ANAS, prof.
**Karim Shukurov -** Prof., Doct.
**Abbas Seyidov** – Prof., Doct.
**Adil Mirabdullayev** - Prof., Doct.
**Allahverdi Alimirzayev** - Ph. Doct. in hist., Ass. Prof.
**Fazail Agamali** - Prof., Doct.
**Gafar Jabiyev** - Prof., Doct.
**Haji Hasanov** - Ph. Doct. in hist., Prof.
**Ilgar Niftaliyev** - Ph. Doct. in hist., Ass. Prof.
**Irada Mammadova** - Ph. Doct. in hist.
**Mahir Ibrahimov -** Ph. Doct. in hist.
**Mais Amrahov** - Prof., Doct.
**Shahin Farzaliyev** - Prof., Doct.
**Tofig Mustafazadeh** – Prof., Doct.
**Tofig Najafli** - Dos. Doct.

**From foreign countries**

**Selma Yel** - Prof. Doct. (Turkey)
**Sebahattin Shimshir** - Prof. Doct. (Turkey)
**Halil Bal -** Prof. Doct. (Turkey)
**Cezmi Eraslan** - Prof. Doct. (Turkey)
**Igor Turitsyn** - Prof. Doct. (Russia)
**Hakan Yılmaz** - (Turkey)

**EDİTORİAL QROUP:**

**Agil Ahmadov -** Ph. Doct. in hist., dos.
**Irada Mammadova** (*assistant of chief editor*) **-** Ph. Doct. in hist.
**Mahir Ibrahimov** (*Executive Secretary*) - Ph. Doct. in hist.
**Marziyya Iskanderova -** Ph. Doct. in hist., dos.
**Elmar Maharramov** – Ph. Doct. in hist.
**Guntekin Najafli** - Ph. Doct. in hist., dos.
**Narmina Amirbeyova** – Ph. Doct. in hist.
**Parvana Mustafazade** - Ph. Doct. in pol. sie.
**Parvin Ahanci** - Ph. Doct. in hist., dos.
**Saida Hajiyeva -** Ph. Doct. in hist., dos.
**Shahla Mammadlı-** Senior Researcher.
**Shirin Bunyadova -** Prof. Doct.

## РЕДАКЦИОННЫЙ СОВЕТ:

Азербайджан

**Ягуб Махмудов** – академик.
**Муса Гасымлы** - член-корреспондент НАНА.
**Карим Шукуров -** д.и.н., проф.
**Аббас Сеидов –** д.и.н., проф.
**Адиль Мирабдуллаев –** д.п.н., проф.
**Аллахверди Алимирзаев -** канд. и.т.н., доц.
**Гаджи Гасанов –** к.и.н., проф.
**Гафар Джабиев –** д.и.н., проф.
**Ильгар Нифталиев –** к.и.н., доц.
**Ирада Мамедова -** к.и.н., доц.
**Маис Амрахов –** д.и.н., проф.
**Махир Ибрагимов** – к.и.н., доц.
**Тофик Мустафазаде** – д.и.н., проф.
**Тофик Наджафли** – д.и.н., доц.
**Фазаил Агамали** – д.и.н., проф.
**Шахин Фарзалиев** - д.и.н., проф.

Из зарубежных стран

**Сельма Йел** – д.и.н., проф. (Турция)
**Себахеддин Шимшир –** д.и.н., проф. (Турция)
**Халил Бал –** д.и.н., проф. (Турция)
**Джезми Эраслан –** д.и.н., проф. (Турция)
**Игорь Турицын** – д.и.н., проф. (Россия)
**Хакан Йылмаз** – (Турция)

## РЕДАКТОРСКАЯ ГРУППА:

**Агиль Ахмедов –** к.и.н., доц.
**Азизага Алекперов -** к.и.н., доц.
**Ирада Мамедова** (*заместитель главного редактора*) – к.и.н., доц.
**Махир Ибрагимов (***исполнительный секретарь***) –** к.и.н., доц.
**Марзия Искандерова** – к.и.н., доц.
**Эльмар Магеррамов** – к.и.н.
**Гюнтекин Наджафли** – д.и.н., доц.
**Нармина Амирбекова** – к.и.н.
**Парвана Мустафазаде** – к.п.н.
**Парвин Аханджи** - к.и.н., доц.
**Саида Гаджиева** – к.и.н., доц.
**Шахла Маммадли** - стар. науч. сотр.
**Ширин Буньядова -** д.и.н., проф.

**AZƏRBAYCAN TARİX QURUMU – TARİX VƏ GERÇƏKLİK – 2024, №1**

THE HISTORY & REALITY – 2024, №1
ИСТОРИЯ И РЕАЛЬНОСТЬ – 2024, №1

## M Ü N D Ə R İ C A T – C O N T E N S

*ARXEOLOGİYA VƏ QƏDİM DÜNYA TARİXİ- ARCHEOLOGY AND HISTORY OF THE ANCIENT WORLD -АРХЕОЛОГИЯ И ИСТОРИЯ ДРЕВНЕГО МИРА*

***Əsədulla Cəfərov (Bakı)*** - Azıx paleolit düşərgəsi və miqrasiya problemləri ............................5

*ORTA ƏSRLƏR TARİXİ - MEDIEVAL HISTORY - СРЕДНЕВЕКОВАЯ ИСТОРИЯ*

***Nailə Ciddi (Bakı)*** - Şamaxi şəhəri məhəllələrinin formalaşması tarixindən..............................18

*MÜASİR TARİX - MODERN HISTORY - СОВРЕМЕННАЯ ИСТОРИЯ*

***Tofiq Mustafazadə (Bakı)* -** Azərbaycanın 27 aprel işğalını asanlaşdıran bəzi amillər haqqında.....................................................................................................................25
***Mahir İbrahimov (Bakı)*** - Azərbaycan Respublikasının türk dövlətləri ilə mədəni əlaqələri tarixinə dair (TÜRKSOY təşkilatı kontekstində).........................................................32
***Şirin Bünyadova (Bakı)* -** Tarixin yadigarı bayrağın əhəmiyyəti ..............................................39
***Gülşən Kəngərlinskaya (Bakı)*** - 2003-2022-ci illərdə Azərbaycanın mədəniyyət abidələrinin ermənilər tərəfindən mənimsənilməsi....................................................................45
***Əsəd Qurbanlı (Bakı)*** - II Dünya müharibəsindən sonrakı illərdə Azərbaycanın Naxçıvan bölgəsi ermənilərin planında.........................................................................................52

*ETNOLOGİYA – ETHNOLOGY – ЭТНОЛОГИЯ*

***Şövqü Həsənov (Bakı)*** - Naxçıvan diyarı əhalisinin toy mərasimləri.......................................57
***Kamalə Əliyeva (Bakı)* -** Azərbaycanda ənənəvi qadın bəzəklərinin evalyuasiyası və transformasiyası məsələlərinə dair (XIX-XX əsrlər)............................................................64
***Novruzov Cəlal (Bakı)*** - Azərbaycanlılarla gürcülərin etno-mədəni əlaqələrinə dair ...........................................................................................................................................71

*MƏNBƏŞÜNASLIQ VƏ TARIXŞÜNASLIQ - SOURCE STUDIES AND HISTORIOGRAPHY - ИСТОЧНИКОВЕДЕНИЕ И ИСТОРИОГРАФИЯ*

***Balamirzə Məmmədli - (Bakı)*** Azərbaycan Respublikası – ABŞ münasibətləri probleminin Vətən tarixşünaslığı üzrə tədqiqat əsərlərinin xarakteristikası................................78

*YUBİLEYLƏR VƏ ƏLAMƏTDAR GÜNLƏR*

***Tofiq Nəcəflı – (Bakı)* -** Yaqub Mahmudov və Azərbaycan milli tarix elmi ..............................92

ARXEOLOGİYA VƏ QƏDİM DÜNYA TARİXİ- ARCHEOLOGY AND HISTORY OF THE ANCIENT WORLD -АРХЕОЛОГИЯ И ИСТОРИЯ ДРЕВНЕГО МИРА

# AZIX PALEOLİT DÜŞƏRGƏSI VƏ MİQRASİYA PROBLEMLƏRİ

ƏSƏDULLA CƏFƏROV
*AMEA Arxeologiya və Antropologiya İnsitutu*
*ORCİD:https://orcid.org/0009-0007-2192-0278;*
*asadulla.cafarov@gmail.com*

***Xülasə:*** Azıx düşərgəsindən tapılmış maddi mədəniyyət qalıqları bu insan məskəninin Cənubi Qafqazda və o cümlədən dünyada yeganə paleolit mağara düşərgəsi olduğunu təsdiqləyir. Arxeologiya, paleontologiya və paleoantropologiya ilə məşğul olan alimlər arasında istər Cənubi Qafqazda, istər Yaxın Şərqdə və istərsə də Avropada məskunlaşmış ibtidai insanların miqrasiya problemində isə yekdil fikir yoxdur. Bir qrup alim belə hesab edir ki, hər arxeoloji mədəniyyət dövründə miqrasiya prosesi baş vermişdir. Digər qruplar isə paleolit dövründə miqrasiyanın hər arxeoloji dövrdə deyil, müəyyən bir zaman kəsiyində baş verdiyini göstərirlər. Bu prosesin tədqiqində alimlərə Azıxdan tapılmış maddi mədəniyyət qalıqları son fikirlər söyləməyə imkan verir.

***Açar sözlər:*** daş dövrü mədəniyyəti, miqrasiya prosesləri, paleolit düşərgələri, Daşsalahlı düşərgəsi, mustye mədəniyyəti, Quruçay arxeoloji mədəniyyəti, Dmanisi paleolit düşərgəsi.

ASADULLA JAFAROV
*Institute of Archeology and Anthropology, ANAS*
*ORCİD:https://orcid.org/0009-0007-2192-0278; asadulla.cafarov@gmail.com*

# THE AZYKH PALEOLITHIC CAMP AND MIGRATION PROBLEMS

***Abstract:*** The remains of material culture found in the Azykh camp confirm that this ancient settlement of people was the only Paleolithic cave camp not only in the South Caucasus, but also in the world. However, among scientists involved in archaeology, paleontology and paleoanthropology, there is no consensus on the problem of migration of primitive people who inhabited the South Caucasus, the Middle East and Europe. A group of scientists believes that the migration process took place in every period of archaeological culture. Some scientists point out that migration in the Paleolithic occurred over a period of time, rather than every archaeological period. Studying the migration process in the Paleolithic, scientists have found that the remains of material culture, found in scanty quantities, allow us to draw final conclusions.

***Keywords:*** Stone Age culture, migration processes, Paleolithic sites, Dashsalakhly site, Mousterian culture, Guruchai archaeological culture, Dmanisi Paleolithic site.

**Giriş**. Daş dövrü arxeologiyasının ən mühüm problemlərindən biri ibtidai insanların meydana gəlməsi, inkişaf etməsi, formalaşması və miqrasiya problemlərini tədqiq etməkdən ibarətdir. Bu məqsədlə XX əsrin ortalarından başlayaraq dünyanın müxtəlif ərazilərində xüsusilə Şərqi Afrikanın Keniya, Tanzaniya və Efiopiya ərazilərində ingilis alimləri tərəfindən arxeoloji tədqiqat işləri aparılmışdır. 1930-1969-cu illər ərzində Lüis Liki, Meri Liki və digər alimlərin

apardıqları arxeoloji tədqiqatlar zamanı daş dövrünün müxtəlif mədəniyyətlərinə aid maddi mədəniyyət qalıqları tapılmışdır. 1969-cu ildə YUNESKO-nun beynəlxalq elmi konfransında həmin maddi mədəniyyət qalıqları müzakirə olunaraq insanın yaranma tarixinin 800 min il deyil, 2,6 milyon ilə bərabər olması yekdilliklə təsdiq olunmuşdur. Aparılan kompleks tədqiqatlar zamanı ibtidai insanların hazırladıqları kobud daş alətləri ilə bərabər ibtidai insanlara məxsus kəllə qapaqları və çənələr aşkar olunaraq tədqiq olunmuşdur. Nəticədə ilk dəfə olaraq ibtidai insanların 2,6-3 milyon il bundan əvvəllərdən çay daşlarından özlərinə kobud çapma alətləri hazırladıqları müəyyən olunmuşdur.[1]

1994-2004-cü illərdə ingilis və fransız alimləri Şərqi Afrikanın Keniya, Tanzaniya, Efiopiya ərazilərində arxeoloji tədqiqat işlərini davam etdirmişlər. Nəticədə daş dövrü arxeologiyasının müxtəlif dövrlərinə aid zəngin maddi mədəniyyət qalıqları tapılmışdır. Yeni tapıntılar əsasında ibtidai insanların əmək alətlərini daha qədim zamanlardan etibarən yəni, 4-5 milyon il bundan qabaq hazırladıqları ideyası irəli sürülmüşdür. Hətta həmin dövrə aid ibtidai insanlara və meymunlara məxsus sümük qalıqları aşkara çıxarılmışdır.[2] Son 30 ildə aparılmış kompleks arxeoloji tədqiqatlar zamanı yaşı 3-5 milyon illərə malik maddi mədəniyyət qalıqları yalnız Şərqi Afrikanın Keniya, Tanzaniya, Efiopiya və xüsusilə Türkanə gölü yaxınlığında olan 21 abidədən aşkara çıxarılmışdır. Lakin yaşı 10 min illə 1,5 milyon il arasında olan daş məmulatı və ibtidai insanlara məxsus sümük məmulatı dünyanın 200-ə yaxın ərazilərindən qeydə alınaraq tədqiq olunmuşdur.[3]

**XX əsrin 50-70-ci illərində Azərbaycan ərazisində daş dövrünə aid arxeoloji tədqiqatlar.** Azərbaycan Respublikası ərazisində 1953-cü ildə professor Zamyatnin və M.Hüseynovun rəhbərliyi altında aparılan tədqiqatlar zamanı daş dövrünə aid ilk abidə Qazax rayonun Damcılı mağara düşərgəsində qeydə alınmışdır. 1956-cı ildə Azərbaycan Respublikası ərazisində daş dövrü düşərgələrini qeydə almaq məqsədilə Azərbaycan Elmlər Akademiyasının Tarix muzeyində M.Hüseynovun rəhbərliyi altında paleolit arxeoloji ekspedisiyası təşkil olunmuşdur. Paleolit arxeoloji ekspedisiyası 1956-58-ci illərdə Qazax rayonunun Damcılı mağara düşərgəsində arxeoloji qazıntılar aparmış və nəticədə neolit, mezolit və mustye mədəniyyətlərinə aid arxeoloji və paleontoloji tapıntılar əldə etmişdir.[4]

1958-ci ildə paleolit arxeoloji ekspedisiyası Qazax rayonunda apardığı arxeoloji kəşfiyyat işləri zamanı daş dövrünə aid Daşsalahlı düşərgəsini qeydə almışdır. 1960-cı ildə paleolit arxeoloji ekspedisiyası M.Hüseynovun rəhbərliyi altında Qarabağın Quruçay və Köndələnçay sahillərində arxeoloji kəşfiyyat işləri aparmış və nəticədə çoxtəbəqəli Azıx və Tağlar paleolit düşərgələrini qeydə almışdır.

1960-1965-ci illərdə Azıx paleolit düşərgəsinin I-X kvadrat metrlik ərazisində arxeoloji qazıntı aparılmış və nəticədə düşərgənin çöküntülərində 6 mədəni təbəqə qeydə alınaraq tədqiq olunmuşdur. I, II təbəqələrdə aparılan arxeoloji qazıntılar zamanı eneolit, tunc, dəmir, antik və orta əsr dövrlərinə aid maddi-mədəniyyət qalıqları tapılmışdır. III təbəqədə aparılan arxeoloji qazıntılar zamanı mustye mədəniyyətinə aid 4000-dən artıq daş məmulatı və 500 min-dən artıq ovlanmış heyvan və quş sümüklərinin qalıqları tapılmışdır. IV təbəqədə aparılan arxeoloji qazıntılar zamanı arxeoloji tapıntılar qeydə alınmamışdır. Ona görə də bu təbəqə lal təbəqə adlanır. Düşərgənin V təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı üst və orta aşel mədəniyyətinə aid daş məmulatı və fauna qalıqları qeydə alınmışdır. Düşərgənin VI təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı

---

[1] Azərbaycan arxeologiyası. Daş dövrü I cild. Bakı, 2008, s.17.
[2] Cəfərov Ə.Q. "Qarabağın paleolit düşərgələri". Bakı, 2017, s.29.
[3] Henry de Lumley. " L'Homme premier", Éditions Odile Jacob, rééd, Paris, 1998. p.81.
[4] Azərbaycan tarixi: 7 cilddə. I cild. Bakı, Elm nəşriyyatı, 1998.

qədim aşel mədəniyyətinə aid daş məmulatı və ovlanmış heyvanların sümük qalıqları aşkara çıxarılmışdır.[1] Çoxtəbəqəli Azıx paleolit düşərgəsində aparılan arxeoloji tədqiqat işlərini 3 mərhələyə ayırmaq olar:

1. 1960-1973-cü illərdə aparılan arxeoloji tədqiqat işləri zamanı düşərgənin çöküntülərində 6 mədəni təbəqə qeydə alınaraq tədqiq olunmuşdur. Bu dövrdə Azıx paleolit düşərgəsində Azərbaycan alimlərindən M.M.Hüseynov D.V.Hacıyev, N.Ş.Şirinov, M.Müseyibov, Ə.Q.Cəfərov, M.M.Mənsurov, S.Əliyev aparılan arxeoloji qazıntı işlərində iştirak etmişlər.

2. 1974-1986-cı illərdə aparılan arxeoloji qazıntı işlərində Azərbaycan alimləri ilə yanaşı SSRİ Elmlər Akademiyası Coğrafiya İnstitutunun əməkdaşları V.Veliçko, T.Marozova, Pevzner, Xalçeva və digər alimlər iştirak etməyə başlamışlar. Bu dövrdə aparılan arxeoloji tədqiqat işlərinin ən mühüm xarakterik cəhətlərindən biri düşərgənin çöküntülərində 4 yeni təbəqənin müəyyən edilməsidir.[2] İkinci mühüm xüsusiyyət isə düşərgənin çöküntülərindən götürülmüş nümunələr paleomaqnit üsulu ilə tədqiq olunmuş və Azıx paleolit düşərgəsinin VII təbəqənin üstü 780 min ilə bərabər olması müəyyən edilmişdir. Üçüncü mühüm xüsusiyyət isə Azərbaycan və Moskva alimlərinin kompleks tədqiqatlarının nəticəsi olaraq düşərgədə ilk sakinlərin məskunlaşma tarixinin 1 milyon ilə bərabər olması kompleks tədqiqatlar əsasında sübuta yetirilmişdir. Bu dövrün dördüncü ən mühüm xüsusiyyəti 1977-1981-ci illərdə mövcud olmuş Sovet Fransa çöl arxeoloji seminarında 1978-ci ilin sentyabrında Tbilisi şəhərində keçirilən konfransda müzakirə edilməsi olmuşdur.

Azıx paleolit düşərgəsində II mərhələdə aparılan arxeoloji qazıntılar zamanı qeydə alınmış VII-X təbəqələrdən tapılmış daş məmulatının elmi tədqiqi zamanı həmin tapıntıların Cənubi Qafqaz, Yaxın Şərq və dünyanın digər paleolit abidələrindən tapılmadığı və hazırlanmış əmək alətlərinin özünəməxsus texniki və tipoloji cəhətləri nəzərə alınaraq həmin tapıntılara Quruçay arxeoloji mədəniyyəti adı verilmişdir. Aparılmış kompleks tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, Quruçay arxeoloji mədəniyyəti özünün inkişafında bir neçə mərhələdən keçmişdir. Mədəniyyətin ilkin vaxtlarında daş alətlər olduqca kobud və bəsit hazırlandığı halda, sonrakı inkişaf mərhələlərində isə qədim Azıx sakinləri tərəfindən daş alətlər təkmilləşmiş və yeni-yeni əmək alətləri hazırlanmağa başlanmışdır.

Maraqlıdır ki, Azıx paleolit düşərgəsinin aşağı təbəqələrində aparılan arxeoloji tədqiqatlar zamanı cəmi 317 ədəd daş məmulatı tapılmışdır. Həmin daş məmulatının texniki və tipoloji tədqiqi zamanı müəyyən edilmişdir ki, düşərgənin aşağı təbəqələrində istehsal tullantıları olduqca az miqdardadır. Daş məmulatının əksər hissəsini alətlər təşkil edir. Deməli, düşərgənin ilk sakinləri daş alətlərinin çox hissəsini Quruçay dərəsində hazırlamış sonradan həmin alətləri düşərgəyə gətirmişlər. Aparılan kompleks tədqiqatlar zamanı məlum olmuşdur ki, hələlik ölkəmizin ərazisində və Cənubi Qafqazda Quruçay mədəniyyətinə aid əmək alətləri qeydə alınmamışdır. XX əsrin sonlarına qədər aparılan arxeoloji tədqiqatlar zamanı Quruçay arxeoloji mədəniyyətinin mütləq yaşı 1,2-1,5 milyon ilə bərabər olması müəyyən edilmişdir.[3] Quruçay mədəniyyətinə aid olan əmək alətlərinin Şərqi Afrikanın Olduvay düşərgəsində və Türkanə gölü yaxınlığından tapılmış əmək alətləri ilə oxşar cəhətləri müəyyən edilmişdir.

**XXI əsrdə Azərbayacan Respublikasının paleolit düşərgələrndə aparılan araşdırmaların nəticələri.** 2001-ci ildən başlayaraq Azərbaycan Respublikası ərazisində paleolit problemi üzrə aparılan arxeoloji tədqiqat işləri beynəlxalq xarakter almışdır. Çünki Azərbaycanın Quruçay sahillərində yerləşən Azıx paleolit düşərgəsində tapılmış maddi mədəniyyət qalıqları ibtidai insanların meydana gəlməsi, inkişaf etməsi, formalaşması və miqrasiya problemlərinin tədqiq

[1] Hüseynov M.M. “Древний палеолит Азербайджана,,. Баку, 1985, с.33.
[2] Палеолит в СССР, Москва, 1984, с.19.
[3] Cəfərov Ə.Q. “Qarabağın paleolit düşərgələri”. Bakı, CBS, 2017.

olunmasında müstəsna elmi əhəmiyyəti vardır. Məhz bunları nəzərə alan Fransa, İtaliya, İspaniya, Rusiya, Gürcüstan, Hollandiya və Azərbaycan alimləri Beynəlxalq İNTAS-2000 adlı proqram hazırlamışlar. Həmin proqramın əsas məqsədi son 50 ildə Cənubi Qafqaz və o cümlədən Azərbaycanda, Rusiyanın cənub ərazilərində və həmçinin Avropa ölkələri ərazisində paleolit dövrünün xarakterik xüsusiyyətlərinin müəyyən olunması, Qafqazda yaşayan ibtidai insanlarla Avropada məskunlaşmış ulu sakinlər arasında anatomik baxımdan oxşar və fərqli cəhətləri müəyyən etmək, miqrasiya proseslərini tədqiq etmək, tapılmış maddi mədəniyyət qalıqlarının texniki və tipoloji cəhətlərini arxeologiya elminin son nailiyyətləri əsasında tədqiq etməkdən ibarət olmuşdur. [1]

Alimlər tərəfindən hazırlanmış Beynəlxalq İNTAS proqramı 2001-ci ildə Brüsseldə təsdiq edilmiş və proqrama daxil olan alimlər müəyyən edilmişdir. 2001-ci il iyulun 3-5-də Fransanın Totavel şəhərində keçirilən beynəlxalq konfransda proqramın Azərbaycan üzrə əlaqələndiricisi Əsədulla Cəfərov seçilmişdir. Elə həmin ildə alimlər Totavel şəhərində proqramın əsas müddəalarını müzakirə etmiş və aparılacaq elmi tədqiqat işlərinin əsasları müəyyən edilmişdir. Beynəlxalq İNTAS proqramına uyğun olaraq 2001-2003-cü illərdə Ə.Q.Cəfərov 3 ay ərzində Avropa alimləri ilə birlikdə Fransanın Paris, Nis, Kənson və Totavel şəhərlərində olan elmi tədqiqat müəssisələrində, muzeylərində paleolit, mezolit və neolit dövrlərinə aid maddi mədəniyyət qalıqları ilə yaxından tanış olmuş və tədqiqat işləri aparmışdır. Ə.Q.Cəfərov 2001-ci ilin iyulunda 1 ay ərzində Fransanın dünya şöhrətli Kondel-Araqo paleolit düşərgəsində Anri dö Lümleyin rəhbərliyi altında aparılan arxeoloji qazıntılarda iştirak etmiş və eyni zamanda 1969-cu ildən aparılan Kondel-Araqo düşərgəsindən tapılmış arxeoloji tapıntıların elmi tədqiqi ilə Fransanın Totavel şəhərində olan Avropa Arxeoloji Tədqiqat Mərkəzində yaxından tanış olmuş və elmi tədqiqat işləri aparmışdır. 2001-ci il iyulun 10-da Ə.Q.Cəfərov Totavel şəhərinin beynəlxalq konqreslər salonunda Azərbaycanın Azıx, Tağlar və Qazma düşərgələrinin maddi mədəniyyət qalıqları haqqında elmi məruzə ilə çıxış etmişdir. Məruzədə çoxtəbəqəli Azıx, Tağlar və Qazma düşərgələrindən tapılmış ayrı-ayrı arxeoloji mədəniyyətlərə aid qeydə alınmış alətlərin texniki tipoloji xüsusiyyətləri, düşərgələrindən tapılmış ovlanmış heyvan sümüklərinin xarakterik cəhətləri geniş şərh olunmuşdur. Elmi məruzədə Azıx paleolit düşərgəsinin Quruçay, qədim aşel, orta aşel, son aşel və mustye mədəniyyətlərinə aid daş məmulatı içərisində qeydə alınmış ayrı-ayrı əmək alətləri və onların texniki-tipoloji xüsusiyyətləri şərh olunmuşdur. Aparılan tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, istər çoxtəbəqəli Azıx və istərsə də Tağlar paleolit düşərgəsində məskunlaşan Azərbaycanın ilk sakinləri düşərgələrdə daimi yaşamış, əmək alətləri hazırlamış və ovçuluqla məşğul olmuşlar. Məruzədə 1983-cü ildə M.M.Hüseynov və Ə.Q.Cəfərov tərəfindən kəşf olunmuş Naxçıvanın Qazma paleolit düşərgəsinin arxeoloji materialları ətraflı şərh olunmuşdur. Qazma paleolit düşərgəsində sakin olan insanlar mustye və üst paleolit dövrlərində və eyni zamanda qismən mezolit dövründə Qazma düşərgəsində məskunlaşmış əmək alətləri hazırlamış və ovçuluqla məşğul olmuşlar. Ə.Q.Cəfərovun elmi məruzəsinə yüksək qiymət verən professorlar Anri dö Lümley, Mariya Antuanetta dö Lümley, An Mari, Karbonelli, Ciakobini və digərləri Azərbaycanın paleolit düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqlarını Cənubi Qafqazda və Avropada paleolit dövrünün xarakterik xüsusiyyətlərinin öyrənilməsində müstəsna elmi əhəmiyyətə malik olduğunu yekdilliklə qeyd etmişlər. Eyni zamanda konfrans iştirakçıları Azıx paleolit düşərgəsindən tapılmış arxeoloji və paleontoloji tapıntıların Cənubi Qafqazda, yaxın Şərqdə və Avropa ölkələri ərazisində miqrasiya probleminin tədqiqində mühüm faktlar olduğunu bildirmişlər. [2]

[1] Ə.Q.Cəfərov. Qafqazın paleolit düşərgələri. Qafqaz tarixinin aktual məsələləri. Beynəlxalq konfransın materialları. Gəncə. 15-16 oktyabr, 2015, səh. 199-203.
[2] Любин В.П., Беляева Ю.Б. "История Кавказа до предистории". Санкт-Петербург, 2006 (rus dilində).

1951-ci ildən bu günə qədər aparılmış arxeoloji tədqiqatlar zamanı Azıx düşərgəsi ilə yanaşı Cənubi Qafqaz ərazisində Dmanisi, Kudaro 1, Kudaro 3, Üçbucaq, Soni, Avropa ərazisində Vallone, Kondel-Araqo, Bonbon, Verteşçölleş və digər aşel mədəniyyətinə aid olan paleolit düşərgələri ulu sakinlərin miqrasiya prosesinin tədqiqində əvəzsiz arxeoloji mənbələrdir.[1]

Son 17 ildə alimlərin apardığı kompleks tədqiqatlar zamanı tapılmış maddi mədəniyyət qalıqları əsasında Cənubi Qafqazda insanların miqrasiya etməsi məsələsinə aid yeni elmi fikirlər yürütmək üçün zəmin yaranmışdır. Xüsusilə, Beynəlxalq İNTAS proqramı üzrə aparılan kompleks tədqiqatlar zamanı əldə olunmuş artefaktlar və əldə edilmiş elmi nəticələr bu ərazidə ibtidai ulu sakinlərin ilk miqrasiyası haqqında tarixi dövrün 2,5 milyon il bundan əvvəldən başlamasını söyləmək mümkün olmuşdur. Xüsusilə həmin proqrama uyğun olaraq Avropa alimləri ilə birlikdə Ə.Q.Cəfərovun apardığı tədqiqatlar Cənubi Qafqaz və Azərbaycanda ibtidai insanların birinci miqrasiyasının başlanması, inkişaf etməsi və onların həyat tərzi haqqında elmi bilikləri formalaşdırmışdır. Nəticədə, Azıx paleolit düşərgəsinin VII-X təbəqələrindən tapılmış arxeoloji və paleontoloji materialları ilk ibtidai sakinlərin 2,5 milyon il bundan əvvəl özlərinin ilk ocaqlarından çıxıb, yaxın Şərq ərazisindən keçib Qafqazda məskunlaşması barədə elmi zəmin yaradır. Bundan başqa Azıx düşərgəsinin Quruçay mədəniyyətinə aid maddi-mədəniyyət qalıqları ibtidai sakinlərin həyat tərzi, əmək alətləri hazırlaması və ovçuluq təsərrüfatı ilə məşğul olmaları haqqında yeni fikirlər söyləmək üçün olduqca zəngin elmi faktlara malikdir. Məhz buna görə də 2002-ci il sentyabrın 1-dən oktyabrın 31-ə qədər Avropa ölkələrindən gəlmiş 15 professor: onların içərisində arxeoloq, paleontoloq, paleogeoloq, paleogeomorfoloq, paleoantropoloq və digər elm sahələrinin mütəxəssisləri iştirak edirdilər. Həmin alimlər bir ay ərzində Azıx paleolit düşərgəsinin Quruçay, qədim aşel, orta aşel, üst aşel, mustye mədəniyyəti və üst paleolit dövrlərinə aid Azərbaycan ərazisindən tapılmış maddi mədəniyyət qalıqlarını arxeologiya elminin son nailiyyətləri əsasında tədqiq etmiş və nəticədə Cənubi Qafqaz və yaxın Şərq ərazisində Azıx paleolit düşərgəsinin ilk insan düşərgəsi olması yekdilliklə təsdiq olunmuş və cənubi Qafqazın digər ərazilərinə və eyni zamanda yaxın Şərq və həmçinin Avropa ərazilərində Azıx düşərgəsi bir dəhliz rolunu oynamışdır. Yeni arxeoloji faktlar və arxeologiya elminin son nailiyyətləri əsasında aparılmış tədqiqat işləri nəticəsində əldə olunmuş elmi nailiyyətlər əsasında hazırda alimlər belə bir fikir irəli sürürlər ki, ibtidai insanlar Azıxda o cümlədən Qarabağın Quruçay dərəsində müəyyən bir tarixi dövründə yaşadıqdan sonra digər ərazilərə Dmanisi, Kudaro, Soni, Kondel-Araqo, Terra-amata, Vallone və digər düşərgələrə miqrasiya etmişlər. Sonuncu fikir 2003-cü il fevral-mart aylarında Ə.Q.Cəfərovun Fransada Paris, Nis, Kənson, Totavel və digər şəhərlərin elmi tədqiqat müəssisələrində saxlanılan paleolit dövrünə aid maddi-mədəniyyət qalıqlarının yaxından tədqiq olunması nəticəsində Azıxda hazırlanmış əmək alətlərinin oxşar tipləri həm Cənubi Qafqaz, həm də Avropa ölkələrinin paleolit düşərgələrindən tapılmış maddi-mədəniyyət qalıqları əsasında fikir söyləmək mümkün olmuşdur. Məhz buna görə də bu gün istər Cənubi Qafqazda, Yaxın Şərqdə, Rus düzənliyində, Avropada və dünyanın digər ərazilərində ibtidai insanların meydana gəlməsi, inkişaf etməsi, formalaşması və miqrasiya etməsinin probleminin tədqiqində şərqi Afrikanın Keniya, Tanzaniya, Efiopiya ərazilərində tapılmış maddi mədəniyyət qalıqları ilə yanaşı çoxtəbəqəli Azıx paleolit düşərgəsində tapılmış maddi mədəniyyət qalıqlarının da müstəsna elmi əhəmiyyəti vardır.

İstər sovet və istərsə də Azərbaycanın müstəqillik dövründə alimlərin apardıqları kompleks tədqiqat işləri nəticəsində Azıx düşərgəsindən tapılmış maddi-mədəniyyət qalıqlarının hələlik Cənubi Qafqazda və o cümlədən dünyada yeganə paleolit mağara düşərgəsi olması yekdilliklə qəbul olunmuşdur. 1977-ci ildən başlayaraq Sovet və Fransa alimlərinin tarixə qədər ki, cəmiyyətlərin

[1] Любин В.П. “Ашельский период на Кавказе”. Санкт-Петербург, 1998, с.37

inkişafında təbii coğrafi şəraitin dinamikası mövzusu üzrə keçirilən elmi seminarda Cənubi Qafqaz ərazisində ibtidai insanların inkişaf mərhələləri, miqrasiya problemləri və digər xüsusiyyətləri tədqiq olunmağa başlanmışdır. Bu mövzuya uyğun olaraq Sovet və Fransa alimləri 1977-1982-ci illərdə istər Cənubi Qafqazda və istərsə də Fransa ərazisində olan paleolit, mezolit, neolit və eneolit dövrlərinə aid maddi mədəniyyət qalıqlarının elmi tədqiqi ilə yaxından tanış olmuş və həmçinin çöl şəraitində Cənubi Qafqaz, Rus düzənliyi və Fransa ərazisində olan paleolit abidələrinin çöküntülərindən ayrı-ayrı nümunələr götürərək laboratoriya şəraitində tədqiq etmişlər. Həmin tədqiqatların nəticəsi olaraq 1980-ci ildə SSRİ Elmlər Akademiyasının Rəyasət Heyətində Azıx düşərgəsindən tapılmış arxeoloji və paleontoloji tapıntılar geniş müzakirə olunmuş və Azıx paleolit düşərgəsində tapılmış maddi mədəniyyət qalıqlarının elmi tədqiqinin aparılması və genişləndirilməsi məqsədə müvafiq hesab olunmuş və insanın miqrasiya prosesini tədqiqində bu düşərgənin müstəsna elmi əhəmiyyətə malik olmasını qeyd etmişlər.

1981-83-cü illərdə Fransanın paytaxtı Paris şəhərində yerləşən İnsan muzeyində "Avropanın ilk sakinləri" adlı sərgi təşkil olunmuş və sərgidə Cənubi Qafqazdan, ancaq Azıx və Tağlar düşərgəsindən tapılmış quruçay, qədim aşel, orta aşel, mustye və üst paleolit mədəniyyətlərinə aid maddi mədəniyyət qalıqları üçün ayrıca sərgi təşkil olunmuş və orada həmin tapıntılar nümayiş etdirilmişdir. Həmin sərgidə yuxarıda qeyd etdiyimiz materiallarla yanaşı azıxantropun çənəsi də nümayiş etdirilmişdir. Həmin sərgiyə həsr olunmuş xüsusi kitabça Parisdə nəşr olunmuş və Azıx düşərgəsinin maddi mədəniyyət qalıqları haqqında orada geniş şərh verilmişdir. 1984-cü ildə Çexoslovakiyada çap olunan antropologiya jurnalında professor Yan Yelinikin antropoloji tapıntılar haqqındakı məqaləsində Azıx düşərgəsindən tapılmış çənə haqqında mühüm elmi fikirlər irəli sürülmüşdür. 1998-ci ildə Fransanın İnsan Paleontologiyası İnstitutunun professoru Avropa Arxeoloji Tədqiqatlar Mərkəzinin direktoru Anri dö Lümleyin "İlk insanlar" adlı 455 səhifəlik kitabında Azıx düşərgəsinin V təbəqəsindən tapılmış qədim insan çənəsi haqqında maraqlı fikirlər dərc olunmuşdur. [1]

2001-ci ilin iyulun 10-da Beynəlxalq İNTAS proqramına uyğun olaraq Fransada ezamiyyətdə olan Əsədulla Cəfərovun Azərbaycanın Azıx, Tağlar, Qazma və digər paleolit düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqları haqqında 2 saat müddətində elmi məruzəsi dinlənilmişdir. Professor Anri dö Lümley, professor Mariya Antuanetta dö Lümley və digərləri Ə.Q.Cəfərovun məruzəsinə yüksək qiymət vermiş və bu düşərgələrdən tapılmış maddi mədəniyyət qalıqlarının tədqiqinin dünya arxeologiya elmi üçün müstəsna elmi əhəmiyyəti olduğunu yekdilliklə qeyd etmişlər.

2001-2005-ci illərdə Avropa alimləri ilə aparılan beynəlxalq tədqiqat işlərinin nəticəsində Cənubi Qafqazda və xüsusilə də Azıx paleolit düşərgəsindən tapılmış maddi mədəniyyət qalıqlarının tədqiqi zamanı Cənubi Qafqazda yaşamış ibtidai insanlarla Avropada yaşamış və ya Avropaya miqrasiya etmiş insanların oxşar və fərqli cəhətlərinin tədqiqində mühüm xüsusiyyətlər qeydə alınmışdır. Xüsusilə Fransanın Kondel-Araqo, Vallone və Terra-Amata paleolit düşərgələrinin maddi mədəniyyət qalıqlarının tədqiqi zamanı kobud çapma alətlərin və bifas tipli alətlərin də Azıxdan qeydə alınmış alətlərin oxşarları müəyyən edilmişdir. Deməli, ibtidai ulu sakinlər Cənubi Qafqazda məskunlaşıb müəyyən müddət yaşadıqdan sonra özlərinə yeni düşərgələr axtarmağa başlamış və nəticədə özlərinə yeni yaşayış düşərgələri taparaq həmin ərazilərdə məskunlaşmış əmək alətləri hazırlamış və ovçuluqla məşğul olmuşlar. Ə.Q.Cəfərov Beynəlxalq İNTAS proqramına uyğun olaraq Fransanın Vallone, Terra-Amata, Kondel-Araqo düşərgələrindən qədim aşel mədəniyyətinə aid əmək alətlərinin tədqiqi zamanı Azıx düşərgəsinin VI təbəqəsindən tapılmış

---

[1] Henry de Lumley. "L'Homme premier", Éditions Odile Jacob, rééd, Paris, 1998, p.81

qədim aşel mədəniyyətinə aid kobud çapma alətləri və bifas tipli alətlər qeydə alınmışdır. Avropanın qədim paleolit düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqlarına oxşar alətlərin qeydə alınması onların üzərində olan texniki-tipoloji xüsusiyyətlər yuxarıda qeyd etdiyimiz fikirləri söyləməyə zəmin yaratmışdır.

Ə.Q.Cəfərov özünün avropalı həmkarları ilə apardığı kompleks tədqiqatlar zamanı Azıxda hazırlanmış əmək alətlərinin oxşarlarının Avropa düşərgələrində olmasını müşahidə etmiş və bu barədə professorlar Anri dö Lümley, Mariya Antuanetta dö Lümley, Ciakobini, Karbonelli, An-mari və digərləri ilə fikir mübadiləsi aparmışdır. Qeyd olunan alimlər də Avropa paleolit düşərgələrindən tapılmış əmək alətlərinin oxşar tiplərinin qeydə alınmasını Cənubi Qafqaz ərazisindən ibtidai insanların ilk dəfə 1,2 milyon il bundan əvvəllərdən Qafqazdan miqrasiya etmələrini müəyyən etmişlər. Avropanın görkəmli alimləri Beynəlxalq İNTAS proqramının tədqiqi ilə əlaqədar olaraq 2002-ci ilin sentyabrında Bakıda olarkən Azıx, Tağlar və Qazma düşərgələrinin daş məmulatını və ovlanmış heyvan sümüklərinin qalıqlarını arxeologiya elminin son nailiyyətləri əsasında tədqiq etmişlər. Elmi araşdırmalar zamanı Azıx və Tağlar düşərgələrinin Quruçay, qədim aşel, orta aşel, son aşel, mustye və üst paleolit mədəniyyətlərinə aid tapılmış maddi mədəniyyət qalıqlarının texniki və tipoloji cəhətlərini yüksək səviyyədə tədqiq etmişlər.[1] Maraqlıdır ki, Avropa alimləri Azərbaycanın paleolit düşərgələrinin maddi mədəniyyət qalıqlarını tədqiqi zamanı Avropa abidələri ilə müqayisəli təhlildə Ə.Q.Cəfərovun tədqiqatları zamanı müəyyən etdiyi oxşar ənənələri müəyyən etmişlər. Ona görə də bugünkü arxeologiya elminin əldə etdiyi nailiyyətlər əsasında ibtidai insanların istər Cənubi Qafqaza, istər Yaxın Şərqə və istərsə də Avropaya miqrasiya problemlərinin tədqiqində mühüm amili qeyd edirlər. Aparılan elmi araşdırmalar zamanı qədim aşel mədəniyəti dövründə yəni 450-950-ci minilliklər arasında Cənubi Qafqazdan Avropaya miqrasiyanın daha intensiv olduğunu söyləmək olur. Çünki Avropada qeydə alınmış paleolit düşərgələrinin daş məmulatının tədqiqi sonuncu qeyd etdiyimiz fikri təsdiqləyir.

Arxeoloji tədqiqatlarla yanaşı paleoantropoloji tədqiqatlar da diqqəti cəlb edir. Xüsusilə professor dünya şöhrətli paleoantropoloq Mariya Antuanetta dö Lümley Azıxdan tapılmış çənəni Kondel-Araqo düşərgəsindən tapılmış qədim insan çənələri ilə müqayisəli təhlil etmişdir. Həmin paleoantropoloji tapıntıların müqayisəli təhlili zamanı müəyyən olunmuşdur ki, Azıx düşərgəsindən qeydə alınmış qədim insana məxsus alt çənə əvvəllər müəyyən edildiyi kimi 18-22 yaşlı deyil, 30-35 yaşlı qadına məxsus olması elmin son nailiyyətləri əsasında müəyyən olunmuşdur.[2]

Hazırda arxeologiya, paleontologiya və paleoantropologiya ilə məşğul olan alimlər arasında istər Cənubi Qafqazda, istər Yaxın Şərqdə və istərsə də Avropada məskunlaşmış ibtidai insanların miqrasiya problemində yekdil bir fikir yoxdur. Bir qrup alim belə hesab edir ki, hər arxeoloji mədəniyyət dövründə miqrasiya prosesi baş vermişdir. Digər bir qruplar isə paleolit dövründə miqrasiyanın hər arxeoloji dövrdə deyil, müəyyən bir zaman kəsiyində baş verdiyini göstərirlər. Bu prosesin tədqiqində alimlərə Azıxdan tapılmış maddi mədəniyyət qalıqları son fikirlər söyləməyə imkan verir. Çünki Azıx düşərgəsindən tapılmış maddi-mədəniyyət qalıqları içərisində qeydə alınmış müxtəlif arxeoloji mədəniyyətlərə aid problemdə varisliyin olması müəyyən edilir. Əmək alətləri inkişaf etdikcə isə yeni tip alətlər meydana gəlir və bu proses ancaq insan beyninin və insan təfəkkürünün inkişafı nəticəsində mümkün ola bilər.

Paleolit dövründə bir neçə miqrasiya prosesi ola bilər. Bəzi alimlər isə bu miqrasiya proseslərinin daha çox olduğunu qeyd edirlər, lakin arxeoloji materiallar və arxeoloji mədəniyyətlərdə qeydə alınmış varislik ənənələri paleolit dövründə 2-3 dəfə miqrasiyanın olduğunu söyləməyə imkan yaradır. Əlbəttə, biz belə hesab edirik ki, bu fikri təsdiq etmək üçün gələcəkdəistər Cənubi

[1] Cəfərov Ə.Q. "İnsanlığın səhəri". Bakı, Azərnəşr, 1994.
[2] Yenə orada.

Qafqazda, istər Yaxın Şərqdə və istərsə də Avropada arxeoloji tədqiqatları genişləndirib, yeni maddi mədəniyyət qalıqları əsasında bu fikri daha da dəqiqləşdirmək mümkün olacaqdır.[1] Cənubi Qafqazın Azıx, Dmanisi, Kudaro 1, Kudaro 3, Soni və digər düşərgələrindən tapılmış maddi-mədəniyyət qalıqlarının elmi tədqiqi ibtidai insanların miqrasiya proseslərinin tədqiqində mühüm əhəmiyyət kəsb edir.

Arxeologiya elminin bu gün üçün əldə etdiyi elmi nailiyyətlər əsasında qeyd etmək olar ki, Yaxın Şərqdə və o cümlədən Cənubi Qafqazda ibtidai insanların miqrasiya probleminin başlanması, inkişaf etməsi barədə əsas arxeoloji, paleontoloji və paleoantropoloji tapıntılar Azərbaycanın Azıx, Gürcüstanın Dmanisi, İsrailin Ubeyd düşərgələrindən tapılmış tapıntılar əsasında müəyyən fikirlər irəli sürməyə zəmin yaratmışdır. Azıxdan sonra Cənubi Qafqaz ərazisində, Dmanisi paleolit düşərgəsindən tapılmış arxeoloji, paleontoloji və paleoantropoloji tapıntıların ibtidai insanların miqrasiyasının xüsusiyyətlərini tədqiq etməkdə müstəsna elmi əhəmiyyəti vardır. Məhz buna görə də Azərbaycan və Avropa alimlərinin Beynəlxalq İNTAS-2000 proqramı əsasında tədqiqat işlərində əsas diqqət Azıx və Dmanisidən tapılmış maddi-mədəniyyət qalıqlarına yönəlmişdir. Dmanisi paleolit düşərgəsində aparılan tədqiqatlar əsasən 1991-ci ildən bu günə qədər davam etməkdədir. Düşərgədə arxeoloji qazıntıların birinci mərhələsi 1982-1990-cı illəri əhatə edir. Bu mərhələdə aparılan arxeoloji qazıntılar zamanı Dmanisi arxeologiya elminə orta əsr şəhər yeri kimi tanınmaqda idi. Lakin 1991-ci ildə Dmanisidə aparılan tədqiqatlar zamanı düşərgənin aşağı təbəqələrindən cənub fili, etrus kərgədanı və digər heyvanların sümük qalıqlarının tapılması paleolit problemi üzrə tədqiqat aparan alimlərin diqqətini cəlb etdi.

Dmanisi paleolit düşərgəsi Tiflis şəhərindən 85 km cənubda yerləşir. 1990-91-ci illərdə Dmanisidə aparılan arxeoloji qazıntılar zamanı 80 kvadrat metr ərazidə və dərinliyi 3,3 metr olan sahədən daş dövrünə aid 25 məmulat qeydə alınmışdır. Aparılan tədqiqatlar zamanı həmin daş məmulatın içərisində nüvələr, qəlpələr və kobud çapma alətlər qeydə alınmışdır. 1991-ci ildən etibarən gürcü arxeoloqları ilə birlikdə İtaliya, Almaniya alimləri də Dmanisi paleolit düşərgəsində aparılan arxeoloji qazıntı işlərində iştirak etməyə başlamışlar. 1991-ci ilin sentyabrın 24-də Antiye Yustusun apardığı arxeoloji qazıntılar zamanı ibtidai insana məxsus çənə sümüyü aşkar olundu. Məhz bu dövrdən etibarən Dmanisi paleolit düşərgəsinə dünyanın arxeoloq, antropoloq, paleontoloq, paleoantropoloq və digər alimlərin diqqəti artdı. 1991-ci ildə tapılmış çənənin tədqiqi zamanı tapılmış çənə sümüyünün antropoloqlar homo-erektus tipli insana məxsus olmasını müəyyən etdilər. Aparılan tədqiqatlar zamanı məlum oldu ki, Dmanisidən tapılmış çənə Şərqi Afrika ərazisində tapılmış homo-erektus insanlara məxsus olub, 1,8-1,5 milyon il bundan qabaq yaşamışlar. Dmanisidən tapılmış arxeoloji və paleoantropoloji tapıntılar ibtidai insanların miqrasiya prosesinin tədqiqində yeni fikirlər irəli sürməyə şərait yaratmışdır.

Dmanisi paleolit düşərgəsində aparılan arxeoloji tədqiqatlar zamanı paleolit dövrünə aid çay daşlarından hazırlanmış əmək alətləri qəlpələr və digər tapıntılar əldə olunmuşdur. Aparılan tədqiqatlar zamanı Dmanisi paleolit düşərgəsinin stratiqrafiyasında 6 mədəni təbəqə qeydə alınmışdır. Çöküntünün ümumi qalınlığı 4 metrə bərabərdir. Düşərgənin VI təbəqəsi vulkan külündən ibarətdir. Əsas arxeoloji və paleontoloji tapıntılar IV-V təbəqələrdən qeydə alınmışdır. Arxeoloqlar Nioradze, Ayustus Dmanisinin daş məmulatını tədqiq edərkən onların paleolitin aşel mədəniyyətindən daha qədimlərə aid olduğunu qeyd edirlər. Sonralar 2001-2003-cü illərdə Avropa alimlərinin apardıqları İNTAS-2000 proqramı ilə bağlı tədqiqatları zamanı paleolit dövrünün məşhur alimləri Anri dö Lümley, Mariya Antuanetta dö Lümley, An Mari, Ə.Q.Cəfərov, Ciakobini, Karbonelli və digərləri 2002-ci ilin iyun ayında istər Tblisidə və istərsə də Dmanisi paleolit

[1] Cəfərov Ə.Q. Paleolit problemləri üzrə aparılmış beynəlxalq tədqiqatların nəticələri. 2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatın yekunları. Bakı, 2007.

düşərgəsinin yerində düşərgədən tapılmış maddi-mədəniyyət qalıqları ilə və istərsə də onun stratiqrafiyası ilə yaxından tanış olmuşlar. Həmin tədqiqatçılar Dmanisidən tapılmış daş məmulatının Şərqi Afrikanın Keniya və Efiopiya ərazilərindən tapılmış Olduvaya qədər ki daş məmulatları ilə müqayisə etmişlər. Dmanisi daş məmulatının əsas xarakterik cəhəti əmək alətlərinin çoxluq təşkil etməsidir. Tədqiqatçılar Dmanisidən tapılmış daş məmulatını tədqiq edərkən düşərgənin II, III təbəqələrindən tapılmış daş məmulatı ilə IV-V təbəqələrindən tapılmış alətlərin fərqli xüsusiyyətə malik olmasını qeyd etmişlər. Aşağı təbəqələrin materialları olduqca bəsit və kobud hazırlanmışdır. II təbəqənin daş alətləri isə texniki cəhətdən nisbətən yüksək səviyyədə hazırlanmışlar. Daş məmulatı arasında fərqli xüsusiyyətin müəyyən olunması belə fikir irəli sürməyə imkan vermişdir ki, düşərgədə qədim insanlar uzun müddət yaşamışlar və eyni zamanda V təbəqə səviyyəsində olan yaşayış zamanı daha qədim insanlar burada məskunlaşmışlar.[1]

Dmanisi paleolit düşərgəsində aparılan arxeoloji tədqiqatlar zamanı minlərlə daş məmulatı ilə birlikdə ibtidai insanlara məxsus 7 kəllə, 5 alt çənə və 12 diş tapılmışdır. Tədqiqatçıların yekdil fikirlərinə görə Dmanisidən tapılmış paleoantropoloji tapıntılar homo-erektus tipli insanlara məxsus olub, Şərqi Afrikadan Qafqaza miqrasiya etmiş insanlardan ibarətdir. Daş məmulatı içərisində həm Olduvay mədəniyyətinə xas əmək alətlər və həmçinin də həmin mədəniyyətdən fərqli alətlər qeydə alınmışdır. Beləliklə, Azıx və Dmanisidən tapılmış arxeoloji, paleontoloji və paleoantropoloji tapıntılar Cənubi Qafqaz və Azərbaycan ərazisində ibtidai insanların ilk məskunlaşma tarixinin 2,5-1,8 milyon illər arasında olduğunu söyləməyə əsas verir.[2] Bir qrup alimlər Cənubi Qafqazda ibtidai insanların miqrasiyasının birinci mərhələsini Azıx və Dmanisidən başlandığını qeyd edirlər. Bu gün əlimizdə olan arxeoloji, paleontoloji və paleoantropoloji tapıntılar yuxarıda dediyimiz fikri tam təsdiqləyir. Eyni zamanda Fransa, İtaliya, İspaniya alimləri də bu elmi fikri yekdilliklə qəbul edirlər.

Cənubi Qafqazda və Azərbaycanda əldə olunmuş arxeoloji, paleontoloji və paleoantropoloji tapıntılar Cənubi Qafqaz və Azərbaycan ərazisində miqrasiya prosesinin II mərhələsinin başlanmasını qədim aşel dövründən götürürlər. Xüsusilə Azıx düşərgəsinin VI təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı qədim aşel mədəniyyətinə aid 2000-dən artıq daş məmulatı və ovlanmış heyvan sümüklərinin qalıqları tapılmışdır. Aşel mədəniyyətinə aid Cənubi Qafqazda ən zəngin maddi mədəniyyət qalıqları Azıx düşərgəsinin VI təbəqəsindən tapılmışdır. Azıx düşərgəsinin VI təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı qeydə alınmış daş məmulatı arasında əsas yeri kobud çapma alətləri, əl çapacaqları, qaşov tipli alətlər, dişli alətlər, gəzli alətlər və digər alətlər tutur. Azıx düşərgəsinin VI təbəqəsi qədim aşel dövrünün xarakterik xüsusiyyətlərini əmək alətləri hazırlanmasının texniki-tipoloji xüsusiyyətlərinin tədqiqində müstəsna elmi əhəmiyyəti vardır.

Düşərgənin VI təbəqəsindən tapılmış və çay daşlarından hazırlanmış əmək alətlərinin oxşar tipləri tək-tək Dmanisi paleolit düşərgəsindən və Kudaro paleolit düşərgələrindən qeydə alınmışdır. Azıx düşərgəsinin VI təbəqəsində aparılan tədqiqatlar zamanı əmək alətləri ilə birlikdə istehsal tullantılarının tapılması düşərgə sakinlərinin qədim aşel mədəniyyəti dövründə əmək alətlərini düşərgədə hazırlanmasını söyləməyə imkan verir.

2001-2005-ci illərdə Beynəlxalq İNTAS proqramının tədqiqi zamanı Avropa alimləri Azıx düşərgəsinin qədim aşel mədəniyyətinə aid daş məmulatını tədqiq edərkən hələlik Cənubi Qafqazda belə alətlərin tək-tək qeydə alındıqlarını söyləmiş və qədim aşel mədəniyyəti dövründə miqrasiya prosesinin tədqiqində bu tapıntıların müstəsna əhəmiyyətini qeyd etmişlər.

Cənubi Qafqaz ərazisində qədim aşel mədəniyyətinin tədqiq olunmasında Cənubi Asetiyanın Kudaro 1, Kudaro 3 və Soni mağara düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqlarının

---

[1] Dmanisi I cild. Tbilisi, 1998.
[2] Dmanisi, Tbilisi, 2001.

müstəsna əhəmiyyəti vardır. Cənubi Qafqaz ərazisində aşel mədəniyyətini xarakterik xüsusiyyətinin tədqiqində hələlik 6 - Azıx, Kudaro 1, Kudaro 3, Soni, Üçbucaq və Axştır mağara düşərgəsindən tapılmış daş məmulatının mühüm elmi əhəmiyyəti vardır. Kudaro 1, Kudaro 3 paleolit düşərgələri Cənubi Asetiya ərazisində olub, dəniz səviyyəsindən 1600 m yüksəklikdə yerləşir. Soni paleolit düşərgəsi Cənubi Asetiya ərazisində olub dəniz səviyyəsindən 2100 m yüksəklikdə yerləşir. Azıx düşərgəsi isə dəniz səviyyəsindən 900 m yüksəklikdə yerləşir.

Kudaro 1 paleolit düşərgəsinin aşel təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı 5732 ədəd daş məmulatı tapılmışdır. Arxeoloji qazıntılar zamanı Kudaro 1 paleolit düşərgəsinin çöküntülərindən ovlanmış heyvan sümüklərinin qalıqları da aşkara çıxarılmışdır. Maraqlıdır ki, Kudaro 1 paleolit düşərgəsindən tapılmış sümük məmulatının 95%-i mağara ayılarına məxsus sümük qalıqlarından ibarətdir.

Cənubi Asetiyanın Kudaro 3 paleolit düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı aşel mədəniyyətinə aid daş məmulatı və ovlanmış heyvan sümüklərinin qalıqları tapılmışdır. Kudaro 1 və Kudaro 3 paleolit düşərgələrinin daş məmulatı içərisində əsas yeri kobud çapma alətləri və əl çapacaqları təşkil edir.[1] Cənubi Asetiyanın Soni paleolit düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı hələlik cəmi 150 ədəd daş məmulatı tapılmışdır. Düşərgənin daş məmulatı içərisində əsas yeri kobud çapma alətləri və əl çapacaqları təşkil edir. Soni paleolit düşərgəsində arxeoloji tədqiqat işlərini Gürcüstan alimlərindən Kalandadze və Tuşabramaşvili tərəfindən aparılmışdır. Orta aşel mədəniyyətinə aid Cənubi Qafqaz ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı maddi mədəniyyət qalıqları əsasən Azıx düşərgəsinin V təbəqəsindən, Kudaro 1, Kudaro 3, Axştır və Üçbucaq düşərgələrindən aşkara çıxarılmışdır. Orta aşel mədəniyyətinin tədqiqində Azıx düşərgəsinin V təbəqəsində tapılmış daş məmulatının tədqiqi zamanı əmək alətlərinin əsasən kobud çapma alətləri, əl çapacaqları və qaşov tipli alətlərdən ibarət olması müəyyən edilmişdir.

1968-ci ilin may-iyun aylarında paleolit arxeoloji ekspedisiyası M.M.Hüseynovun rəhbərliyi altında Azıx paleolit düşərgəsində qazıntı işlərini davam etdirərək çənə sümüyü aşkar etmişdir. Professor D.Hacıyev arxeoloji qazıntılar zamanı Azıx düşərgəsində tapılmış çənə üzərində uzun müddət elmi tədqiqat işləri aparmışdır. Azıx düşərgəsinin V təbəqəsindən tapılmış çənənin iri olması açıq nəzərə çarpır və gövdəsi nisbətən qalındır.

Bu baxımdan Azıxdan tapılmış çənə avstrolopitekdən fərqlənir və müəyyən əlamətlərinə görə arxantroplar arasında özünə xüsusi yer tutur. Azıx düşərgəsinin orta aşel dövrünə aid təbəqəsindən tapılmış çənəyə şərti olaraq Azıxantrop, yəni Azıx adamı adı verilmişdir. Azıx qədim insan düşərgəsinin V təbəqəsindən tapılmış qədim insan çənəsi quruluşundakı spesifik cəhətlərə əsasən, bir tərəfdən pitikantroplara, xüsusilə Mauer adamının çənəsinə, digər tərəfdən də bir çox əlamətlərinə görə Fransanın Kondel-Araqo düşərgəsinin aşel təbəqəsindən tapılmış pre-neandertallara daha yaxındır. Maraqlıdır ki, Fransanın Kondel-Araqo mağarasında aparılan arxeoloji qazıntılar zamanı çoxlu paleoantropoloji tapıntılar aşkar olunmuşdur. Paleoantropoloji tapıntılar içərisində əsas yeri qədim insan çənələri və kəllə qapaqları tutur. Məhz ona görə də Azıxdan qeydə alınmış qədim insan çənəsi Araqonun antropoloji tapıntıları ilə müqayisə olunur.

Azıxdan aşkar olunmuş çənə üzərində prof. D.Hacıyev uzun müddət elmi tədqiqat aparmış və müəyyən etmişdir ki, Azıxda aşkar olunmuş çənə ölkəmizin ərazisində ən qədim insan çənəsi olub, 30-35 yaşlı qadına məxsusdur və 400 min il əvvəl Azərbaycan ərazisində yaşamışdır. Hələlik keçmiş SSRİ ərazisində və Yaxın Şərqdə olan insan məskənlərindən Azıxda tapılan və bu cür qədimliyə malik paleoantropoloji tapıntı qeydə alınmamışdır. Bu aşel mədəniyyətinə aid ən qədim insan çənəsidir.

[1] Амирханов Х.А. Северный Кавказ: Начало преистории. Москва, 2016, с.47.

Daş dövrü üzrə tədqiqatçıların fikrinə görə Cənubi Qafqazda və Azərbaycanda ibtidai insanların daha geniş ərazilərdə məskunlaşması mustye mədəniyyəti zamanı baş verməsi müəyyən edilmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan və Cənubi Qafqaz ərazisində aparılan paleolit problemi üzrə tədqiqatlar zamanı mustye mədəniyyətinə aid 300 abidə Şimali Qafqazda isə 100-ə yaxın yaşayış məskəni qeydə alınıb tədqiq olunmuşdur. Sonuncu qeyd etdiyimiz fakt orta paleolit dövründə yəni mustye mədəniyyəti zamanı Cənubi Qafqazda məskunlaşmanın intensiv olması müəyyən edilmişdir. Cənubi Qafqaz ərazisində mustye mədəniyyətinə aid ən zəngin arxeoloji və paleontoloji tapıntılar Azərbaycanın Azıx (III təbəqə), Tağlar paleolit düşərgəsinin III-VI təbəqələrindən, Daşsalahlı, Curuçulla, Kudaro 1, Kudaro 3 və digər orta paleolit dövrünə aid ən zəngin tapıntılar aşkara çıxarılıb tədqiq olunmuşdur.

Tağlar düşərgəsinin mustye mədəniyyətinə aid tapılmış daş məmulatının texniki tipoloji tədqiqi zamanı Tağlar tipli əmək alətləri qeydə alınaraq tədqiq olunmuşdur. Bundan başqa Tağlarda hazırlanmış əmək alətlərinin yaxın şərq ölkələri ərazisində xüsusilə İran, İraq ərazilərində yayılması müəyyən edilmişdir. İranın Tamtama, Bisutun və İraqın Şanidar düşərgələrindən tapılmış əmək alətləri içərisində Tağlar tipli əmək alətlərinin qeydə alınması Tağlar düşərgəsindən tapılmış maddi mədəniyyət qalıqları əsasında Tağlar arxeoloji mədəniyyəti müəyyən olunmuşdur.[1] Tağlar arxeoloji mədəniyyətinin ən mühüm xarakterik cəhətlərindən biri orta paleolit dövründə əmək alətlərinin inkişaf texnikasını və tipologiyasını izləmək və yeni-yeni əmək alətlərinin yaranmasını qeyd etmək olar. Tağlar paleolit düşərgəsi özünün maddi mədəniyyət qalıqlarına və stratiqrafiyasına görə hələlik Cənubi Qafqazda və Yaxın Şərqdə ən möhtəşəm paleolit düşərgəsi hesab olunur.

2001-2005-ci illərdə Beynəlxalq İNTAS proqramının tədqiqi zamanı Avropa alimləri başda Henri dö Lümley və Ə.Q.Cəfərov olmaqla Tağlar paleolit düşərgəsindən tapılmış maddi mədəniyyət qalıqlarını arxeologiya elminin son nailiyyətləri əsasında tədqiq etmiş və düşərgənin paleolit dövrünün tədqiqində və ibtidai insanları miqrasiya prosesində tutduğu yeri yekdilliklə qeyd etmişlər.

Paleolit dövrü üzrə aparılan kompleks tədqiqatlar zamanı Cənubi Qafqaz və Azərbaycan ərazisində orta paleolit dövrünün 120 min il bundan əvvəl başlanması və 35 min il bundan qabaqlar sona çatması elmi faktlarla sübuta yetirilmişdir. Aparılan arxeoloji tədqiqatlar zamanı 35 min il bundan əvvəllərdən yəni mustye mədəniyyətinin sonu üst paleolit mədəniyyətinin əvvəllərindən etibarən neandertal tipli insanları kamil insanlar, yəni müasir insanların ulu əcdadları əvəz etmişlər. Sonuncu fikrimizi Azərbaycanın və Cənubi Qafqazın üst paleolit abidələrindən tapılmış arxeoloji və paleoantropoloji tapıntılar təsdiq edir.

Arxeologiya, paleontologiya, paleoantropologiya, paleogeomorfologiya və digər elm sahələrinin müasir dövrdə əldə etdiyi nailiyyətlərə əsasən Cənubi Qafqaz və Azərbaycan ərazisində 5 miqrasiyanın olduğunu qeyd edə bilərik:

1. Quruçay arxeoloji mədəniyyəti dövründə miqrasiyanın başlanması;
2. Qədim aşel dövründə miqrasiyanın başlanması və davam etməsi;
3. Orta aşel mədəniyyəti dövründə miqrasiyanın davam etməsi və yeni-yeni əraziləri əhatə etməsi;
4. Orta paleolit- mustye mədəniyyəti dövründə miqrasiyanın Azərbaycanın, Cənubi Qafqazın geniş ərazilərini əhatə edib, Şimali Qafqaza və Rus düzənliyinə keçməsi ilə əlaqədar olaraq məskunlaşma daha intensiv xarakter alır;
5. Üst paleolit dövrünün başlanması ilə əlaqədar olaraq müasir insanların formalaşması baş verir və məskunlaşma prosesi daha intensiv xarakter alır.

[1] Ранов Б.А. . “Палеолит Предазиатских гор. Палеолит Ближнего и Среднего Востока”. Ленинград 1978, с.76.

**Nəticə.** Hazırda elmin əldə etdiyi son nailiyyətlərə əsasən demək olar ki, ilk ibtidai insanlar Azərbaycan və Cənubi Qafqaz ərazisində homo-erektus tipli insanlardan ibarət olmuşdur. Həmin insanlar Azərbaycana Şərqi Afrika ərazisindən keçərək, yaxın şərq ərazisindən daxil olub məskunlaşmağa başlamışlar. Miqrasiyanın başlanması üçün əsas amil Azərbaycan və Cənubi Qafqazda əlverişli təbii coğrafi şəraitin olmasıdır. Aparılmış kompleks tədqiqatlar zamanı alimlər müəyyən etmişlər ki, hələ 2,5 milyon il bundan əvvəllərdən Azərbaycan və Cənubi Qafqazda insanların məskunlaşması üçün əlverişli təbii coğrafi şərait, əmək alətləri hazırlamaq üçün müxtəlif daş növləri, təbii sular, heyvanat aləmi və bitki örtüyü mövcud olmuşdur. Məhz bu zamandan etibarən ibtidai insanlar təbii karst mağaralarında məskunlaşmağa başlamışlar. Azıx paleolit düşərgəsində tapılmış arxeoloji və paleontoloji tapıntılar düşərgənin həm baza rolu oynadığı və buradan digər Cənubi Qafqaz ərazilərinə yayılmasında dəhliz rolunu oynadığını söyləmək olar. Qədim aşel və orta aşel mədəniyyətləri dövründə insanların Cənubi Qafqazda və Azərbaycanda miqrasiyası əvvəlki dövrlərə nisbətən geniş əraziləri əhatə etmişdir.

Cənubi Qafqaz və Azərbaycan ərazisində orta paleolit-mustye mədəniyyətinə aid Cənubi Qafqazda 300-dən artıq, Şimali Qafqazda isə 100-ə yaxın orta paleolit düşərgələrinin qeydə alınması insanların üçüncü miqrasiya dövrünün daha geniş əraziləri əhatə etməsini göstərir. 35 min il bundan əvvəllərdən Azərbaycan və Cənubi Qafqaz ərazisindən üst paleolit mədəniyyətinin meydana gəlməsi ilə əlaqədar olaraq müasir insanların əcdadları formalaşmış və onlar daha geniş ərazilərdə mağara düşərgələrindən başqa açıq yaşayış məskənlərində və o cümlədən komalarda və qaya daşlarından hazırladıqları evlərdə məskunlaşmağa başlamışlar.

Yuxarıda qeyd etdiyimiz miqrasiyalar təbii miqrasiyalar sayılır. Lakin dövlətin meydana gəlməsi ilə əlaqədar olaraq tarixi dövrlərə nəzər salsaq və müasir son 10 ildə dünyada baş verən ictimai siyasi proseslərə nəzər saldıqda görürük ki, hazırda insanların öz doğma torpaqlarından didərgin salınması, torpaqların zəbt edilməsi, əmlakının mənimsənilməsini mürtəce miqrasiya növünə aid etmək olar. Bu isə insanlığa yaraşmayan mürtəce siyasətin nəticəsidir.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT- REFERENCES

1. **Azərbaycan arxeologiyası. Daş dövrü I cild.** Bakı, Şərq-qərb, 2008.
2. **Azərbaycan tarixi: 7 cilddə. I cild**. Bakı, Elm nəşriyyatı, 1998.
3. Henry de Lumley. **“L'Homme premier”,** Éditions Odile Jacob, rééd, Paris, 1998
4. Амирханов Х.А. **Северный Кавказ: Начало преистории. Москва**, 2016
5. Cəfərov Ə.Q. **“İnsanlığın səhəri”. Bakı, Azərnəşr, 1994.**
6. **Cəfərov Ə.Q. Paleolit problemləri üzrə aparılmış beynəlxalq tədqiqatların nəticələri**. 2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatın yekunları. Bakı, 2007.
7. Cəfərov Ə.Q. **Qafqazın paleolit düşərgələri. Qafqaz tarixinin aktual məsələləri**. Beynəlxalq konfransın materialları. Gəncə. 15-16 oktyabr, 2015, səh. 199-203.
8. Cəfərov Ə.Q. **“Qarabağın paleolit düşərgələri”. Bakı, CBS, 2017**.
9. **Dmanisi I cild. Tbilisi,** 1998.
10. Hüseynov M.M. **“Древний палеолит Азербайджана„. Баку, 1985.**
11. Любин В.П., Беляева Ю.Б. **“История Кавказа до предистории”.** Санкт-Петербург, 2006 (rus dilində).
12. Любин В.П. “**Ашельский период на Кавказе**”. Санкт-Петербург, 1998, с.37
13. Ранов Б.А. **“Палеолит Предазиатских гор. Палеолит Ближнего и Среднего Востока”.** Ленинград 1978.

MÜƏLLİF HAQQINDA MƏLUMAT

Əsədulla Cəfərov Qüdrət oğlu – tarix elmləri doktoru,
professor. AMEA Arxeologiya və Antropologiya İnsitutu
Azərbaycan, Bakı.

INFORMATION ABOUT THE AUTHOR

Asadulla Jafarov Qudrat oğlu oglu - doctor of historical sciences,
professor, Institute of Archeology and Anthropology ANAS
Azerbaijan, Baku.

ORTA ƏSRLƏR TARİXİ - MEDIEVAL HISTORY - СРЕДНЕВЕКОВАЯ ИСТОРИЯ

## ŞAMAXI ŞƏHƏRİ MƏHƏLLƏLƏRİNİN FORMALAŞMASI TARİXİNDƏN

NAİLƏ CİDDİ
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*ORCID: 0009-0009-3657-7606; ciddinailya@gmail.com*

**Xülasə.** Azərbaycanın ən qədim şəhərlərindən olan Şamaxı, tarixi Şirvan vilayətinin mərkəzi hissəsində, əlverişli təbii-coğrafi mövqeydə, dəniz səviyyəsindən 749 m yüksəklikdə, ticarət yollarının üzərində, yerləşir. Zəngin siyasi tarixə, mədəniyyətə və sənətkarlıq ənənələrinə malik Şamaxı şəhəri, memarlıq quruluşu, məhəllələrinin strukturu və adlarının etimologiyası, habelə evlərinin memarlıq xüsusiyyətləri ilə diqqəti cəib edir.

Müxtəlif illərdə şəhərin ayrı-ayrı hissələrində aparılan arxeoloji qazıntıların nəticələri, etnoqrafik tədqiqatların təhlili, eləcə də tarixi mənbələr və ədəbiyyat materialları əsasında yazılan bu məqalədə əsas diqqət məhz bu məsələlərin etnoqrafik araşdırılmasına cəhd göstərilmişdir.

**Açar sözlər:** Şamaxı, Evliya Çələbi, Adam, məhəllə, məscid.

NAILA JIDDI
*Institute of History and Ethnology named after A.A. Bakikhanov, ANAS*
*ORCID: 0009-0009-3657-7606; ciddinailya@gmail.com*

## FROM THE HISTORY OF THE FORMATION OF NEIGHBORHOODS OF THE CITY OF SHAMAKHI

***Abstract:*** Shamakhi, one of the oldest cities of Azerbaijan, is located in the central part of the historical Shirvan province, at the altitude of 749 m above sea level, on the main trade routes, in a very favorable natural and geographical position. Shamakhi, which has a rich political history, culture and craft traditions, is also of great interest with its architectural structure, the structure of its neighborhoods, the etymology of neighborhood names, and the architectural features of its houses.

In the article written on the basis of the results of archaeological excavations conducted in different parts of the city in different years, analysis of ethnographic data, as well as source and literature materials, the main focus is on the ethnographic analysis of these issues.

**Key words:** Shamakhi, Evliya Chalabi, Adam Oleariy, neighborhood, mosque.

**Giriş.** Azərbaycanın qədim şəhərlərindən biri Şamaxı Şirvan vilayətinin mərkəzi hissəsində, dəniz səviyyəsindən 749 m yüksəklikdə, olduqca əlverişli təbii-coğrafi mövqedə yerləşir. Şəhərin cənubundan Zoğalavay, şərqdən isə Pirsaat çayı axır. Şəhər şimaldan Binəsli, Quşqan, şimal-qərbdə Pirdirəki və Gülüstan (Qız qalası), qərbdə isə Meysəri dağları ilə əhatə olunmuşdur. Bu dağlar Ağsu çayına qədər uzanan kiçik dağ silsiləsinin qurtaracağını təşkil edir və onları obrazlı şəkildə şəhərin təbii istehkamları da hesab etmək olar. Dağların yamaclarından, müxtəlif hündürlüklərdən axan çoxlu bulaqlar şəhər və onun ətraf kəndlərini içməli su ilə təmin edir. Şəhərin öz ərazisində də bir neçə bol sulu bulaqlar vardır. Ərəb coğrafiyaşünası əl-Müqəddəsi

Şamaxını təsvir edərək burada axar suların və çoxlu gəzməli, yerlərin olduğunu qeyd etmişdir.[1] Yaqud Həməvi onu "abad şəhər" adlandırmış, Həmdullah Qəzvini isə coğrafi xəritədə Şamaxının coğrafi mövqeyini xüsusi vurğulayaraq, iqlimini yüksək qiymətləndirmişdir.[2]

Şəhərin şimal hissəsində dəniz səviyyəsindən 2700 m yüksəkliyə qalxan mürəkkəb relyef Şamaxı bölgəsinin iqlim və bitki örtüyünün müxtəlifliyini müəyyən etmişdir ki, bu da maldarlığın və ipəkçiliyin inkişafı üçün əlverişli zəmin yaratmışdır. Şəhər və onun ətrafında orta illik temperatur 11 dərəcə təşkil etməklə, bağçılıq və üzümçülük üçün olduqca əlverişlidir.[3] Təsadüfi deyil ki, Şamaxını təsvir edən orta əsr müəllifləri burada müxtəlif növ meyvələrin - alma, armud, gavalı, üzüm və s. becərildiyini yazmışlar. Meyvələr həm gündəlik qida kimi, həm də daxili və xarici ticarətdə mühüm yer tutmuşdur.

Əlverişli təbii-coğrafi şərait Şamaxının qədim dövrlərdən məskunlaşmasını şərtləndirmişdir. Bununla belə, şəhər olaraq Şamaxının tarixi haqqında yazılı mənbələrdə müxtəlif fikirlər mövcuddur. Bəzi mənbələrdə o "Kemaxiya" adı ilə Albaniya şəhərləri sırasında xatırlanır[4]. IX əsr müəllifi Bəlazuri də onu bu adla Şirvan əyalətinin bir qəsəbəsi kimi qeyd etmişdir.

**Şəhərin daxili quruluşu və yaşayış evləri.** XIV əsr müəllifi Həmdullah Qəzvini Şamaxının Ənuşiravanın zamanında salındığını yazır.[5] XVII əsrin məşhur türk səyyahı Evliya Çələbi isə Şamaxının sasani Yəzdəgird tərəfindən bina edildiyini bildirir[6]. Bu cür məlumatların sırasını genişləndirmək də olar.

"Şamaxı" oykoniminin mənşəyi və etimologiyası haqqında da fikirlər müxtəlifdir. Y.Həməvi onun ərəb dilində "ucalıq" mənasını verən "şemax" sözündən qaynaqlandığını iddia edir. E.Çələbiyə görə burada ilk məskunlaşan əhali əslən Şam (Dəməşq) şəhərindən olduğuna görə, belə adlanmışdır (Şam+əxi -Şama qardaş olan şəhər). Azərbaycan tarixçisi A.Bakıxanov isə onu alban şəhəri "Kemaxeya" ilə əlaqəli olduğunu yazır. Şəhərin adının qədim Çin mənbələrində rast gəlinən "kimak" adlı qədim türk etnosu ilə bağlı olması barədə də ehtimallar vardır. Fikrimizcə, məhz bu ehtimal da həqiqətə daha yaxındır.[7] Belə ki, tarixi mənbələrdə müxtəlif dövrlərdə Qazaxstandan və Asiya çöllərindən Dərbənd keçidi vasitəsilə Azərbaycan ərazisinə çox sayda türk mənşəli etnoslar axın etmişlər ki, onlardan biri də kimaklar olmuşdur. Onların məskunlaşdığı ərazinin "Kemaxeya" adlanması bu baxımdan məntiqə uyğun görünür. Orta və Kiçik Asiyada, eləcə də Qazaxstan ərazisində bu günə qədər "Şamaxı", "Şemokey", "Şamak" kimi toponim və etnonimlərin mövcudluğu da bu qənaətə gəlməyə imkan verir.[8] Ərəb tarixçiləri isə şəhəri öz dillərinin qrammatikasına uyğun olaraq "Əş-şemaxiya" kimi adlandırmışlar.

Bir çox Orta əsr Şərq şəhərləri kimi, Şamaxı şəhəri də struktur etibarilə məhəllələrə bölünmüşdür. Məhəllə adları yerindən, əhalinin mənşəyindən və başqa faktorlardan asılı olaraq formalaşmışdır. Məlumatlara görə, məhəllələr əsasən Şəhristandan başlanan əsas yolun hər iki tərəfində yerləşmişdir. Onları bir-birindən magistral yol ayırmışdır, hər iki tərəfində ticarət cərgələri

[1] Караулов Н.А. Сведения арабских географов IX-X веков, о Кавказе, Армении и Адербейджане. Ал-Мукаддаси //СМОМПК, вып. 38, Тифлись, издание Управления Кавказского Учебного Округа, 1908 г., с. 8
[2] Джидди Г.А. Средневековый город Шемаха (IX-XVII века), Баку, Элм, 1981, с. 20
[3] Фигуровский И.В. Климатические районозированию Азербайджанской ССР, т.1, вып. 1, ч. 2. Баку, 1926, с. 89-102.
[4] Azərbaycanın coğrafi adları: oçerklər (Rəmzi Yüzbaşov, Kamal Əliyev, Şəmsəddin Sədiyev), Bakı, Maarif, 1972, s.86.
[5] Джидди Г.А. Средневековый город Шемаха...с. 21
[6] Челеби Э. Книга путешествия (извлечения из сочинения турецкого путешественника XVII века, вып. 3, М. Наука, 1983, с. 162
[7] Джидди Г.А. Средневековый город Шемаха... с. 21-22
[8] Джидди Г.А. Средневековый город Шемаха...s. 22

və evlərin arxa divarları yerləşmiş magistral yol ayırmışdır. Bu quruluş tədqiqatçıların haqlı olaraq qeyd etdiyi kimi, müharibə vəziyyəti üçün zəruri və məqsədəuyğun idi.[1]

Məhəllələr və evlərarası küçələr darısqal və çoxdöngəli olmuşdur. Orta əsr şəhərləri üçün xarakterik olan belə küçələr küləyin gücünü azaldır, isti yay günlərində isə kölgəlik baxımından əlverişli olurdu. Bundan əlavə, belə bir tikinti üslubu qala divarları ilə yanaşı, əhalinin xarici və daxili düşmənlərdən müdafiəsini də təmin edirdi.[2] Oxşar küçələrə bu günə kimi Şamaxıda rast gəlmək mümkündür.

XVII əsrə qədər Şamaxı şəhərinin məhəllələrinin sayı və adları haqqında hər hansı bir məlumata rast gəlinmir. İlk dəfə olaraq məşhur türk səyyahı Evliya Çələbi XVII əsrdə Şamaxıda 26 məhəllə olduğunu yazmış və həmin məhəllələrdən “Meydan” və “Şapuran” (və ya Şaburan –Şabran - N.C.) məhəllərinin adlarını qeyd etmişdir.[3]

XVIII əsr müəllifi S.M.Qmelinin əsərində Şamaxı şəhərində “İçəriqala”, “Sarı torpaq”, “Qalabazar”, “Cuhudlar”, “İmamlı”, Meydan, “Şapuran”, “Qaladibi” və “Narağac” məhəllələrinin adları çəkilir.[4] Bəzi tədqiqatçılar da “Ərəblər, “Ərdəbilli”, “Kürd”, “Talış”, “Ucarlı”, “Şeyxsəhirli” kimi bəzi məhəllə adları haqqında məlumat vermişlər.[5] Şamaxının yaşlı sakinləri keçmişdə şəhərdə “Qurdlar”, “Padarlar”, “Dərəməhəllə”, “Quşçular”, “Şeyxminaz”, “Şəhidlər” kimi məhəllələrin olduğu haqqında məlumat verdilər. Onların verdikləri məlumatlardan aydın olur ki, adları yuxarıda qeyd olunan “Qalabazar” və “İmamlı” məhəllələri iki hissəsdən ibarət olmaqla, “Yuxarı qalabazar” və “Aşağı qalabazar”a, eləcə də “Yuxarı İmamlı” və “Aşaağı İmamlı”məhəllələrinə bölünmüşlər.[6]

Beləliklə, Şamaxının Evliya Çələbinin “Səyahətnamə”sində xatırlanan 26 məhəlləsindən 23-nü müəyyən etmək mümkün olmuşdur. Qalan üç məhəllənin adları və yerləşdiyi ərazi isə günümüzədək naməlumdur. Lakin ehtimal etmək olar ki, həmin məhəllələrin adları misgərlik, zərgərlik, dəmirçilik və ya dulusçuluq kimi sənətkarlıq sahələri ilə əlaqədar olmuşlar. Çünki əksər Orta əsr Azərbaycan şəhərlərində bu tipli məhəllə adlarına çox rast gəlmək mümkündür. Şamaxının da Orta əsrlər dövrünün ən iri sənətkarlıq mərkəzlərindən biri oduğunu nəzərə alsaq, belə məhəllələrin olması tamamilə real görünür.

Adları qeyd olunan məhəllələrə gəlincə, görkəmli arxeoloq, Şamaxı şəhərinin tanınmış tədqiqatçısı Hüseyn Ciddi onları adlarının əlamətlərinə və ya xüsusiyyətlərinə görə, aşağıdakı şəkildə qruplaşdırmışdır:

1) Adları yerli əlamət və ərazi xüsusiyyətlərini əks etdirən məhəllələr: İçəri qala (adından da göründüyü kimi bu məhəllə narınqalada yerləşmişdir); Qaladibi (yəqin ki, bu məhəllə də narınqalanın yaxınlığında olmuşdur), Aşağı-qalabazar (ikinci qala divarına yaxın olmuşdur), Yuxarı qalabazar (yəqin ki, narınqalaya yaxın ərazidə yerləşmişdir), Meydan (şəhərin şimalındakı meydançaya yaxın olması ehtimal edilir), Sarıtorpaq (hazırda da həmin adı daşıyır və şəhərin cənub-qərb tərəfində yerləşir), Dərəməhəllə, (narınqala ərazisində, şəhərin qərb tərəfindən ayrılan dərəyə yaxın yerdə olduğu güman edilir), Narağac (yerləşdiyi ərazini müəyyən etmək mümkün olmamışdır).

2) Adları etnik mənsubiyyət və ya ad bildirən məhəllələr: Padarlar (şəhərin şimal-qərbində yerləşib), Cuhudlar (şəhərin şimal və şimal-şərqində yerləşib), Qutlar (qədim tayfa adı. Yaşlı nəslin dediyindən məlum olur ki, Narınqalanın şimalında yerləşib), Quşçular (tayfa adı, şəhərin şimal

[1] Джидди Г.А. Средневековый город Шемаха...с.100
[2] Джидди Г.А. Средневековый город Шемаха...100
[3] Челеби Э. Книга путешествия... с. 163.
[4] Гмелин С.Г. Путешествие по России для исследования всех трех царств природы. т. II. СПб, 1785, с. 101-102
[5] Azərbaycanın coğrafi adları...s. 10
[6] Джидди Г.А. Средневековой город Шемаха... s. 100-106.

qurtaracağında yerləşib), Talışlar, Ərəblər (Cümə məscidinə yaxın ərazidə, Zoğalavay çayı sahilində yerləşib), Ərdəbilli (Şaxandan qəbiristanlığına yaxın ərazidə yerləşib), Ucarlı (ehtimal ki, şəhərin cənubunda, qala divarlarının xaricində yerləşib), Kürdlər (şəhərin cənub tərəfində, Sarıtorpaq məhəlləsinin yaxınlığında yerləşib);

3) Adları dini məkan və şəxs adları bildirən məhəllələr: Yuxarı İmamlı (Şəhristanın mərkəzində eyni adlı məscidin xarabalıqları yanında olub), Aşağı İmamlı (Yuxarı İmamlının cənub şərqində, eyni adlı məscidin xarabalıqları yaxınlığında yerləşib), Şəhidlər (Şəhristanın mərkəzi hissəsində yerləşib), Şeyxsehirli və Şeyxminaz (Şəhristanda, eyni adlı pirin yanında yerləşib.[1]

Sənətkarlıq sahələrinin adları ilə bağlı məhəllələrə gəlincə, artıq qeyd etdiyimiz kimi, onların ipəkçilik, misgərlik, zərgərlik və dulusçuluqla bağlı olması daha çox ehtimal edilir. Çünki, Şamaxı Orta əsrlərdən başlayaraq XX əsrin əvvəllərinə qədər təkcə Azərbaycanın deyil, bütün Qafqazın ən iri sənətkarlıq mərkəzlərindən biri olmuşdur.

XVII əsr Hollandiya səyyahı Korneli de Bryuin (1652-1726) Şamaxıda 20 karvansara, bir neçə bazar və küçələr boyu yerləşən çoxlu sənətkar emalatxanalarından bəhs etmişdir.[2] Başqa bir mənbədə də qeyd olunur ki, Şamaxıda sənətkarların cəmləşdiyi əsas mərkəz bazar və karvansaralar idi. XIX əsrin əvvəllərində bu bazar və karvansaralardakı sənətkar emalatxanalarının sayı 500-ə çatırdı.[3]

S.Bronevskinin yazdığına görə, “ticarət və sənətin qədim ruhu Şamaxıda hələ də sönməmişdir”.[4] Başqa bir müəllif - A.Q.Serebrov isə qeyd etmişdir ki, “Şirvanın “hər bir sakini” “fabrikant” və “toxucudur”.[5]

Bu fikirləri Şamaxı şəhərinin mərkəzi hissəsində aparılan arxeoloji qazıntı işləri zamanı əldə edilən artefaktlar da sübut edir. Buradakı 2-cü qazıntı sahəsindən zərgərliyə aid bir sıra istehsal alətləri, o cümlədən qiymətli metalları döymək üçün istifadə olunan kiçik zindan, metal qələm qırıqları, gümüşdən düzəldilmiş sırğa və asmalar aşkar edilmişdir. VII qazıntı sahəsində dəmirçi kürəsi qalıqlarının tapılması və çoxlu dəmir qırıntılarının aşkar olunması isə dəmirçilik sənətkarlığı ilə məşğul olan sənətkarların şəhərin qərb qurtaracağında yerləşdiklərini deməyə imkan verir.

Bundan əlavə, Arxeoloji qazıntıların nəticələri dulusçular məhəlləsinin şəhərin qərb hissəsində - “Sarıtorpaq” məhəlləsinə yaxın ərazidə (Narınqalanın şərq hissəsində) yerləşdiyini göstərir. Burada aşkar olunan dulus kürəsinin qalıqları və əldə olunan saxsı məmulatının çox hissəsini sarımtıl gildən hazırlanmış qabların təşkil etməsi də bunu sübuta yetirir.

Məhəllələrin quruluşuna və strukturuna gəlincə isə, deməliyik ki, Orta əsr Şərq və Azərbaycan şəhərərinin çoxunda hər bir məhəllənin öz məscidi, hamamı və bulağı olmuşdur. Lakin Şamaxının dəfələrlə dağıdıcı müharibələrə məruz qalması, həmçinin tez-tez baş verən güclü zəlzələlərin fəsadları bunu müəyyənləşdirməkdə çətinlik törədir.

1636-cı ildə Şamaxıya gələn alman səyyahı A.Oleari yazır: “...şəhər daş hasarlarla əhatə olunmuşdur. Beş girişi var. Küçələr hər iki hissədə dardır. Evlər alçaq olub, daş, palçıq və torpaq qarışığından tikilmişdir. Şəhərin cənub tərəfində bir neçə örtülü küçədən ibarət böyük bir bazar var və burada hər şey almaq mümkündür. “Hamamşah” adlanan hamamın qarşısında iki böyük ağac

---

[1] Джидди Г.А. Средневековый город Шемаха...с.100-101
[2] Извлечения из путешествия Корнелия ле Брюин. НА ИИ АН Азербайджана. ИНВ. 489, s. 19
[3] Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях, произведенное и изданное по высочайшему соизволению . Санкт-Петербург, тип. Деп. внеш. торг., 1836, ч. 3, 1836, с. 155.
[4] Броневский С.Б. Новейшие географические и исторические известия о Кавказе: Часть II, М.: Издательство: Тип. С. Селивановского, 1823, с.449
[5] Серебров А.Г. Историко-этнографическое описание Дагестана // История, география и этнография Дагестана XVIII – XIX вв. Архивные материалы. М.: Издательство восточной литературы, 1958, с. 179.

diqqəti cəlb edir və buranın adamları o ağacları müqəddəs hesab edirlər. Deyilənə görə onlar Şeyx Murad adlı bir müqəddəsin xatirəsinə əkilib, məzarı isə hamamın yanındakı məsciddədir. Belə məscidlərin sayı şəhərdə altıdır.[1]

A.Olearidən cəmi 7 il sonra - 1643-cü ildə Şamaxıya gələn Evliya Çələbinin verdiyi məlumat bir qədər fəqrlidir. O, qeyd edir ki, Şamaxıda 70 məscid və ibadət yeri, o cümlədən 40 mədrəsə vardır.[2]

Bu məlumatlardan hansının həqiqətə uyğun olduğunu anlamaq bir qədər çətindir. Lakin E.Çələbi Şamaxıda 26 məhəllənin olduğunu yazmışdırsa, deməli şəhərdə təxminən bir o qədər, yəni 26 məscid olmuşdur. Onun göstərdiyi “70 məscid” məlumatına gəlincə, görünür səyyah bunu yazarkən digər müqəddəs məkanları və ibadət yerlərini-pirləri, ocaqları və mədrəsələri də məscidlərin siyahısına əlavə etmişdir.

Yeri gəlmişkən qeyd edək ki, Şamaxının bəzi məhəllələrinin yerini müəyyənləşdirmək üçün vacib olan aşağıdakı qədim məscidlərin xarabalıqlarını müəyyənləşdirmək mümkün olmuşdur.

Onlardan biri də Babasəngər məscididir. H.Ciddinin yazdığına görə, “Babasəngər məscidi” Şamaxı Cümə məscidinin şərqində - əsas yolun üzərində yerləşmişdir. Əhali arasında geniş yaylmış bir rəvayətdə deyilir ki, “Babasəngər” Azərbaycanın Ərəb xilafətinin tərkibində olduğu dövrdə Şamaxıya gəlmiş bir dəmirçinin adı olmuşdur. Məscidin təməlini də o, qoymuşdur. Məscidin həyətində - dörd tərəfdən divarla əhatələnmiş qəbrin yaxınlığında “Babasəngər” ziyarətgahının olduğu da güman edilir. Rəvayətə görə, qəbrin üstündə, ərəbcə yazısı və dəmirçi alətlərinin təsviri olan böyük bir daş da olmuşdur.[3]

“Aşağı qala” adlı məscid isə Şamaxı Cümə məscidinin qərb hissəsində yerləşmişdir. Məscidin daxilində mehrabın yonulmuş daşları indiyədək toxunulmaz qalmışdır. Məscid 1902-ci ildə baş verən zəlzələ nəticəsində dağılmış və bir daha bərpa olunmamışdır.[4]

“Yuxarı qala” məscidi Narınqalanın şərq hissəsində - ovdanın yaxınlığında yerləşmişdir[5]. “Yuxarı İmamlı” məscidinin xarabalıqları isə şəhərin eyniadlı məhəlləsində aşkar edilmişdir. Divarların aşağı hissəsinin qalıqlarından belə qənaətə gəlmək olur ki, məscid yaxşı yonulmuş daşlardan tikilmiş və dördbucaqlı plan formasında olmuşdur. Hazırda məscidin cənub divarları yaxınlığında “İmamlı piri” yerləşir. Burada mövcud olmuş bulaq isə çox güman ki, məscidi və ziyarətgahı su ilə təmin edirmiş.

“Yuxarı İmamlı” məscidindən bir qədər aşağıda və onun şərq hissəsində “Aşağı İmamlı” məscidi olmuşdur. Məscid dördbucaqlı plan quruluşuna malik olmaqla yonulmuş daşlardan tikilmişdir. Məscidin yaxınlığında qədim ziyarətgahın xarabalıqları vardır və ətrafına qəbir daşlarının parçaları səpələnmişdir.[6]

Arxeoloji qazıntılar zamanı şəhərin cənub-qərb hissəsində, eyniadlı köhnə məhəllə ərazisində yerləşmiş “Sarıtorpaq məscidi”nin qalıqları aşkar edilmişdir. Məscidin quruluşuna görə, ehtimal etmək olar ki, onun bir hissəsi kişilər, bir hissəsi isə qadınlar üçün nəzərdə tutulmuşdur.[7]

Göründüyü kimi, Babasəngər məscidindən başqa digər məscidlərin adları onların yerləşdiyi məhəllələrin adları ilə demək olar ki, üst-üstə düşür. Bundan əlavə, E.Çələbi “Səyahətnamə”sində,

---

[1] Олеарий А. Описания путещесттвия в Московию и…s. 462-464-
[2] Челеби Э. Книга путешествия... с. 297
[3] Джидди Г.А. Средневековой город Шемаха…с. 101
[4] Джидди Г.А. Средневековой город Шемаха…с. 101
[5] Джидди Г.А. Средневековой город Шемаха…с. 101
[6] Джидди Г.А. Средневековой город Шемаха…с. 101-102
[7] Джидди Г.А. Средневековой город Шемаха…с. 102

"Qəbir Cami" Cümə məscidi, "Fərhad paşa" Cümə məscidi, "Özdəmirzadə" məscidi və mədrəsəsinin adını da çəkir.[1]

Şəhər su ilə əsasən təbii mənbələr – bulaqlar vasitəsi ilə təhciz edilmişdir. Bununla yanaşı quyulardan da istifadə edilmişdir. Şəhərin ərazisində aparılan arxeoloji qazıntılar zamanı bəzi mədəni təbəqələrdən çoxsaylı saxsı borularının qalıqları tapılmışdır ki, bu da yaxın ərazilərdən oraya su xətləri çəkildiyinə dəlalət edir. Sonrakı dövrlərdə su təhcizatını yaxşılaşdırmaq üçün ovdanlardan və kəhrizlərdən də istifadə olunmuşdur. İçməli suyu qoruyub saxlamaq üçün şəhərin şərq hisəsində iki hovuz tikilmişdir. Hazırda onların hər ikisi məişət tullantıları ilə dolmuşdur. F.Kotovun yazdığına görə, "şəhərə su təxminən 20 verstlik məsafədəki dağlardan, yerin altı ilə çəkilmiş daş sütunlardan axır".[2]

Orta əsr şəhər məhəllələrinin əsas atributlarından biri də hamamlar olmuşdur. Alman səyyahı A.Oleari yazır ki, "şəhərdə üç hamam var. Adamlar demək olar ki, hər gün bu hamamlara baş çəkirlər. Hamamlardan ikisi gündüzlər qadınlara, axşamlar isə kişilərə xidmət edir. Qəsrin yaxınlığında yerləşən "Hamam şah" (Şah hamamı) isə ancaq kişilər üçün nəzərdə tutulmuşdur.[3]

Evliya Çələbi isə Şamaxıda 7 hamamın olduğunu yazır və qeyd edir ki, onların ən yaxşısı *"öz suyu və havası ilə məşhur olan Şabudi hamamıdır. Burada çox sayda otaqlar, hovuzlar və divarlara bərkidilmiş isti və soyuq su kasaları vardır. Qalanın xaricində Meydan hamamı, "Qazax hamamı", "Fərəc xan hamamı" və qala divarlarının yanında gözəl "Həsən xan hamamı" vardır. Bunlardan əlavə, bağların hamısında hamam hovuz vardır".*[4]

XIX əsrin mənbəsi olan "Qafqaz təqvimi"nin 1849-cu il buraxılışında Şamaxıda 16 hamamın olduğu bildirilir[5]. Şamaxıda həmçinin 40-a qədər məktəb və daşdan tikilmiş 44 karvansarayının olması haqqında da məlumatlar vardır.[6]

Qədim Şamaxı evlərinin demək olar ki, hamısı müharibələr və zəlzələlər zamanı dağılıb sıradan çıxdığı üçün onların formalarını, daxili səliqə-sahmanını tam olaraq müəyyənləşdirmək mümkün deyildir. Yazılı mənbələrdə rast gəlinən məlumatlar isə səthi və epizodikdir. Həmin məlumatlarda yalnız bu evlərin çoxunun birmərtəbəli olması, palçıq və çay daşları ilə tikildiyi xəbər verilir. Məsələn, E.Çələbinin yazdığına görə, "şəhərdə 7 minə qədər, palçıqla suvanmış yastı damlı abad ev vardır. Hər evin qarşısından su axır. Bağ və üzümlükləri isə saymaqla bitməz"[7].

XIX əsrdə Qafqaz canişinliyi tərəfindən nəşr edilən "Qafqaz təqvimi"ndə qeyd olunur ki, "*Şamaxıda çoxlu gözəl tikililər var. Evlərin demək olar ki, hamısı daşdan tikilib və əsasən yastı damlı evlərdir. Evlərin sayı təxminən 3213-dür...*"[8].

**Nəticə.** Beləliklə, əlverişli coğrafi mövqedə və magistral ticarət yollarının üzərində yerləşməsi tarixən Şamaxının hərtərəfli inkişafına təkan vermişdir. Xüsusilə xalq sənətkarlığının ayrı-ayrı sahələrinin fasiləsiz inkişafı və zaman-zaman şəhər əhalisinin əsas məşğuliyyətlərindən birini təşkil etməsi, burada struktur baxımından evlərin, ayrı-ayrı məhəllələrin və bütövlükdə şəhərin özünün memarlıq quruluşunun formalaşmasına ciddi təsir göstərmişdir. Müxtəlif illərdə şəhərin ayrı-ayrı hissələrində aparılan arxeoloji və etnoqrafik tədqiqatların nəticələri də bunu təsdiqləyir. Həmin nəticələr isə Şamaxının tarixən məhəlləli plan üzrə yaranan və tədricən inkişaf edən tipik bir Şərq və türk şəhəri olduğunu sübut edir.

---

[1] Челеби Э. Книга путеществия...с. 163-164
[2] Хождение купца Федота Котова в Персию. М.: Издательство Восточной Литературы, 1958, с. 35, 72
[3] Олеарий А. Описания путешесттвия в Московию и…с. 462
[4] Челеби Э. Книга путешествия...с. 164
[5] Кавказский календарь на 1850 год, Тифлис: Гл. упр. Кавказ. Наместника. 1849, с. 92-94
[6] Челеби Э. Книга путешествия...с. 164
[7] Челеби Э. Книга путешествия…с. 163.
[8] Кавказский календарь на 1850 год…с.92-94.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT- REFERENCES

1. **Azərbaycanın coğrafi adları: oçerklər** (Rəmzi Yüzbaşov, Kamal Əliyev, Şəmsəddin Sədiyev), Bakı, Maarif, 1972, 99 s.
2. Броневский С.Б. **Новейшие географические и исторические известия о Кавказе:** Часть II, М.: Издательство: Тип. С.Селивановского, 1823, 485 с.
3. Гмелин С.Г. **Путешествие по России для исследования всех трех царств природы.** т. II. СПб, 1785, 382 s.
4. Джидди Г.А. **Средневековый город Шемаха (IX-XVII века).** Баку, Элм, 1981, 174 с.
5. **Извлечения из путешествия Корнелия ле Брюин**. НА ИИ АН Азербайджана, ИНВ. № 489.
6. **Кавказский календарь на 1850 год, Тифлис, Гл. упр. Кавказ. Наместника, 1849**, 403 с.
7. Караулов Н.А. **Сведения арабских географов IX-X веков о Кавказе, Армении и Адербейджане. Ал-Мукаддаси** //СМОМПК, вып 38, Тифлись, издание управления Кавказского учебного округа, 1908 г. с. 1-130
8. **Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях, произведенное и изданное по высочайшему соизволению** (ОРВЗК). Санкт-Петербург, тип. Деп. внеш. торг., 1836, ч. 3, 392 с.
9. Олеарий А. **Описания путешесттвия в Московию и через Московию в Персию и обратно.** С.-Петербург, Изд. А.С.Суровина, 1906, 582 с.
10. Серебров А.Г. **Историко-этнографическое описание Дагестана //История, география и этнография Дагестана XVIII – XIX вв**. Архивные материалы. М.: Издательство восточной литературы, 1958, с. 173 -196
11. Фигуровский И.В. **Климатические районозированию Азербайджанской ССР**, т.1, вып. 1, ч. 2, Баку, 1926, 196 с.
12. Челеби Э. **Книга путешествия (извлечения из сочинения турецкого путешественника XVII века, вып. 3,** М.: Наука, 1983, 375 с.
13. **Хождение купца Федота Котова в Персию**. М.: Издательство Восточной Литературы, 1958, 109с.

MÜƏLLİF HAQQINDA MƏLUMAT

Nailə Ciddi - tarix üzrə fəlsəfə doktoru,
dosent, aparıcı elmi işçi, AMEA A.A.Bakıxanov
adına Tarix və Etnologiya İnstitutu,
Azərbaycan, Bakı.

INFORMATION ABOUT THE AUTHOR

Nailə Ciddi - Doctor of Philosophy, Associate Professor,
Leading Researcher,employee ANAS, Institute of History
and Ethnology named after A.A. Bakikhanov,
Azerbaijan, Baku

MÜASİR TARİX - MODERN HISTORY - СОВРЕМЕННАЯ ИСТОРИЯ

# AZƏRBAYCANIN 27 APREL İŞĞALINI ASANLAŞDIRAN BƏZİ AMİLLƏR HAQQINDA
(2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransda edilmiş məruzə)

TOFİQ MUSTAFAZADƏ
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu.*
*ORCİD: https://orcid.org/0000-0001-7108-6348; tofig2014@rambler.ru*

***Xülasə:*** Məlumdur ki, 1918-ci il mayın 28-də elan olunmuş Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq ictimaiyyət tərəfindən de-fakto ( qismən də de-yure ) tanınmasına baxmayaraq, cəmi 23 a sonra-1920-ci il aprelin 27-də Sovet Rusiyası tərəfindən işğal edilmişdir. Məqalədə bu işğalı asanlaşdıran amillər təhlil olunur. Göstərilir ki, belə amillərdən biri Sovet Rusiyasının Azərbaycandakı beşinci kolonun-bolşeviklərin, Azərbaycanda yaşayan azsaylı rusların fəallaşması olmuşdur. Digər mühüm amil isə ermənilərin Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasəti və Qarabağın dağlıq hissəsində ermənilərin qiyamı olmuşdur.

***Açar sözlər:*** Azərbaycan Xalq Cümhuriyyəti, Sovet Rusiyası, 27 aprel, işğal, Qarabağ.

# SOME FACTORS CAUSING THE APRIL 27 OUTRAGE IN AZERBAIJAN

TOFİG MUSTAFAZADEH
*Institute of History and Ethnology named after A.A. Bakikhanov, ANAS*
*ORCİD: https://orcid.org/0000-0001-7108-6348; tofig2014@rambler.ru*

***Summary:*** It is known that the Azerbaijan Democratic Republic, proclaimed on May 28, 1918, was occupied by Soviet Russia only 23 years later, on April 27, 1920, despite its de facto (and partly de jure) recognition by the international community. The article analyzes the factors that facilitate this occupation. It is shown that one of such factors was the activation of the fifth column of Soviet Russia in Azerbaijan, the Bolsheviks, the few Russians living in Azerbaijan. Another important factor was the policy of aggression carried out by Armenians against Azerbaijan and the uprising of Armenians in the mountainous part of Karabakh.

***Keywords:*** Azerbaijan Democratic Republic, Soviet Russia, April 27, occupation, Karabakh

**Giriş.** Məlumdur ki, 1918-ci il mayın 28-də öz müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti həm daxili, həm də xarici siyasətdə çox mühüm uğurlar qazanmışdı. Təəssüflər olsun ki, 1920-ci il aprelin 27-də Sovet Rusiyasının11-ci Qırmızı Ordusu beynəlxalq aləm tərəfindən de-fakto tanınan Cümhuriyyətimizin ərazisini işğal edərək onu süquta uğratmışdır.

Cümhuriyyətin süqutunu asanlaşdıran bir sıra daxili və xarici amillər olmuşdur. Bu məqalədə biz Azərbaycanın 27 apreldə işğalını asanlaşdıran xarici amillər haqqında bəhs edəcəyik. Məlumdur ki, 1918-cu ilin sonunda Denikin ordusunu təqib edən bolşeviklər cənuba doğru hərəkət edirdilər. 1920-i il yanvarın 2-də RSFSR xarici işlər naziri G.Çiçerin Azərbaycan və Gürcüstan hökumətlərinə nota ilə müraciət edərək Könüllü Orduya qarşı birgə mübarizə aparmaq üçün saziş təklif etdi.[1] Lakin Ermənistanın Azərbaycana qarşı qəsbkarlıq hərəkətləri davam etdiyi bir vaxtda Azərbaycan denikinçilərə qarşı mübarizəyə qoşulub iki cəbhədə mübarizə apara bilməzdi. Xarici işlər naziri Fətəli xan Xoyskinin yanvarın 14-də göndərdiyi cavab notasında deyilirdi ki, Azərbaycan

[1] .Həsənov Cəmil. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər).Bakı: Azərnəşr,1993,s.314.

hökuməti sovet Rusiyası ilə mehriban qonşuluq münasibətləri yaratmaq üçün danışıqlara başlamağa hazırdır, lakin Rusiyanın daxili işi olan vətəndaş müharibəsinə qarışmaq fikrində deyil.[1]

Sovet Rusiyasının gözlənilən hücumuna qarşı dura bilmək üçün Azərbaycan Böyük Britaniya hökumətinə yardım üçün müraciət etmişdir. 1920-ci il yanvarın 7-də AXC-nin Xarici İşlər Naziri Q.Çiçernin 2 yanvar 1920-ci il tarixli teleqramını göstərərək demişdir ki, onun hökuməti möhkəm antibolşevik mövqedə dayansa da əgər Britaniya hökuməti yardıma gəlməsə, bolşeviklərlə sazişə girməyə məcbur olacaq. Azərbaycanı müdafiə etməklə ingilislər regiondakı maraqlarını qorumuş olacaqlar. Tezliklə «Könüllü Ordu» dağılacaq və Rusiyanın İrana gedən yolunun üstündə qalan maneə Azərbaycan olacaq. İngilis kabineti Azərbaycanı bolşevizmdən xilas etmək istəyirsə dərhal Azərbaycana yardım haqqında qərar qəbul etməlidir.[2]

Stoks F.X.Xoyskinin təklifi ilə razılaşaraq Londona yazırdı ki, əgər biz istəmiriksə bolşeviklər Azərbaycana soxulsunlar ən tez zamanda bu ölkəyə kömək haqqında qərar qəbul etməliyik.[3] Qafqazda bolşevik təhlükəsi ilə bağlı yaranmış vəziyyət Antanta ölkələrini əməli addımlar atmağa vadar etdi. Avropa siyasətçilərinin çoxu bu fikirdə idi ki, Azərbaycan və Gürcüstanın müdafiəsini möhkəmləndirmək lazımdır ki, onlar sovet hücumuna qarşı dura bilsinlər. Müstəqilliyi tanınmayan dövlətlərə yardım göstərmək isə beynəlxalq münasibətlər baxımından ciddi çətinliklərlə qarşılaşırdı. Buna görə də Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması təxirəsalınmaz bir vəzifə kimi qarşıya çıxdı. 1920-ci il yanvarın 10-da İngiltərənin təşəbbüsü ilə çağırılan Paris sülh konfransı Ali Şurasının sessiyasında Qafqaz respublikalarının vəziyyəti ətraflı müzakirə edildi.

Qərar qəbul olundu ki, müttəfiq dövlətlər Gürcüstan və Azərbaycanın müstəqilliyini tanıyırlar (ABŞ və Yaponiya nümayəndələri, bu halda hökumətlərinin təlimatını aldıqdan sonra qərara münasibətlərini bildirəcəkdilər). Qərara görə Azərbaycan və Gürcüstanın Ermənistanla sərhədləri sonralar müəyyənləşdiriləcəkdi.[4]

Yanvarın 15-də Fransa xarici işlər nazirliyinin baş katibi Jül Kambon Azərbaycanın de-fakto tanınması haqqında Ali Şuranın və birlik ölkələrinin rəsmi qərarını Ə.M.Topçubaşova təqdim etdi.[5] Kambon bildirdi ki, Azərbaycan və Gürcüstan zəruri məsələlərlə bağlı Sülh konfransına rəsmən müraciət edə bilər. Cavab nitqində Ə.M.Topçubaşov təşəkkürünü bildirməklə yanaşı qeyd etdi ki, Azərbaycan Respublikası böyük dövlətlərdən yardım və müstəqilliyinin de-jure tanınmasını gözləyir.[6]

Yanvarın 19-da hökumət başçılarının iştirakı ilə keçirilən Paris Sülh konfransının Ali Şurasının iclasında Qafqaz respublikaları məsələsi müzakirə olundu və Azərbaycan nümayəndə heyəti də həmin iclasda iştirak etdi. Müttəfiqlərin hərbi ekspertlər şurasının adından çıxış edən marşal Ferdinand Foş Qafqaza bir neçə diviziya göndərilməsinin zəruriliyini qeyd etdi. Klemanso və Çorçill də bu təklifə tərəfdar çıxdılar. L.Corc və İtaliya baş naziri Nitti isə yalnız silah, hərbi sursat göndərilməsinə tərəfdar çıxdılar. L.Corcun təklifi qəbul olundu.[7]

Beləliklə, Ə.M.Topçubaşovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyətinin gərgin fəaliyyəti nəticəsində 1920-ci ilin yanvarında Paris Sülh konfransı Azərbaycanın müstəqilliyini de-

---

[1] Yenə orada. s. 314-317.
[2] Топчубаши Алимардан бей. Парижский архив. 1919-1940.В четырех книгах.Книга первая.1919-1921 (Составители Алирия и Рамиз Абуталыбов.). Москва:2016, сс.77-78.
[3] Yenə orada, s. 78.
[4] Yenə orada, s. 81.
[5] C.Həsənov. Göst. əsəri. s. 321.
[6] C.Həsənov. Göst. əsəri. S. 314.
[7] Yenə orada, s. 323; Топчибаши А. Göst. əsəri, s. 104-110.

fakto tanıdı. Bu böyük tarixi hadisə idi və ölkəmizdə böyük coşğu ilə qarşılandı. Yanvarın 14-də bu münasibətlə Bakıda və Gəncədə bayram şənlikləri keçirildi.[1]

1920-ci ilin əvvəllərində Azərbaycan artıq geniş miqyaslı dövlətlərarası siyasi və iqtisadi münasibətlərə daxil olurdu. Qonşu dövlətlərdən Gürcüstan və İranla hərtərəfli əməkdaşlığın qurulmasına başlanmışdı. Martın 20-də İranla gömrük, ticarət sazişləri, teleqraf əlaqələri haqqında sazişlər bağlandı. İran Azərbaycan Cümhuriyyətinin müstəqilliyini de-yure tanıyırdı. Tehranda Azərbaycan səfirliyi, Təbrizdə baş konsulluq, Rəştdə konsulluq, Məşhəddə vitse-konsulluq, Xoy və Əhərdə konsulluq agentlikləri yaradıldı. Ənzəlidə Azərbaycan konsulluğu hələ fevral ayından fəaliyyət göstərirdi.[2]

Azərbaycan Cümhuriyyəti Gürcüstan, Ermənistan və İranla rəsmi diplomatik əlaqələr saxlayırdı. Azərbaycanda İngiltərənin vitse-konsulu, Belçikanın konsulu, Yunanıstanın, Danimarkanın və İtaliyanın konsulları, Litvanın vitse-konsulu, Finlandiyanın, Fransanın konsul-agentləri, İsveçin və İsveçrənin konsulları fəaliyyət göstərirdi.[3] Göründüyü kimi, 1920-ci ilin aprelinə Azərbaycanın beynəlxalq aləmdən təcrid edilməsi artıq aradan qaldırılmış və onun diplomatik cəhətdən tanınması dövrü başlamışdı.

Lakin elə bu zaman Azərbaycana qarşı şimaldan – Sovet Rusiyası tərəfindən təhlükə güclənirdi. Yanvarın 23-də RSFSR Xarici İşlər Naziri G.V.Çiçerin Azərbaycana ikinci, həm də daha təcavüzkar səciyyəli nota verdi. Çiçerin Azərbaycanı Denikinə qarşı mübarizəyə qoşulmamağa görə məzəmmət edirdi.[4] Denikinə qarşı mübarizədən imtina olunmasını bəhanə edən Rusiya Azərbaycana təzyiqi gücləndirirdi. Denikini darmadağın edəndən sonra Sovet Rusiyası hökuməti Bakı neftinə yiyələnməyi əsas məqsədlərdən biri kimi qarşısına qoymuşdu. V.Lenin martın 17-də Qafqaz cəbhəsinin hərbi inqilab şurasına göndərdiyi teleqramda deyilirdi: «Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səyinizi buna yönəldin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli Sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır… Qüvvələr yeridilməsi barədə baş komandanla şərtləşin».[5]

Göründüyü kimi hərbi qüvvədən istifadə ilə yanaşı Azərbaycanı daxildən də zəiflətmək nəzərdə tutulurdu. Mayın ortalarında Qarabağda erməni qiyamının başlaması bu məqsədə xidmət edirdi.

Bu zaman həm də Azərbaycan iqtisadiyyatı böhranlı vəziyyətdə idi. Britaniya hərbi qüvvələrinin Azərbaycanda yerləşməsi ölkə iqtisadiyyatına mənfi təsir göstərirdi. Azərbaycan iqtisadiyyatının vəziyyəti ilk növbədə neft sənayesinin vəziyyətindən asılı idi. Britaniya komandanlığı neft ixracını ciddi məhdudlaşdırmışdı. Azərbaycan Respublikası Sovet Rusiyası ilə müharibə vəziyyətində olmasa da ingilislər Rusiyaya neft ixracına imkan vermirdilər. Neft anbarları dolmuşdu. Neft sənayeçiləri nefti doldurmağa yer tapmadığından gəmilərə yükləyirdilər və bu zaman aya 5% icarə haqqı ödəyirdilər. Beləliklə də, il ərzində neftin saxlanması üçün onun dəyərinin yarısını xərcləmək lazım gəlirdi.[6]

Azərbaycanın Xarici işlər naziri M.Y.Cəfərov Britaniya Ali Komissarına 15 noyabr 1919-cu ildə yazırdı ki, Azərbaycan və Gürcüstan ərazisində müttəfiq qoşunları olarkən ingilis komandanlığının tələbi ilə ilə Bakı-Batum neft kəməri, demək olar ki, ancaq bu komandanlığa işləyirdi, yollarda olan sisternlərin çoxu da bu komandanlığa işləyirdi. İngilis qoşunları Cənubi Qafqazı tərk etdikdən sonra Azərbaycan hökuməti öz maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün boru

[1] C.Həsənov. Göst. əsəri. s. 327.
[2] Yenə orada, s. 335.
[3] Yenə orada, s. 348.
[4] Yenə orada, s. 354.
[5] V.İ.Lenin. Azərbaycan haqqında ( Tərtib edəni C.B.Quliyev). Bakı:Azərnəşr,1970 s. 164.
[6] Юсифзаде С. Азербайджано-Британские отношения. Баку: 2008, сс. 74-75.

kəməri ilə neft icrasını davam etdirirdi. Lakin, gözlənilmədən oktyabr ayında general Blef tələb etdi ki, ingilis komandanlığının ehtiyacı üçün Bakıda hər gün 30 sistern neft məhsulları ayrılsın, neft kəməri vasitəsilə isə 750 min pud kerosin nəql edilsin. Yeri gəlmişkən gündə Bakıda 40-45 sisterni güc-bəla ilə doldurmaq mümkündür, deməli, Azərbaycan və Gürcüstanın dəmir yollarının, hökumətlərinin, neft sənayeçilərinin ehtiyacını ödəmək mümkün olmayacaq. Azərbaycan hökuməti ingilis komandanlığı üçün gündəlik 30 sistern ayırmağa razılaşmadı. Ancaq bir neçə gün sonra neftin kəmərlə nəqli dayandırılmışdı.[1]

İngilislər Batumdakı neft və kerosin saxlanclarının demək olar ki, tamamilə əllərinə alaraq, onlara gömrük qoymuşdular.[2]

Xarici təhlükənin güclənməsi fonunda Azərbaycanda hökumət böhranı da ölkədə böhranın dərinləşməsinə təsir göstərdi. Martda Azərbaycan hökumətində və parlamentdə ixtilaf yaranmışdı. Xarici işlər naziri F.X.Xoyskinin başçılıq etdiyi qrup Sovet Rusiyasına müqavimət tərəfdarı M.Hacınsrinin başçılıq etdiyi bolşeviklərlə kompromis tərəfdarı idi. Aprelin əvvəlində hökumət böhranı baş verdikdə yeni hökumətin təşkili M.Hacınskiyə tapşırıldı. O, müxtəlif bəhanələrlə hökumətin təşkilini yubadır, bolşevikləri olmağa çağırırdı. Bolşeviklər isə son anda hökumətin tərkibinə daxil olmaqdan imtina etdilər.[3]

Qarabağda və Ermənistanla sərhəd rayonlarında hərbi əməliyyatlar davam etdiyi üçün Azərbaycan ordusunu şimal sərhədlərinə yönəltmək mümkün deyildi. Eyni zamanda 1920-ci ilin fevralında Azərbaycan Kommunist (bolşeviklər) partiyası təşkil edildikdən sonra ölkə daxilində bolşeviklərin təxribatçılıq fəaliyyəti güclənmişdi. XI Qırmızı Ordu Azərbaycan sərhədinə yaxınlaşdığı bir vaxtda ermənilər açıq təxribat törətdilər. 1920-ci il martın 22-dən 23-nə keçən gecə Ermənistan hökumətinin təhriki və yardımı ilə Dağlıq Qarabağda böyük qiyam qaldırıldı və qəflətən Şuşada, Xankəndində, bir sıra digər yaşayış məntəqələrində yerləşən Azərbaycan qoşun hissələrinə basqın edildi. Tezliklə İrəvandan Dro və Qafandan Njde öz qoşun hissələri ilə qiyamçıların yardımına gəldilər.[4]

Lakin Azərbaycan Milli Ordusunun əsgərləri qəhrəmanlıqla müqavimət göstərdilər. Qiyam başlayandan bir gün sonra Azərbaycan əsgərləri Şuşanı erməni silahlılarından təmizlədilər. Ermənilərin Xankəndindəki Azərbaycan hərbi hissəsinə hücumu da dəf edildi. Ancaq ermənilər Əsgəranı ələ keçirə bildilər.[5]

Qeyd edək ki, Azərbaycan Cümhuriyyətinin işğalını asanlaşdırmaq üçün Moskva "Türkiyə kartı"ndan da məharətlə istifadə etmişdir. Məlumdur ki,Anyanta işğalşılarına qarşı mübarizədə Ankara hökuməti Sovet Rusiyasından yardım almaq istəyirdi. İngilislər isə bu yardımın qarşısını almaq üçün Cənubi Qafqaz cümhuriyyətlərindən bolşevik Rusiyası ilə kamalçı Türkiyə arasında kordon kimi istifadə etməyə çalışırdılar.

Mustafa Kamal paşa Kazım Qarabəkir paşaya 6 fevral 1920-ci il tarixli şifrəli teleqrqmında belə bir səddin Türkiyəni məhv etməyə yönəlmiş bir plan olduğunu və buna qarşı kəskin tədbirlər görməyin zəruriliyini vurğulamışdı. Mustafa Kamal göstəriş vermişdi: "Şərq cəbhəsində rəsmi və ya qeyri-rəsmi formada səfərbər olunaraq "Qafqaz səddi"nin dağıdılmasına arxadan başlayın, təcili olaraq yeni Qafqaz hökumətləri, xüsusən də Azərbaycan və Dağıstan müsəlman hökumətləri ilə əlaqələr qurun, onların Antanta planına münasibətini öyrənin. Əgər Qafqaz xalqları bizə mane

[1] Юсифзаде С. Göst. əsəri, s. 76-77.
[2] Yenə orada, s. 78.
[3] C.Həsənov. Göst. əsəri. S. 358.
[4] Köçərli T. Erməni saxtakarlığı. Bakı: Elm və Təhsil, 2014, s. 59.
[5] Юсифзаде С. Азербайджанско-Британские отношения.Баку: 2008, сс.74-75.

olmaq qərarına gəlsələr , onlara bolşeviklərlə birgə hücum etməyə razılaşın...”.[1]

Türkiyə Millət Məclisi Şərq Ordusunun komandanı Kazım Qarabəkir paşa 1920-ci il martın 17-də Xəlil paşa və Nuru paşaya yazdığı məktubunda qeyd etmişdi ki, bolşeviklərin Türkiyə sərhədləri yaxınlığında görünməsi üçün bolşeviklərin, hətta onların kiçik qüvvələrinin Azərbaycana gələrək dərhal bütün Qafqazı zəbt etməsi lazımdır. Onlar azərbaycanlılarla birlikdə Türkiyə sərhəddinə çataraq Türkiyənin maraqlarının lehinə oynayacaqlar. Azərbaycanda, Dağıstanda və Cürcüstanda bolşeviklərin hakimiyyətə gəlməsini təmn etmək çox faydalı olardı”.[2] Azərbaycanda olan Türkiyə kommunistləri və ittihadçıları xalq arasındakı populyarlıqlarından istifadə edərək, Qırmızı Ordunun gələcək yürüşü xeyrinə daxil olsun deyə təbliğat aparırdılar. 1919-cu ilin sonundan 1920-ci ilin əvvəlinədək Lənkəran qarnizonunun əsas hissəsini təşkil edən Şirvan alayının zabiti Hulusi Məmmədzadə əsgərlər arasında sovet hakimiyyəti lehinə təbliğat aparırdı.[3]

TBBM-in sədri Mustafa Kamal paşanın RSFSR hökumətinə ünvanladığı 26 aprel 1920-ci il tarixli məktubda qeyd edilirdi ki, Türkiyə bütün məzlumları azad etmək üçün Sovet Rusiyası ilə birlikdə imperialist hökumətlərə qarşı mübarizə aparmağı, sovet dövlətləri dairəsinə daxil olsun deyə Azərbaycan Cümhuriyyətinə təsir göstərməyi öhdəsinə götürür. Qafqazda imperialistlərə qaşı mübarizədə iştirak etməyə hazır olduğunu bildirir və Türkiyəyə hücum edən imperialist düşmənlərə qarşı mübarizədə Sovet Rusiyasının köməyinə ümid etdiyini bildirir.”[4]

Hələ 1919-cu ilin noyabrında Azərbaycanda olan türk zabitləri toplantı keçirərək “ Müsavat hökumətinə qarşı mübarizədə” Kommunist partiyasına bütün gücləri ilə dəstək verəcəklərini vəd etmişdilər.[5]

Guya Qırmızı Ordu kamalçılara köməyə tələsir, ingilispərəst Azərbaycan hökuməti isə onu öz ərazisindən buraxmır. 1919-cu ilin noyabrında RK(b)P Qafqaz Diyar Komitəsi ilə «Qarakol» İnqilabi təşkilatının nümayəndəsi Bəha Səid arasında bağlanmış müqaviləyə görə Sovet Rusiyası lazımi qədər pul və silah verəcək, «Qarakol» isə Şərq ölkələrində ingilislərə qarşı mübarizə aparacaq, yerli kommunist təşkilatlarına yardım edəcəkdi.

Sovet Rusiyası rəhbərləri Azərbaycan Cümhuriyyətinin ərazisinin işğalını asanlaşdırmaqdan ötrü «türk kartı»ndan da istifadə etdilər. Belə bir şüar ortaya atıldı ki, guya XI Ordu Azərbaycanı keçməklə inqilabi Türkiyəyə getmək istəyir, ingilispərəst Azərbaycan hökuməti isə buna mane olur. Azərbaycanlıların müqavimətini azaltmaq üçün orduya Xəlil paşanın başçılıq edəcəyi bildirildi.[6] Xəlil paşanın başçılıq etdiyi bir qrup türk zabiti Qırmızı Ordunun yürüşündə iştirak etmişdi. Onlar əhali arasında təbliğat aparır, əhalini Qızıl Orduya müqavimət göstərməməyə çağırırdılar.[7]

Məhəmməd Əmin Rəsulzadə bolşeviklərin yalanlarını ifşa edərək yazırdı: “Bakıda fəaliyyət göstərən Osmanlı trklərindən bəziləri bilmədən insanları bu sözlərlə yoldan çıxarırlar:” Yaxınlaşan Qızıl Orduya Nicat bəy adlı bir türk rəhbərlik edir. Bu ordunun alayları türklərdən ibarətdir. Çoxlu sayda əsgər Volqa türklərindən gəlir. Bu Ordu barışmaz düşmənlərə qarşı vuruşaraq Anadolunun köməyinə gedir. Bu Orduya göstərilən müqavimət Türkiyənin qurtuluşunu əngəlləməklə bərabər olacaq. Böyük türk birliyi və müsəlman icması baxımından bu xəyanətə bərabərdir.”[8]

---

[1] Васиф Гафаров. Русско-турецкое сближение и независимость Азербайджана (1919-1921). “Кавказ&Глобализация” (PDF),4,ВЫПУСК 1-2,CA&CC Pres/2010
[2] Yenə orada.
[3] Борьба за победу Советской власти в Азербайджане 1918-1920. Документы и материалы. Баку: Изд. АН Азербайджанской ССР, 1967,с.544.
[4] Документы внешней политики СССР. Т.2, Москва:Изд.политической литературы,1968, с.725
[5] Борьба за победу Советской власти в Азербайджане 1918-1920. с.544
[6] C.Həsənov. Göst. əsəri. S. 359.
[7] Азербайджанская Демократическая Республика (1928-1920). Баку: Элм, 1998, с.269
[8] Гафаров Васиф.Göst.məqaləsi, s.246

Azərbaycan Cümhuriyyətinin işğalını asanlaşdıran başlıca amil isə erməni amili olmuşdur. 1920-ci ilin əvvəllərin erməni nümayəndələri Pirimov və Zaxaryan Moskvaya gedib, ərazi güzəştləri müqabilində Azərbaycan Hökumətini devirməkdə Ermənistan hökumətinin yardımını təklif etdilər.[1] Təsadüfi deyil ki, Samur çayı sahilində 72 minlik Qırmızı Ordu hissələri cəmləşdiyi bir vaxtda ermənilər Qarabağda qiyam qaldırdılar. Azərbaycan demək olar ki, bütün silahlı qüvvələrini qərbə yeritməli oldu və beləliklə şimal sərhədi müdafiəsiz qaldı.

Qafqaz Cəbhəsi komandanlığının XI Ordu və Volqa-Xəzər donanması komandanlığına göndərdiyi 21 aprel 1920-ci il tarixli göstərişdə deyilirdi ki, Azərbaycanın əsas qüvvələri ölkənin qərb sərhədində məşğuldurlar. Kəşfiyyat məlumatına görə Yalama stansiyası – Bakı rayonunda Azərbaycanın cüzi qüvvələri var. Ona görə də XI Ordunun komandanı aprelin 27-də Azərbaycan sərhədini keçərək sürətli hücumla Bakı quberniyasını tutmalıdır. Yalama-Bakı əməliyyatı 5 gündə yerinə yetirilməli, Kürdəmir rayonunda Cənubi Qafqaz dəmir yolunu ələ keçirmək üçün süvari dəstələr göndərimәlidir. Donanma komandanı Raskolnikov XI Ordunun hissələri Abşeron yarımadasına yaxınlaşarkən Ələt stansiyası rayonunda quruya desant çıxarmalıdır. Desant dərhal neft daşıyan donanmanı ələ keçirməli, neft mədənlərini təxrib etməyə imkan verməməlidir.[2]

Aprelin 23-də Qafqaz cəbhəsi komandanı Tuxaçevski 21 aprel tarixli göstərişə dəyişiklik edərək bildirirdi ki, son məqsəd Bakı quberniyasını ələ keçirmək deyil, Azərbaycanın (daha doğrusu Azərbaycan Cümhuriyyətinin – T.M.) bütün ərazisini tutmaqdır.[3]

AK(b)P nümayəndələri ilə əldə olunmuş razılığa əsasın Bakıda silahlı üsyan başlamalı və bundan 24 saat sonra XI Qırmızı Ordu Azərbaycan sərhədini keçməli idi.[4] Lakin heç bu razılaşmaya da əməl olunmadı və aprelin 26-dan 27-nə keçən gecə başda «III Internasional» olmaqla zirehli qatarlar qrupu Samur körpüsünü keçib cənuba doğru irəliləməyə başladı. Bakıdakı parlament və digər dövlət orqanlarını qorumalı olan «Yardım Alayı» da türkiyəli komandirlərin təhriki ilə bolşeviklərin tərəfinə keçdi. Hərbi gəmilərin topları parlament binasına tuşlandı.[5]

Saat 4-də Azərbaycan K9b)P MK, RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Fəhlə konfransı adından Azərbaycan parlamentinə hakimiyyətin təhvili haqqında ultimatum verildi. Ultimatumda deyilirdi ki, rus ordusu Bakıya girmədən dəmir yolu ilə birbaşa Anadoluya gedəcək, Azərbaycanın müstəqilliyi qorunacaq, Azərbaycan Ordusu olduğu kimi saxlanılacaq.[6]

1920-ci il aprelin 27-si saat 23 radələrində Azərbaycan parlamenti hakimiyyətin təhvil verilməsi haqqında qərar qəbul etməyə məcbur oldu. Lakin Azərbaycan hərbi hissələri öz qüvvələrini gücləndirib aprelin 2-də Əsgəranı azad etdilər.[7] Sovet ordusu Bakıya yaxınlaşdığı, onun bəzi dəstələrinin Biləcəri stansiyasında dayandığı bir məqamda–aprelin 27-si gündüz saat 4-də Azərbaycan bolşevikləri RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və fəhlə konfransı adından respublika parlamentinə hakimiyyəti bolşeviklərə təhvil vermək barədə ultimatum verildi.[8]

Aprelin 27-də parlamentinə son iclasında, sədrlik edən M.Ə.Rəsulzadə hakimiyyətin bolşeviklərə təslim olunmasına qəti etiraz etdi. Buna baxmayaraq parlament hakimiyyəti təhvil vermək haqqında qərar qəbul etdi. Bunun üçün aşağıdakı şərtlər qoyulurdu: Azərbaycanın tam

---

[1] Nəsibli Nəsib. Azərbaycan Demokratik Respublikasının xarici siyasəti. Dərs vəsaiti. Bakı: Qanun nəşriyyatı, 2011, s. 371.
[2] Интернациональная помощь XI Армии в борьбе за победу советской власти в Азербайджане. Документы и материалы. 1920-1924 гг. Баку: Азгосиздат, 1989, с. 19.
[3] Yenə orada.
[4] Nəsibli N. Göst. əsəri, s. 272.
[5] Yenə orada.
[6] Nəsibli N. Göst. əsəri, s. 273.
[7] Köçərli T. Erməni saxtakarlığı, s. 59.
[8] Yenə orada, s. 358.

müstəqilliyi qorunub saxlanılacaq: Qızıl Ordunun döyüşlə Bakıya daxil olmasına yol verilməyəcək.[1]

Lakin cəmi bir neçə saat sonra bu razılaşmanın əksinə olaraq Anadoluya getmək bəhanəsi ilə Biləcəri stansiyasına gəlib çıxmış XI Qırmızı Ordu hissələri Bakıya daxil oldular. Bolşeviklərin təşkil etdiyi müvəqqəti inqilab komitəsi hakimiyyəti əlinə aldı.[2]

Beləliklə, xarici təcavüz nəticəsində beynəlxalq münasibətlərə və beynəlxalq hüquqa zidd olaraq dünya ölkələri tərəfindən tanınmış suveren dövlət zorakılıqla devrildi. Göründüyü kimi bir sıra xarici amillər 27 aprel işğalını asanlaşdırmışdır.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT- REFERENCES

1. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı, Azərnəşr, 1993.
2. Köçərli T. Erməni saxtakarlığı. Bakı: Elm və Təhsil, 2014,320 s.
3. Məmmədzadə M.B. Mili Azərbaycan hərəkatı. Bakı, 1991, 242 s.
4. Nəsibli N. Azərbaycan Demokratik Respublikasının xarici siyasəti. Dərs vəsaiti. Qanun nəşriyyatı. 2011, 328.
5. V.İ.Lenin. Azərbaycan haqqında (Tərtib edəni C.B.Quliyev). Bakı: Azərnəşr,1970
6. Nəsibli Nəsib.Azərbaycan Demokratik Respublikasının xarici siyasəti. Dərs vəsaiti. Bakı "Qanun nəşriyyatı",2011.
7. Азербайджанская Демократическая Республика(1918-1920).Баку: Элм,1998.
8. Борьба за победу Советской власти в Азербайджане.1918-1920.Документы и материалы. Баку: Изд АН Азерб. ССР,1967
9. Документы внешней политики СССР.Том 2.Москва: Изд. Политической литературы,1968.
10. Гафарои Васиф. Русско-турецкое сближение и независимость Азербайджана(1919-1921).» Кавказ&Глобализпция» (ПДФ), Вапуск 1-2,CA&CCPres/2010.
11. Интернациональная помощь XI Армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы. 1920-1924 гг. Баку, Азгосиздат, 1989, 196 с.
12. Топчибаши Алимардан бей. Парижской архив. 1919-1940. В четырех книгах. Книга первая. 1919-1921 (составители Алирия и Р.Абуталыбов). Москва, 2016.
13. Юсифзаде С. Азербайджано-Британские отношения. Баку, 2008.

MÜƏLLİF HAQQINDA MƏLUMAT

Mustafazadə Tofiq Teyyub oğlu – tarix elmləri doktoru,
professor, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu,
Azərbaycan, Bakı.

INFORMATION ABOUT THE AUTHOR

Mustafazadeh Tofig Teyyub oglu - doctor of historical
sciences, professor, Institute of History named after
A.A.Bakikhanov, ANAS, Azerbaijan, Baku.

[1] C.Həsənov. Göst. əsəri. S. 359.
[2] Yenə orada, s. 358.

**AZƏRBAYCAN TARİX QURUMU – TARİX VƏ GERÇƏKLİK – 2024, №1**

THE HISTORY & REALITY – 2024, №1
ИСТОРИЯ И РЕАЛЬНОСТЬ – 2024, №1

# AZƏRBAYCAN RESPUBLIKASININ TÜRK DÖVLƏTLƏRİ İLƏ MƏDƏNİ ƏLAQƏLƏRİ TARİXİNƏ DAİR (TÜRKSOY təşkilatı kontekstində)

MAHİR İBRAHİMOV
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*ORCID: https://orcid.org/0000-0002-8249-3456; mahir.ibrahimov1969@gmail.com*

***Xülasə:*** Keçmiş sovet respublikalarının müstəqil dövlət kimi beynəlxalq arenaya çıxması və öz xarici siyasət prioritetlərini müəyyənləşdirməsi mədəniyyət sahəsində beynəlxalq münasibətlərin yeni formasının formalaşmasına bilavasitə təsir göstərmişdir. Məqalədə əsasən regional əməkdaşlıq və Azərbaycan Respublikası ilə digər türk dövlətləri arasında əlaqələrin əhəmiyyəti mədəni əlaqələr kontekstində təhlil edilir. Müəllif “TÜRKSOY” və ikitərəfli əməkdaşlıq çərçivəsində türk dövlətləri arasında əlaqələrin qurulmasında Heydər Əliyev şəxsiyyətinin yeri və rolunu xüsusi qeyd edir.
***Açar sözlər:*** Mədəni əlaqələr, “TÜRKSOY”, türkdilli ölkələr, Türk Dövlətləri Birliyi.

MAHİR İBRAHİMOV
*Institute of History and Ethnology named after A.A. Bakikhanov, ANAS*
*ORCID: https://orcid.org/0000-0002-8249-3456;*
*mahir.ibrahimov1969@gmail.com*

# ON THE HİSTORY OF CULTURAL RELATİONS OF THE AZERBAİJAN REPUBLİC WİTH THE TURKİC STATES

***Abstract:*** The entry of the former Soviet republics into the international arena as independent states and the determination of their own foreign policy priorities had a direct impact on the formation of a new form of international relations in the field of culture. The article mainly analyzes the importance of regional cooperation and relations between the Republic of Azerbaijan and other Turkic states in the context of cultural ties. The author emphasizes the place and role of the personality of Heydar Aliyev in the establishment of relations between the Turkic states within the framework of “TURKSOY” and bilateral cooperation.
***Keywords:*** Cultural relations, “TURKSOY”, Turkic-speaking countries, Union of Turkic States.

**Giriş.** XX əsrdə fəlsəfənin ən kəskin tənqidçilərindən biri olan Avstriya filosofu Lüdviq Vitginşteyn (1889-1951) yazırdı: “Mədəniyyət nəhəng bir təşkilat olub hər kəsə özünün hara mənsub olduğunu göstərir”.[1] Digər bir filosof misirli mütəfəkkir Zəki Nəcib Mahmud mədəniyyəti belə səciyyələndirir: “Mədəniyyət yalnız incəsənət və bədii yaradıcılıqdan ibarət deyildir. Mədəniyyət sözün əsl mənasında fəaliyyət, hərəkətə gətirmək və istiqamətləndirmək vasitəsidir. Bu mədəniyyət cəmiyyət üzvlərinin yalnız bir hissəsini yox, hamısının dünyagörüşünü və maraqlarını əks etdirməlidir. Bu mədəniyyət “hamının arzuladığı gələcək” əsasında qurulmalı və bu məqsədə xidmət etməlidir”.[2] Həqiqətən də mədəniyyətlərin və sivilizasiyaların dialoqu, onların bugünkü qlobal siyasi proseslərə təsiri məsələləri hazırkı ictimai elmlərin diqqət mərkəzində dayanan məsələlərdəndir. Mədəniyyətin siyasətin bir qolu olması, yəni “siyasi mədəniyyət” anlayışına ilk dəfə biz

[1] İbadov N.S. Siyasi mədəniyyətin təsnifatına müqayisəli yanaşma // BDU, Tarix və onun problemləri, 2009, №1-2, s.299-300.
[2] Zaki Nasib Mahmud. “Chinese product”, Cairo, 1992, s.284.

XVIII əsrdə yaşayıb yaratmış alman filosofu İ. Herderin "Bəşəriyyət tarixi fəlsəfəsinə dair ideyalar" adlı əsərində rast gəlirik. O, həmin əsərində bu anlayışla yanaşı "siyasi mədəniyyətin yetkinliyi", "siyasi mədəniyyətin daşıyıcıları" kimi terminlərdən də istifadə etmişdir.[1] Artıq XX əsrin ikinci yarısından başlayaraq vəziyyət dəyişməyə başladı. Q. Almond, S. Verba, L. Pay, M. Duverje kimi qərb tədqiqatçıları "siyasi mədəniyyət" anlayışını ictimaiyyət elmində nəinki möhkəmləndirdilər, həm də siyasi mədəniyyət nəzəriyyəsinin əsasını qoydular. Məhz ötən əsrin 60-cı illərindən Fransada meydana çıxan mədəniyyət siyasəti qısa zaman kəsiyində bütün ölkələrin mədəni həyatının tərkib hissəsinə çevrildi.[2] Bu fikirlər tədqiq etdiyimiz mövzunun mahiyyətinə birbaşa təsir etməsə də türk dövlətləri arasındakı mədəni münasibətlərin araşdırılması üçün bir açar rolunu oynaya bilər.

Ümumiyyətlə, Avrasiya coğrafiyasına diqqətlə nəzər salası olsaq çox maraqlı mənzərə ilə rastlaşmalı olarıq. Belə ki, bu coğrafiya hər bir istiqamətdə türksoylu xalqların yaşadığı ərazilərlə əhatələnmişdir. Məhz həmin türk xalqları dünya mədəniyyətinə böyük töhfələr vermiş, onu xeyli zənginləşdirmişdir. Bununla yanaşı yüz illərlə bir-birindən ayrı salınaraq dövlətçilikdən məhrum edilmiş türk xalqları yalnız XX əsrdə milli dirçəliş yoluna uğurla qədəm basmağa nail oldular. Belə ki, ötən əsrin əvvəlində - 1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı digər xalqlarla yanaşı türk xalqlarının da milli azadlıq hərəkatının yüksəlişinə güclü təkan vermişdi. Lakin, edilmiş müəyyən səhvlər və mövcud tarixi şərait həmin xalqların müstəqil olaraq beynəlxalq münasibətlər sisteminə qatılmasına imkan vermədi. Artıq sözügedən əsrin 90-cı ilərində SSRİ-nin süquta uğraması ilə beş yeni müstəqil türk dövləti - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan Respublikaları yarandı. Bir sıra türk xalqları - tatarlar, başqırdlar, çuvaşlar və digərləri isə Rusiya Federasiyası tərkibində milli ərazi muxtariyyəti səviyyəsində qaldılar.

Qeyd etmək lazımdır ki, yeni yaranmış müstəqil türk dövlətləri öz xarici siyasət prioritetlərini özləri müəyyən etdiklərinə görə bütün bunlar mədəniyyət sahəsində də qarşılıqlı münasibətlərin yeni formada qurulmasına birbaşa təsir göstərdi. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi kimi, "...bizim məqsədimiz bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək, həm də ölkənin elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".[3] Məlumdur ki, Sovet dövründə bütün beynəlxalq mədəni əlaqələrin Moskva tərəfindən müəyyən edilirdi. Lakin, buna baxmayaraq Azərbaycan incəsənəti beynəlxalq arenaya çıxa bilmiş və bu çıxış öz təcəssümünü Hollandiya, İtaliya, Portuqaliya, Türkiyə, İran, Yaponiya, ərəb dövlətləri və s. kimi ölkələrdə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsində, Azərbaycan Dövlət Opera və Balet Teatrının Fransa və digər ölkələrdə qastrollarında tapmışdır.[4] Onu da qeyd etmək lazımdır ki, SSRİ-nin süqutuna qədər də müttəfiq respublikaların qarşılıqlı münasibətlərində elmi-mədəni sfera sahəsində əlaqələr mövcud idi.

**"TÜRKSOY" təşkilatı.** Sözügedən mövcud əlaqələr Sovet imperiyasının süqütündan sonra da müstəqillik əldə etmiş türk dövlət qurumları arasında daha sıx ədəbi-mədəni, siyasi-iqtisadi əlaqələrin yaradılması zərurətini önə çıxardı. Yaranmış yeni əlverişli şərait onların eyni kökdən olan müştərək mədəniyyəti və incəsənətinin vahid təşkilatının meydana çıxmasına imkan verdi. Bu istiqamətdə 1992-ci ilin iyun ayında İstanbul şəhərində 6 olkənin mədəniyyət nazirləri tərəfindən bunövrəsi qoyulan Turkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası (TURKSOY) muhum

---

[1] Гердер И.Г. Идеи к философии истории человечества. М., Наука, 1977, с.232.
[2] İbadov N.S. Siyasi mədəniyyətin təsnifatına müqayisəli yanaşma // BDU, Tarix və onun problemləri, 2009, №1-2, s.301-302.
[3] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 1c., 8c., Bakı: Azərnəşr, 1997, 606 s., 1998, s.205.
[4] Azərbaycan Resublikası Mədəniyyət və Turizm Nazirliyinin illik hesabatı, 2013. http://www.mct.gov.az/ 12.01.2024.

rol oynadı. Türk mədəniyyəti və incəsənətinin inkişafı və tanıdılması üçün nəzərdə tutulan bu beynəlxalq təşkilat Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin birgə təşəbbüsü ilə 1992-ci ildə İstanbul və Bakı şəhərlərində keçirilmiş Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, həmçinin Türkmənistan respublikaları mədəniyyət nazirlərinin görüşlərinin gedişində əldə edilmiş razılaşmalar əsasında yaradılmışdır. Təşkilatın yaradılması və fəaliyyət prinsipləri haqqında müqavilə həmin ölkələrin mədəniyyət nazirləri tərəfindən 1993-cü il iyulun 12-də Qazaxıstan Respublikasının keçmiş paytaxtı Almatı şəhərində imzalanmışdır.[1] Sonralar bu təşkilata müşahidəçi ölkələr simasında Başqırdıstan, Tatarıstan respublikaları, Şimali Kipr Türk Respublikası, Xakasiya, Tuva, Altay, Yakutiya və Qaqauz Yeri respublikaları da qoşulmuşlar. Beləliklə TÜRKSOY-a 6 üzv və 8 müşahidəçi ölkə daxildir.[2] Aydın məsələdir ki, TÜRKSOY təşkilatının əsas məqsədi türkdilli ölkələrin apardıqları xarici siyasətdən asılı olmayaraq onların mədəniyyət və incəsənət sahəsində regional birliyini həyata keçirməkdən ibarətdir. Qurumun Baş direktorluğu Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində yerləşir, rəsmi dili türk dilidir.

Öz məqsədlərinə və vəzifələrinə, fəaliyyət sahəsinə və prinsiplərinə görə TÜRKSOY bir təşkilat kimi YUNESKO-nun (BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı) strukturuna yaxındır və 1996-cı il iyulun 8-də İstanbulda TÜRKSOY-la YUNESKO arasında qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Göründüyü kimi, bu qurumun fəaliyyət dairəsi çox genişdir. Belə bir cəhəti də qeyd etmək yerinə düşər ki, Azərbaycan Respublikası TÜRKSOY-un yaradılmasında olduğu kimi, ikitərəfli əlaqələr kontekstində də fəaliyyət göstərən aparıcı dövlətlərdən biri olmuşdur. Bu məqsədlə 1995-ci ilin iyununda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tapşırığı əsasında xarici işlər naziri Türkmənistana rəsmi səfər etmiş və orada ölkə prezidenti Saparmurad Niyazov və digər rəhbər şəxslərlə görüşmüşdü. Səfər zamanı iki ölkənin xarici işlər nazirlikləri arasında əməkdaşlıq protokolu imzalanmışdı. Digər sahələrdə olduğu kimi, mədəni əlaqələr sahəsində qarşılıqlı münasibətlər qurmaq haqqında fikir mübadiləsi aparılmışdı. Qeyd etmək lazımdır ki, hələ Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi sovet dövründə ölkəmizdə Aşqabad günlərinin keçirilməsi bu respublika ilə mədəni əməkdaşlıq sahəsində tarixi önəm daşıyırdı. 1996-cı ilin martında Azərbaycana rəsmi səfərə gəlmiş Türkmənistan Prezidenti Saparmurad Niyazovun şərəfinə təşkil olunmuş ziyafətdə Azərbaycan Prezidenti Heydər Əliyev demişdi: "Biz daha sıx əməkdaşlıq etməli, elm, mədəniyyət, təhsil sahələrində əməkdaşlıq üçün mövcud imkanlardan yaranan gözəl şəraitdən istifadə etməliyik...".[3] Həmin səfər zamanı Saparmurad Niyazov Bakı Dövlət Universitetinin fəxri doktoru seçilmişdir. Sözügedən səfər çərçivəsində mədəni əməkdaşlığın strateji istiqamətləri müəyyənləşmiş, iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, daha sonra təhsil, elm, mədəniyyət sahəsində sazişlər imzalanmışdı.

Göründüyü kimi, ikitərəfli münasibətlərdə də mədəni sfera sahəsinə münasibət Azərbaycanın ümummilli lideri Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. O, 1996-cı il noyabrın 6-da türk dünyası yazıçılarının Bakıda keçirilən III qurultayında bu barədə belə demişdir: "Biz çalışmalıyıq ki, ölkələrimiz, xalqlarımız arasında əlaqələr bundan sonra da bütün sahələrdə sürətlə inkişaf etsin. Dövlət tərəfindən biz bunu edirik və türkdilli dövlət başçılarının ikitərəfli görüşləri də buna çox böyük imkanlar verir... Əmin ola bilərsiniz ki, Azərbaycan hökuməti bu sahədə

---

[1] Muxtarov Kamil. Azərbaycan respublikası və Türksoy. http://www.onerjurnali.narod.ru/0002.htm/17.01.2024

[2] Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji əsasları (elm, təhsil, mədəniyyət). http://www.anl.az/el/h/hf_mdateka.pd / 18.01.2024.

[3] Ömərov V.A. Azərbaycan, Türkmənistan və Qırğızıstan mədəni əlaqələri. "Səs" qəz., 2013, 11 dekabr, №235, s.15.

əlindən gələni əsirgəməyəcəkdir".[1] Qeyd edək ki, Azərbaycan nümayəndələrinin bacarıqlı təşkilatçılıq fəaliyyəti qurumun məqsədyönlü şəkildə təşkilində getdikcə daha çox özünü göstərirdi. Belə ki, artıq TÜRKSOY-un V toplantısında (28 may – 3 iyun 1994-cü il, Bişkek, Çolpan-Ata) Azərbaycan mədəniyyət nazirinin təşkilatın Baş direktoru seçilməsi sözügedən fəaliyyətin bariz nümunəsi idi. Bu isə öz növbəsində qurumun fəaliyyətində Azərbaycanın aparıcı rolunun artdığını əyani olaraq göstərdi. Ədalət naminə qeyd etməliyik ki, TÜRKSOY-un yarandığı ilk vaxtlarda təşkilatın fəaliyyətində əsas ağırlıq mərkəzi Türkiyənin üzərində idi. Lakin, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında aparılan xarici siyasət nəticəsində 1994-1995-ci illərdən başlayaraq vəziyyət bir qədər dəyişdi. Artıq ağırlıq mərkəzi digər türk respublikaları ilə yanaşı, həm də Azərbaycanın üzərinə düşdü. Belə ki, bu təşkilatın II toplantısı Bakıda keçirilmiş və əməkdaşlığı gücləndirməyə yönəldilən mühüm qərarlar qəbul edilmişdi. 1996-cı il noyabrın 6-7-də Bakıda türk xalqlarının birliyi, ədəbi-mədəni əlaqələri ilə bağlı üç mühüm tədbir (TÜRKSOY-un VIII toplantısı, türk dünyası yazıçılarının III qurultayı və Məhəmməd Füzulinin 500 illik yubileyinin tədbirləri) keçirilmişdi. Bu bir daha sübut edir ki, Azərbaycan Ulu öndərin rəhbərliyi altında türk dünyasının liderlərindən birinə çevrilməkdədir. Bu münasibətlə Azərbaycan prezidenti Heydər Əliyev qurultaya gələn qonaqlara və toplantı iştirakçılarına müraciətlə belə demişdir: "Bu gün Azərbaycan Respublikasının həyatında çox əlamətdar hadisələr baş verir. Günün birinci yarısında Bakıda türk dünyası yazıçılarının II qurultayı açılıbdır, ikinci yarısında isə TÜRKSOY Beynəlxalq Təşkilatının növbəti toplantısı işə başlayır. TÜRKSOY ötən dövrdə böyük gələcəyi olduğunu həm türkdilli dövlətlərə, həm də dünyaya nümayiş etdiribdir".[2] Maraqlı cəhət odur ki, hələ 1996-cı il oktyabrın 21-də Daşkənddə türk ölkələri dövlət başçılarının 4-cü Zirvə toplantısında təşkilatın fəaliyyətinin gücləndirilməsi sahəsində qarşıda duran vəzifələr daha geniş səviyyədə müzakirə edilmiş və onun nəticələri yekun sənədlərdə - Daşkənd bəyannaməsində öz əksini tapmışdı. Bəyannamədə tövsiyyə olunan məsələlər içərisində yubiley mərasimlərinin hamılıqla həyata keçirilməsi də nəzərdə tutulmuşdu. Sonrakı dövrdə bütün türkdilli dövlətlərin iştirakı ilə nəzərdə tutulan tədbirlər, yubileylər təntənə ilə qeyd edilmişdir.

Qarşılıqlı görüşlərdən və alınan qərarlardan sonra Bakıda 1996-cı il noyabrın 6-7 də türk dünyası yazıçılarının III qurultayı öz işinə başlamışdı. Onu da qeyd etmək lazımdır ki, türk dünyası yazıçılarının I və II qurultayları 1992 və 1994-cü illərdə Türkiyənin paytaxtı Ankara şəhərində keçirilmişdi. Bakı şəhərində keçirilən Qurultayda müxtəlif türk ölkələrindən o cümlədən Türkiyədən, Qazaxıstandan, Başqırdıstandan, Tatarıstandan, Saxa-Yakutdan, o cümlədən, Cənubi Azərbaycandan və başqa yerlərdən gəlmiş numayəndələr iştirak etmişdir. Qurultayda çıxış və müzakirələrin yekunu olaraq bir sıra mühüm qərarlar qəbul edilmişdi. Bunların sırasında Bakı şəhərində Azərbaycan Yazıçıları Birliyinin nəzdində türk dünyası yazıçılarının əlaqələndirmə mərkəzinin yaradılmasını, türk dövlətlərində latın qrafikalı əlifbaya keçirilməsi ilə əlaqədar real tədbirlər planının hazırlanmasını, ortaq ədəbi türk dilinin formalaşdırılması üçün tədbirlərin həyata keçirilməsini və s. bu kimi qərarları qeyd etmək olar.

Dahi mütəfəkkir Məhəmməd Füzulinin 500 illik yubileyinin qeyd olunduğu ərəfədə Ulu öndər Heydər Əliyevin çıxışındakı bəzi məqamları xatırlamaq yerinə düşərdi: "Təsəvvür edin, biz türkdilli dövlətlər birlikdə "Manas"ın 1000 illiyini qeyd etdik, böyük qazax şairi, filosofu Abayın 150 illyini qeyd etdik. Özbəkistanın böyük dövlət xadimi, bütün türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660 illiyini qeyd etdik. Bu günlərdə biz böyük Azərbaycan şairi, eyni zamanda bütün türk dünyasına mənsub olan Məhəmməd Füzulinin 500 illyini bir yerdə qeyd edəcəyik.... İndi

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 1c., 8c., Bakı: Azərnəşr, 1997, 606 s., 1998, s.11-12.
[2] "Heydər/Əliyev/irsi" Beynəlxalq/elektron/ kitabxana. http://www.anl.az/heliyev/he.htm/ 02.02.2024.

isə, türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu bizim vəzifəmizdir, borcumuzdur...".[1] Qeyd edək ki, Məhəmməd Füzulinin yubileyi təkcə Azərbaycanda deyil, dünyanın bir çox şəhərlərində - Ankarada, Moskvada, Bağdadda, Kərbəlada, Kərkükdə, Tehranda, Dağıstanda, Dərbənddə, Mahaçqalada, Parisdə YUNESKO-nun baş qərargahında, habelə Gürcüstanda, Qazaxıstnada, Özbəkistanda keçirilmişdi. Maraqlı cəhətlərdən biri də odur ki, XXI əsrin astanasında TÜRKSOY-un ilk toplantısı da məhz Bakıda keçirilmişdir. TURKSOY-un 2001-ci il yanvarın 16-17-də Bakıda kecirilmiş on beşinci toplantısında Azərbaycan Respublikasının mədəniyyət naziri bu təşkilatın varlığı və onun beynəlxalq nüfuzunun ölkələrimizin və xalqlarımızın daha da birləşməsinə xidmət edəcəyini vurğulamış, bu qurumda XXI əsrin tam mənada türk dünyası əsri olması üçün var qüvvəsi ilə çalışacaqlarını qeyd etmişdir".[2] Azərbaycan prezidenti Heydər Əliyev yanvarın 16-da toplantı iştirakçılarını qəbul edərkən bu beynəlxalq təşkilatın fəaliyyətinə yüksək qiymət verərək demişdir: "... Türkdilli Dövlətlər Birliyi yaranandan indiyə qədər Türksoy təşkilatı hamıdan çox iş görmüş bir təşkilatdır".[3] 2002-ci il yanvarın 28-30-da Qazaxıstanın Almatı şəhərində təşkilatın 17-ci toplantısı keçirilmiş və tədbirin ilk günü Almatıdakı Dövlət İncəsənət Muzeyində rəsm sərgisinin açılışı olmuşdur. Toplantıda təşkilatın Baş direktoru xüsusi olaraq vurğulamışdır ki, TÜRKSOY-un üzvü olan respublikaların mədəniyyət sahəsindəki əlaqələrinin genişləndirilməsində və təbliğində türk dövlətləri başçıları ilə yanaşı, Heydər Əliyev və Nursultan Nazarbayevin bu mühüm işə böyük diqqət, qayğı göstərmələri və təşkilatın fəaliyyətini yüksək qiymətləndirmələri əhəmiyyətli rol oynamışdır.

Bununla yanaşı qeyd etmək lazımdır ki, 2006-cı ildə Türkiyə Respublikasında keçirilmiş zirvə toplantısında qəbul edilmiş Antalya Bəyannaməsi və xüsusilə 2-3 oktyabr 2009-cu ildə Azərbaycan Respublikasının Naxçıvan şəhərində keçirilmiş Türkdilli ölkələrin dövlət baçşılarının IX Zirvə Toplantısında qəbul edilmiş Naxçıvan Bəyannaməsi də mədəni əməkdaşlıq sahəsində mühüm əhəmiyyət kəsb edir.[4] Belə ki, Naxçıvanda keçirilən IX Zirvə Toplantısında iştirak edən dövlət başçıları yeni təkliflərlə çıxış etmiş, Azərbaycan prezidenti İlham Əliyev TÜRKSOY fondunun təsis edilməsi haqqında, Qazaxıstan prezidenti Nursultan Nazarbayev isə Türkdilli Akademiyanın yaradılması barədə təkliflər vermişdilər.[5]

Ümumiyyətlə yarandığı gündən Təşkilat mədəni əlaqələr sahəsində xeylı işlər görmüşdü. Qurumun Baş katibi Düşen Kaseinov "Amerikanın səsi" radiosuna verdiyi müsahibəsində təşkilatın yeni əsrin əvvəlindən indiyə qədər gördüyü işlərdən danışmışdı. O, hesabat dövründə "Ankarada TÜRKSOY-un 15 illiyinə həsr olunmuş yubiley tədbirləri, İstanbul, Ankara, Nide, Manisa şəhərlərində Novruz bayramının qeyd edildiyini bildirib. Ötən il ərzində, "TÜRKSOY rəssam və fotoqraflarının laboratoriyaları", İstanbulda "Türk dillərinin bədii tərcüməsinin problemləri və müasir vəziyyəti", Almatıda "Sivilizasiyaların dialoqunda Türk dünyasının rolu" adlı simpoziumlar, Elazığda 17-ci Beynəlxalq "Xəzər axşamları", Qaramanda türk dilinin 732 illiyi, Mərsin, Girn, İstanbul şəhərlərində "Qız Jibek" əfsanəsinin 500 illiyinə həsr olunmuş XXII TÜRKSOY Opera

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 1c., 8c., Bakı: Azərnəşr, 1997, 606 s., 1998, s.10.

[2] Beynəlxalq TURKSOY təşkilatının XV toplantısında Azərbaycan Respublikasının Mədəniyyət Naziri Polad Bulbuloğlunun cıxışı. http://www.elibrary.az /docs/semer. Pdf / 18.02.2024.

[3] // H. Əliyevin TURKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələri ilə görüşdə söhbəti. http://www.elibrary.az /xronologiya.pdf. 18.02.2024.

[4] 2-3 oktyabr 2009-cu il tarixdə Azərbaycan Respublikasının Naxçıvan şəhərində keçirilmiş Türkdilli ölkələrin dövlət baçşılarının IX Zirvə Toplantısı. http://www.mfa.gov.az /mədəni münasibətlər/ 12.01.2024.

[5] TÜRKSOY-un Naxçıvanda keçirilən IX Zirvə Toplantısında iştirak edən dövlət başçıları yeni təkliflərlə də çıxış ediblər. http://www.gunaz.tv/gündəlik xəbərlər/15.02.2024.

günləri keçirilib. İstanbulda Tatarıstan və Başqırdıstanın mədəniyyət mərkəzləri açılıb və Sabantuy qeyd edilib, Ankarada "Xan Mirqen" qədim Xakasiya eposu kitabının, Abakan və İstanbulda "Başqırd səcərəsi" nin təqdimatı, teatr, kino, ənənvi musiqi festivalları keçirilib. Eyni zamanda sentyabrda Bişkek, Almatı, Ankara və Bakı şəhərlərində TÜRKSOY-un beynəlxalq layihəsi - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Başqırdıstan və Tatarıstan opera teatrları solistlərinin iştirakı ilə məşhur Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun "Koroğlu" operasının tamaşaya qoyulması böyük müvəffəqiyyətlə həyata keçirilib" deyə o qeyd edib.[1]

**Nəticə.** Artıq biz Türk dünyasının dünya mədəniyyətinin inkişafında rolunun ilbəil artdığını müşahidə edirik. Belə ki, 2009-cu il Bakı İslam ölkələrinin mədəniyyət paytaxtı elan edilib, 2010-cu ildə isə İstanbul Avropanın paytaxtı seçilib. Söz yox ki, gələcəkdə TÜRKSOY digər türk xalqlarının da mədəniyyətlərinin inkişafında və qovuşmasında mühüm rol oynayacaqdır. Əgər siyasi razılıq olarsa yaxın zamanlarda balkan, kərkük və uyğur türkləri də bu təşkilatda təmsil oluna bilərlər. Hesab edirik ki, istər TÜRKSOY istərsə də iki və çoxtərəfli münasibətlər çərçivəsində türk xalqları arasında mədəniyyət və incəsənət sahəsində əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, bu məqsədlə müxtəlif proqram və layihələrin birgə həyata keçirilməsi, mədəniyyət, incəsənət, təhsil, elm sahələrində beynəlxalq və milli təşkilatlarla, ictimai strukturlar və hərəkatlarla qarşılıqlı əlaqə yaradılması nəinki sözügedən xalqların, eləcə Avrasiya məkanında yaşayan çoxsaylı digər xalqların daha da bir-birinə yaxınlaşmasına və əməkdaşlığına yeni imkanlar açacaqdır.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT- REFERENCES

Azərbaycan dilində

1. Azərbaycan Resublikası Mədəniyyət və Turizm Nazirliyinin illik hesabatı, 2013. http://**www.mct.gov.az**/12.01.2024.
2. Azərbaycan Respublikasının Naxçıvan şəhərində keçirilmiş Türkdilli ölkələrin dövlət baçşılarının IX Zirvə Toplantısı. 2-3 oktyabr 2009-cu il. **http://www.mfa.gov.az /mədəni münasibətlər**/12.01.2024.
3. Beynəlxalq TURKSOY təşkilatının XV toplantısında Azərbaycan Respublikasının Mədəniyyət Naziri Polad Bulbuloğlunun cıxışı. **http://www.elibrary.az /docs/semer. Pdf.** / 18.02.2024.
4. Əliyev H.Ə. **Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 1c., 8c.,** Bakı: Azərnəşr, 1997, 606 s., 1998, 488 s.
5. "Heydər Əliyev irsi". **Beynəlxalq/elektron/ kitabxana. http: // www.anl.az / heliyev / he.htm /** 02.02.2024.
6. H. Əliyevin TURKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələri ilə görüşdə söhbəti. **http://www.elibrary.az /xronologiya.pdf.** // 18.02.2024.
7. İbadov N.S. **Siyasi mədəniyyətin təsnifatına müqayisəli yanaşma** // BDU, Tarix və onun problemləri, 2009, №1-2, s.299-304.
8. Muxtarov Kamil. **Azərbaycan respublikası və Türksoy**. http: // www.onerjurnali.narod.ru / 0002.htm / 17.01.2024.
9. Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji əsasları (elm, təhsil, mədəniyyət). **http://www.anl.az/el/h/hf_mdateka.pd** / 18.01.2024.
10. Ömərov V.A. Azərbaycan, **Türkmənistan və Qırğızıstan mədəni əlaqələri. "Səs" qəz., 2013, 11 dekabr, №235, s.15.**

[1] Azərbaycan/ xəbərlər. TÜRKSOY-un Baş katibi Düşen Kaseinov "Amerikanın səsi" radiosuna verdiyi müsahibə. http://www.voanews.com / 15.02.2024.

11. TÜRKSOY-un Baş katibi Düşen Kaseinov “Amerikanın səsi” radiosuna verdiyi müsahibə. **http://www.voanews.com / Azərbaycan/ xəbərlər.** 15.02.2024.
12. TÜRKSOY-un Naxçıvanda keçirilən IX Zirvə Toplantısında iştirak edən dövlət başçıları yeni təkliflərlə də çıxış ediblər. **http://www.gunaz.tv/gündəlik xəbərlər/** 15.02.2024.

İngilis dilində

13. Zaki Nasib Mahmud. “**Chinese product”,** Cairo, 1992, 423 s.

Rus dilində

14. Гердер И.Г. **Идеи к философии истории человечества.** М., Наука, 1977, 705 с.

MÜƏLLİF HAQQINDA MƏLUMAT

İbrahimov Mahir Nadir oğlu – tarix üzrə
fəlsəfə doktoru, dosent, aparıcı elmi işçi, AMEA
A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun
əməkdaşı, Azərbaycan, Bakı.

INFORMATION ABOUT THE AUTHOR

İbrahimov Mahir Nadir oglu -Doctor of Philosophy,
Associate Professor, Leading Researcher,
employee, ANAS, Institute of History and Ethnology
named after A.A. Bakikhanov, Azerbaijan, Baku.

# TARİXİN YADİGARI BAYRAĞIN ƏHƏMİYYƏTİ

ŞİRİN BÜNYADOVA
*AMEA Arxeologiya və Antropologiya İnstitutu*
*ORCİD: https://orcid.org/0009-0004-2344-4920; Shirin_bunyad@mail.ru*

**Xülasə**: Məqalə xalqların həyatında mühüm simvol olan bayrağın kəsb etdiyi əhəmiyyətə həsr olunur. Məqalənin yazılmasında başlıca məqsəd ümumiyyətlə bayraqların yaranma səbəbini və varlığını qorumanın əhəmiyyətini tarixi baxış süzgəcindən keçirməkdən ibarətdir. Eyni zamanda onun bütün cəmiyyətlərdəki təməl mahiyyətini təhlil etmək əsas qayəmizi təşkil edir.

Bayraqlar tayfaların, hakimlərin, xalqların simvolunu özündə əks etdirir, dövlət atributudur, mənsubiyyət göstərən əlamətdir, onlarda dini, milli, sosial simvollar olur, müstəqilliyin rəmzidir, bir dəyərdir.

**Açar sözlər:** bayraq, rəmz, Azərbaycan, dəyər.

SHIRIN BUNYADOVA
Institute of Archeolojy and Antropolojy, ANAS
*ORCİD: https://orcid.org/0009-0004-2344-4920; Shirin_bunyad@mail.ru*

# THE MEANING OF THE FLAG AS A HISTORICAL RELIC

**Abstract:** Thus, flags contain symbols of tribes, rulers, peoples. This is a sign of affiliation, which is a state attribute. Having a certain symbol and sign on the flag, it has its own colors. You can see religious symbols in them. At various levels of political and diplomatic meetings, flags are used as a distinguishing factor. Flags are different in nature: national, sports, military, etc. The approach to flags from a religious point of view is visible in different state flags. It is also known by their color and the markings on them.

The flag is a symbol of independence. Equating the flag with the Motherland, demonstrating its inseparability, throwing the flag over the martyrs when escorting them to their final resting place reflects its value among the Turkic peoples. In other words, the flag becomes a value important in the life of peoples. Flags carry the national spirit. By order of Azerbaijani President Ilham Aliyev, November 9 is celebrated as National Flag Day. May our glorious flag always fly high.

**Key words:** flag, symbol, Azerbaijan, value**.**

**Giriş.** Bütün dünya xalqlarında tarixən bayraqlar mövcud olmuş və müasir dövrdə varlığını qorumaqda davam edir. Tarixin müxtəlif dövrlərində müəyyən dəyişikliyə uğrasa da, onlar təməl mənsubiyyət və göstəriş mahiyyətini qoruyub saxlaya bilmişdir.

Xalqların əsrlər boyu yaratdığı mədəniyyət çərçivəsində bayraqlar mühüm amilə çevrilmiş, tayfa, dövlət və digər birliklərin fərqləndirici əlaməti olmaqla mühüm əhəmiyyət kəsb etmişdir. Xüsusən dövlətlərin rəmzlərindən biri olan bayraqlar öz rənglərindəki kəsb etdikləri mənalarıyla müəyyən dəyərə malik olmuşdur. Çünki o, tarixin müəyyən mərhələsində xalqın irəliyə doğru istiqamətinin, tərəqqisinin yoluna çevrilir.

Ümumiyyətlə, xalqların həyatında mühüm əhəmiyyət kəsb edən ilkin bayrağın tarixinin nə zaman yarandığını söyləmək çətindir. Lakin onun bir fərqlilik əlaməti olduğu qətidir. O, insanların toplu halında birləşməsinin göstəricisidir. Bayraqlar bütün dünya xalqlarında var olmuş qəbilələrin və onu təşkil edən nəsillərin hansı əlaməti özlərinə rəmz seçmələrindən asılı olaraq yaranan bir vasitədir. Bayraqlar tarixən təkcə qəbilə, tayfa birləşməsi və nəhayət, dövlət rəmzi olmamışdır, o, eyni zamanda əhalinin sənətkarlıq və ticarətlə məşğul olan hissəsinin sənətini təsdiqləyən bir əlamət

hesab edilirdi. Gəmilərdə mütləq şəkildə mənsubiyyət göstəricisi kimi hansı ölkəyə aid olduğunu təsdiqləmək üçün bayraqların olması vacib şərtdir. Belə göstərici eyni zamanda təyyarələrdə də olur.

**Bayraqların yaranma tarixi və əhəmiyyəti.** İlk bayraqlar ideyası beş min ildən çox əvvəl qədim qəbilələrin ovçuları və döyüşçüləri arasında yaranıb. O dövrlərdə bayraqlar quş tüklərindən və ya heyvan dərilərindən hazırlana bilərdi. Bütün zaman ərzində bayrağın əsas funksiyası komunikasiya olaraq qalır.[1]

Parçadan hazırlanmış ilk bayraqların çinlilər arasında meydana çıxdığı qeyd edilir. Sonralar əvvəlcə dirəklərdə müxtəlif heyvanların təsvirlərindən bayraq kimi istifadə edən Roma legionları, tezliklə parçadan hazırlanmış bayraqları da təqdim etdilər. Bu dövrlərdə bayraqlar daha geniş məqsədlər üçün istifadə olunmağa başlayır. Məsələn, bir dövlətin müstəqilliyini elan edərkən və ya təslim zamanı döyüş meydanında bayraqlar boy göstərir.[2]

Göründüyü kimi, tarixdən əvvəlki cəmiyyətdə bayrağın rolu onun təmsil funksiyası idi - yəni, bu və ya digər tayfanın bayrağı uzaqdan görünürdü və bayraqlı qrupun ona tərəf hərəkət etdiyi digər tayfanın adamları artıq aralarında yaranmış münasibətlərə əsaslanaraq nəyə - dostluq görüşünə ya döyüş üçün hazırlaşmalı olduqlarını başa düşürdülər. Bayraq ideyası min illər əvvəl yaranmışdır: ilk bayraqlar olduqca primitiv idi və bayraqlardan ilk istifadə edənlər müxtəlif tayfaların ovçuları və döyüşçüləri idi. Müxtəlif qəbilələrin istifadə etdiyi ilk bayraqlar heyvan dərilərindən və ya quş tüklərindən hazırlanırdı. Məsələn, qədim Misir döyüşçüləri bayraq kimi dirəkdən istifadə edirdilər, onun yuxarısında quş, heyvan və ya hansısa əşyanın təsviri vardı. Parçadan hazırlanmış ilk bayraqların Çin, Hindistan və Romalılar arasında meydana gəldiyinə inanılır, lakin bəzi tarixi faktlar ilk parça bayraqların təxminən eramızdan əvvəl 1100-cü ildə Çində qeydə alındığını göstərir.[3]

Hər dövrün özünəməxsus xüsusiyyətləri vardır. Bü dövrə müvafiq də bayraqlar olmuşdur. Xatırlatmaq yerinə düşər ki, bir simvol kimi bayraq orta əsrlərdə hərbi yürüşlərdə xüsusilə istifadə olunan dəyərli bir əşya olmuşdur. Bəlkə də o, bir inam, təsəvvür mənbəyi kimi iştirak etmişdir. Onsuz döyüşə gedilməzdi, çünki savaşın nəticəsində əldə olunan qələbənin rəmzi kimi yüksəklikdə dalğalanması zəfərin müjdəçisi olduğunu göstərirdi. Bayrağı müəyyən yerə sancdıqdan sonra döyüş başlana bilərdi. Kitabi-Dədə Qorqud dastanında döyüşdə məğlub tərəfin bayrağının qılıncdan keçirilməsi belə qeyd edilir: “Qazan bəyin qardaşı kafirin bayrağını qılınclayıb yerə saldı”.[4] Bu fikir özü bayrağın döyüş zamanı mövcud olduğunu təsdiq edir.

Məlumdur ki, orduda bayrağı daşımaq, onu yüksəyə sancmaq xüsusi xidməti vəzifə və eyni zamanda qürur mənbəyi sayılır. Bu indi də belədir. Qarabağ zəfərində bölgələrimiz ermənisеparatçılarından azad edildikcə bayraqlar sancılır və bununla varlıq göstəricisinin kimə aid olduğu rəmzləndirilirdi. Bütün dövrlərdə əhali arasında onun müqəddəsliyinə inam olmuşdur.

Qadınların əlləri ilə tikdikləri bayraqlar dalğalanaraq bütöv bir xalqın vəhdətini göstərir. Azərbaycanda XX əsrin 80-ci illərində erməni separatçılarına, onların yersiz “miatsum” hərəkatına qarşı etiraz dalğaları başlayanda Bakıda Hökumət evi qarşısında dalğalanan ilk bayrağı tikən məhz bu məqalənin müəllifi Şirin Bünyadovadır. Məsələ burasındadır ki, bayrağın tezliklə bizim nümayişlərdə boy göstərməsi üçün onu tələsik tikib yoldaşım Əsgər Əhmədə təhvil verdim. O demişdi ki, Bakı univermağından aldıqları üç ayrı parçanı birləşdirim, rənglərin yerlərini müəyyənləşdirib tikim. Düzdür, o vaxt yaşıl əvəzinə alınan parça xaki rəngində idi. Amma olsun.

---

[1] https://fr-olymp.ru/blog/istoriya-flagov-znacheniya-tsvetov-reglamentatsiya-pri-izgotovlenii. 18.01.2024
[2] https://fr-olymp.ru/blog/istoriya-flagov-znacheniya-tsvetov-reglamentatsiya-pri-izgotovlenii. 18.01.2024
[3] https://masterflag.ru/info/ 19.02.2024
[4] Kitabi Dədə Qorqud. Bakı, Yazıçı, 1988, s.149.

Parçaları tez hissələrə ayırdıq ki, bir neçə bayraq hasil olsun. Mən onları tikdikdən sonra kənarında anamın yardımı ilə dəstək yeri də düzəltdik ki, onu dayağa birləşdirib yuxarı qaldırmaq mümkün olsun. Sonra yoldaşım onu da əlavə etdi ki, təcili düzəlt, çünki üzərinə təbaşirlə ay ulduz şəkli çəkəcəyik. O qədər tələsirdik ki... Bu təlaş bizim həyatımızın ən şirin və sevimli dəqiqələri idi. Çünki xalqa xidmətin qürurunu yaşayırdıq.

Müasir dövlət bayrağımız bərabər enli üç üfüqi zolaqdan yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdə olmaqla - qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvirindən ibarətdir. Bayrağın mavi rəngi türkçülüyü, qırmızı müasirliyi, demokratiyanı, yaşıl rəng isə İslamı tərənnüm edir.

Aydın məsələdir ki, bayraqlarda müəyyən qaydaların olması gərəklidir ki, bu da onun müəyyən ölçüyə malik olmasında özünü büruzə verir. Müasir dövrdə tarix səhnəsindən silinib gedən xalqlar vardır ki, onlar bayrağını yaşada bilməyənlərdir. Mədəniyyətlərindən əsər əlamət qalsa da, bayraqlarından heç yerdə dalğalanmır. Onlar tarix səhnəsindən birdəfəlik silinib, yox olub getmişlər. Deməli, bayraq onu əsrlərə daşıyıb yaşadan xalqların qeyrət rəmzidir. Onun varlığı və dəyişə bilməsi tarixlə, siyasətlə sıx bağlıdır.

Azərbaycanın tarixində çox bayraqlar dalğalanıb. Lakin ulu tanrı indiki bayrağımızı qalib etsin, daim qılsın. Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, Məmməd Əmin Rəsulzadə parlamentin açılışında "bir kərə yüksələn bayraq bir daha enməz"- söyləyib: "İştə qoy bugünkü gün, milli bayraqlara boyanmış Azərbaycan paytaxtı, o kimi bədbinlərin qəlbini təsfiyə etsin! Bir sənəlik həyat həqiqətən də göstərdi ki, bir kərə açılmış Ləvai-hürriyyət bir daha bükülməz!". [1] Tarixi yaddaşdan süzülüb gələn xatirələrdən boylanan M.Süleymanovun əsərində qeyd edilir ki, Məmməd Əmin Rəsulzadə "aypara və səkkizguşəli, ulduzlu qırmızı, abı, yaşıl zolaqlı üçrəngli Azərbaycan bayrağını göz bəbəyi kimi qoruyurdu, evdən çıxanda bədəninə alt köynəyinin üstündən səriyib sonra geyinirdi". [2] Azərbaycan Milli Mərkəzinin sədri Məhəmməd Kəngərli (Türkiyədə mühacirətdə olan) Azərbaycan bayrağını Əbülfəz Elçibəyə təqdim edib.[3]

Onu da qeyd edək ki, 20 yanvar hadisəsində əhali öz etirazını, hüznünü eyvanlardan asılan qara bayraqlarla göstərməyə çalışdı. Hamı birlik nümayiş etdirib evlərində mövcud olan hər hansı bir qara rəngli parçanı bayraq adına bağlamağı özünə mənəvi borc bilirdi. Çünki heç kəsin evində təbii ki, qara bayraq olmur. Ağ bayrağın da müəyyən məna çaları vardır. O özündə təslimiyyəti mənalandırır.

Orta əsrlərdə belə bir qayda var idi ki, bayramlarda, təntənəli günlərdə və ya başqa xanlıqlardan nümayəndələr qonaq gəldikdə onların qarşısına əsnaflar öz bayraqları ilə çıxmalı idilər.[4] Orta əsrlərdə "Azərbaycan şəhərlərindəki sənətkarların öz bayraqları var idi. Hər bayrağın üzərinə həmin sənətkarın gerbi vurulurdu, gerbdə adətən həmin sənətə aid olan alətlər təmsil olunurdu".[5]

Bayrağa yüklənən digər məzmun Şah Təhmasibin təzkirəsində belə ortaya çıxır:

Ey bütün mövcudatı yaradan,
Aciz torpağı qüdrətli edən!
Kainat sənin bayrağın altında oturmuşdur,
Bizim varlığımız səndən, səninsə varlığın zatındadır.[6]

---

[1] Rəsulzadə M.Ə. Əsərləri II cilddə, (1909-1914). II c., Bakı, Şirvannəşr, 2001, s.35.
[2] Kitabi Dədə Qorqud. Bakı, Yazıçı, 1988, s.78
[3] Əhm əd D. Cumhuriyyət bayrağı. Bakı, Çapar, 2023, s.71.
[4] İsmayıl M., Bağırova M. Şəki xanlığı. Bakı, Azərnəşr, 1997, s.61.
[5] Azərbaycan incəsənəti. Bakı, İşıq, 1992, s.182.
[6] Şah Təhmasibin təzkirəsi (fars dilindən tərcümə Rəhimov Əbülfəz Haşım oğlunundur). Bakı, Azərnəşr, 1996, s.38.

Burada Allaha müraciət edilməklə qeyd olunan bayraq sözü bildiyimiz mənada deyil, yaradanın bayrağı anlamı kəsb edir. Yəni, belə bir fikir əsaslandırılır ki, dini müstəvidə təqdim olunan bayraq Allahın böyüklüyüdür, hamı - bütün kainat əhli bərabər şəkildə onun təsiri altındadır.

Orta əsrlərdə Avropada bayraqlar yüksəlişə çatdı. Bu dövrdə bayraq fəal şəkildə inkişaf edir. Bayraq kral ailələrinin və zadəganların vacib atributuna çevrilir. Bütün bayraqlarda, bir qayda olaraq, nəslin fərqli əlamətləri qoyulurdu. Rəng və ya rəng birləşməsi öz təbiətinə görə deyil, ənənələr və baxışlar nəticəsində bu və ya digər məna qazanır.[1] Gürcüstan, İngiltərə, Norveç, İsveç və Danimarka bayraqlarında xaç şəklini görmək mümkündür. Bu xristianlığın işarəsi kimi qəbul olunur. Deməli, bayraqlara dini müstəvidə yanama prinsipi mövcuddur.

Ələm ərəb dilində bayraq deməkdir. O, «rənginə görə bir-birindən fərqlənib (Əməvilərdə ağ, Abbasilərdə qara, Teymurilərdə sarı və qırmızı, səfəvilərdə yaşıl və s.). ələmləri daşımaq hüququ, adətən, müharibələrdə qəhrəmanlıq göstərən döyüşçülərə verilib. Sonralar ələm bəzi Yaxın Şərq ölkələrində dini mahiyyət kəsb edərək müxtəlif təriqətlərə məxsus əlamətə çevrilib. Misal üçün, Səfəvilər dövlətinin iqtidar simvolu olmuş əl fiquru Ələm adlanır, bu fiqur qara rəngli bayrağın ağacının ucuna taxılır və dini mərasimlər, ilk növbədə məhərrəmlik zamanı arada gəzdirilir. Ələm gəzdirənlərə ələmdar (bayraqdar) deyilir.[2]

Qeyd edək ki, "Yaponiya "doğan günəş ölkəsi" kimi tanınır və buna görə də bayrağının ortasında günəşi təmsil edən dairəvi formaya malikdir. Yaponiyanın dövlət bayrağı "Hinomaru" adlanır. Bu bayraq XIX əsrin sonlarına doğru qəbul edilmiş və istifadə olunmağa başlamışdır. Bayraqdakı ağ fonda qırmızı dairə ölkədən çıxan günəşi təmsil edir. Hinomaru sözünün mənası da elə "günəş dairəsi" deməkdir"[3] Bu da bayrağın coğrafi məna çalarını özündə cəmləşdirir.

Bayraq xalqın rənglərə boyanmış milli ruhunun təcəssümüdür. O, tarixən yaranaraq siyasi hadisələrin diktəsilə zamanla tarix səhnəsindən silinib gedə bilir. Bayraq fərqlilik nümunəsidir. O, seçilməni təmin edir. Ümumiyyətlə, bayraqlarda simvolik işarələr, tarixi hadisələrdən doğan reallıq, coğrafi vəziyyət, dini inanc və s.öz təcəssümünü tapır.

Elmi ədəbiyyatda etnik və ya milli bayraq anlayışı mövcuddur. Bunlar əsasən müəyyən etnik qrupun, azlıqların, diaspor hərəkatının rəmzinə çevrilir. Əsas odur ki, "İskəndərnamə" əsərində Nizami Gəncəvi azərbaycanlıların mental düşüncə tərzindən süzülüb gələn belə bir ideyanı göstərir ki,

Dünyanı namusla saxlamaq lazımdır
Onun sayəsində bayraq ucalar.[4]

Şair bu fikriylə dövlətin qalıcı olmasının təməl səbəbini onun ədalətlə idarə olunmasında görür.

Bayraqlar bir bildiriş rəmzidir. Əslində hərbdə və ya digər yerlərdə bayrağın ucaldılması mərdi-mərdanə onun özlərindən savayı başqalarına da göstərilməsi aydınlığın, aşkarlığın olmasına dəlalət edir. Tayfanın, qəbilənin, xalqın niyyət və amalı məhz bayrağın vasitəsilə bilinir. Ə.Nəcəf yazır: "türklərdə müqəddəs rənglərin başında qırmızı ilk sırada gəlir. Türk dövlətlərinin əksəriyyətinin bayrağı da məhz qırmızı rəngdə olmuşdur".[5]

Müxtəlif səviyyəli siyasi və diplomatik görüşlərdə bayraqlardan mühüm əhəmiyyət kəsb edərək fərqləndirici amil kimi istifadə edilir. Heydər Əliyev: "Bu dəqiqələrdə biz tarixi anlar yaşayırıq. Az sonra Azərbaycanın bayrağı Avropa Şurası Sarayının önündə dalğalanacaqdır. Bu

---

[1] https://fr-olymp.ru/blog/istoriya-flagov-znacheniya-tsvetov-reglamentatsiya-pri-izgotovlenii. 18.01.2024.
[2] Balayev A. Tarix terminləri lüğəti. Bakı, «Altun kitab», 2017, s.83.
[3] https://yenisabah.az. 15.02.2024.
[4] Gəncəvi N. İsgəndərnamə. Bakı, Elm, 1983, s.125.
[5] Nəcəf Ə.N. İnanc yaddaşı (köklər və tarixlər). İnanc yaddaşı. Bakı, İzmedia, 2014, s.186.

bayrağın rənglərindən birinin mənası müasirləşmək, yəni avropalaşmaqdır. Xoşbəxtik ki, hamımızın ümumi səyləri ilə bayrağımız bir daha öz həqiqi mənasına qovuşur, öz həqiqi yerini tutur”.[1]

Bayraqlar mahiyyətinə görə müxtəlif olur: milli, idman, hərbi, və s. Bundan əlavə milli yas səbəbiylə onların yarıya endirilməsi faktı da dövlətlərin tarixində qeydə alınan faktdır.

Azərbaycanda Qarabağ hadisələri zamanı 44 günlük mücadilə dövrü boyunca və xüsusilə zəfərin sonunda Türkiyənin dövlət bayrağının Azərbaycanın dövlət bayrağı ilə bərabər dalğalanması R.T.Ərdoğan Türkiyəsinin həm siyasi və mənəvi dəstəyinin, həm də ümumxalq məhəbbətinin, hörmətinin bariz nümunəsi idi. Bundan əlavə əksər yerlərdə Pakistan bayrağının da var olması sevindirici hadisə idi. Çünki 3 bayrağın sancılması ədalətli mücadiləmiz yolunda onların birlik numayiş etdirmələri, dəstək göstərmələri bu üç millətin xalqımızın nümayəndələri tərəfindən yüksək dəyərləndirilməsinə işarədir. Kaş bu haqq işimizdə əlimizdə qlobus tuta biləydik.

Bayrağın eyni zamanda ruhlandırıcı gücü vardır. Belə ki, o özündə təntənəni, əzəməti ehtiva edir. O, qələbə yolunda tutulan çıraqdır, uğurlu yolun mayakıdır, namus və qeyrət rəmzidir. Bu səbəbdəndir ki, prezidentimiz cənab İlham Heydər oğlu Əliyev bölgələrimizdə onu dalğalandırdıqda əvvəlcə bayrağı öpüb sonra ucaldır. Son zamanlarda Azərbaycan bayrağının azadlığa çıxmış vətən torpaqlarının hər qarışında yüksəkliyə sancılması qürurverici hadisədir. Hər bayraq asıldıqca xalqımızın ədalətin zəfər çalacağına inamı daha da artır. Çünki İlham Əliyev demiş: bayraq qanımız, canımızdır. Hər bir Azərbaycanlı da bunu belə görür.

Mithat Cemal Kuntayın dediyi du dəyərli sözlər dillər əzbəridir: Bayrakları bayrak yapan üstündeki kandır, Toprak eğer uğrunda ölen varsa vatandır.[2] Mahnılarımızda bayrağımıza verilən dəyər bu sözlərlə öz ifadəsini tapır: “Qurban olum Azərbaycan bu müqəddəs bayrağına” və ya “çırpınırdı Qara dəniz baxıb türkün bayrağına” “bu üç rəngli bayrağım gözümün işığıdır”

**Nəticə.** Beləliklə, tarixən bayraqlar tayfaların, hakimlərin, xalqların simvolunu özündə ehtiva edir. O, dövlət atributu olmaqla mənsubiyyət göstərən əlamətdir. Bayrağın üzərində müəyyən rəmz, nişan olmaqla o, özünəməxsus rəng çalarına malik olur. Onlarda dini simvolları görmək mümkündür. Bayraqlara dini baxımdan yanaşma dövlətlərin dünyagörüşündən süzülüb gəlir. Bu da onların rəngindən, üzərindəki işarələrdən bilinir. Bayraq müstəqilliyin rəmzidir. Bayrağı vətənlə bərabərləşdirmək, onların ayrılmazlığını göstərmək, şəhidləri son mənzilə uğurlayanda üzərinə bayraq sərmək türk xalqlarında onun dəyərini əks etdirir. Yəni, tarixin müxtəlif dövrlərində yaranmaqla xalqların həyatında mühüm əhəmiyyət kəsb edən bayraq bir dəyərə çevrilir. Çünki o, rəsmiyyət qazansa da, əslində milli ruhu özündə daşıyır. Azərbaycanın Dövlət başçısı Ilham Əliyevin sərəncamıyla noyabrın 9-u Dövlət Bayrağı günü kimi qeyd edilir. Şanlı bayrağımız daim yüksəklərdə ucalsın.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT- REFERENCES

1. Azərbaycan incəsənəti. Bakı, İşıq, 1992, 344 s.
2. Balayev A. Tarix terminləri lüğəti. Bakı, «Altun kitab», 2017, 336 s.
3. Əhməd D. Cumhuriyyət bayrağı. Bakı, Çapar, 2023, 164 s.
4. Gəncəvi N. İsgəndərnamə. Bakı, Elm, 1983, 650 s.
5. İsmayıl M., Bağırova M. Şəki xanlığı. Bakı, Azərnəşr, 1997.
6. Kitabi Dədə Qorqud. Bakı, Yazıçı, 1988, 265 s.

[1] https://mod.gov.az/az/pre/24822.html / 12.02.2024
[2] https://www.milliyet.com.tr/siirler/on-bes-yili-karsilarken-siiri-mithat-cemal-kuntay-6405067/ 07.02.2024.

7. Nəcəf Ə.N. İnanc yaddaşı (köklər və tarixlər). İnanc yaddaşı. Bakı, İzmedia, 2014, 352 s.
8. Rəsulzadə M.Ə. Əsərləri II cilddə, (1909-1914). II c., Bakı, Şirvannəşr, 2001, 528 s.
9. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, Azərbaycan, 1996, 384 c
10. Şah Təhmasibin təzkirəsi (fars dilindən tərcümə Rəhimov Əbülfəz Haşım oğlunundur). Bakı, Azərnəşr, 1996, 128 s
11. https://mod.gov.az/az/pre/24822.html/ 12.02.2024.
12. https://yenisabah.az. 15.02.2024.
13. https://www.milliyet.com.tr/siirler/on-bes-yili-karsilarken-siiri-mithat-cemal-kuntay-6405067/ 07.02.2024.
14. https://masterflag.ru/info/ 19.02.2024.
15. https://fr-olymp.ru/blog/istoriya-flagov-znacheniya-tsvetov-reglamentatsiya-pri-izgotovlenii/ 18.01.2024.

MÜƏLLİF HAQQINDA MƏLUMAT

Bunyadova Şirin Teymur qızı – tarix elmləri doktoru,
professor, AMEA A.A.Bakıxanov adına Tarix və
Antropologiya İnstitutu,
Azərbaycan, Bakı.

INFORMATION ABOUT THE AUTHOR

Bunyadova Shirin Teymur qızı - doctor of historical
sciences, professor, Institute of History and Antropology
named after A.A.Bakikhanov, ANAS, \
Azerbaijan, Baku.

## 2003-2022-Cİ İLLƏRDƏ AZƏRBAYCANIN MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN ERMƏNİLƏR TƏRƏFİNDƏN MƏNİMSƏNİLMƏSİ

GÜLŞƏN KƏNGƏRLİNSKAYA.
*A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*ORCID: 0009-0009-3512-9967; gulshan27@mail.ru*

***Xülasə:*** Azərbaycanın mədəni irsi və memarlıq abidələri xalqımızın tarixinin ayrılmaz hissəsidir. Maddi-mədəniyyət abidələri həm xalqımızın qədim və zəngin tarixinin canlı şahidi, həm də mənəvi dəyərlərimizin göstəricisidir. Məhz bu baxımdan maddi-mədəniyyət abidələrininqorunması və təbliği mühüm əhəmiyyət kəsb edir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü yüzlərlə insanın həyatını itirməsi, evlərin, bütöv qəsəbə və şəhərlərin dağıdılması ilə yanaşı mədəni irsimizin məhv edilməsi, mənimsənilməsi və tariximizin total saxtalaşdırılması ilə müşaiyət olunmuşdur. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə paralel başlayan mədəni irsin soyqırımı siyasəti beynəlxalq təşkilatların mədəni irsin qorunması ilə bağlı qəbul etdiyi konvensiyalara ziddir və anti-humanist xarakter daşıyır. Bu məqalədə müasir dövrümüzdə erməni separatçıların xalqımızın mədəni irsinə qarşı təşkil etdikləri təcavüz və onun ağır nəticələri araşdırılır, bu təcavüzün nəticələrinin aradan qaldırılması üçün mühüm olan yollar təhlil edilir.

**Açar sözlər:** tarixi abidələr, mədəni irs, Azərbaycan mədəniyyəti, erməni təcavüzü, tarixin saxtalaşdırılması.

GULSHAN KANGARLINSKAYA.
*Institute of History and Ethnology named after A.A. Bakikhanov*
*ORCID: 0009-0009-3512-9967; gulshan27@mail.ru*

## APPROPRIATION OF AZERBAIJANI CULTURAL MONUMENTS BY ARMENIANS IN 2003-2022

***Abstract:*** The cultural heritage and architectural monuments of Azerbaijan are an integral part of the history of our people. Material and cultural monuments are not only a living witness to the ancient and rich history of our people, but also an indicator of our moral values. That is why the preservation and popularization of material and cultural monuments of the nation is of great importance. Armenia's military aggression against Azerbaijan was accompanied by the death of hundreds of people, the destruction of houses, entire cities, as well as the destruction and appropriation of our cultural heritage and the total falsification of our history. The policy of genocide of cultural heritage, which began in parallel with the territorial claims of Armenia against Azerbaijan, contradicts the conventions adopted by international organizations for the protection of cultural heritage and is anti-humanistic in nature. This paper examines the aggression organized by Armenian separatists against the cultural heritage of our people and its serious consequences and analyzes possible ways to eliminate the consequences of this aggression.

**Keywords:** historical monuments, cultural heritage, Culture of Azerbaijan, Armenian aggression, falsification of history.

**Giriş:** Otuz ildən artıq işğal altında qalmış torpaqlarımızın geri qaytarılması bu torpaqlarda yaradılmış maddi-mədəniyyət abidələrimizin, tarixi irsimizin yerinin müəyyənləşdirilməsi, bərpası və qorunmasını ümdə vəzifələrdən birinə çevirir. İşğal altında qalmış torpaqlarda erməni təcavüzkarlarının həyata keçirdiyi qeyri-humanist siyasət təkcə iqtisadiyyata dəymiş ziyanla ölçülmür, bu siyasət həmçinin Azərbaycan xalqının tarixi irsinə, mədəniyyətinə qarşı yönəlmiş təcavüzdür. Bu təcavüz eyni zamanda, xalqımızın maddi-mədəniyyət abidələrinin dağıdılması və

mənimsənilməsi, tarixin kobud şəkildə saxtalaşdırılaraq dünya ictimaiyyətinə çatdırılması cəhdlərindən ibarətdir. Həm Azərbaycanın işğal altında olan ərazilərində, həm də soydaşlarımızın etnik təmizləmə nəticəsində tərk etdikləri Qərbi Azərbaycan ərazisində maddi-mədəniyyət abidələrinin taleyinin araşdırılması, talanan mədəni irsimizin siyahısının müəyyənləşdirilməsi və onların qorunma istiqamətində vahid bir platformanın hazırlanması bir neçə səbəbdən mühüm əhəmiyyət kəsb edir. Bu, ilk növbədə Ermənistanın əsassız ərazi iddialarının qarşısının alınması üçün əhəmiyyətlidir. İkincisi, Ermənistanın maddi-mədəniyyət abidələrinə qarşı qeyri-humanist rəftarının ifşası onun siyasi müstəvidə yeritdiyi siyasətinin mahiyyətini dünya ictimaiyyətinə çatıdılrması üçün önəmlidir. Nəhayət, maddi-mədəniyyət abidələrimizin taleyinin müəyyənləşdilirməsi və təhlili zəngin mədəni irsimizin qorunması və gələcək nəsillərə çatdırılması baxımından zəruridir.

Azərbaycanın Qərb hissəsi və Qarabağ bölgəsinin həm siyasi, həm də sosial tarixinə həsr olunmuş küllü miqdarda tədqiqat əsərləri yaradılsa da, Ermənistan tərəfindən maddi-mədəniyyət abidələrimizə qarşı təşkil olunmuş təcavüzün və qeyri-humanist siyasətin təhlilinə aid tədqiqatlar o qədər də çox deyil. Qarabağ münaqişəsinin başlandığı keçən əsrin sonlarında bölgənin tarixinin və maddi-mədəniyyət abidələrinin saxtalaşdırılması ilə bağlı ilk elmi fikir söyləyən tanınmış alimlərdən biri İqrar Əliyev olmuşdur.[1] Qarabağın maddi-mədəniyyət abidələrinin tarixini araşdıran və erməni saxtalaşdırmalarına qarşı əsaslı dəlillər ortaya qoyan tədqiqatçı Q.Hacıyev əsərlərində mədəni irsimizin mənşəyinə xüsusi diqqət yetirmişdi.[2] Azərbaycan arxeoloqu T.Dostiyevin "Qarabağın orta əsr arxeoloji abidələri və ermənilərin mədəni soyqırımı siyasəti" adlı məqaləsində işğal altında qalmış torpaqlarda erməni separatçıları tərəfindən ən çox mənimsənilən və dəyişdirilən mədəni irs nümunələri təhlil edilir. Tədqiqatçı F.İsmayılovun "İşğal altındakı Azərbaycan ərazilərində Xristian və İslam dini abidələrinin qəddarlıqla məhv edilməsi" adlı məqaləsində erməni təcavüzünə məruz qalmış dini abidələrin dağıdılması və mənimsənilməsi faktları araşdırılır.[3]

**Hərbi münaqişələr və maddi-mədəniyyət abidələrimizin taleyi.** Azərbaycanın Qarabağ bölgəsində münaqişə başlamamışdan öncə yüzlərlə beynəlxalq və dövlət əhəmiyyətli maddi-mədəniyyət abidələri mövcud idi. Birinci Qarabağ müharibəsindən sonra Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə onlarla muzey, yüzlərlə kitabxana və incəsənət qalereyaları məhv edilmişdir.[4] Dağıdılan ən böyük mədəniyyət abidəsi sözsüz ki, Kəlbəcər ərazisində yerləşmiş Tarix və Düyarşünaslıq muzeyi idi. Muzeyin zəngin eksponatları, bölgənin təbii və mineral sərvətlərindən ibarət kolleksiyalar, orta əsrlərə aid sikkələr dağıdılmış və ya mənimsənilmişdir.[5] Tarixi eramızdan əvvəllərə gedib çıxan müxtəlif əkinçilik abidələrinin qorunduğu Ağdam Çörək muzeyi erməni təcavüzü nəticəsində məhv edilmiş unikal muzeylərdən biridir. MİnlərIə qiymətli tarixi eksponatlara malik olmuş Qubadlı və Zəngilan Tarix və Diyarşünaslıq muzeylərinin talan edilməsi Azərbaycan xalqını tarixi və mədəni irsindən məhrum etmək məqsədi daşıyır. Şuşa xalça muzeyindən 300 ildən çox tarixə malik xalçaların qanunsuz şəkildə əldə edilməsi və Ermənistanda sərgilərdə nümayiş etdirilməsi, hətta xarici ölkələrdə satışa çıxarılması faktları qonşu dövlətin Azərbaycan xalqının mədəni irsinə qarşı törətdiyi ağır cinayətlərdən hesab edilməlidir. Maraqlıdır ki, mədəniyyət təcavüzkarları Şuşa xalçalarının talan edilməsi faktına maddi-mədəniyyət abidələrini özünün-

[1] Алиев И. Лжеистория – очередная попытка оправдать агрессию. Баку, Нурлан, 2003.
[2] Hacıyev Q. Qarabağın maddi və mənəvi mədəniyyəti Azərbaycanın maddi və mənəvi mədəniyyətidir // AMEA Folklor İnstitutu beynəlxalq elmi konfransın materialları. Bakı, 2006.
[3] Qafqazda mədəni-dini irsin qorunması. Beynəlxalq Elmi Konfransın Tezislər Toplusu. Bakı, 2015. s.18-25
[4] İsmayılov K., Balayev A. Azərbaycanın tarixi-mədəniyyət abidələrinə qarşı erməni terroru. Bakı, Maarif, 2020. s.97.
[5] Ermənistanın Azərbaycana məxsus mədəni və tarixi irsi mənimsəməsi. Bakı:Beynəlxalq münasibətlərin təhlili mərkəzi, 2021. s.5

küləşdirməklə qanuni don geydirməyə çalışmış, hətta bu haqda sənədli sübutlar da hazırlamışdılar. 2021-ci ilin may ayında Ermənistanın Civilnet platformasından "Şuşa xalçaları: Xəzinə Yerevandadır" adlı məlumat paylaşılması Azərbaycan mədəniyyətinin mənimsənilməsi cəhdlərini sübut edir.[1]

2020-ci ildə 44 günlük müharibədən sonra işğal edilmiş əraziləri geri qaytarmaq məcburiyyətində qalan erməni təcavüzkarlar Azərbaycanın maddi-mədəniyyət abidələrinə qarşı xüsusi qəddarlıq nümayiş etdiriblər. Kəlbəcər bölgəsində yerləşən Xudavəng monastırında mövcud olan tarixi abidələr tamamilə talan edilib. Monastırın divarlarındakı freskalar sökülərək aparılıb. Ermənistanın Azərbaycana qarşı təcavüzünün və Qarabağda separatçı əhval-ruhiyyənin tarixi köklərə malik olduğunu nəzərə alsaq maddi-mədəniyyət abidələrinin torpaq iddiaları ilə bilavasitə əlaqəsi olduğunu görə bilərik. Azərbaycana qarşı torpaq iddialarını əsaslandırmaq üçün Ermənistan siyasətçiləri və alimləri maddi-mədəniyyət abidələrinə, xüsusilə də dini və memarlıq abidələrinə istinad edir və tarixi saxtalaşdırmaya əl atırlar.

1991-1994-cü illərdə aparılan hərbi döyüşlər nəticəsində xalqımızın mədəni irsinin böyük hissəsi dağıdılmış, bir hissəsi isə mənimsənilmişdir. İşğal altında olduğu dövrdə bir sıra arxeoloji düşərgələrdə, Azıx, Xantəpə, Şomutəpə və digər mağaralarda qanunsuz qazıntı işləri aparılmış, bir sıra məscid kompleksləri, qəbirlər, türbələr dağıdılmışdır. Maraqlıdır ki, 2001-ci ildən başlayaraq, işğal olunmuş ərazilərdə yerləşən arxeoloji abidələrdə təkcə Erməsnitan deyil, Qərbin də arxeoloqları qazıntı işlərinə cəlb olunub. Xocavənd, Ağdam, Şuşa və Xankəndidə aparılan qazıntılarda İspaniya, Böyük Britaniya, İrlandiya və Niderlanddan olan ekspertlər iştirak ediblər. 2001-2009-cu illərdə Azıx mağarasında bir sıra beynəlxalq ekspedisiyalar tədqiqatlar aparıb.[2] 2007-2017-ci illər arasında Xudavəng monastırı ətrafında aparılan qazıntılar zamanı əldə edilən tarixi abidələr Ermənistan dini institutlarına təhvil verilib.

Xocavənd bölgəsinin Tuğ və Tağlar kəndləri arasında yerləşən Tağlar mağara düşərgəsi Qafqazın paleolit dövrünə aid mühüm tarixi abidələrindən sayılır. 2002-2011-ci illər arasında xarici arxeoloqların iştirakı ilə mağarada aparılan qazıntı işləri zamanı əldə edilmiş bir çox tarixi nümunələr Ermənistana və digər xarici ölkələrə aparılmışdır.

Ermənistanın Azərbaycana qarşı mədəni irsin soyqırımı siyasəti təkcə mədəniyyət abidələrinin dağıdılması və talan edilməsi ilə məhdudlaşmır. Azərbaycana qarşı torpaq iddialarına malik Ermənistanda bu iddiaları əsaslandıran əsas tarixi nəzəriyyə türk xalqların Qafqaz ərazisinə orta əsrlərin son dövründə gəlməsi və bu ərazilərin aborigen əhalisi olmaması fikrinə söykənir. Bu fikri sübuta yetirmək üçün Ermənistan siyasətçiləri və alimləri Azərbaycan xalqının keçmişini total şəkildə saxtalaşdırmağa cəhd edir, alban tarixinə və mədəniyyətinə aid hər bir şeyi özününküləşdirməyə can atırlar. Bu siyasət ilk növbədə erkən orta əsr mədəniyyəti üçün xarakterik olan dini abidələrin, kilsələrin, dua evlərinin, türbələrin, ibadətgahların ya dağıdılması, ya da erməniləşdirilməsi vasitəsilə həyata keçirilir.

Tarixi ən çox saxtalaşdırılanlar isə Qafqazın aborigen sakinləri sayılan albanlardır. Ermənistan tarixçiləri israrla yerli albanların tarixini və maddi-mədəniyyət abidələrini ermənişləşdirməyə çalışırlar. Ermənilərin mənimsəməyə çalışdıqları ən qədim tarixi abidələrdən biri Tərtər bölgəsində Suqovuşan və Təpəkənd arasındakı ərazidə V əsrdə inşa edilmiş Müqəddəs Yelisey tarix-memarlıq kompleksidir. Qafqaz Albaniyasının Arşakilər sülaləsindən olan nümayəndəsi III Mömün Vaçaqan tərəfindən inşa edilmiş bu tarixi abidə ilkin olaraq Zərdüştlük

[1] Shushi Carpets. A Treasure in Yerevan. https://www.youtube.com/watch?v=-TRK0hVe1iQ.– müraciət tarixi 17.10.23.
[2] Fernandez-Jalvo, Y. et al. Quaternary deposits at the lesser Caucasus. The Armenian corridor. Geological Society of America, July 24, 2003.

məbədi kimi istifadə olumuş, sonralar isə xristian kilsəsinə çevrilmişdir.[1] Tarixi saxtalaşdırılan qədim alban kiləsələrindən biri də Kəlbəcərin Kolatağ kəndində yerləşən, Böyük Arran və ya Müqəddəs Yaqub Monastırı adlandırılan kilsədir. Kilsə təqribən VII-VIII əsrlərdə inşa edilmiş, XIII əsrin əvvəllərində isə Xaçın hökmdarı Vaxtanqın xanımı, Alban hökmdarı Həsən Cəlalın anası Xorişə xatun tərəfindən bərpa etdirilmişdir.[2] 2022-ci ildə Yerevanda nəşr edilmiş "Arsaxın təhlükə altında olan erməni irsi" adlı kitabda albanlara məxsus by tarixi abidə erməni kilsəsi kimi təqdim edilir.[3] Kəlbəcərin Vəngil kəndində, Xaçınçayın sol sahilində yerləşən Gəncəsər tarixi-memarlıq abidəsi alban tarixinin saxtalaşdırılmasının digər parlaq nümunəsidir. XIII əsrin möhtəşəm tarixi abidələrindən sayılan bu monastrın inşası Alban hökmdarı Həsən Cəlalianın oğlu Atabəy tərəfindən həyata keçirilmişdir.[4] Bir neçə əsr müstəqilliyini qorumağa müyəssər olmuş Alban Havari kilsəsi XVIII əsrin əvvəllərində erməni Qriqoryan kilsəsinin təzyiqlərinə tab getirməyərək ondan asılılığı qəbul etməyə məcbur olmuşdur.[5] Ermənistan tarixçiləri və dini institut rəhbərləri bu hadisələrdən Alban xalqının maddi-mədəni irsini mənimsəmək və tarixini saxtalaşdırmaq, albanları isə erməniləşdirmək üçün istifadə edirlər. Rusiya imperiyasının Cənubi Qafqazı işğalındna sonra erməni Qriqoryan kilsəsi Alban Havari Kilsəsinin tamamilə ləğv edilməsinə nail olur. Gəncəsər tarixi abidə kompleksi müasir dövrümüzdə iki dəfə, 2000-2002 və 2011-ci illərdə bərpaolunma işlərinə məruz qalmış və abidənin dam və üz örtüyü müasir inşaat materialları ilə əvəz edilmişdir. Ermənistan alimləri abidənin tarixini saxtalaşdıraraq onu alban köklərindən qopararaq erməni mədəniyyət nümunəsi kimi təqdim edirlər. Azərbaycan tədqiqatçılarının araşdırmaları isə albanların taleyinin ermənilərlə deyil, yerli türk xalqı ilə sıx bağlı olduğunu sübut edir. Bu tədqiqatlar sübut edir ki, Qafqazın yerli sakinləri olan albanlar bölgədə gedən mürəkkəb sosial-tarixi proseslərin təsiri altında tədricən türkləşmiş və İslamı qəbul etmişdilər. Bu elmi fərziyyə Alban maddi-mədəniyyət abidələrinin tədqiqatçısı M.Nemət tərəfindən Zəngəzur ərazisində aşkar olunmuş və XIV-XVII əsrlərə aid qoç heykəlli və sənduqə formalı məzar daşlarının araşdırılması nəticəsində təsdiqlənmişdir.[6]

Azərbaycanın Ermənistan tərəfindən mənimsəmə siyasətinə məruz qalan digər maddi-mədəniyyət abidələri Qaraqoyunlu və Ağqoyunlu dövrünə aid türbələrdir. Laçın, Xocalı, Ağdam, Cəbrayıl bölgələrində yerləşən XIV-XV əsrlərə aid çoxlu saylı türbələr Ermənistan irsi kimi təqdim edilir. Mənimsəmələr əsasən abidələr üzərində İslam dininə məxsus simvolların, işarələrin xristian simvolları ilə əvəz edilməsi vasitəsilə həyata keçirilir. Şuşada yerləşən Mamay məsçidinin ətrafındakı İslam dininə məxsus xatirə lövhəsi xristian nişanələrlə əvəzlənib.[7]

Ermənistanın Azərbaycan mədəni irsinə qarşı təcavüzünün digər forması azərbaycanlılara məxsus mədəniyyət abidələrinin farslaşdırılması siyasətidir. Buna Şuşa şəhərində yerləşən Yuxarı Gövhərağa məsçidi nümunə ola bilər. Məsçid Azərbaycan deyil, İran mədəni irsinin nümunəsi kimi təqdim olunur. Bu fikri beynəlxalq aləmdə möhkəmlətmək üçün erməni təcavüzkarlar məsçidin bərpa işlərinə İranın memarlıq şirkətini cəlb ediblər. Halbuki, Yuxarı Gövhərağa məsçidinin XIX

---

[1] Каганкатваци, Мовсес. История страны Алуанк (в 3-х книгах) / Перевод с древнеармянского Ш. В. Смбатяна. Ереван: Институт древних рукописей им. Маштоца — Матенадаран, 1984. s.26
[2] Мамедова, Г. Зодчество Кавказской Албании, Баку: Чашыоглу, 2004. s.40
[3] Kortoshian R. The Endangered Christian Armenian Heritage. Yerevan, Research on Armenian Architecture Foundation, 2022. s.6
[4] Мамедова, Ф. Кавказская Албания и албаны. Баку: Азернешр, 2005. с.41.
[5] Гусеинов, Ризван. "К истории арменизации и упразднения албанской церкви Гандзасара". IRS. 86 (№ 2), 2017, с.37-38.
[6] Неймат М.С. Эпиграфические памятники Карабаха //Азербайджан и азербайджанцы, № 11, 12, 2002. с. 81.
[7] Ermənistanın Azərbaycana məxsus mədəni və tarixi irsi mənimsəməsi. Bakı:Beynəlxalq münasibətlərin təhlili mərkəzi, 2021. s.16

əsrin sonunda Qarabağ xanı İbrahimxəlil xanın qızı Gövhərağanın tapşırığı ilə memar Kərbəlayi Səfixan Sultanhüseyn oğlu Qarabaği tərəfindən inşa edildiyi məlumdur.[1] Qeyd etmək lazımdır ki, Şuşa azad edildikdən sonra Yuxarı Gövhərağa məsçidi bərpa edilən ilk abidələrdən olmuşdur. XIX əsr abidəsi olan Ağdamın Cümə məsçidinin də taleyi Yuxarı Gövhərağa məsçidinin taleyindən fərqlənmir. İşğaldan sonra tamamilə dağıdılan Ağdam şəhərində yeganə salamat qalan tikili olan Cümə məsçidi Fars məsçidi kimi tanıdılıb. İşğal zamanı məsçiddən heyvanların saxlanılması üçün istifadə edilib. İşğaldan azad olunduqdan sonra məsçiddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdır.

Azərbaycanım mədəniyyət irsinin dağıdılması, mənimsənilməsi və erməniləşdirilməsi siyasətinin bir qolunu respublikamızın ərazisində yerləşən maddi-mədəniyyət abidələrinin əksəriyyətinin guya erməni memarları tərəfindən inşa edilməsi konsepsiyası təşkil edir. 2010-cu ildə Ermənistanda erməni və ingilis dilində işıq üzü görmüş "Arsaxın erməni arxitekturasının müsəlman abidələri" adlı kitabçada Qarabağ ərazisində inşa edilmiş əksər memarlıq abidələrinin erməni memarları tərəfindən inşa edilməsi və erməni memarlıq üslubunun ciddi təsirinə məruz qalması kimi absurd fikirlər yer alıb.[2]

Hazırkı Ermənistan respublikası vaxtilə türk-azərbaycanlıların sıx məskunlaşdığı tarixi ərazidir. Birinci Qarabağ müharibəsi dövründə Ermənistanın yeritdiyi etnik təmizləmə nəticəsində azərbaycanlılar öz yurdlarını tərk etməyə məcbur olmuşdular. Azərbaycanlılar bu əraziləri tərk etditkdən sonra Ermənistan rəsmi dairələri türklərə aid olan bütün nişanələri, abidələri ya mənimsəmiş, saxtalaşdırmış, ya da məhv etmişdilər. Saxtalaşdırılmaya ən çox məruz qalan yer adları olmuşdur. Müasir Ermənistanda türk mənşəli toponimika tamamilə erməniləşdirilib, əksər mədəniyyət və dini memarlıq abidələri isə məhv edilib. Yerevanda yerləşən Dəmir Bulaq məsçidi dağıdılan abidlərdən biridir. Göy məsçid İran mədəniyyət irsi, Qaraqoyunlular dövründə inşa edilən Əmir Saad məsçidi isə monqol irsi kimi təqdim edilir.

**Nəticə.** Mədəniyyət insanları ümumi dəyərlər, baxışlar, adət-ənənələr vasitəsilə birləşdirir. Birgə yaradılmış mədəniyyət müxtəlif etnik qrupları bir-birinə yaxınlaşdıran, onlar arasında sülhü və əmin-amanlığı təmin edən, qarşılıqlı anlaşmanı gücləndirən amillərdəndir. Ziddiyyətli dövrümüzdə olduqca mühüm əhəmiyyət kəsb edən dinc yanaşı yaşamaq xalqların bir-birinin tarixinə, dininə, mənəvi dəyərləri və mədəniyyətinə hörmətlə yanaşmanı labüd edir. Qonşu olan xalqların qarşı tərəfin mədəniyyətinə, mənəvi dəyərlərinə diqqət və hörmətlə yanaşması olduqca önəmlidir. Lakin siyasi qüvvələrin revanşizm hisslərini əsassız qızışdırması, tarixi saxtalaşdıraraq qonşu xalqlara qarşı əsassıs torpaq iddiaları irəli sürməsi və bu iddiaları əsaslandırmaq üçün davamlı olaraq tarixi saxtalaşdırması olduqca təhlükəli tendensiyadır və beynəlxalq hüquq normalarına ziddir. Qeyd etmək lazımdır ki, 1954-cü ildə "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması" ilə bağlı qəbul edilmiş Haaqa Konvesiyası, 1992-ci ildə qəbul edilmiş "Arxeoloji irsin qorunması" ilə bağlı Avropa Konvensiyası və "Dünya mədəni və təbii irsinin qorunması" nı tənzimləyən YUNESKO Konvensiyası münaqişə zonalarında olan tarixi və maddi-mədəniyyət abidələrinin taleyini nizamlayır və ölkələr qarşısında mədəni irsə hörmətlə yanaşılması ilə bağlı ciddi öhdəliklər qoyur. Təəssüf ki, bu sənədlər Ermənistan hökumətinin Azərbaycanın tarixi və mədəni irsinə qarşı təcavüzünün qarşısını ala bilməmişdir.

Ermənistanın artıq bir əsrdən də çox zaman çərçivəsində Azərbaycana qarşı yürütdüyü düşmən siyasəti xalqımızın tarixini, mədəni irsini mənimsəmək, dağıtmaq və saxtalaşdırmaq vasitəsilə həyata keçirilir. Düşünürük ki, Azərbaycan mədəniyyətinə qarşı bu təcavüzün qarşısının

[1] Фатуллаев, Ш. С. Памятники Шуши. Баку, Элм, 1970, с. 68.
[2] Karapetyan S. Muslim monuments of Armenian architecture of Artsakh. Yerevan, 2010, p.49.

alınması ilk növbədə erməni tədqiqatçılarının saxtakarlıqlarının ifşa edilməsi, dağıdılmış mədəniyyət abidələri haqqında beynəlxalq ictimaiyyətin maarifləndirilməsi vasitəsilə mümkündür.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT- REFERENCES

Azərbaycan dilində

1. **Ermənistanın Azərbaycana məxsus mədəni və tarixi irsi mənimsəməsi**. Bakı:Beynəlxalq münasibətlərin təhlili mərkəzi, 2021.
2. Əliyev İ. **Dağlıq Qarabağ: Tarix, Faktlar. Hadisələr**. Bakı, Elm, 1989.
3. Əliyev İ., Məmmədzadə K. **Qarabağın alban abidələri**. Bakı, Azərnəşr, 1997.
4. Фатуллаев, Ш. С. **Памятники Шуши**. Баку, Элм, 1970.
5. Hacıyev Q. **Qarabağın maddi və mənəvi mədəniyyəti** (Azərbaycan, ingilis, fransız dillərində). Bakı, Təhsil, 2011.
6. Hacıyev Q. **Qarabağın maddi və mənəvi mədəniyyəti Azərbaycanın maddi və mənəvi mədəniyyətidir** // AMEA Folklor İnstitutu beynəlxalq elmi konfransın materialları. Bakı, 2006.
7. Hacıyev Q. **Qarabağ bölgəsində alban mədəniyyəti izləri və onların tarixi xüsusiyyətləri** //"Qarabağ dünən, bu gün və sabah". QAT. 10-cu elmi-əməli konfransının materialları. Bakı, 2011.
8. İsmayılov K., Balayev A. **Azərbaycanın tarixi-mədəniyyət abidələrinə qarşı erməni terroru**. Bakı, Maarif, 2020.
9. **Qafqazda mədəni-dini irsin qorunması**. Beynəlxalq Elmi Konfransın Tezislər Toplusu. Bakı, 2015.

İngilis dilində

10. Fernandez-Jalvo, **Y. et al. Quaternary deposits at the lesser Caucasus.** The Armenian corridor. Geological Society of America, July 24, 2003.
11. Karapetyan S. **Muslim monuments of Armenian architecture of Artsakh.** Yerevan, 2010.
12. Kortoshian R. **The Endangered Christian Armenian Heritage.** Yerevan, Research on Armenian Architecture Foundation, 2022.
13. **Shushi Carpets. A Treasure in Yerevan**. https://www.youtube.com/watch?v=-TRK0hVe1iQ.– müraciət tarixi 17.10.23

Rus dilində

14. Алиев И. **Лжеистория – очередная попытка оправдать агрессию**. Баку, Нурлан, 2003.
15. Гусеинов, Ризван. **"К истории арменизации и упразднения албанской церкви Гандзасара".** IRS. 86 (№ 2), 2017.
16. Каганкатваци, Мовсес. **История страны Алуанк** (в 3-х книгах) / Перевод с древнеармянского Ш. В. Смбатяна. Ереван: Институт древних рукописей им. Маштоца — Матенадаран, 1984.
17. Мамедова, Г. **Зодчество Кавказской Албании**, Баку: Чашыоглу, 2004
18. Мамедова, Ф. **Кавказская Албания и албаны**. Баку: Азернешр, 2005.
19. Неймат М.С. **Эпиграфические памятники Карабаха** //Азербайджан и азербайджанцы, №№ 11, 12, 2002.

MÜƏLLİF HAQQINDA MƏLUMAT

Kəngərlinskaya Gülşən Fuad - elmi işçi, AMEA
A.A.Bakıxanov adına Tarix və Etnologiya
İnstitutunun əməkdaşı, Azərbaycan, Bakı.

INFORMATION ABOUT THE AUTHOR

Kangarlinskaya Gulshan Fuad - scientific worker, ANAS
A.A. Bakikhanov Institute of History and Ethnology
Baku, Azerbaijan.

# II DÜNYA MÜHARİBƏSİNDƏN SONRAKI İLLƏRDƏ AZƏRBAYCANIN NAXÇIVAN BÖLGƏSİ ERMƏNİLƏRİN PLANINDA

ƏSƏD QURBANLI
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*ORCID: 0009-0003-3317-6264; qurbanli.68@mail.ru*

***Xülasə:*** Məqalədə göstərilir ki, ermənilərin Azərbaycanın bir çox əraziləri kimi, Naxçıvanı ələ keçirmək planı II Dünya müharibəsi və sonrakı illərdə, xüsusilə SSRİ-Türkiyə münasibətlərinin gərginləşdiyi illərdə artdı. Sovet hökuməti bir sıra Türkiyə ərazilərinin guya erməni torpaqları olmasaı və həmin ərazilərin ermənilərə geri qaytarılması tələbi ilə çıxış etməyə başladıqdan və" Xaricdən ermənilərin repatriasiyası haqqında" qərarı ilə buna əməli xarakter verdikdən sonra daxildəki və xaricdəki ermənilərn bundan istifadə etmək cəhdini 1925-ci ildə iki dövlət arasında bağlanmış "Dostluq və Bitərəflik haqqında" müqavilənin ləğvindən sonra stimullaşdırırdı. Ermənilərin Naxçıvanla bağlı təcavüzkar planları isə azərbaycanlı əhalinin1948-1950-ci illərdə Ermənistan SSR-dən deportasiyası ərəfəsində daha da güclənir, Naxçıvanlın Ermənistana birləşdirdirilməsi ilə bağlı onların səsləndirdikləri çıxış və mülahizələrdə əsas yeri tuturdu.Müəllif tərəfindən bütün bu məsələlər məqalədə mənbələr və faktlarla açılıb göstərilmişdir.
***Açar sözlər:*** Azərbaycan, Naxçıvan, erməni, bitərəflik, Türkiyə, repatriasiya.

ASAD GURBANLİ
*Institute of History named after A.A. Bakikhanov, ANAS*
*ORCID: 0009-0003-3317-6264; qurbanli.68@mail.ru*

# NAKHCHIVAN REGION OF AZERBAIJAN IN THE YEARS AFTER WORLD WAR II IN THE PLAN OF THE ARMENIANS

***Abstract***: In the article is shown that the Armenians' plan to seize Nakhchivan, like many territories of Azerbaijan, increased during World War II and the following years, especially during the years when the USSR-Turkey relations were strained. After the Soviet government began to demand that a number of Turkish territories were allegedly Armenian lands and that those territories should be returned to Armenians, and after giving it a practical character with the decision "On the repatriation of Armenians from abroad", the attempt of Armenians at home and abroad to take advantage of this in 1925 stimulated it after the the "Friendship and Neutrality" agreement concluded between the two states. The aggressive plans of the Armenians regarding Nakhchivan mainly became stronger on the eve of the deportation of the Azerbaijani population in 1948-1950. All this was the main target in their speeches and opinions about Nakhichivan. All these issues were revealed by the author with sources and facts in the article.
***Keywords***: Azerbaijan, Nakhichivan, Armenian, Neutrality, Turkey, repatriation.

**Giriş.** Azərbaycan Respublikasının Naxçıvan bölgəsini ələ keçirmək xətti daim ermənilərin strareji planının tərkib hissəsi olub. Ermənilərin Azərbaycanın Naxçıvan və digər ərazilərləri ilə bağlı öz təcavüzkar məqsədlərinin həyata keçirilməsi İkinci Dünya müharibəsindən sonra yarandı.

Sovet rəhbərliyi II Dünya müharibəsində Türkiyənin müharibədə guya faşist Almaniyası ilə müttəfiq olduğunu bəhanə gətirərək ona qarşı ərazi iddiaları irəli sürərək, boğazları öz nəzarəti altına almaq üçün bir sıra hərbi, siyasi və diplomatik addımlar atmağa başladı[1]. Ermənilər

[1] Гасратян Манвел Арсенович. Современная Турция. Москва: Наука, 1965, с.76.

Türkiyəyə qarşı ərazi iddiası irəli sürərək, bu əraziılərin Ermənistan üçün istənildiyini bildirirdi[1].

**Beynəlxalq siyasi şərait və ermənilər.** Erməni diasporu, erməni kilsəsi, xaricdəki erməni icması təmsilçiləri Sovet-Türkiyə münasibətlərində yaranmış soyuq münasibətləri əlverişli hesab edərək öz çirkin, avantürist məqsədlərini reallaşdırmaq üçün konkret fəaliyyətə girişdilər. Ermənilərin əsas tələbləri əvvəllər olduğu kimi Türkiyəyə qarşı köhnə iddiaları davam etdirir, məqsədləri yenə də Ermənistan SSR-in mövcud ərazisini Türkiyə, Azərbaycan və Gürcüstan hesabına genişləndirmək idi. Əslində isə, bu, türk dövlətlərinin ərazi bütünlüyünə, onun parçalanmasına hesablanmışdı.

Xaricdəki ermənilərin bu niyyətləri Ermənistan SSR Kommunist rəhbərliyinin fəal köməyi ilə həyata keçirilirdi. 1945-ci ilin noyabr ayının 28-də Ermənistan K(b)P MK katibi H.Harutyunov ÜİK (b) P MK-ə, İttifaq hökumətinə müraciət edərək Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə qatılması məsələsinə baxılmasını xahiş edir.[2] H.Harutyunovıın təklifi ilə əlaqədar Azərbaycan rəhbərliyin rəyini öyrənmək üçün ÜİK(b) P MK katibi Malenkov M.C.Bağırova göndərir.[3]

M.C.Bağırov özünün 15 dekabr 1945-ci il tarixli cavab məktubunda əvvəlcə Dağlıq Qarabağa ermənilərin iddialarının əksinə olaraq DQ-ın Ermənistana bitişik olmadığını, Ermənistan SSR-in tərkibinə daxil edilməsinə qəti etiraz edir, buna qarşı əks arqumentlər ortaya qoyduğundan bu məsələ bir daha müzakirə edilmir.

Müharibədən sonra rəsmi Ermənistan rəhbərliyinin, eləcə də xaricdəki ermənilərin əsas təbliğat məsələlərindən biri repatriasiya məsələsi oldu. 1945-ci il noyabrın 21-də SSRİ Xalq Xarici İşlər Komissarlar Soveti ”Xaricdə yaşayan ermənilərin repatriasiyası haqqında” qanun qəbul etmişdi [4] Bu illərdə erməni avantüristləri öz iddialarını yalnız Dağlıq Qarabağla məhdudlaşdırmayaraq, “qədim erməni ərazisi” hesab etdikləri Naxçıvanın da Ermənistana verilməsini tələb edirdilər.

M.Qorbaçovun məsləhətçisi olmuş K.Brutens “30 il köhnə meydanda” kitabında yazırdı ki, ermənilərin xaricdən köçürülməsi ilə əlaqədar erməni rəsmiləri Ermənistanın torpaqlarının az olduğunu bəhanə edərək tez-tez MK-də görüşlər keçirir, hətta Naxçıvan və DQ-ın Ermənistana birləşdirilməsi məsələsini dəfələrlə müzakirə etmişdi.[5]

SSRİ Nazirlər Soveti tərəfindən “Kolxozçuların və digər azərbyaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” qərarından [6] sonra azərbaycanlıların Ermənistandan deportasiyası ərəfəsində onların Naxçıvan iddiaları dahada güclənmişdi.

Ermənistan SSR Daxili İşlər Naziri Xoren Qriqoryanın Azərbaycan K(b)P MK-nın I katibi M.C.Bağırova ünvanladığı üzərində “tamamilə məxfidir” qrifli 3 may 1948-ci il tarixli "Ermənistan SSR-də köçürülməyə dair əhval-ruhiyyə haqqında” arayışda Ermənistanın erməni və azərbaycanlı əhalisi arasında aparılan dinləmələrə də yer vermişdi.[7]

İrəvan sakini Yervand Mesropyan: “Azərbaycanlıları təkcə Ermənistandan deyil, eləcə də Naxçıvan MSSR-dən də köçürmək və onu Ermənistanın ərazisinə birləşdirmək lazımdır. Fransadan gəlmiş, keçmişdə daşnak xmbapeti olmuş Smbat adlı birisi isə bəyan edirdi ki, vaxtilə daşnaklar

---

[1] Армения и советского-турецкие отнешения в дипломатических документах 1945-1946 гг.(Ред: А. Кирокосян) , Ереван: Тигран. 2010. с.48.
[2] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi: f 1. siy.31.iş.186a. v.3-18.
[3] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi: f 1. siy.31.iş.186a. v.3-18.
[4] История Армянская народа. Ереван: Ер.ГУ, 1980, стр. 364 -365.
[5] Карен Брутенц. Тридцать лет на старой площади.М., 1998, s.345.
[6] Azərbaycan Respublikası Dövlət Arxivi: f.1 siy. 222 iş 148,v.14-17
[7] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi: f 1. siy.169, iş.249, v .21

Naxçıvan MSSR-in Ermənistana birləşdirilməsi məsələsini qoymuşdular, ancaq bir şey çıxmamışdı. İndi isə bu məsələni qaldırmağın vaxtı çatıb, çünki Ermənistanda torpaq azdır.[1]

Daşnaklar öz proqram sənədlərində, mətbuat səhifələrində "erməni məsələsinin ədalətli həlli" kimi qonşu dövlətlərin əraziləri deyəndə onun Ermənistana ilhaqını başa düşürdülər.[2] Xatırladaq ki, 1920-ci ilin avqustunda Sevr müqaviləsi imzalanarkən Ermənistan sərhədləri haqqında məsələ həll edilməmiş qalmış, Antanta dövlətləri bu məsələnin həllini ABŞ prezidenti Vilsona həvalə edərək, onun irəli sürəcəyi təkliflərlə razı olacaqlarını bildirmişdilər. Vilson isə ermənilərin bütün iddialarına şərik çıxaraq Türkiyənin Şərqi Anadolu (Trapezund, Ərzurum, Qars vilayətlərini), Azərbaycanın Qarabağ, Göyçə gölü ətrafı əraziləri, kimi Naxçıvanın Ermənistana verilməsinə razı olmuşdu. Vilsonun bu qərarı, Türkiyə ilə Ermənistan arasında bağlanmış Aleksandropol (Gümrü) müqaviləsinə görə Sevr müqaviləsindən imtina etməli olmuşdular.[3]

Burada heç şübhəsiz, Azərbaycanın Yuxarı Qarabağ və Naxçıvan torpaqları nəzərdə tutulurdu. Həmin dövrdə xaricdəki daşnak müəlliflərindən biri bu barədə yazırdı: "Ermənistan kommunistləri ölkənin ağır taleyi üçün bizimlə eyni dərəcədə narahatdırlar. Hansı erməni kommunisti razı olar ki, Qarabağın və Gəncənin ermənilərinin yaşadığı dağlıq hissələri Azərbaycanın tərkibinə daxil olsun? Bugünkü Ermənistan xəritəsinə bir diqqət yetirək: Naxçıvan diyarının Azərbaycanla hər hansı bir coğrafi bağlılığı varmı? Ermənilərin xaricdən repatriasiya ilə bağlı planlarından söhbət gedən digər məqalədə isə qeyd edilirdi ki, "Kütləvi emiqrasiyanı yalnız o vaxt gerçəkləşdirmək mümkündür ki, onun tarixi torpaqları, təəsüf ki, hələlik işğalçıların əlində, yaxud da qonşu respublikalarda olan torpaqları erməni xalqına qaytarılsın."[4] Məqalədə Sovet rəhbərliyindən inciklik ifadə olunur və göstərilirdi ki, Moskva xaricdəki ermənilərin yarısını Ermənistana köçürməyi planlaşdırıb, ancaq bu hələlik kağız üzərində qalmaqdadır. Axı, Qarabağ, Gəncə, Axalkalaki və Naxçıvan öz əsil sahiblərinə qaytarılmadığı halda o qədər əhalini harada yerləşdirmək olar?![5]

Göründüyü kimi daşnaklar ermənilərin repatriasiyasının yalnız qonşu ölkələrin torpaqlarına yiyələnmək hesabına həyata keçirilməsini arzulayır və ümid edirdilər. Onların bu planlarında Naxçıvan xüsusi yer tuturdu. Bu məqsədlə onlar Qərb dövlətlərinin başçılarına, öz mətbuat orqanlarında belə bir sərsəm ideyanı dünya ictimaiyyətinə sırımaq istəyirdilər ki, guya Naxçıvansız Ermənistan məhvə məhkumdur.[6]

SSRİ-Türkiyə arasında 1925-ci ildə bağlanmış "Dostluq və neytrallıq haqqında müqavilənin birtərəfli qaydada denonsasiyasından sonra dünyadakı ermənilər fəallaşmış, onların Naxçıvanla bağlı tələbləri daha da artmışdı. Bu baxımdan Saak Ztçyan adlı daşnak publisistinin Tehranda çıxan "Alik"(Dalğa) qəzetinin 25/26 avqust 1948-ci il tarixli (№190-191) sayında dərc edilmiş "Naxçıvanın Ermənistan üçün əhəmiyyəti" adlı məqaləsi xarakterikdir. Məqalədə Ermənistan saçı dibinə qədər qırxılmış gəncə, Naxçıvanı isə həmin gəncin boğmaq üçün kəsilmiş boğazına oxşadan müəllif bunun əsas günahkarının Türkiyə və Sovetlər olduğunu göstərir və iddia edir ki, 1921-ci ildə türklər Moskva-Qars müqaviləsinə görə Naxçıvanın Azərbaycana məxsus olmasına nail olublar. Sonra isə məqalədə qeyd olunur ki, bu gün Sovet hökuməti 27 illik siyasi intriqadan sonra Türkiyə ilə münasibətlərini kəsib bu müqavilənin qüvvədən düşdüyünü elan etdiyi bir zamanda Naxçıvanın

---

[1] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi: f 1. siy.169, iş v.29
[2] Azərbaycan Respublikası İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi f.1, siy.169, iş 249, v.19-22
[3] Yenə orda, v.19
[4] Yenə orda, v.21
[5] Yenə orda, v.48-49
[6] Azərbaycan Respublikası İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi f. Siy. 169, iş. v.50

Azərbaycana verildiyi razılaşmanı da ləğv etmək və onu Ermənistana qaytarmaq vaxtı çatmışdır[1]. Müəllifə görə bu "Sovet İttifaqının və ermənilərin mənafelərinə uyğundur. Çünki, Naxçıvan Ermənistanın tarixi və coğrafi hissəsini təşkil edir, ona qaytarılmalı olan torpaqların bir hissəsidir və İrandan öz vətənlərinə qayıdan ermənilərin yaşaması üçün ən yaxşı yer olacaqdır".[2]

"Pantürkizm" təhlükəsindən danışan müəllif hipotetik sovet-türk müharibəsini təsvir edərək göstərir ki, hərbi münasibətdə Naxçıvan Ermənistanın ayrılmaz hissəsini təşkil edir və Sovet İttifaqı ilə Ermənistanın təhlükəsizliyini təmin edəcək amil kimi həmişə belə olmalı, "gələcək müharibədə türklər Gənc Malazgirt və Karin Malazgirt Bəyazid dəmiryolu xəttlərini birləşdirəcək, bir neçə türk topu İrəvan-Leninakan dəmiryolu xəttinə son qoyacaqdır. Bəyazid-Şahtaxtı xətti boyu Naxçıvana, Zəngəzura, Qarabağa, Bakıya aparan yollara, həmçinin Culfa-Ələt-Bakı dəmiryolu xəttini ələ keçirildikdən sonra Sovet İttifaqının hərbi qüvvələrini darmadağın edəcək və Bakının neft sənayesini məhv edəcəkdir. Müəllifin qənaətinə görə, bütün bunların qarşısını yalnız bir yolla almaq olar: "Naxçıvanı Ermənistana verməklə! Əks halda sabah artıq gec olacaqdır. Məqalə müəllif "Naxçıvan 3000 və daha çox il ərzində tarixi Ermənistanın hissəsini təşkil etmişdir. O əski tarixi Ermənistanın beşiyidir". Bundan sonra kor bolşevik rəhbərliyini vicdanlı olmağa və buraxdıqları səhvi düzəltməyə çağırırdı.[3] O həmçinin hesab edirdi ki, buna görə də Naxçıvan erməni xalqının mövcudluğu naminə Ermənistana qaytarılmalıdır.[4]

Məqalədə eyni zamanda Sovet rəhbərliyindən tələb edilirdiki, o, zülmə məruz qalan erməni kəndlilərini gətirib Naxçıvan diyarında - Naxçıvanda, Qoxtanda, Ordubadda, Yeni Culfada, Şahtaxtıda yerləşdirməli və Ermənistan ilə yenidən birləşdirməlidir.[5]

Daşnaklara görə Naxçıvan məsələsi Türkiyəyə qarşı torpaq tələblərinin həlli üçün qapılar açmağa və zərurət olarsa Avropa ilə daha qətiyyətlə danışmaq imkanı verər.[6] Göründüyü kimi, Naxçıvan ermənilərin öz qonşularına qarşı ərazi iddialarının əsas həlqəsini təşkil edirdi. Onlar bu iddianı gerçəkləşdirdikləri təqdirdə şübhəsizdigər digər əraziləri də tələb etmək niyyətini gizlətmirdilər. Onların qonşulara əsassız torpaq iddiaları o dövrdə xarici daşnak mətbuatının əsas mövzularından biri idi. Bu mövzunun əsas təbliğatçıları sırasında keçmiş daşnak Ermənistanının (Ararat respublikasının-Ə.Q) baş nazir Simon Varasyan da var idi. "Alik" qəzetinin 1949-cu il 25, 27 yanvar tarixili nömrələrində S.Varasyan Ermənistan katalikosu VI Georqa müraciətində Sovet hakimiyyətinin erməni xalqına, onun ərazi iddialarına, xüsusən Naxçıvan və Dağlıq Qarabağ məsələsinə münasibətini kəskin tənqid edirdi. O, tarixi faktların ziddinə olaraq guya Moskva və Qars müqavilələrinə əsasən Stalinin "bütün Türkiyə Ermənistanını" türklərə güzəştə getdiyini, Naxçıvan və Şəruru Azərbaycana hədiyə verdiyini qeyd edir, Naxçıvanla birgə Yuxarı Qarabağı, hətta, Axalkələkin adlarını çəkir və Sovet hökumətindən ermənilərin "ədalətli məhkməsi" ni yerinə yetirmək tələb edilirdi.[7]

**Nəticə.** Yekun olaraq qeyd edim ki, ermənilərin əvvəllər olduğu kimi Azərbaycan əraziləri, əsasən də Naxçıvanla bağlı planı II Dünya müharibəsindən sonrakı illərdə də dədəyişməmiş, bu siyasət sonrakı illərdə eynilə davam etmişdi. 1) "Daşnak" siyasətinin əsasını təşkil edən bu siyasət ifrat qatı millətçiliyin təzahüri idi. 2) Xaricdə və daxildə ermənilərin fəallaşmasında Sovet-Türkiyə münasibətlərində gərgin münasibətlər böyük rol oynamışdı. 3) Ermənilərin bu iddiaları qonşulara,

[1]Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi: f 1. siy.169, iş.249, v.52
[2] Yenə orda.v. 52.
[3] Yenə orda.v.54
[4]Yenə orda.v.54
[5] Yenə orda.v.54
[6] Yenə orda.v. 15, s.221, iş 78, v.54).
[7]Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi: f 1. siy.169, iş.249, v. v.59

xüsusən də Azərbaycanın ərazi bütövlüyünə və parçalanmasına yönəlmiş təcavüzi idi. 4) Erməni diasporu, erməni kilsəsi, icma təmsilçiləri bu istiqmətdə geniş fəaliyyət göstərmişdilər.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Azərbaycan Respublikası Dövlət Arxivi: **f.1 siy. 222 iş 148,v.14-17**
2. Azərbaycan Respublikası Dövlət Arxivi : **f.411, siy .148 , iş. 41s.**
3. Azərbaycan Respublikası Dövlət Arxivi**: f 411, siy 9, iş 734**
4. Azərbaycan Respublikası Dövlət Arxivi: **f 411, siy.9, iş.30**
5. Azərbaycan Respublikası Dövlət Arxivi : **f 411, siy 26,iş 102**
6. Həsənli C.P. SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı, Bakı, 2005, s.223-224
7. Paşayev A. Köçürülmə. Bakı, “Azərbaycan”, 1995.s.34-35
8. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi: **f 1. siy. 35, iş 161.**
9. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi: **f 1, siy. 221, iş 5.**
10. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi: **f 1, siy.169, iş. 249.**
11. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi: **f 1, siy.222, iş. 48.**
12. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi: **f 1, siy. 31, iş. 186a.**
13. Армения и советского-турецкие отнешения в дипломатических документах 1945-1946 гг.(Ред: А. Кирокос ян) , Ереван: Тигран, 2010, 332. с.
14. **История Армянская народа.** Ереван: Ер.ГУ, 1980, 672 с.
15. Гасратян Манвел Арсенович**. Современная Турция.** Москва: Наука, 1965.335 с.
16. Карен Брутенц. **Тридцать лет на старой площади**. М., 1998.

MÜƏLLİF HAQQINDA MƏLUMAT

Qurbanli Əsəd Canəli oğlu – tarix üzrə
fəlsəfə doktoru, dosent, aparıcı elmi işçi, AMEA
A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun
əməkdaşı, Azərbaycan, Bakı.

INFORMATION ABOUT THE AUTHOR

Asad Qurbanli Chanali oglu - Doctor of Philosophy,
Associate Professor, Leading Researcher,
employee, ANAS, Institute of History and Ethnology
named after A.A. Bakikhanov, Azerbaijan, Baku.

ETNOLOGİYA – ETHNOLOGY – ЭТНОЛОГИЯ

# NAXÇIVAN DİYARI ƏHALİSİNİN TOY MƏRASİMLƏRİ

ŞÖVQÜ HƏSƏNOV
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*ORCİD: 0009-0008-0846-8739; shovgihasanov@gmail.com*

***Xülasə.*** Məqalə Naxçıvan toyunun ənənəvi toy mərasiminə həsr olunub və burada əsas diqqət ailə həyatının xüsusiyyətlərinə verilir. Əsər əsasən Naxçıvan ərazisində toplanmış geniş etnoqrafik çöl materialı əsasında yazılmışdır. Zonanın ağsaqqalları vasitəçi kimi iştirak etmişlər. Faktiki toy – “oyuncaq”, xüsusi hədiyyələr – “oyuncaq xonçası” ilə müşayiət olunmuşdu. Nişan günü ovçular da görüş günü razılaşdırılmış pulu gətirirdilər. Hazırda Naxçıvanda ənənəvi toy mərasimləri öz aktuallığını itirməyib. Əvvəlki müəlliflərin etnoqrafik müşahidələri və tarixi-etnoqrafik təsvirləri şəhər əhalisinin toy mərasimlərinin orijinallığı ilə seçildiyini göstərir.

***Açar sözlər:*** Naxçıvan, ənənə, toy,ailə, mərasim

SHOVQU HASANOV
*Institute of History and Ethnology named after A.A. Bakikhanov, ANAS*
*ORCİD: 0009-0008-0846-8739; shovgihasanov@gmail.com*

# THE TRADITIONAL WEDDING CEREMONY OF NAKHCHIVAN

***Summary.*** Article is devoted to the analysis of the traditional ethnographic Nahtsivanskoy svadbe which focuses osebenno family life. The work is written primarily on the basis of extensive field etnografitseskogo material collected in the territory Nahtsivana. Agree on the amount and adding oburucheniya day, the two men left. On the day oburucheniya matchmakers brought in and the amount of money due back in the day courtship. Today, traditional wedding ceremonies in Nakhchivan has not lost its value.

***Key words:*** Nakhichevan, tradition, weddings, family, ceremony.

**Giriş.** Tarixi-etnoqrafik bölgələrimizdən biri olan Naxçıvan şəhərinin ənənəvi toy mərasimi həm XIX əsrdə, həm də Sovetlər dövründə nəinki iki ailənin, qohumların, hətta bütöv kəndin, qəsəbinin şənlik məclisinə çevrilmişdir. Bölgədə toy şənliyinə qədər bir sıra adətlərin içrası vacib hesab edilir. Mərhələli şəkildə qız bəyənmə, elçilik, razılıq vermək (hərisin almaq), bəlgə (nişan), nişan qabağı elçiləri qaytarma, oğlan evində tədarük, parça, qız evinə paltar gətirilməsi, paltarkəsdi (paltar biçdi), cehizin oğlan evinə daşınması, kəbin kəsilməsi, qız evində xına yaxdı gecəsi, qızın ata evindən köçməsi, qızın oğlan evinə gətirilən günü, oğlan toyu və s. kimi ənənəvi xüsusiyyəti burada da görmək mümkündür. Bu baxımdan, “adətlərin bir neçə nəslin həyati müddətində yaşamasının səbəbi onların uzun ömürlü olmasından, daimi olaraq xalq məişətində təkrar-lanmasından ibarətdir”.[1]

**Toy adətlərində spesifiklik.** Etnoqrafik materiallardan aydın olur ki, naxçıvanlıların “toy mərasiminin ayrı-ayrı mərhələlərinin tədqiqi, yerli əhalinin mədəni irsinin səciyyəvi

[1] Məmmədov Ə.S. Quliyev H.A. Azərbaycan adət və ənənələri. Bakı, Azərnəşr, 1962, s.6

xüsusiyyətlərini aşkara çıxarmasına şərait yaradır”.[1] Informatorların məlumatlarından aydın olur ki, keçmişdə gənclər bulaq başında, xalq bayramlarında, xüsusən Novruz və Ramazanda, yayda yaylağa gedərkən yolda bir-birilərini görüb bəyənirdilər. Bununla yanaşı əsli-nəcabətli ailələrlə qohum olmaq, qızın öz xarici görkəmini, evdarlığını nəzərə almaq və başqa məsələlərdə əsas rolu valideyinlər oynayırdılar. XX əsrin əvvəllərindən etibarən formalaşan ictimai münasibətlər, o cümlədən birgə təhsil və iş şəraiti, gənclərin bir – birini bəyənməsinə və nəticə olaraq öz məqsədlərini valideyinlərinə bildirməsilə sonuclanırdı.

Naxçıvanda adətən, oğlunu evləndirmək istəyən valideyinlər əvvəlcə ümumi razılığa gəlir, qız haqqında məlumat toplayır, sonra elçi getmək qərarına gəlirdilər. ”Anasına bax qızını al, qırağına bax bezini al” – atalar sözü də təsadüfən deyilməmişdir. Etnoqrafik materiallardan aydın olur ki, vaxtilə əhali el bayramları, meydan tamaşaları, dini mərasimlər və atüstü yarışlarına, o cümlədən bulaq başına yığışan ərgən qızlardan birini gözaltı edən oğlan, qızı mümkün vasitələrlə özünə cəlb etməyə cəhdlər edirdi. El-oba qaydasına görə, qızın əlində kuzə ilə bulaq başına yollanması, artıq onun ailə qurmasına bir işarə idi. Bölgə üçün xarakterik olan adətlərdən biri də, yetgin qızların öz razılıqlarını, başındakı örpəyi oğlana verməsilə şərtləndirird.[2]Toy qabağı qızın kimliyinin oğlanın valideyinləri tərəfindən öyrənilməsi isə “bəyəniş” və yaxud “qızxoşlama” və s. kimi adlandırılır. Ordubadada isə buna “ərgən seçmə” deyirlər. Ənənəvi olaraq qız evinin “ağzını aramaq” üçün birinci olaraq, orada ana, xala, bibi və yaxın qadın qohumları gedir. Elçiliyə adətən, birinci dəfə üç-dörd nəfərdən ibarət qadın gedir və onlar ailə haqqında söhbət açırlar. Adətən, bir-iki dəfədən sonra razılığa gələn elçilərə çay süfrəsi açılır. Çay süfrəsində şərbətlə doldurulmuş stəkanın içinə az qədər çay tökən ev yiyəsi razılıq əlamətini bildirir. Bu həm də iki nəslin qohum olması, qarışması simvoludur. Necə deyərlər, “Ət girdi qazana oldu yeməli”. Spesifik mahiyyət daşımayan birinci elçilikdə, adətən, oğlan evi söz açır və məqsəd və vəzifələrdən danışmaqla bütövlükdə öz fikirlərini bildirirlər. Qız evi bu məsələyə önəm verməklə, bütün məsələləri qadınlar tərəfindən oğlan evinin kişilərinə çatdırılmasından söhbət açırlar. Razılaşmış şəkildə müəyyənləşən fikirlər əsasında ikinçi elçilikdə, artıq “hə vermə” günü müəyyənləşdirilir. “Hə vermə” günü el ağsaqqalı baba, ata digər kişi qohumlar qız evinə gedir. “Hə vermə” mərasimində oğlanın ağsaqqalı, (ata,baba) qızın ağsaqqalının sağ əlini alıb, üç dəfə təkrar soruşur; “Əziz övladım filankəs balanı oğluma verirsənmi? Hə, verirəm cavabını hamı eşidə bilən səslə üç dəfə təkrar etdirir. Bu qız tərəfin razılığının toya gələnlərə elan edilməsi üçündür”.[3]

Qız evinin razılığından bir necə gün sonra, nişan mərasimi keçirilir. Qız evinə aparılan nişan üzüyü sadə tərzdə olurdu. Ənənəvi olaraq, üzüyün dairəvi və ya dördkünc hissəsində ərəb əlifbası ilə “nigah” sözü yazılardı. Daha sonralar isə bir qayda olaraq üzüyə oğlan və qızın adları həkk olunurdu. Barmaq bəzəkləri arasında “barmaqçalıq”, “əyrimçə” və ya “halqa” adlanan qaşsız üzüklər daha qədim tarixə malik olmaqla, uzun müddət xatircəmlik, nişan üzüyü kimi işlənmişdir. Bunların əsasında sonralar qaşlı nişan üzüklərin müxtəlif tipoloji növləri peyda olmuşdur. Qaş materialından, habelə qaşın formasından asılı olaraq, bu qrupdan olan üzüklər müxtəlif adlarla (yaqut, zümrüd, brilyant, mivari, paxlava qaşlı və s.) tanınırdı.[4] Naxçıvanda brilyant və paxlava qaşlı nişan üzükləri adla seçilər və varlılıq əlamətinin bildirirdi.

Elçilik vaxtı aparılan bütün əşyalar ənənəvi olaraq “xatirəçəmlik” adlanırdı. Ona görə ki, elçiərin apardıqları məmulatların hamısı qız evində qəbul oluması, nigaha arxayınçılıq, xatirçəmlik

---

[1] Гулиев Г.А. Социалис. Культура и быть кол. Крест. Азер. (по матер. Куб.рай) //, Б. 1953, Azər.MEA Xəbərləri.,N -38, s.56-64.

[2] .Aslanov E. Ə. Azərbaycan toyu haqqında, Kaspi, N-67, noyabr, 2006, s32.

[3] Quliyeva N. M. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti, Bakı “Elm”, 2005., s.182

[4] Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı(metal məmulatı və zərgərlik), Bakı, 1966., s.157

olmasına işarə idi. Adətən, şirni vaxtı tərəflərdən, iki kişi qəndi çəkiclə sındırır, bir parçasını noğul-nabatla oğlan evinə qaytarmaq üçün saxlayırdı.[1] Toya hazırlıq dövründə oğlan evində toy, qız evində isə cehiz tədarükü görülür. Ənənəvi olaraq verilən cehiz ev ləvazimatlarından ibarət olmaqla, əsasən lampa, güzgü, yorğan, döşək, balış, xalça, və s., sandıq, stol, qamot, həmçinin təsərrüfat xarakterli əşyalar, o cümlədən nehrə, oxlov, duvaq, heybə və digərlərindən ibarət olurdu. Bundan sonra toya bir necə gün qalmış oğlan və qız evi üçün təyin edilmiş gündə molla tərəfindən kəbin kəsilərdi.

Qız evində paltar kəsdi olan gün qohumlar və dəvət olunmuş digər qonaqlar oğlan evinə toplaşırlar. Onlar qız üçün alınmış hədiyyələri nəzərdən keçirir, qonaqların yeni gətirdikləri (məsələn, parça, üzük, yaylıq və s. hədiyyələr) səliqə ilə qırmızı lent bağlanmış çamodanlara yığılır, xonçalar bəzənir, gül dəstələri bağlanırdı. Bundan sonra oğlan evinin nümayəndələri qız evinə yola düşürlər. Həmin gün qız evində mağar qurulur və paltar kəsdi mərasimi olur. Halay qurulmuş şəkildə yığışan qız və qızın nənəsi, anası, bacı-qardaşı gəlin üçün alınmış hədiyyələri camaata göstərirlər. Burada qız üçün gətirilən bəzəklər xüsusi əhəmiyyət kəsb edirdi.

Naxçıvan şəhərində gəlin bəzəklərini etnoqrafik məna çalarlarının, başqa sözlə, tipoloji növlərinin geniş və zəngin olması səbəbindən onların hazırlanması ilə müxtəlif peşə sahibləri o cümlədən zərgər, gümüşbənd, cavahirsaz, ağlabənd, (bəzəkçi) məşğul olurdu. Adları çəkilən bəzək növlərinin hər birinin spesifik xammal növü, istehsal texnologiyası və tətbiq sahəsi mövcud olmuşdur. Dövrümüzədək ənənəvi gəlin zinət istehsalında döymə, çaxmaqəlib, qarasavad, minalama, aynalama, çaxma, şəbəkə və s. olmaqla olduqca zəngin texnoloji üsulları gəlib çatmışdır. Adları çəkilən texniki üsulların hər birinin özünəməxsus tətbiq sahəsi və məmulat növü yaranmışdır. Məsələn, gəlinlik üçün hazırlanan sırğa, bilərzik, üzük, kəmər toqqası və s. zinət növləri ənənəvi olaraq şəbəkə üsulu ilə düzəldilirdi. Minasazlıq üsulu ilə qızıl və ya gümüş zinətlərin üzərində oyulmuş rəsm və ya naxışların içi mina maddəsi ilə doldurulandan sonra bişirilib bərkidilirdi. Bu texniki üsul sırğa, bilərzik və s. gəlin zinət növlərinin bəzədilməsində tətbiq olunurdu. Təbiidir ki, bir sıra ənənəvi gəlin zinət növlərinin bəzədilib yaraşıqlı hala salınmasında ləl-cəvahiratdan, yəni inci, mirvari, kəhraba, sədəf, almaz, yaqut, əqiq, brilyant və s.-dən istifadə edilmişdir. Bu baxımdan Naxçıvanda ənənəvi zərgərlik sənətində cavahirsazlıq tarixən müstəqil peşə növü kimi fəaliyyət göstərirdi. XX əsrdə gəlin bəzəklərinin isthesalı, əsasən, şəhərlərdə cəmləşmişdi. Bakı, Şamaxı, Şəki, Gəncə, Şuşa, Quba, Lənkəran, Salyan, Naxçıvan, Ordubad və b. şəhərlər ölkənin başlıca gəlin bəzəklərinin istehsalının mərkəzləri sayılırdı. Naxçıvanın əksər bölgələrindən oğlanlarını evləndirən valideyinlərin əksəriyyəti, gəlinləri üçün qızıl almağa şəhər mərkəzlərinə, o cümlədən İrəvana, Şuşaya gəlirdilər.

Naxçıvanda zərgərlərin əksəriyyəti ənənəvi olaraq öz ata – babalarının sənətini davam etdirirdilər.[2] Bölgədə sosial-iqtisadi inkişafı ilə əlaqəli olaraq burada gəlin bəzəklərinin müxtəlif forma və növləri geniş yayılmışdır. XIX əsrin birinci yarısında gəlin bəzəklərində önəmli əhəmiyyət kəsb edən gümüş qolbaqların istehsalında Naxçıvan şəhərinin xüsusi yeri vardır.[3] Məlum olduğu kimi, zinət istehsalında qızıl və gümüş xalis halda işlənmirdi. Ona görə də onları yumşaldıb elastik hala salırdılar. Bunun üçün əvvəlcə qızıl və gümüşün liqatur tərkibdə ərintisi hazırlanırdı. Metal

[1] Qeybullayev Q. A. Azərbaycanlılarda ailə və nigah(XIX əsr və XX əsrin əvvəlləri: tarixi etnoqrafik tədqiqat), I hissə, Bakı, “Elm” 1994, s.168.

[2] Згленицкий В. К. Кустарное производство золотых и серебряных изделий в Бакинском районе и Дагестане и предполагаемые меры для упорядочения и развития оного. – «Труды Первого съезда деятелей по кустарных промышленности Кавказа. Тиф., 1902., s. 64.

[3] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в., Б., 1964., s. 104.

bəzəklər, əsasən, yerli ustalar tərəfindən kustar üsulla hazırlanırdı.[1] Naxçıvan şəhərində toy mərasimində taxılma tərzinə görə, ənənəvi gəlin zinətləri baş-qulaq, boyun-yaxa, bilək-barmaq, bel, ayaq və bəndləmə bəzəklər olmaqla, müxtəlif tipoloji qruplarda özünü göstərir. "Çəçik", "qarabatdaq" boyunbağılar Naxçıvanda, gəlinə verilən zaman ona birləşdirilən imperial, bürünc və ya qızıl qulpla birləşdirilirdi.[2] "Arpa" boyunbağının arasına bəzən zəngin nəqşlərlə bəzədilmiş dairəvi bəzək ünsürü, yaxud 6 və ya 8 guşəli ulduz, onun altına isə aypara bənd edilirdi.[3] Bu boyunbağıların əksəriyyəti gəlinlər tərəfindən toy və bayramlarda gəzdirilməklə yanaşı, gündəlik həyat tərzlərində də taxılırdı. Gəlin paltarı və qızıl əşyalar sandıq və mücrüdə saxlanılardı. Mücrü insanların məişətinə çox qədim zamanlardan daxil olmuşdur.[4] Sandıq və təknə ərə gedən qızın gəlinlik sandığı və gəlinlik təknəsi adlanırdı. Burada təknə-tabaqçılıq Azərbaycanın başqa şəhər və qəzalarına nisbətən daha geniş inkişaf etmişdir.[5] Qız və gəlinlər bu zinət əşyalarını bir – bir əllərində gəzdirməklə, onların gözəlliyinə tariflər söyləyərdilər. Paltar kəsdi də oğlan və qız yengələri əsas simalar kimi bəzək və zinət əşyalarının təqdimatında əhəmiyyətli rol oynayırdılar. Qız yengəsi parçalardan birinin kənarından kəsir və həmin kəsiyi evdə saxlayırdılar. Oğlan yengəsi qız yengəsinə "qayçı kəsdi" əvəzi pul hədiyyə verir. Oğlanın yaxın qohumları həm oğlanın, həm də qızın evinə nəmər salırlar. Ənənəvi olaraq oğlan evindən gəlmiş digər şəxslərdən pul alınmır. Qara zurnanın sədaları altında oğlan evi qız evinə gəlir. Oğlan yengəsi bir dəstə adamla qız olan otağa gedir, qapılar bağlı olduğu üçün qız yengəsinə o, müəyyən məbləğdə pul verir. Bu adət "qapı kəsdi" adlanır. Oğlan yengəsi qızın baş bəzəyi üçün müəyyən qədər pul verir. XIX əsrdə baş bəzəyi üçün xüsusi taclar olurdu. Ərə getmiş qadınların baş taçları, ərgən qızların baş tacından fərqlənirdi. Bu baxımdan Naxçıvanda toy mərasimi zamanı ənənəvi gəlin zinətləri arasında baş bəzəkləri, o cümlədən cıǵcığa üstün yer tutmuşdur. Qulaq və saç bəzəkləri də çox vaxt bu qrupa şamil edilir. Naçıvananda tarixən gəlin baş bəzəklərinin çox zəngin tipoloji çeşidləri yaranmışdı. Bölgədə qız və oğlan yengələrinin taclarının rənglərində də müxtəliflik olardı. Qız evinin yengəsinin tacı qırmızı rəng və bəzəklərlə boyadılardı. Oğlan evinin yengəsinin tacı adətən ağ rəngli bəzək çalarları ilə bəzədilərdi. Daş-qaşla bəzədilmiş qızıl tacın əsas bəzək elementləri onun ön və yan tərəflərində cəmləşdirilmişdi. Başlarına tac qoyub gəlin çıxan ərgən qızlar, onunla adətən kəhrəba, mirvari və yaxud "arpa" formasında qızıldan düzəldilən boyunbağı vurardılar. Bundan başqa "göy" adlanan boyunbağıda taxardılar.[6]

Naxçıvan ənənəvi toy mərasiminin gəlin zərgərliyindəki bəzək dekorunun təkmilləşdirilməsi fonunda "alınlıq" (Naxçıvan), "araşqın" (Ordubad) və başqa adlarda bəlli olan, müəyyən qədər məhəlli xüsusiyyət kəsb edən tipoloji çeşidlərinin yaranması ilə nəticələnmişdir. Qulplu sikkələrdən düzəldilən alınlıq hansı sikkə növündən hazırlanırdısa, həmin adla da tanınırdı. Məsələn, "əşrəfi" və ya "imperial alınlıq", "bacaqlı qabaqlıq", yaxud "məcidiyyə" (məjdiyyə) bunu aydın göstərirdi. Varlı əsilzadə gəlinlər üçün hazırlanmış qızıl çutquqabağı həm də daş-qaşla bəzədilirdi.[7] Oğlan və qız yengələri baş tacın bəzədilməsi üçün müəyyən qədər nəmər verirdilər. Bu qızıl, daş-qaş da ola bilərdi. Bütün bunlar gənc ailənin büdcəsini formalaşdıran varidatını təşkil edirdi. Daha sonra

---

[1] Mustafayev A. Şirvanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat), Bakı, "Elm" nəşriyyatı, 1977., s. 95
[2] Quliyeva N. M. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti, Bakı "Elm", 2005., s 90.
[3] Məmmədov H. N. Muğanın maddi mədəniyyəti(tarixi-etnoqrafik tədqiqat), Bakı, 2001., s 31
[4] Həmidova İ. Azərbaycan parça sənətinin tarixi inkişaf yolları//, Elmi axtarışlar, VIII toplu, Bakı, 2000, s.137-142., s.139.
[5] Cavadov Q.C. Azərbaycanda ağacişləmə sənəti haqqında// Azərbaycan Etnoqrafik Məcmuəsi, Bakı "Eım", 1977, s.141-160., s.144.
[6] Mustafayev A.H. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2009., s.30.
[7] Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı(metal məmulatı və zərgərlik), Bakı,1966., s.156

oğlanın qardaşı qızın belini bağlayır və sağ əlinə, qızın qardaşı isə sol əlinə gəlinin hədiyyəsini verirlər. "Bel bağlamaq" mərasimi adətən gəlinin ərinə etibarlı, sədaqətli, arxa və dayaq, bir-birilərinə əbədi bağlanmaq arzusunun rəmzidir.[1] Naxçıvanda ənənəvi gəlin bel bəzəkləri kəmər, belbağı və təkbənd ilə müşaiyyət olunurdu. Libaslara bəndləmə zinətlər bəzək növü olmaqdan əlavə, həm də onların bir qismi əməli məqsəd daşımaqla, yaxa və bilək yarıqlarını düyməyəyib bağlamaq funksiyasını yerinə yetirmişdir. Qızıl və gümüşdən kəsilmiş "həbbabı", "böyrəyi", "qoza" düymələr məhz bu məqsədlə istifadə olunmuşdur. Gəlin libasına bənd edilən bəzəklərə zəncir, qızıl sərmə də daxil idi. Toy üst geyimlərinin kənarına tutulan sərmə əl tikişini itirirdi. Gəlin libasının özünə və ona taxılan kəmərlərin hər tərəfinə qızıl pullar taxılırdı.[2] Başa qoyulan tac və kəmər taxma mərasimi bitdikdən sonra, "vağzalı" sədaları altında yengələrin müşayəti ilə qız evdən çıxarılır. Yengələrin biri əlində güzgü, digəri isə şam, yaxud lampa (çıraq) tutur. Xalq içərisində gəlinin yanında şam yandırmaqla gəlinin şər qüvvələrin bəlasından mühafizə olunacağını deyirlər. Elə güzgü də, demək olar ki, eyni məqsədə xidmət edir. İnam vardır ki, güzgü sanki gəlinin öz əksi deyil, ruhudur, həmin ruh da gəlini fəna qüvvələrdən qoruyur. Gəlin köçü gethagetdə bəy evinin adamları belə bir saçma söyləyir:

Sandıq üstə gücü var,
Gücünün min ucu var,
Gəlini oğlan evinə apardıq,
Bizdə bəylər gücü var.[3]

El havalarından sonra gəlinin ayağının altına boşqab qoyurlar. Gəlin boşqabı ayağı ilə sındırır. Camaatın gözü qarşısında icra olunan bu ayində gəlin demək istəyir ki, əgər bu ocağa, ərimə vəfasızlıq etsəm, onda ayağımın altındakı qab kimi parçalanım. Gəlin oğlan evinə gətirildikdən sonra qızlar və cavanlar onun dövrəsinə yığışır, çalıb oynayır, üstünə noğul səpirlər. Sonra hamı bu noğullardan yeyir ki, tezliklə onun da xeyir işi olsun. Şərur rayonunda maraqlı bir adət var. Toydan sonra bəy toyuq almağa gedir. Nəmərini verib, toyuğu alırlar. Həmin toyuğu sağdış-soldış ilə birlikdə yeyib-içirlər. Toyun birinci günü nə qız, nə də oğlan evində heç kim yatmamalıdır. Əgər yatarsa onu yatdığı döşəyə tikirlər. Toyun ikinci günü toy davam edir. Toyda yeni şəxslər iştrak edirlər. Qız evinə xonça və gəlinin paltarlarını aparırlar. Gəlin paltarı zərli naxışları olan sürməyi rəngli arxalıq və tünd rəngli məxmərdən olan tumandan ibarət idi. Gəlinin başına örtülmüş qırmızı örpəyin üzərində günəş və quş təsvirləri olurdu.[4] Babək rayonunun Vayxır kəndində "hə" də iki rəng çay verirlər. Çay içənlər nəlbəkiyə pul qoyur. Süfrədə meyvə olur, lakin xörək qoymurlar.[5] Bölgə toylarında "Kitabi Dədə Qorqud"da olduğu kimi "bəylik" oyunu XX əsrin 70 –ci illərinə qədər toyun ikinci gecəsində oynanılardı. Bu gündə "Bir günün bəyliyi də bəylikdir" ifadəsi xalq arasında işlənməkdədi.[6] Həmçinin yetişmiş cavanlar cəhd göstərmişlər ki, yeni süfrəsinin künc tərəfində oturmasınlar. Çünki, sınamua görə, belə olduqda onlar guya yeddi il ailə qura bilməzlər. Sözsüz, bu etiqad da çox qədim görüşlərlə bağlıdır. Guya yeni il axşamı ruhlar da öz ocaqlarına qayıdır və künc tərəfdən yaxınlaşaraq süfrəyə düzülmüş nemətlərdən dadırlar. Onların qarşısı kəsildikdə isə bundan hiddətlənib qarğış söyləyirlər.[7] Yeri gəlmişkən, bölgədə sovet hakimiyyəti dövründə, qızların razılığı olmadan valideyinləri tərəfindən ərə verilməsi, evlənənlər

[1] Народное хояйство Азербайджана, Баку, Азернешр, 1965, s.187
[2] Народы Кавказа, том 2, Издательство Академии Наук СССР, Москва, 1962., s.122.
[3] Народы Кавказа, том 2, Издательство Академии Наук СССР, Москва, 1962., s.60
[4] Xəlilova M. İ. XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıda sənətkarlıq, Bakı, "Elm" nəşriyyatı, 2009, s.134
[5] Quliyeva N. M. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti, Bakı "Elm", 2005, s.200
[6] Hacı Qadir Qədirzadə. Milli-mənəvi dəyərlərimiz: bayramlar, mərasimlər, adətlər, münsibətlər, "Əcəmi" Nəşriyyat və poliqrafiya birliyi, Naxçıvan 2012., s. 52
[7] Abdulla Bəhlul. Azərbaycan mərasim folkloru. Bakı, Qismət, 2005., s.121

arasında böyqk yaş vərqinin olması halları hələ də qalmaqda idi. 1935- ci ildə Naxçıvanda cəmi 3 ay ərzində 110 nəfər 11, 12 və 13 yaşlı qızlar ərə verilmişdi. Ordubadda 25 yaşlı komsomolçu Hüseyn Cabbaroğlu 13 yaşlı qızla evlənmişdi. [1] Etnoqrafik müşahidələrdən aydın olur ki, müstəqillik illərində belə hallara təsadüf edilmir.

**Nəticə.** Beləliklə, qədim tarixə malik olan Naxçıvan şəhərinin özünəməxsus toy adəti, ənənəvi xüsusiyyətlər baxımından bu gün də aktualdır. Şəhərin ayrı-ayrı məhəllələrində, o cümlədən Şahab, Qurdlar və s. ərazilərdə formalaşmış adət - ənənələr hələ də nəsildən-nəsilə ötürülərək yaşamaqdadır. Odur ki, naxçıvanlıların toy mərasimini ayrı-ayrı rayonlardakı xüsusiyyətlərini toplamadan təsvir etmək çox çətindir. Mərasimdəki adətlərin hər biri qədim dini inamlarla və ovsunlarla, magiyanın müxtəlif tipləri ilə bağlıdır. Bu baxımdan onların, eyni zamanda toy mərasimlərinin araşdırılması müxtəlif tədqiqat mövzusu kimi böyük maraq və əhəmiyyət kəsb edir.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT- REFERENCES

Azərbaycan dilində

1. Abdulla Bəhlul. **Azərbaycan mərasim folkloru.** Bakı, Qismət, 2005.
2. Aslanov E. Ə. **Azərbaycan toyu haqqında, Kaspi,** N-67, noyabr, 2006.
3. Cavadov Q.C. **Azərbaycanda ağacişləmə sənəti haqqında// Azərbaycan Etnoqrafik Məcmuəsi**. Bakı “Eım”, 1977, s.141-160.
4. Əfəndiyev R. **Azərbaycanın bədii sənətkarlığı(metal məmulatı və zərgərlik),** Bakı, 1966.
5. Hacı Qadir Qədirzadə. **Milli-mənəvi dəyərlərimiz: bayramlar, mərasimlər, adətlər,münsibətlər,** “Əcəmi” Nəşriyyat və poliqrafiya birliyi, Naxçıvan 2012.
6. Həmidova İ. **Azərbaycan parça sənətinin tarixi inkişaf yolları** // Elmi axtarışlar,VIII toplu, Bakı, 2000, s.137-142.
7. Xəlilova M. İ. **XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıda sənətkarlıq,** Bakı, “Elm” nəşriyyatı, 2009.
8. Quliyeva N. M. **Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti,** Bakı “Elm”, 2005.
9. Qeybullayev Q. A. **Azərbaycanlılarda ailə və nigah(XIX əsr və XX əsrin əvvəlləri:tarixi etnoqrafik tədqiqat),** I hissə**,** Bakı, “Elm” 1994.
10. Mirzə A., Mehdiyev İ. **Novruz töhvələri.** Bakı, Gənclik, 1990.
11. Məmmədov Ə.S. Quliyev H.A. **Azərbaycan adət və ənənələri.** Bakı, Azərnəşr, 1962.
12. Məmmədov H. N**. Muğanın maddi mədəniyyəti(tarixi-etnoqrafik tədqiqat),** Bakı, 2001.
13. Mustafayev A.H. **Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat)**. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2009.
14. Mustafayev A. **Şirvanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat),** Bakı,”Elm” nəşriyyatı, 1977.
15. Nuruzadə Ş.T. **XX əsrin 20-30 –cu illərində Azərbaycanda etnokonfessional şərait**, Bakı, “Xəzər Universiteti” nəşriyyatı, 2010.

Rus dilində

[1] Nuruzadə Ş.T. XX əsrin 20-30 –cu illərində Azərbaycanda etnokonfessional şərait, Bakı, “Xəzər Universiteti” nəşriyyatı, 2010, s. 58.

16. Зеленицкий В. К. Кустарное производство золотых и серебряных изделий в Бакинском районе и Дагестане и предполагаемые меры для упорядочения и развития оного. – «**Труды Первого съезда деятелей по кустарных промышленности Кавказа.** Тиф., 1902**.**
17. Кулиев Г.А. **Социалис. Культура и быть кол. Крест. Азер. (по матер. Куб.рай) //**, Б. 1953, Azər.MEA Xəbərləri.,N -38, s.56-64.
18. **Народы Кавказа,** том 2, Издательство Академии Наук СССР, Москва, 1962.
19. **Народное хояйство Азербайджана**, Баку, Азернешр, 1965.
20. Сумбатзаде А.С. **Промышленность Азербайджана в XIX в.,** Б., 1964.

MÜƏLLİF HAQQINDA MƏLUMAT

Həsənov Şövqü Vaqif oğlu – tarix üzrəfəlsəfə doktoru,
aparıcı elmi işçi, AMEAA.A.Bakıxanov adına Tarix
və Etnologiya İnstitutunun şöbə müdiri,
Azərbaycan, Bakı.

INFORMATION ABOUT THE AUTHOR

Hasanov Shovqu Vaqif oglu -Doctor of Philosophy
Leading Researcher, Branch Manager, ANAS, Institute of History
and Ethnologynamed after A.A. Bakikhanov,
Azerbaijan, Baku.

# AZƏRBAYCANDA ƏNƏNƏVİ QADIN BƏZƏKLƏRİNİN EVALYUASİYASI VƏ TRANSFORMASİYASI MƏSƏLƏLƏRİNƏ DAİR (XIX-XX ƏSRLƏR).

KAMALƏ ƏLİYEVA
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*ORCID: 0009-0004-8825-6605; aylin_kama@mail.ru*

***Xülasə:*** Azərbaycanın zərgərlik sənəti zəngin qədim ənənələrə malikdir, onların mənşəyi eramızdan əvvəl I minilliyə gedib çıxır. XX əsrdə Azərbaycanın bütün bölgələrində zərgərlik sənəti inkişaf etmişdir. 70-ci illərdə Bakı fabriki Qərb üslublu dekorativ zərgərlik məmulatlarının istehsalını genişləndirdi. Bu dövrdən ənənəvi üzük və sırğalar: "paxlava", "badamı", "gül" daha müasir görkəm alır. 1935-1936-cı illərdə Bakıda qadın zərgərliyinin inkişafına təkan verən zərgərlik fabriki tikildi.

Məqalədə arxeoloji materiallar əsasında bəzəklərin tarixi araşdırılmış, XIX əsrdə, eləcə də Sovet hakimiyyəti və müstəqillik illərində milli bəzəklərin transformasiyası məsələləri ön plana çəkilmişdir.

**Açar sözlər:** zərgərlik, zərgərlik, qadın, üzük, sırğa, bilərzik

KAMALA ALİYEVA
*A.A. Bakikhanov Institute of History, ANAS*
*ORCID: 0009-0004-8825-6605; aylin_kama@mail.ru*

# ON THE ISSUES OF EVALUTION AND TRANSFORMATION OF TRADITIONAL WOMENS ORNAMENTS IN AZERBAIJAN (XIX-XX CENTURES).

***Abstract:*** Jewelers art was developing in all regions of Azerbaijan in the 20th century. In the 70s of the last century, production of new types of decorative items in western decorative art style expanded in Baku jewelers factory. The national jewelers models, ring and earrings, which are called "baklava", "almond", "rose", have been updated. In 1935-1936 a jewelers factory was set up in Baku. It affected the development of women's adornments in Azerbaijan in a new direction. In Azerbaijan jewelers art is developing in accordance with modern times requirements. Numerous jewelers enterprises are operating. Along with experienced goldsmith's, young artisans also try to demonstrate their skills and talents.

The article examines the history of decorations on the basis of archaeological materials, and issues of transformation of national decorations in the 19th century, as well as during the years of Soviet rule and independence, are brought to the fore.

**Keyword:** ornaments, jewelers, women, ring, earring, bracelet.

**Giriş.** Geyim mədəniyyətinin tərkib hissəsini təşkil edən ənənəvi bəzəklər xalqın qədim ənənələrini, dünyagörüşünü və ictimai-iqtisadi həyatda baş verən dəyişiklikləri əks etdirir. Azərbaycanda ənənəvi bəzəklər içərisində zərgərlik məmulatı mühüm yer tutur. Arxeoloji qazıntılar nəticəsində Mingəçevir, Xocalı, Qəbələ,Xınıslı,İsmayıllı, Qaratəpə və s. yerlərdən tapılan qiymətli bəzək şeyləri zərgərliyin hələ qədimdən Azərbaycan ərazisində geniş yayıldığını və əhalinin məişətində mühüm yer tutduğunu göstərir.

XIX əsrin əvvəllərində rus qoşunlarının Azərbaycan torpaqlarını zəbt etməsindən, Rusiya-İran və Rusiya-Türkiyə müharibələrindən sonra sənətkarlıq və ticarətin inkişafında yeni mərhələ başlandı.Sənətkarlığın bəzi sahələrinin manufakturaya, sənayenin isə fabrik mərhələsinə keçidinin əsası qoyuldu.

Bundan başqa qeyd olunan dövr feodal iqtisadi münasibətlərinin süquta uğraması, yeni kapitalist münasibətlərinin inkişafı ilə xarakterizə olunur.[1] Bu dəyişikliklər Azərbaycan xalqının mədəniyyətində də əksini tapırdı. İri sənaye mərkəzləri olan Bakı, Şamaxı ,Nuxa, Şuşa, Gəncə, Naxçıvan kimi şəhərlərdə digər sənət sahələri ilə yanaşı, zərgərlik sənəti də inkişaf edir və bu inkişafın təzahürləri dövrün bəzəklərində də özünü göstərirdi.

Etnoqrafik tədqiqatlar nəticəsində XIX əsr milli qadın geyim komplektinə daxil olan geyim növləri müəyyənləşdirilmişdir. Qızıl və gümüşdən hazırlanmış bəzək əşyaları geyimin əsas tərkib hissələrindən biri kimi ona bədii cəhətdən milli kolorit verir və geyim komolektini tamamlayırdı. Maddi mədəniyyətin digər ünsürləri kimi, geyimlər də ictimai-iqtisadi həyatda baş verən proseslərin təsirinə məruz qalmış və tədricən əsaslı dəyişikliklərə uğramışdır.[2] Lakin XIX əsrin ortalarına kimi həmin dəyişikliklər bir o qədər nəzərə çarpmırdı. Xüsusilə kənd yerlərində yeniliklərə münasibətdə mühafizəkarlıq hiss olunurdu. Bu da onunla əlaqədar idi ki, kapitalist münasibətləri kəndə çox çətinliklə yol tapırdı. Odur ki, kənddə qadın geyim və bəzəklərində davam edən ənənəviliyi izləmək daha asandır.

XIX əsrin sonlarına doğru Azərbaycan mədəniyyətinin müxtəlif sahələrində olduğu kimi, geyim mədəniyyətində də dəyişikliklər baş verirdi. Yeni sosial təbəqələrin yaranması zəminində buradakı fərqli cəhətlər daha qabarıq nəzərə çarpırdı. Belə ki, yerli geyimlərlə yanaşı, Avropa üslubunda tikilmiş paltarlara varlı əhali arasında meyl güclənirdi. Qadınlar paltarlarının rənglərinə uygun daş-qaşlardan istifadə edirdilər. Yaqut, firuzə, zümrüd kimi daşlar qırmızı, göy, yaşıl paltarlarla uyğunluq təşkil edirdi.

**XX əsrin 20-ci illərindən sonra Azərbaycanda geyim tərzi.** XX əsrin əvvəllərində Azərbaycanda Sovet hakimiyyətinin qurulması nəticəsində geyimlərdə əsaslı dəyişikliklər baş verdi. Varlı təbəqə nümayəndələri bolşevik təqiblərinə məruz qaldıqları üçün, ölkəni tərk edib xaricə getməyə məcbur olurdular. Digərləri isə, var-dövlətlərini gizlətmək üçün bahalı geyim və zinət əşyalarından istifadə etmirdilər.

1917-ci il oktyabr çevrilişindən sonra bütün sahələrdə olduğu kimi, geyimlərdə də bolşeviksayağı dəyişikliklər baş verdi. XIX əsrin sonlarında cütqabağı, silsilə kimi bəzək növlərindən daha çox istifadə edilirdisə, XX əsrdə bu bəzək növləri demək olar ki, dəbdən düşmüşdü. XX əsrin əvvəllərində Azərbaycan Demokratik Respublikasının devrilməsi və bolşevik hakimiyyətinin qurulması sənətkarlıqda yeni meyllərin yaranmasına gətirib çıxardı. Bir sıra ənənəvi bəzək növləri sıradan çıxaraq dövrün tələblərinə uyğun bəzəklərlə əvəz olundu və bu cəhət Avropa üslubunda hazırlanmış bəzəklərdə əksini tapdı.Eyni zamanda Şərq koloritinə uyğun bəzəklər milli xüsusiyyətləri saxlamaqla xarıcı bazarlarda mövqeyini daha da möhkəmləndirdi.

XIX əsrin sonu XX əsrin əvvəlləri həm də Azərbaycan qadın bəzəklərinin müasir istehsal üsullarının meydana çıxması və kustar sənayenin tənəzzülə uğraması dövrünü əhatə edir. Maddi mədəniyyətin ayrılmaz tərkib hissəsi olan Azərbaycan qadın bəzəkləri əsrlər keçməsinə baxmayaraq, milli koloriti qoruyub saxlamışdır. Bu baxımdan müasir dövrdə yaradılan bəzək əşyaları da Azərbaycan zərgərliyinə məxsus ənənəvi bədii xüsusiyyətlər üzərində inkişaf etməkdədir. Sovet hakimiyyətinin ilk illərində Azərbaycan zərgərləri ağır iqtisadi şəraitdə fəaliyyət göstərsələr belə, bu qədim sənəti inkişaf etdirib təkmilləşdirmişlər[3].

Bir tərəfdən imperialist və vətəndaş müharibələri, digər tərəfdən yeni ictimai-iqtisadi sistemə keçid bütün sahələrdə olduğu kimi, zərgərlik məhsullarının istehsalında da tənəzzülə gətirib çıxarmışdı. Artıq məişətdə gündəlik və estetik tələbatını itirmiş ağır kəmərlər, cütqabağılar,

[1] C.M.Mustafayev. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı Elm, 2002.s.211.
[2] H.Həvilov. Azərbaycan etnoqrafiyası. Bakı.Elm,1991.s.140.
[3] S.D.Əsədova. S.D. XIX-XX əsrlərdə Azərbaycanda zərgərlik incəsənəti. Bakı.Elm,1978.s.34.

silsilələr kütləvi şəkildə istehsal olunmurdu. Ötən əsrin 30-cu illərində Azərbaycan zərgərləri Gəncə, Naxçıvan, Şəki və Bakıda yeni təşəkkül tapmış artellərə köçürdülər. Bu artellərdə birləşən ustalar fərdi sifarişlər üzrə dəbdə olan üzük, sırğa, qolbaq və s. zinət əşyaları hazırlayır, eyni zamanda təmir işləri ilə məşğul olurdular. Onlar daha çox dövrün tələbatına uyğun bəzək elementlərindən istifadə edirdilər. Bu baxımdan öz kökləri ilə daha qədim dövrlərə gedib çıxan «ay-ulduz» motivini göstərmək olar.

Ay kultu Azərbaycanda geniş yayılmış ibtidai təsəvvür formalarından biri olmuşdur. Eyni zamanda məlumdur ki, Şəki şəhəri yaxınlığında eramızın I əsrinə aid «Ay məbədi» mövcud olmuşdur. Mərkəzi Asiya və İran incəsənətində də bu motiv əsas elementlərdən biri sayılmışdır. Sonrakı dövrlərdə aypara təsviri türk-səlcuq imperiyasında İslam simvolu kimi işlənsə də, əvvəlki semantikasını saxlamışdır[1].

Sovet dövründə isə ay-ulduz motivi dövlətin rəmzinə çevrilmişdi. Başqa sözlə, oraq bir növ ayparanın təsvirini əvəz edirdi. Bu zaman naxışlar əvəz olunmuşdusa da, zərgərlik üsulları dəyişilməz qalırdı. Əsrlərin sınağından çıxmış gül formalı naxışlarla şəbəkə üsulu ilə hazırlanmış «gül sırğa», «gül üzük» XIX əsr zərgərlik məmulatının təkmilləşdirilmiş nümunələri sayıla bilər.

Mənşəyi qədim olan motivlər ayrı-ayrı mərhələlərdə müxtəlif rəmzi mənaya malik məzmun və forma kəsb etmişdir[2]. Bu baxımdan aypara formalı sırğalarda nəqş olunan yeni bəzək elementləri aydın görünür. Belə sırğaların orta hissəsində şəbəkə üsulu ilə buruq fiquru verilmiş və içərisində «Baku» (Bakı) sözü yazılmışdır.

Badamı və ayparalı sırğalarda da dəyişikliklər nəzərə çarpır. Qulağa keçirilən hissəsi beşguşəli ulduz formasında olan bu sırğaların asma hissəsi badamı şəkildə olmaqla, aşağı hissəsində pilələr asılmışdır. Ötən əsrin 20-ci illərindən sonra ölkəmizdə çoxlu sayda zərgərlik müəssisələri təşkil edilib, Bakıda isə zərgərlik fabriki fəaliyyətə başlayıb.

1935-1936-cı illərdə Bakıda zərgərlik fabriki təşkil olundu. Bu, Azərbaycanda qadın bəzəklərinin yeni istiqamətdə inkişafına təsir göstərdi. Orada məişətdə istifadəsinə ehtiyac duyulan zərgərlik məhsullarının kütləvi şəkildə istehsalına başlanıldı. 1936-40-cı illərdə isə milli zərgərlik nümunələrindən olan «paxlava»,«badamı» və «gül» adlanan təkqaş üzüklər, «badamı», «xəmiraşı» sırğalarmodernizə olundu. Onların hər bir hissəsi oyma, yonma əsasında sərrast surətdə biçilir, sonra da yonulmuş bu hissəciklər lehimlə birləşdirilir. Bu cür bəzəklərin hazırlanmasında keçmiş texnoloji üsullarla yanaşı, Qərb zərgərliyində istifadə olunan müasir texnoloji nailiyyətlərdən də istifadə olunurdu. Kütləvi surətdə istehsal olunan «şarlı», «badamı», «gül qolbaq», «üçdüymə» adlanan sırğalar milli ənənələrə əsaslanmaqla, XIX əsr qadın bəzəklərinin davamı sayıla bilər .

Bakı ilə yanaşı Gəncə, Şəki, Naxçıvan, Şuşa kimi şəhərlərdə ənənəvi üsullarla zinət istehsalı davam etdirilirdi. İnsanların daim gözəl bəzənmək ehtiyacını ödəmək üçün, zərgərlər günün tələblərinə cavab verən zinət əşyaları istehsalı üçün yaradıcılıq axtarışları aparır, fabrik məhsullarından geri qalmayan məhsullar hazırlayırdılar. Əsas mənbə kimi yenə də qədim naxış ünsürləri çıxış edirdi. Bu baxımdan «heydəri», «aypara» adlı sırğaları misal göstərmək olar.

XX əsrin 50-60 illərində Lahıc, Şəki, Gəncə, Naxçıvan kimi şəhərlərdə şəbəkəçilik sənəti xüsusilə geniş yayılmışdı. Sonralar yalnız Bakı və Şəki şəhərlərində zinət istehsalı davam etdirildi[3]. Bu zaman həm fabrik, həm də xalq yaradıcılığı üsulları eyni vaxtda tətbiq edilirdi. Nəticədə minillər ərzində yaradılan sənət incilərinə yeni forma və məzmun verməklə, mükəmməl zərgərlik nümunələri yaradılırdı.

---

[1] Эфэнди Фадлун. Двенадцать символов и олицетворения. Баку. Гянджлик. 1998 .c23.
[2] S.D.Əsədova.S.D. XIX-XX əsrlərdə Azərbaycanda zərgərlik incəsənəti. Bakı.Elm,1978.s.38.
[3] S.D.Əsədova. XIX-XX əsrlərdə Azərbaycanda zərgərlik incəsənəti. Bakı.Elm,1978.s.47.

XX əsrdə Azərbaycanın digər bölgələrində də zərgərlik sənəti inkişaf etməkdə idi. Lənkəran zərgərlərindən usta Əbülfəz və Hacıbalanın əməyini, xüsusilə qeyd etmək lazımdır. Onlar Bakıdan Lənkərana gəlib burada şəbəkəçilik məktəbi yaratmışdılar. Əlimuxtar və Ələsgər Zeynalovlar da öz gözəl əl işləri ilə Lənkəranda tanınırdılar. Onların hazırladıqları «quranqabı», «qırxdüymə», «üçdüymə» sırğalar, «silsilə», «gül qolbaq» və s. kimi zərgərlik məmulatından sifarişçilər həmişə razı qalırdılar. Şəki zərgərlərindən XX əsrin ortalarında yaşamış usta Yusif Məmmədovun yaqut daşla bəzədilmiş medalyonu bu gün də nadir sənət nümunəsi kimi Azərbaycan İncəsənət Muzeyində saxlanılır.

Əldə etdiyimiz materiallar göstərir ki, məişətdə daim ehtiyac duyulan (sırğa,üzük, bilərzik, sancaq, medalyon, kəmər və paltar bəzəkləri) zinət əşyaları Azərbaycan şəhərlərində əhalinin dərin rəğbətini qazanmışdır. Kütləvi surətdə istehsal olunan «şarlı», «badamı» sırğalar, «gül qolbaq», «üçdüymə», «dörddüymə» üzüklər, Naxçıvanda «çəçik», Şəkidə «tənəyi» adlanan sırğalar buna misal ola bilər. 1960-1963-cü illərdə zərgərlik fabriklərində kütləvi məişət məmulatına olan tələbatı ödəmək üçün nisbətən ucuz metal olan gümüş zinətlər istehsal edilirdi. Gümüşdən şəbəkə üsulu ilə hazırlanmış qadın bəzəkləri, xüsusilə fərqlənirdi. Bunlardan usta T.Quliyevin hazırladığı şarlı sırğaları misal göstərmək olar. Bu növ sırğalar Bakı, Lahıc, Şəki, Gəncə, Naxçıvan, Şamaxı və digər şəhər və qəsəbələrdə yayılmış və haqlı olaraq əhalinin rəğbətini qazanmışdı. «Sərmə», «heydəri», «darağı», «armud», «üçdüymə» sırğalar da dəbdə idi. Bu sırğalarla yanaşı, «yelpinci», «çarx», «fantaziya» adlanan sırğalar da kütləvi şəkildə istehsal olunurdu.

Ötən əsrin 70-ci illərində Bakı zərgərlik fabrikində Qərb dekorativ incəsənəti üslubunda yeni növ sancaq, düymə, üzük, qolbaq, medalyon və sırğa istehsalı genişlənir. Lakin ənənəvi motivlər yenə də əsas kimi istifadə olunur. Az sonra Bakı sənətkarlarının hazırladıqları nümunələr Fransada, İngiltərədə, İtaliyada tanınmağa başlayır. Onlar 1973-74-cü illərdə təşkil olunmuş Moskva, Leypsiq, Paris yarmarkalarında xüsusi rəğbətlə qarşılanır. Zərgərlərdən A.Əliyev, N.Əliyev, A.Heydərov, F.Zeynalovun və digərlərinin hazırladıqları məmulat yüksək bədii keyfiyyətinə, rənginə və sadə bəzək üslubuna görə diqqəti daha çox cəlb edir.

Müasir dövrümüzdə qadınlar dəbə uyğun İtaliya, Fransa, Ərəbistan, İran və Türkiyədə hazırlanmış qadın zinətlərindən daha çox istifadə edirlər. Şübhəsiz, bazar iqtisadiyyatı ilə əlaqədar bu, heç də bütün qadınlara müyəssər olmur. Texnikanın inkişaf etdiyi indiki dövrdə bəzək əşyalarının hazırlanmasında qiymətli daşlara oxşar süni daşlardan da istifadə olunur. Etnoqrafik sorğulara əsasən deyə bilərik ki, hazırda qadınlar dəst sırğa və üzüklərdən, qolbaqlardan, mirvari boyunbağı və medalyonlardan daha çox istifadə edirlər. Lakin onlar müasir geyimlərə uyğun olaraq seçilir. İndi cəmiyyətdə öz rolu olan qadınların bəzək əşyalarına münasibəti də müxtəlifdir. Onlar işə gedərkən bu bəzəklərin ən zəruri olanlarını istifadə edir, təntənəli mərasimlərdə və toylarda isə bütün zinətlərini nümayiş etdirməyi sevirlər. Müasir zərgərlər çox vaxt bəzək məmulatını hazırlamaq üçün qızıl, gümüş və mis materialları sahibindən alır və onun öz yanındaca zərgər tərəzisində çəkib götürür. Qəbul olunmuş xammal zinət şəklində sifarişçiyə qaytarılarkən bir daha çəkilir.

Ümumiyyətlə, zərgərlər yüksək əyarlı qızıl (56, 72, 82, 92, 94) və gümüşdən (84, 88, 91, 98 əyarda) istifadəyə daha çox üstünlük verirlər. Hən hansı bir ərintinin (külçə, kütlə, çilik və s.) tərkibində xalis qızıl və gümüşün miqdarını müəyyən etmək üçün «əyar sistemi» adlanan xüsusi ölçü vahidi tətbiq edilir. Zərgər əvvəlcə əyarı ona məlum olan qızılı (gümüşü) məhək daşına sürtməklə qızıl (gümüş) tozu zolağı əmələ gətirir, daha sonra isə ona paralel olaraq naməlum qızılın (gümüşün) toz zolağını yaradırdı. Bundan sonra isə paralel toz zolağı üstündən köndələn şəkildə məhək yağı çəkirdi. Əgər naməlum qızılın (gümüşün)məhək yağı çəkilmiş tozu məlum qızıl (gümüş) tozuna nisbətən əvvəlki rəngini dəyişib tünd (qara) olardısa, onda naməlum qızılın

(gümüşün) əyar kəmiyyəti aşağı hesab olunurdı. Rənglərdə dəyişiklik nəzərə çarpmazdısa, o zaman naməlum qızılı (gümüşü) əyarı daha yüksək olan qızılla (gümüşlə) yoxlayır və onun əyar kəmiyyətini müəyyən edərdilər.

Zinət istehsalı bir sıra kimyəvi-texnoloji proseslərlə əlaqədar olduğu üçün, zərgər emalatxanalarında mis, şora, naşatır, qurğuşun, göydaş, tənəkar, məhək daşı, məhək yağı, bürünc, sarı gil və s. kimi xammal ehtiyatları da saxlanırdı. Bundan başqa zinət şeylərində «qaş» məqsədilə istifadə edilən ləl-cəvahirat materialları (inci, yaqut, mirvari, əqiq, brilyant, sapfir, firuzə və s.) xammal kimi istifadə olunurdu.

Zərgərlik emalatxanalarında da ustalar masa üzərində işləyirdilər. Onların sağ əlinin altında əsas əmək alətləri, sol tərəfində qəlib, tərəzi, ehtiyat materiallar, buta, ləkağacı və az işlənən digər istehsal ləvazimatları yığılırdı. Etnoqrafik müşahidələrə əsasən deyə bilərik ki, bəzi yerlərdə əritmə primitiv xarakter daşıyırdı.

Müasir emalatxanalarının bir çoxunda hələ də benzinlə, qazla doldurulmuş balon və hava üfürmək üçün xüsusi körükdən istifadə edilir. Lakin eyni zamanda, bir sıra avtomatlaşdırılmış və elektrik cərəyanı ilə işləyən maşınlar da tətbiq olunur. Zərgərlər tərəfindən ən çox işlədilən metal qızıl olmuşdur. 1300 dərəcə istilikdə əriyən qızıl başqa metallarla ərinti əmələ gətirdiyindən və yumşaqlığına görə asan döyüldüyündən zərgərlikdə geniş istifadə olunmuşdur. Bununla yanaşı, gümüşdən də müxtəlif bəzək əşyaları hazırlanırdı. Gümüş qiymətli metallar qrupuna daxil olub, ağ parlaq rəngə malikdir. Xüsusi çəkisi 1053-dir. Ərimə temperaturu 960,5 dərəcə, qaynama temperaturu 1955 dərəcədir. Keyfiyyətinə görə gümüş iki növ – yumşaq və möhkəm olur.

Yumşaq gümüş soyuq, ya da azca qızdırılmış halda emal olunur. Möhkəm gümüşü isə əritdikdən sonra istifadə edirlər. Zərgərlik ləvazimatlarından olan butalar (qəliblər) sarı gildən düzəldilirdi. Tərkibinə pambıq qatılmış sarı gili təxminən bir həftə ərzində çəkiclə döyüb yetişdirir, nəmliyini itirirdilər. Tam yetişdirilmiş gil xəmiri göyümsov rəng alırdı. Bundan sonra ondan müvafiq formalarda butalar düzəldib kürədə bişirirdilər.

Zərgərlikdə tətbiq edilən əsas alətlərdən biri də qəlib idi. Məlum olduğu kimi, Azərbaycanın tunc dövrü abidələrindən aşkar edilmiş metal məmulatın böyük bir qismi məhz tökmə üsulu ilə daş qəliblərdə hazırlanmışdır [1]. Bundan başqa,sənətkarlar əsrlərin sınağından çıxmış şəbəkəçilik, qarasavad, minasızlıq kimi texnoloji üsullardan da geniş istifadə etmişlər, hansı ki, Azərbaycanın qədim və orta əsrlər dövrü metalişləmə sənətinin davamı və inkişafı kimi qəbul edilir.

1920-ci ildə «Azərzərgər» sənaye birliyinin fəaliyyətə başlaması ilə Azərbaycan zərgərliyinin inkişafında yeni mərhələ başlandı. Bu müəssisəyə Hacı Nəriman, Nadir Tağıyev, Məşədi Mahmud, Ağahüseyn Əliyev, Əliyev Böyükağa Hüseyn oğlu, Akif Səlimbəyov kimi mahir zərgərlər cəlb olundu.

1974-cü ildən Bakı Zərgərlik Zavodu yeni binada öz işinə başladı. 1975-1980-ci illərdə o, artıq yeni texnologiya ilə təchiz olunmuş böyük istehsal müəssəsinə çevrilmişdi. Hal-hazırda da zavod fəaliyyətini davam etdirir və burada qiymətli metallardan müxtəlif formalı zərgərlik məhsulları istehsal olunur.

Ötən əsrin 70-ci illərində Hacı Nəriman, Tağıyev Nadir, zərgər Qərib, Heydərbəyov Həsən, Ağarəhim və Balarəhim Rzabəyovlar, zərgər Əbülhəsən, zərgər Akif, zərgər İbrahim Ağahüseyn oğlu, Zeynalov qardaşları (Məmməd, Səlim, Məhəmməd, Əmrulla), Mehdi Əlibəyli, Arif Baxşıyev, Ağahüseyn Əliyev,Quliyev Ümid, Səmədov Sidqi və digər bacarıqlı sənətkarlar fəaliyyət göstərmişdir. Bu sənətin davamçıları olan gənc zərgərlər də min illərdən bəri xalqın zövqünü oxşayan sənət nümunələrini gələcək nəsillərə çatdırmaq üçün əllərindən gələni əsirgəmirlər.

[1] A.N.Mustafayev. Azərbaycanda sənətkarlıq. Bakı, 2001, s.205.

Təsadüfi deyil ki, Azərbaycan zərgərlərinin sorağı uzaq xarici ölkələrdən gəlir. Məsələn, Salmanov Əbülhəsən Mirzə oğlu zərgərliyə aid keçirilən bütün beynəlxalq sərgilərdə iştirak etmişdir.

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dübai şəhərində «Əbülhəsən» adlı şirkət fəaliyyət göstərir. Bu şirkət orada yerləşən Dünya Zərgərlik Assosiasiyasının üzvüdür.[1] Digər bakılı zərgər Mehdi Əli oğlu Əlibəyli (1941-ci il təvəllüdlü) zərgərlik sənətinin inkişafında xidmətlərinə görə UNESCO-ya üzv seçilmişdir. Onun əl işləri Cenevrə və Brüssel sərgilərində nümayiş etdirilib. Digər zərgərlərimiz Babazadə Həsənağa Tağı oğlunun əl işlərinə Moskvada yüksək qiymət verilmiş və o, UNESCO-nun nəzdində fəaliyyət göstərən nüfuzlu rəssamlıq qrupuna qəbul edilmişdir.[2]

Naxçıvan zərgərlərlik məktəbinin nümayəndəsi Cəfərov Əbdül əl işləri ilə dünyanın əksər ölkələrində sərgilərdə iştirak etmişdir. Zərgər Rüstəmin şəbəkə üsulu ilə işlədiyi sünbül qolbaq və boyunbağılar Almaniya, Amerika, BƏƏ və keçmiş ittifaq respublikalarında yaxşı tanınır. Rzabəyovların əl işləri Fransada və Sankt-Peterburqun Ermitaj muzeyində saxalanılır.

**Nəticə.** Azərbaycanda zərgərlik sənəti müasir dövrün tələblərinə uyğun inkişaf etməkdədir. Artıq ölkəmizdə zavod və fabriklərin əksəriyyəti səhmdar cəmiyyətlərə çevrilmişdir. Bunların sırasında «Zərgər Açıq Səhmdar Cəmiyyəti», «Almaz», «Leyla», «Orxan-3», «Firma-Fərid», «Anar», «Emilya» zərgərlik müəssisələrini qeyd etmək olar. Bu müəssisələr milli ənənələrə əsaslanmaqla çeşidli zərgərlik məmulatının istehsalı ilə məşğuldur. Orada təcrübəli zərgərlərlə yanaşı, gənc sənətkarlar da öz bacarıq və istedadlarını nümayiş etdirməyə çalışırlar. Bu gün zərgərlik keçmişin ənənələrini davam etdirərək forma və məzmunca zənginləşib.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT- REFERENCES

Azərbaycan dilində

1. A.N.Mustafayev. **Azərbaycanda sənətkarlıq**. Bakı, 2001.323 s.
2. C.M.Mustafayev. **Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq**. Bakı, Elm, 2002
3. H.Həvilov. **Azərbaycan etnoqrafiyası**. Bakı Elm,1991
4. M.Abdullayeva. **Azərbaycan zərgərləri.** Bakı,2004.95 s.
5. S.D.Əsədova. **XIX-XXəsrlərdə Azərbaycanda zərgərlik incəsənəti**. Bakı: Elm, 1978. 96 s.

Rus dilində

6. Эфенди Фадлун**. Двенадцать символов и олицетворения**. Баку, Гянджлик, 1998. 112 с.

MÜƏLLİF HAQQINDA MƏLUMAT

Kəmalə Əlıyeva tarix üzrəfəlsəfə doktoru,
dosent, aparıcı elmi işçi, AMEAA.A.Bakıxanov
adına Tarix və Etnologiya İnstitutunun əməkdaşı,
Azərbaycan, Bakı.

[1] M.Abdullayeva. Azərbaycan zərgərləri . Bakı.Elm, 2004, s.72.
[2] M.Abdullayeva. Azərbaycan zərgərləri. Bakı.Elm, 2004, s,121.

INFORMATION ABOUT THE AUTHOR

Kamala Alıyeva -Doctor of Philosophy,
Associate Professor, Leading Researcher,
employee ANAS, Institute of History and Ethnology
named after A.A. Bakikhanov, Azerbaijan, Baku.

**AZƏRBAYCAN TARİX QURUMU – TARİX VƏ GERÇƏKLİK – 2024, №1**

THE HISTORY & REALITY – 2024, №1
ИСТОРИЯ И РЕАЛЬНОСТЬ – 2024, №1

## AZƏRBAYCANLILARLA GÜRCÜLƏRİN ETNO-MƏDƏNİ ƏLAQƏLƏRİNƏ DAİR

NOVRUZOV CƏLAL
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*ORCİD: https://orcid.org/0009-0001-6350-982X; calalnovruzov@gmail.com*

***Xülasə.*** Məqalə Azərbaycan-Gürcüstan münasibətlərinə həsr olunub. Etnoqrafik müşahidələr göstərir ki, iki xalq arasında tarixi-etnoqrafik əlaqələr dərin tarixi köklərə malikdir. Yaxınlıq ənənəvi mənəvi mədəniyyətin və iqtisadi həyatın müxtəlif sahələrində mövcuddur. Bütün bunlara isə coğrafi yaxınlıq və xüsusilə mehriban qonşuluq münasibətləri əhəmiyyətli dərəcədə töhvə verir.
***Açar sözlər:*** etnos, Borçalı, maddi mədəniyyət, mədəni əlaqələr, mənəvi dəyərlər.

NOVRUZOV JALAL
*Institute of History and Ethnology named after A.A. Bakikhanov, ANAS*
*ORCİD: https://orcid.org/0009-0001-6350-982X; calalnovruzov@gmail.com*

## ON THE ETHNO-CULTURAL TIES OF AZERBAIJANIS AND GEORGIANS

***Summary*** . The article deals with ethnocultural ties of Azerbaijanis and Georgians living in Biorchaly mahal. The research of cultural ties shows that there is relativeness in the life of both nations. Ethnographic instances have had a particular role in the formation of these relations. Scientific opinions about the ethno cultural ties of Azerbaijanis and Georgians in the article are topical today.
**Key words:** ethnos, Borchaly, material culture, cultural ties, spiritual values.

**Giriş.** Müasir Azərbaycan ərazisində əsrlər boyu yaşamış oborigen azərbaycanlılarla gürcülər arasında yaxın münasibətlər olmuşdur. Bu münasibətlər sosial-siyasi, maddi-mənəvi, etno-mədəni sahələri əhatə etmişdir. Azərbaycan xalqının ayrılmaz tərkib hissəsi olan Borçalı azərbaycanlıları özünün folkloru, maddi-mənəvi mədəniyyəti ilə fərqlənmiş, ətrafındakı xalqların, o cümlədən gürcülərin etnomədəniyyətinə təsir etmişdir. Eyni zamanda gürcü mədəniyyətinin təsiri ilə azərbaycanlıların mədəniyyəti inkişaf etmişdir. Hər iki xalq arasında qarşılıqlı zənginləşmə prosesi güclənmişdir. Borçalı diyarı Aran Borçalı və Dağ Borçalı olmaqla iki hissədən ibarət olmuşdur. Aran Borçalı Gürcüstanın Azərbaycan və Ermənistanla sərhədyanı bölgəsini əhatə edir. Hazırda Borçalı dedikdə, hafizələrdə daha çox Aran Borçalı canlanır. Şimali Azərbaycanın qərb torpaqlarında Ermənistan SSR yaradılanadək, Borçalı cənubdan Ermənistanın hazırda Lori və Tavuş adlandırılan vilayətlərinin şimal hissəsini də ehtiva etmişdir. Bu ərazi tarixən Dağ Borçalı adlanırdı. Sovetlər Birliyi dövründə aparılmış mərhələli etnik təmizləmədən sonra azərbaycanlı faktorunun tam aradan qalxması ilə əlaqədar olaraq Dağ Borçalı bir toponim olaraq yaddaşlardan silinmişdir. Təbii şəraiti, torpaq-bitki örtüyü, səfalı ab-havası, şəfalı, təmiz, sağlam iqliminə; bol su ehtiyatlarına və günəş enerjisinin (sutka ərzində) faydalı olmasına görə bu mahal əvəz olunmazdır. Zəngin təbiəti Borçalı axırlı-baxarlı meşələri, çəmən və otlaqları, çağlayan, gur axan çayları və göz yaşı kimi dupduru təbii bulaqları ilə həmişə yadelli işğalçıların diqqətini cəlb etmişdir.

**Azərbaycanlilarla gürcülərin etno-mədəni əlaqələrinə tarixi baxış.** Qədim zamanlardan bir-birinə qonşu yaşayan tayfalar, xalqlar müəyyən dövr çərçivəsində qaynayıb-qarışaraq bir-birinin adət-ənənəsindən, folklorundan təsirlənirdilər. Elə bu səbəbdən idi ki, Tiflisdə yaşayıb-yaradan beş yüzdən artıq gürcü aşıq-şairləri azərbaycanca şerlər qoşmuşlar. Gürcü aşıqlarının Azərbaycan

dilində qoşmalar yaratdığına hələ XVI əsrdən təsadüf olunur.[1] Heç şübhəsiz ki, aşıq sənətinin Gürcüstanda yaşayan qeyri-azərbaycanlılar içərisində yayılmasında, xalqımız arasında olduğu kimi, yüksək qiymətləndirilməsində məlahətli və məftunedici səsləriylə könülləri ovsunlayan Borçalı aşıqlarının öz payı vardır.

Qarayazının, Borçalının, Bolusun və Gürcüstanın əkinçilik üçün münasib olan digər bölgələrinin azərbaycanlı əhalisi XIX əsrin sonu XX əsrin əvvəllərində əkin sahələrinin şumlanmasında qara kotan və xışla yanaşı, həm də cütdən istifadə etmişdir. Gürcü dilində təsərrüfat məişətilə bağlı bir sıra terminlər öz əhəmiyyətini qoruyub saxlamaqdadır. Gürcülərdə də çala əkinçiliyilə bağlı ənənəvi xüsusiyyətlər əsasən Lori və Tianeti çayları ətrafında əhəmiyyət kəsb etmişdir. Buradakı Mestia çala, Mulax çala (Svaneti ərazisindədir) kimi adlar bu gün də mövcuddur. Çala termini ümumi gürcü dilində coğrafi nomenklatura kimi səslənməkdədir. Bu gündə yaşayış məntəqəsi olaraq Çala, Çaladidi, Satisçala və s. kimi yer adlan öz əhəmiyyətini qoruyub saxlamaqdadır. Digər tərəfdən, Gürcüstanın düzən ərazilərində suvarma kanallarına "arxi" deyirlər. S. Djikia bu sözü ərəblərdən keçdiyini desə də, V. Bartold bu sözün türk mənşəli olduğunu yazır.[2] Etno-mədəni əlaqələrin formalaşmasında maddi mədəniyyət nümunələrinin xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan yeməklərin, geyimlərin, evlərin özünəməxsus yeri vardır. Azərbaycanın Şəki-Zaqatala, Quba-Xaçmaz və qismən də Gəncəbasar bölgələrində əhali qış aylarında, təsərrüfat işləri seyrələn vaxt əvvəlcədən tədarük etdiyi qaxacdan sürfüllü (sülhüllü) bişirir. Xüsusi səriştə ilə xəmirdən balıqulağına bənzər sürfüllü hissələri hazırlanır, suda qaynadılır, süzülərək dayaz və enli sinilərə çəkilir. Xörəyin üzərinə həlim, döyülümüş sarımsaq və nardaşda qatılmış məhlul tökülür, süfrə sahibinin maddi imkanı daxilində aynca bişirilmiş qaxacdan 2-3 parça qoyulur. Sülhüllünün "sulu sülhüllü" və "südlü sülhüllü" növləri də vardı. Sulu sülhüllü qaxacın suyunda, südlü sülhüllü isə süddə bişirilirdi. Bu yeməklər aşsüzəndə süzülmür və ya birbaşa süfrəyə verilirdi. Qeyd edək ki, sülhüllü gürcülər, inqloylar, saxurlar, laklar və ləzgilər arşında geniş yayılmışdır. Yeməyin tərkibinə əsasən un, su, duz, bir kq. quzu əti və ya qaxac edilmiş quzu əti, istiot, sarımsaq, alçadan düzəldilmiş palçıq turşusu (rub) qatırlar. Əvvəlcə un, su və duzdan çox bərk olmayan xəmir yoğrulur. Xəmir 5-10 dəqiqə mayalandıqdan sonra, uzununa şəridlər kəsilir. Bu şərıdlər barmaqların ucu ilə yumurlanır, Sonra xırda kvadrat formada kəsilir. Ayırılan xırda hissələri bir-bir şəhadət barmağımızı basmaqla çəkirik. Çəkilmiş xəmiri əlimizlə bir qədər dartıb uzadırıq ki, qalın olmasın. Yapışmaması üçün unlayıb ayrı-ayrı yığılır. Qazanda su qaynadıb, duz da əlavə edirlər. Çəkdiyiniz sürfüllüləri qaynayan suya əlavə edirik. Sürfüllülər bişəndən sonra sudan çıxarıb qablara yığılır. Xəmir mayalanan müddətdə başqa bir qazana quru ət qoyub 3 st. su əlavə edilir. Tam bişdikdən sonra ocaqdan götürülür. Hazır şorbadan bolluca olaraq sürfüllülərin üzərinə gəzdirərək, üstünə ət qoyulur. Gürcüstanın Qərb mətbəxində bu yeməyi ənənəvi ev şərabı ilə, turşu və sarımsaqla süfrəyə verirlər.

Gəzinti və səyahətlər zamanı istər yerli, istərsə də xarici turistlərin iştaha ilə yedikləri "haçapurt", borçalılara məxsus düşbərə, yarpaq xəngəli gürcü mətbəxində böyük maraq yaratmaq Etnoqrafik müşahidələrdən aydın olur ki, gürcü mətbəxi iki hissəyə bölünür. Qərb və Şərq

Qərbi Gürcüstan şərqə nisbətən kiçik əraziyə malikdir, lakin olduqca zəngin təbiətə və tarixi abidələrə sahibdir. Şərq hissəsinə mərkəzi də daxil edirlər. Şərqi Gürcüstan mətbəxi qərbi Gürcüstan mətbəxindən fərqlənir. Qərbi Gürcüstan mətbəxinin inkişafına türk mətbəxi təsir göstərsə də, şərqi Gürcüstan mətbəxində Borçalı mətbəxinin mühüm rolu vardır. Gürcü mətbəxi bu fərqliliyi

[1] Əliyev Əsəd. Gürcüstan azərbaycanlılarının mənəvi mədəniyyəti, Bakı, "Elm", 1995, s.13.
[2] Гегешидзе М. К. Орешаемое земледелие в Грузии (опыт историко-этнографического изученя), автореферат докторский диссертаций, Тбилиси,1963, s. 37.

XXI əsrdə də qoruyub saxlamaqdadır. Bunu ət və çörəkdən müxtəlif cür istifadə etmələrilə də sübut edirlər. Məsələn: Gürcüstanın şərq hissəsində çörək buğda unundan bişirilir. Qərb hissədə isə çörək qarğıdalı unundan bişirilir. Şərq hissədə ət olaraq mal əti və qoyun ətindən istifadə olunduğu halda, qərb hissəsində əsasən toyuq əti, hinduşka əti yeyilir. Qaz və ördək ətim isə Borçalı ərzisindən başqa, Gürcüstanın heç bir regionunda istifadə etmirlər. Gürcü mətbəxi acıb və istioüu olması ilə də seçilir. Daşdan geniş istifadə etmək imkanı Borçalının xalq yaşayış evlərinin gümbəzli, tağlı və yastı damlı evlərində öz əksini tapmışdır. Evlərin divarları yonulmamış daşdan tikilir və gü qahşığı ilə bərkidilirdi. Xarici və daxili divarların qalınlığının eni isə 70-80 sm. idi. Divarların bayır və içəri tərəfi isə gil qatışığı ilə malalanırdı. Bir balaca əyintisi olan yastı toıpaq damların üstü qatı gil ilə suvarlanır. Dama yağan yağış suyu, damın axıntı tərəfindən düzəldilən daş navalçaya axırdı. Yay vaxtı yerli əhali bu damlardan açıq yer kimi istifadə edərək, orada ya gecələr yatar, meyvə, tərəvəz və sairə üçün istifadə edüərdi. Ona görə bu evlərdə xüsusi olaraq dama çıxan daş pilləkən düzəldilirdi. Bölgənin rütubətli təbii iqlimi, burada evlərin tikilməsinin səmtini cənuba, şərqə və ya da cənubi-Şərqə tərəf tikilməsinə istiqamətlənirdi. Ərazidə tikilən əksər evlərin fasadı cənuba səmitlənib. Hər bir həyətdə quyu ilə yanaşı, bəzi hallarda da hovuz var idi. Məişət tələbatlan və su içmək üçün suyu əllə quyudan çəkirdilər. Plan strukturuna görə Borçalı evlərini bir cərgəli tip evlərinə aid etmək olar. Azərbaycanın başqa regionlarında olan bağlı eyvanlar, Borçalının köhnə yaşayış evlərinə xas deyildi. Onlann əvəzinə açıq səki qurulurdu və bu səkillər toıpaq tökmə ilə yerdən 30-50sm hündürlüyündə salınırdı. Bu da ağac materiallarının Rusiyadan gətirilməsilə əlaqədar idi. Eyvanlı evlərə tək-tək X3X əsrin axırında rast gəlinməyə başladı. Buradakı evlərin arxitekturası olduqca sadədir. Tək-tək evlərin fasadında iki pəncərə aşırma rast gəlmək olar. Evlərin interyeri Azərbaycan xalq yaşayış evlərinə xasdır. Lakin buradakı yaşayış otaqlarında Azərbaycanın başqa rayonlarında olan buxarı qurulmur. Otaqların istilənməsi üçün kürsüdən istifadə edilirdi. Taxçalardan əlavə divarlan tikərkən 1,8-2 m hündürlükdə ləmə və ya rəf üçün çıxıntı qoyulurdu. Əksər hallarda rəfi divarların bütün perimetr boyu ilə qururdular. Yaşayış evlərin xüsusi detallarından biri divarda çimmək üçün tikilən yer idi.[1] Belə interyerə Azərbaycanın başqa regionlarında rast gəlinir. Başqa xüsusi detaldan biri də divarlarda olan taxça idi ki, ona ancaq çıraq və ya lampa qoyulurdu.

Təbii-coğrafi şəraitin müxtəlifliyi burada təsərrüfat həyatının formalaşmasına da öz təsirini göstərirdi Təsərrüfat həyatının müxtəlifliyi isə etno-mədəni proseslərin dərinləşməsinə zəmin yaratmışdır. Hələ 1636-1639-cu illərdə Azərbaycanda olmuş alman bilik adamı Qolşteynli Adam Olearinin yazdığına görə, ilindən asılı olaraq Səfəvi məmləkətində 10 mindən 20 min taya qədər, yaxud 10 min soom (hər soom 2 taydan ibarətdir) xam ipək yığılırdı. Bir tay - 216 funt sterlinq civannda idi. Borçalı mahalında da ipək istehsalı geniş olmuşdur. Burada xam ipəyin daxili tələbat üçün istifadə olunan hissəsi min taydan çox deyildir.[2] Düzənlikdə yerləşən bir çox tarlalar başdan-başa pambıq sahələrilə örtülmüşdür. Xaş-xaş qozası kimi dairəvi olmaqla, hər qozada paxla dənəsi boyda qara rəngdə toxum vardır.[3] Bu ərazi məkan etibarilə şərq və qərb arasında tranzit rolunu oynayırdı. Borçalınm coğrafi mövqeyi digər mahal və bölgələrə nisbətən yaşayış üçün çox əlverişli olub, burada Zaqafqaziyaya, Yaxın və Orta Şərqə, eləcə də Avropaya birbaşa çıxış yolu vardır. Fransız səyyahı Şarden də Səfəvi ölkəsində hər il 22 min tay, 2 min tayı isə Gürcüstanın şərq payına düşməklə xam ipək istehsal olunduğunu yazır.[4]

Bölgədə etno-demoqrafik vəziyyət Gürcüstan Statistika Departamentinin məlumatlarına

---

[1] Джавахишвили И.А. Строительное искусство в древней Грузии, Тбилиси, 1946, s.67.
[2] Адам Олеарий. Подробное описание путешествия Гольштинского посольства в Московию и Персию. с.79.
[3] Петрушевский И. П. Земледелие и аграрные отношения в Иране в XIII-XIV веках. М-Л.: АН СССР, 1960, с.71.
[4] Путешественники об Азербайджане. Т. 1, Составитель З.И.Ямполский, Баку: АН Азерб.ССР, 1961, с.368-369.

görə müəyyənləşdirilir. 2006-cı ildə Borçalı bölgəsinin əhalisi 507,6 min nəfər və ya Gürcüstanın cəmi əhalisinin 11,5%-ni təşkil etmişdir. Əhalinin 37,2%-i şəhərlərdə, 62,8%-i isə kəndlərdə yaşayır. İntensiv təbii artımla və Gürcüstanın müxtəlif bölgələrindən əhalinin buraya yerləşdirilməsi ilə əlaqədar olaraq 2005-ci il ərzində əhalinin sayı 2,6% artmışdır. 2002-ci ildə aparılmış sonuncu siyahıyaalmanın nəticələrinə görə əhalinin etnik tərkibində azərbaycanlılar üstünlük (cəmi əhali üzrə 45,1%, kənd əhalisi üzrə 62,5%) təşkil edir, ikinci ən çoxsaylı milli toplum gürcülər (cəmi əhali üzrə 44%, kənd əhalisi üzrə 28,4%), üçüncü isə ermənilərdir. Regionda ailələrin sayı 133215-ə, hər ailəyə düşən insanların sayı isə 3,7 nəfərə bərabər olmuşdur. Çöl materialları əsasında demək olar ki, burada gürcülərlə rusların izdivacına rast gəlmək mümkündür. Lakin azərbaycanlıların gürcü qadınları ilə evlənməsi və ruslara üstünlük verməməsini isə, buradakı Ümum Qafqaz mədəniyyətinin səciyyəvi xüsusiyyəti kimi xarakterizə etmək olar. Gürcü qadınları da azəri türkləri kimi, ailəcanlı, qohumcanlı, qonaqcanlıdırlar.

Gürcülərlə azərbaycanlıların etno-mədəni əlaqələri uzaq keçmişdən qaynaqlanaraq, sorağı əfsanə və xatirələrdən, ozan-aşıq yaradıcılığından, bayatı, el mahnıları və "Dədə-Qorqud" dastanlarından gəlir. Dahi Azərbaycan şairi N.Gəncəvi ilə gürcü xalqının böyük şairi Ş.Rustavelinin yaradıcılığında səsləşən mövzular, oxşar ideyalar və poetik cəhəüər xalqlarımızın etnik əlaqələrinin parlaq ifadəsidir. Cənubi Qafqazda mehriban qonşu kimi yaşayan iki dost xalqın münasibətlərinin tarixi onları ədəbiyyaü, mədəniyyəti və iqtisadi əlaqələrinin tarixi qədər qədim və zəngindir. Nizami və Rustavelidən bəhs edərkən tədqiqatçıları bu iki böyük şairin yaradıcılığındakı ümumi cəhətlər, xalqlarımızın mənəvi yaxınlığından və dövrün mütərəqqi ictimai ideyallarından, təravətli ədəbi-estetik təsəvvürlərindən doğan, bunlarla hesablaşan oxşar məqamlar kimi, maraqlandırmalıdır. Xalqlarımızın ənənəvi xüsusiyyətiərindən olan vətənpərvərlik Nizami ilə Rustavelinin yaradıcılığında öz geniş ifadəsini tapmışdır. Bütün'yaradıcılığı boyu zülm və istibdada qarşı çıxan, insanları bəşəri ruhda tərbiyə etməyə çalışan, onlan ümumi səadətin uğrunda mübarizəyə səsləyən, insanlıq şərəfinin ülviyyəti haqqında nəcib fikirlər təlqin edən Nizaminin müdrik, hərarətli səsinə cavab olaraq, Rustaveli öz qüdrətli səsini ucaltmış, ölməz poemasmda azadlıq və məhəbbət ideyalarım tərənnüm etmişdir. Bu qısa xülasə göstərir ki, Nizami və Rustaveli yaradıcılığının qarşılıqlı surətdə öyrənilməsi, onlan bir-birinə bağlayan cəhətlər etno-mədəni əlaqələrin tədqiqi qarşısında qoyulan bugünkü tələblər, metodoloji prinsiplər baxımından elmi izah müasir dövr üçün nə qədər lazımlı və vacibdir. Doğma xalqım, vətənini odlu ehtiraslarla sevən Nizami də öz növbəsində Gürcüstanı tanımış, gürcü xalqına dərin hörmət bəsləmişdir. Orta əsrlər dövründə Gürcüstan-Azərbaycan iqtisadi-mədəni əlaqələrini mənbələrdə göstərir.[1] Bu iki xalqın mədəni-ədəbi əlaqələrinin kökləri çox uzaq əsrlərə gedir. Belə ki, Nizaminin əsərlərindən aydın olur ki, Şirvan şahları ilə Gürcüstan hökmdarları arasında qohumluq əlaqələri olmuşdur. Lirik şeirləri dillər əzbəri olan, yeni dövr Azərbaycan tarixşünaslıq elminin banisi Abbasqulu ağa Bakıxanov və şərqaləri ilə ürəkləri oxşayan, adı nəğmələrə düşərək Avropanı gəzib-dolaşan Mirzə Şəfi Vazeh uzun müddət Tiflisdə yaşayıb-yaratmışlar.[2]

Azərbaycan ədəbiyyatı, maarifi və ictimai fikrinin bir çox tanınmış nümayəndələri Tiflis ədəbi-ictimai mühiti ilə sıx bağlı olub, Borçalı ədəbi mühitinin inkişaf etməsinə güclü təkan vermişdir. Mədəni-bədii əlaqələrin nəzəriyyəçilərindən olan akademik N.İ.Konrad bildirir ki, əgər "bir yazıçının yaradıcılığında başqa bir xalqa mənsub digər yazıçının əsərinin mövzu və motivlərinin yenidən canlandırılınası" məsələsi varsa, bu yayılmış etno-mədəni əlaqə formalarından

[1] Evliya Çelebi. Səyahətnamə. Türk dilindən işləyəni və şərhlərin müəllifi tarix elmləri doktoru, professor Seyidağa Onullahi. Bakı: Azəbaycan Dövlət Nəşriyyatı, 1997, s.87.
[2] Kobidze D., Rustaveli və İran ədəbiyyatı. "Gürcü -İran ədəbi əlaqələri" kitabı, Tbilisi, 1969, s.95.

biri kimi xarakterizə edilməlidir.[1] Bu baxımdan maarif, mədəniyyət və incəsənət də yeni etnik mühitin əsasını qoyan, onu ictimai ideyalarla zənginləşdirməyə çalışan İlya Çavçavadzenin yaradıcılğı Azərbaycan xalqının ədəbi-bədii və siyası-iqtisadi əlaqələri tarixində parlaq səhifələrdən birini təşkil edir. Bu körkəmli yazıçı, ictimai-siyasi xadim dəfələrlə Borçalıya getmiş, Azərbaycan türklərinin xarakterinə, həyat tərzinə, mədəni-məişətinə, mənəviyyatına və milli münasibət hisslərinin zənnini iyinə yaxından bələd olmuş, siyasi və mədəni birliyinin əsasını qoymuşdur. O, xalqımız haqqında bu sözləri yazmışdır: "Bütün şərqlilər kimi, Azərbaycan türkləri də açıq qəlbli, sakit təbiətli, təmkinli və sözün əsil mənasında təvazökardırlar. Azerbaycan türkləri hərkah birinə inanıb ona bel bağlamışsa, o kəsə xəyanət etməz, onu satmaz. O, elmi təcrübəsi, mərdliyi ilə seçilən insanlara (millətindən asılı olmayaraq) hörmətlə yanaşır.

İ.Çavçavadzc Azərbaycan xalqına, onun adət-ənənələrinə, şərəfli keçmişinə böyük ehtiram göstərmiş, gürcülər arasında savad yayan cəmiyyətin sədri kimi Borçalı qəzasında savadsızlığı ləğv etmək üçün mtlfti M.H.Qayıbova və Şeyxülislam Ə.Axundzadəyə müraciət edərək, onları xalqın qayğısına qalmağa, yerlərdə məktəblər açmağa çağırmışdır, ötən əsrin əvvəllərində görkəmli gürcü yazıçısı və ictimai xadimi tlya Çavçavadze "Erməni alimləri və fəryad edən daşlar" əsərində bədnam qonşuların gürcü tarixinə və mədəniyyətinə qarşı təcavüz və həqarətini ürək ağası ilə qələmə almışdı. Ennənı saxtakarlığına toxunan müəllif qeyd edirdi ki, həmin qrup ermənilər "təkcə faktları təhrif etməldə kifayətlənmir, onlar başqasının həqiqətini gizlətməyi az bilir, üstəlik, öz yalanlarından həqiqət kimi car çəkirlər. Onlar gözəl başa düşürlər ki, nə qədər haqqında sussan da, həqiqəti gizlətmək olmur: gec-tez o bəlli olacaq. Əsas məsələ fakt!an məhv elməkdir, ya silmək, ya tarixi yazmı abidələrin üzündən qazımaq, ya da öz xeyrinə dəyişdirməkdir". Görkəmli gürcü şairi və diplomatı Akaki Serelelinin araşdırılan mətbuat orqanlarının səhifələrində verilmiş əsərlərindəki milli hisslər və duyğular nəzəri cəlb edir, Milli azadlıq ideyası A. Seretelinin bütün şüurlu fəaliyyətinin və dünyagörüşünün əsasım təşkil elsə də, o, heç bir millətçilik xəstəliyinə tutulmamış, əksinə, Zaqafqaziya xalqlan arasında etno - mədəni əlaqələrin ən fəal təbliğatçısı olmuşdur. O, milli münasibətlər haqqında yazırdı: "Xalqın inkişafi milli zəminə əsaslanmışdır. Milləti sevmək lazımdır, lakin, əlbəttə, millətçi olmaq lazım deyildir. Bizim vətənə bəslədiyimiz məhəbbət başqa xalqlara olan rəğbətimizi, başqa xalqlara dostluq və qardaşlıq duyğularımızı heç vaxt zəiflətməmişdir".[2]

Qeyd etmək lazımdır ki, iki yüz əlli altı il bundan əvvəl Nadir şah tərəfindən Borçalı Qazax mahalı ilə birlikdə Gəncə bəylərbəyliyindən alınıb Kartli - Kaxeti çarının tabeliyinə verildiyinə baxmayaraq, bu mahalda hər iki xalq arasında geniş qarşılıqlı milli münasibətlər davam elməkdədir. Milli özgünlükləri, xalq ədəbiyyatı və aşıq sənəti ilə tanınan Borçalı ədəbi mühiti qədim və zəngindir. Ulu qarapapaq türklərinin yurdu olan bu torpaqda Dədə Qorqudun, Koroğlunun'izləri var. Bu yurd neçə-neçə nağıl və dastanlara, şer və mahnılara qida verib. Borçalı ilə bağlı bir çox əfsanə, nağıl, dastan, hekayətlər və başqa janrlarda olan örnəklər bugün də Gürcüstanda ərazisində yaşayır. Bir çox Borçalı ziyalıları, əfəndiləri Türkiyə, İran, Orta Asiya və Yaxın Şərqdə də tanınıblar. Hətta N.Tusinin rəsədxanasında çalışan astronomlardan biri - Məhəmməd Borçalı olub.

Gürcüstanın Borçalı mahalında kürdünün ekvivalenti Muğan bölgəsindədir. Kürdünün bu növü Muğanda çalıq (yəl) adlanır. Gövdəsi iki hissədən biçilən yəlin (canlığın) qabaq və arxa tərəfləri bütöv olub, ətəyi qurşağa qədər uzanırdı. Onun yaxa kəsiyi ətəyə qədər davam edərək təxminən 2-3 düymə (bu bəzən gümüşdən kəsilmiş "qoza" olardı) ilə düymələnirdi. Qırmızı və yaşıl məxmərdən, pambıq parçlardan biçilib-tikilən yəlin qol yerinə, yaxası və ətəyinə xəz qoyulurdu". Kürdü (eşmək) və katıvı (və ya katibi) tipli qadın üst geyimləri çox böyük oxşarlıq təşkil edirdi.

[1] Teymur Qara, Arif Məmmədov, "Borçalı çeşməsi", "Ulduz", №5, 1981, s.62.
[2] "Sovet Gürcüstanı" qəzeti, 1986, № 78, 21 oktyabr, s.4.

Etnoqrafik ədəbiyyatda, bir qayda olaraq, onları eyni geyim tipi kimi təqdim edirlər. Lakin bununla belə Borçalı bölgəsinin katıvı tipli qadın geyimləri Azərbaycanın digər bölgələrində mövcud olan və kürdüyə bənzəyən katıvılardan kəskin fərqlənir. Borçahmn Kəpənəkçi və Qaracalar kəndlərindən Gürcüstan Dövlət Muzeyinin fonduna verilmiş katmlar atmaqol və yarunqol olmaqla, hər ikisi uzunətəklidir. Maraqlıdır ki, Qaracalar kalıvısı "katubu" kimi verilmiş, yuxan yaxa kəsiyi istisna olmaqla qol, ələk və aşağı yaxa kəsiyi xəzlə işlənmişdir. Kəpənəkçi kaüvısının isə ancaq yuxan kəsiyi xəzə tutulmuşdur.[1] Xatırladaq ki, Azərbaycanın digər etnoqrafik bölgələrində əhalinin istifadə etdiyi katıvı tipli qadın üst geyimi qolsuz tikilmiş, kürdü kirru ətəyi, qol və yaxa kəsiyi xəzə tutulmuşdur. Onu əsasən lafta, məxmər, tinnə, bəzən də mahud və şaldan astarlı tikirdilər. Bu geyim növü Cənubi Qafqazda geniş yayılmışdır. Biçim üslubu və tikiş tərzinə görə, azərbaycanlı və gürcü katıvıları[2], bir-birinə bənzəsələr də, gtlrcü kaüvılan onlardan müəyyən dərəcədə fərqlənirdi. Belə İd, gtlrcü kutıvısmm uzunluğu dizə qədər çatır, eyni uzunluqda olan qollar atma olmaqla, yaxasına dekorativ bəzək məqsədilə iri düymələr bənd edilirdi.[3]

Vaxtilə. gürctl yazan İ.L.Baxtadze Borçalı türklərinin köç gününün yaratdığı əhval-ruhiyyəni heyranlıqla təsvir edərək, onu ictimailəşmiş xalq bayramı fonunda izah etmişdir.[4]

**Nəticə**. Beləliklə, Borçalı türkiərilə gürcü xalqla arasında etno-mədəni əlaqələrin formalaşmasında maddi mədəniyyət nümunələrilə yanaşı, mənəvi mədəniyyətində spesifik təsiri olmuşdur. Bunula da hər iki xalqın etno mədəniyyəti inkişaf etmiş və daha da zənginləşmişdir.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT- REFERENCES

1. **Azərbaycan tarixi**. I cild, "Elm" nəşriyyatı, Bakı ,1998.
2. Evliya Çelebi. **Səyahətnamə.** Türk dilindən işləyəni və şərhlərin müəllifi tarix elmləri doktoru, professor Seyidağa Onullahi. Bakı: Azəbaycan Dövlət Nəşriyyatı, 1997,
3. Əbülfət Qasımov. **"Bütün vərəqləri yerində olan daş kitab", Palitra,** 2010.28 aprel. 138 s.
4. Əliyev Əsəd. **Gürcüstan azərbaycanlılarının mənəvi mədəniyyəti,** Bakı, "Elm", 1995.
5. Kobidze D. **Rustaveli və İran ədəbiyyatı. "Gürcü -İran ədəbi əlaqələri" kitabı,** Tbilisi, 1969.
6. Ömərli V.A. **Qarayazı.** Bakı: Çaşıoğlu, 2001.
7. Teymur Qara, Arif Məmmədov, **"Borçalı çeşməsi", "Ulduz",** №5, 1981.
8. **"Sovet Gürcüstanı?' qəzeti,** 1986, **21 oktyabr.** № 78,
9. Адам Олеарий. **Подробное описание путешествия Гольштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 годах**. Пер. с немец. П.Барсова, М.,Университетская типография, 1870, 1033 с.
10. Алиев К. **Кавказская Албания. Баку,** 1974, 363 с.
11. Алекперов А.К. **Исследования по археологии и этнографии Азербайджана,** Баку, I960, 249 с.
12. Броневский С.Б. **Новейшие географические и исторические известия о Кавказе.** М., 1823, **485** с.
13. Гегешидзе М. К. **Орешаемое земледелие в Грузии (опыт историко-этнографического изученя), авторефарат** докторский диссертаций, Тбилиси,1963.
14. Герсеванов М.Н.. **Сеть главнейших дорог Закавказского края. Сборник сведений о Кавказе,** Тифлис, 1871, т.1, 318 с.
15. Джавахишвили И.А**. Строительное искусство в древней Грузии,** Тбилиси, 1946.
16. Петрушевский И. П**. Земледелие и аграрные отношения в Иране в XIII-XIV веках. М**-Л.: АН

[1] Броневский С.Б. Новейшие географические и исторические известия о Кавказе. М., 1823, с.75.
[2] Джавахишвили И.А. Строительное искусство в древней Грузии, Тбилиси, 1946, с.76.
[3] Azərbaycan tarixi. I cild, "Elm" nəşriyyatı, Bakı , 1998, s.77.
[4] Ömərli V.A. Qarayazı. Bakı: Çaşıoğlu, 2001, s.702.

СССР, 1960, 492 с.
17. **Путешественники об Азербайджане.** Т. 1, Составитель З.И.Ямполский, Баку: АН Азерб.ССР, 1961, 497 с.

MÜƏLLİF HAQQINDA MƏLUMAT

Novruzov Cəlal Əbdürrəhman – tarix üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun əməkdaşı, Azərbaycan, Bakı.

INFORMATION ABOUT THE AUTHOR

Novruzov Jalal Abdurrahman oglu -Doctor of Philosophy, Leading Researcher,employee, ANAS, Institute of History and Ethnologynamed after A.A. Bakikhanov, Azerbaijan, Baku.

MƏNBƏŞÜNASLIQ VƏ TARİXŞÜNASLIQ - SOURCE STUDIES AND HISTORIOGRAPHY - ИСТОЧНИКОВЕДЕНИЕ И ИСТОРИОГРАФИЯ

# AZƏRBAYCAN RESPUBLİKASI – ABŞ MÜNASİBƏTLƏRİ PROBLEMİNİN VƏTƏN TARİXŞÜNASLIĞI ÜZRƏ TƏDQİQAT ƏSƏRLƏRİNİN XARAKTERİSTİKASI

BALAMİRZƏ MƏMMƏDLİ
*Bakı Dövlət Universitetinin Tarix fakültəsi*
*ORCID: 0009-0007-4506-4840; balamirzamammadli@gmail.com*

***Xülasə:*** 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası müstəqil xarici siyasət yürütməyə başladı ki, müstəqilliyin ilk illərində digər postsovet ölkələri kimi Azərbaycanın da xarici siyasət istiqamətinin əsasını dünya dövlətləri ilə ilk diplomatik münasibətlərin qurulması təşkil edirdi. Bu zaman ölkəmizin xarici siyasət fəaliyyətinin prioritet istiqamətlərindən birini SSRİ-nin dağılması nəticəsində dünyanın yeganə fövqəldövlətinə çevrilən ABŞ ilə münasibətlər təşkil etməyə başlayır. Azərbaycan Respublikasının ABŞ ilə münasibətləri anlaşılmaz xarakter kəsb edən ilk mərhələdən strateji tərəfdaşlıq səviyyəsinə qədər mürəkkəb bir mərhələdən keçmişdir ki, bu da Vətən tarixşünaslığında çoxsaylı tədqiqat əsərlərində öz əksini geniş şəkildə tapmışdır. Məqalədə həmin tarixi tədqiqat əsərləri təhlil və xarakterizə edilməklə Azərbaycan Respublikası-ABŞ münasibətləri probleminin Vətən tarixşünaslığı araşdırılır.
***Açar sözlər:*** Azərbaycan, ABŞ, xarici siyasət, beynəlxalq münasibətlər, Vətən tarixşünaslığı.

# CHARACTERISTICS OF RESEARCH WORKS ON DOMESTIC HISTORIOGRAPHY OF THE PROBLEM OF RELATIONS BETWEEN THE AZERBAIJAN REPUBLIC AND THE UNITED STATES

BALAMIRZA MAMMADLI
*History faculty of Baku State University*
*ORCID: 0009-0007-4506-4840; balamirzamammadli@gmail.com*

***Abstract:*** The Republic of Azerbaijan, which gained state independence in 1991, began to pursue an independent foreign policy and in the first years of independence, the basis of Azerbaijan's foreign policy, like other post-Soviet countries, was the establishment of the first diplomatic relations with the states of the world. At this time, relations with the United States, which became the world's only superpower after the dissolution of the Soviet Union, began to constitute one of the priority areas of Azerbaijan's foreign policy activities. Relations between Azerbaijan and the United States went through a difficult stage, from incomprehensibility to the level of strategic partnership, which was widely reflected in numerous research works in Azerbaijani historiography. The article examines the domestic historiography of the problem of Azerbaijan-US relations by analyzing and characterizing those research works.
***Keywords:*** Azerbaijan, USA, foreign policy, international relations, domestic historiography.

**Giriş.** 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən dərhal sonra Azərbaycan Respublikası öz müstəqil xarici siyasət xəttini həyata keçirməyə başladı ki, müstəqilliyin ilk illərində digər postsovet ölkələri kimi Azərbaycanın da xarici siyasət istiqamətinin əsasını dünya dövlətləri ilə ilk siyasi-diplomatik münasibətlərin qurulması təşkil edirdi. Elə bu zamandan ölkəmizin xarici siyasət fəaliyyətinin ən mühüm istiqamətlərindən birini SSRİ-nin dağılması ilə dünyanın yeganə supergücünə çevrilmiş ABŞ ilə münasibətlər təşkil etməyə başlayır. Azərbaycan

Respublikası-ABŞ münasibətləri problemi Vətən tarixşünaslığında çoxsaylı tədqiqat əsərlərində öz əksini geniş şəkildə tapmışdır. Azərbaycan tarixşünaslığında sözügedən problemin tədqiqatçıları sırasında Elman Nəsirov, Musa Qasımlı, Əli Həsənov, Hafiz Paşayev, Füzuli İsmayılov, Bircə Bayramova, Utarida Hüseynova, Nadirə Bədəlbəyli, Aynur Bəşirova, Əsmər Nəsibova, Xatirə Heydərova, Səbinə Qaraşova, Şəhriyar Məmmədov, Elşən Nəsibov, Aygün Kamandari-Məmmədova, İsmayıl Musa və d. müəlliflərin adlarını qeyd etmək olar.

**Problemin əsas səciyyəsi.** İlk öncə qeyd etmək lazımdır ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" və müasir dövrün böyük dövlət xadimi, siyasi elmlər doktoru, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İnkişaf – məqsədimizdir" adlı çoxcildlik kitablarında Azərbaycanın xarici siyasəti, eləcə də ABŞ ilə münasibətlərinə dair rəsmi sənədlər, hər iki dövlət başçısının bu ölkəyə səfərləri, keçirilmiş görüşlər, məruzələr, nitqlər, rəsmi məktublar və bir çox sənədlər toplanmışdır. [1] Bu irihəcmli kitablar Azərbaycan-ABŞ münasibətlərinin tədqiqi üçün Vətən tarixşünaslığına nəhəng töhfə olmaqla yanaşı, həm də mühüm mənbəşünaslıq bazasını təşkil edir və ciddi elmi-konseptual əsaslara malikdir. İ.Əliyevin 2003-cü ildə Moskvada nəşr edilmiş "Azərbaycanın Xəzər nefti" adlı fundamental tədqiqat əsərində isə, Xəzər regionunun qədim dövrlərdən günümüzə qədərki geniş xronoloji çərçivədə siyasi və iqtisadi inkişafı çoxsaylı arxiv materialları, tarixi mənbələr, protokollar və digər sənədli materialların cəlb edilməsi əsasında geniş və hərtərəfli araşdırılarkən, burada ABŞ-ın Xəzər regionu üzrə geosiyasi maraqları, regionda neft müqavilələrinin imzalanmasında ABŞ-ın mövqeyi və iştirakı, habelə ABŞ-ın Xəzər siyasətinin xüsusiyyətləri kimi mühüm məsələlər öz əksini tapmışdır ki, bu da onu Azərbaycan Respublikası-ABŞ münasibətləri probleminin Vətən tarixşünaslığı üzrə son dərəcə qiymətli monoqrafiyalardan biri kimi xarakterizə etməyə obyektiv əsas verir.[2]

Azərbaycan Respublikası-ABŞ münasibətləri probleminin öyrənilməsi üzrə Vətən tarixşünaslığında ilk tədqiqat əsərləri keçən əsrin 90-cı illərin ikinci yarısından etibarən meydana gəlməyə başladı ki, onlardan biri də M.Qasımlının 1996-cı ildə nəşr olunmuş və 7 fəsildən ibarət olan "Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1991-1995-ci illər" adlı kitabıdır. Sözügedən tədqiqat əsərində Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində onun beynəlxalq münasibətlər sistemində tutduğu yer ümumi şəkildə nəzərdən keçirilmişdir. Kitabın "ABŞ-la münasibətlər" adlı IV fəslində 1991-1995-ci illərdə Azərbaycan-ABŞ münasibətləri qısa şəkildə analiz edilməsinə baxmayaraq, o, problemin tədqiqi üçün ilk istiqamətverici əsər hesab edilə bilər.[3]

Müəllif 1997-ci ildə nəşr olunmuş "Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri)" adlı digər əsərində ölkəmizin xarici siyasətinin konseptual-nəzəri əsaslarını tədqiq etmişdir.[4] Həmin tədqiqat əsərində XX əsrin 90-cı illərində Azərbaycanın müstəqil xarici siyasətinin mahiyyəti, prinsipləri, məqsəd və vəzifələri, müxtəlif dünya dövlətləri ilə qarşılıqlı münasibətlərin, habelə beynəlxalq təşkilatlarla əlaqələrin perspektivləri təhlil edilir. Qərb dövlətləri ilə sıx münasibətlərin yaradılmasını və inkişaf etdirilməsini müstəqil Azərbaycan dövlətinin xarici siyasət kursunun əsas istiqamətlərindən biri olduğu xüsusi vurğulayan müəllif Azərbaycan Respublikasının ABŞ ilə münasibətləri və onun inkişaf perspektivlərini şərtləndirən əsas amilləri şərh etmişdir. Müəllifin 2015-ci ildə nəşr edilmiş "Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003)" adlı irihəcmli monoqrafiyasının ikinci hissəsində XX əsrin sonları-XXI əsrin əvvəllərində ölkəmizin xarici

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 46 cilddə. Bakı, "Azərnəşr", 1997-2013; İlham Əliyev. İnkişaf – məqsədimizdir. 128 cilddə. Bakı, "Azərnəşr", 2008-2023.
[2] Ильхам Алиев. Каспийская нефть Азербайджана. Москва, «Известия», 2003.
[3] Musa Qasımlı. Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1991-1995-ci illər. Bakı, "Gənclik", 1996.
[4] Musa Qasımlı. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, "Mütərcim", 1997.

siyasətinin mahiyyət və xarakteri geniş və müfəssəl şəkildə tədqiq olunmuşdur. Monoqrafiyanın "Azərbaycan Respublikasının Amerika qitəsi dövlətləri ilə münasibətlərinin qurulması və inkişafı" adlanan VII fəsli Azərbaycanın ABŞ və eləcə də Kanada, Meksika, Latın Amerikası ölkələri ilə münasibətlərinin tədqiqinə həsr edilmişdir.[1] Müəllifin 2021-ci ildə işıq üzü görən "Azərbaycan Respublikasının tarixi (1991-2021)" adlı 2 cildlik tədqiqat əsəri isə, ölkəmizin 30 illik tarixinin öyrənilməsinə həsr olunmuşdur ki, burada Azərbaycanın müxtəlif dövlətlər, o cümlədən ABŞ ilə münasibətləri də öz əksini tapmışdır.[2]

Ə.Həsənovun 1997-ci ildə nəşr olunmuş "Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru: (oktyabr 1991-avqust 1997)" adlı kitabı Azərbaycan Respublikası-ABŞ münasibətləri probleminin Vətən tarixşünaslığında ilk tədqiqat əsəri kimi mühüm əhəmiyyət kəsb edir.[3] Adından da göründüyü kimi, xronoloji çərçivəsi müstəqilliyimizin ilk illərini – 1991-1997-cı illəri əhatə edən bu əsər Azərbaycan Respublikası ilə ABŞ arasında ilk siyasi-diplomatik münasibətlərin qurulması tarixinin öyrənilməsinə həsr edilmişdir. Müəllifin 1998-ci ildə nəşr edilmiş, struktur baxımdan ön söz, 4 fəsil və nəticədən ibarət olan "Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)" monoqrafiyasının "Azərbaycanın xarici siyasəti və Amerika Birləşmiş Ştatları" adlanan III fəsli bilavasitə XX əsrin 90-cı illərində Azərbaycan-ABŞ münasibətlərinin tədqiqinə həsr olunmuşdur.[4] Müəllif 2000-ci ildə nəşr edilmiş "Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996)" adlı digər bir tədqiqat əsərində də XX əsrin sonlarında ölkəmizin Qərb dövlətləri, eləcə də ABŞ ilə münasibətlərin hərtərəfli təhlil etmişdir.[5] Bundan başqa, müəllifin 2005-ci ildə nəşr olunmuş "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" və 2015-ci ildə nəşr olunmuş "Azərbaycanın geosiyasəti" adlı irihəcmli tədqiqat əsərlərində də XX əsrin sonları-XXI əsrin başlanğıcında Azərbaycanın müxtəlif dünya dövlətləri, eləcə də ABŞ ilə qarşılıqlı münasibətlərinin ayrı-ayrı aspektləri araşdırılmışdır.[6]

E.Nəsirovun 1998-ci ildə nəşr olunmuş "Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər)" adlı monoqrafiyası Azərbaycan Respublikasının 1991-ci ildə öz müstəqilliyini əldə etməsindən 1997-ci ilə qədər olan 6 illik zaman periodunda ABŞ ilə ilk siyasi, iqtisadi və humanitar əlaqələrinin kompleks şəkildə araşdırılması baxımından diqqəti cəlb edir.[7] Sözügedən tədqiqat əsərində ölkəmizin xarici siyasətində ABŞ-ın yeri, qarşılıqlı əlaqələrin inkişafını şərtləndirən əsas siyasi, iqtisadi və geostrateji amilləri təhlil edilmiş, ikitərəfli münasibətlərin təşəkkülü və inkişafı mərhələlərini nəzərdən keçirilmişdir. Müəllif 1991-1997-ci illərdə Azərbaycan-ABŞ münasibətlərinin keçdiyi inkişaf yolunu 5 mərhələyə bölərək verilmiş xronoloji çərçivədə ikitərəfli münasibətlərin yüksəldilməsi istiqamətində atılan konkret addımları müəyyənləşdirməklə yanaşı, əlaqələrin genişləndirilməsinə əngəl yaradan problematik məsələlərə də diqqət çəkərək onların aradan qaldırılmasına yönəlmiş bir sıra təkliflər irəli sürmüşdür. Bu baxımdan, sözügedən monoqrafiyanı Azərbaycan Respublikası-ABŞ müasibətləri probleminin Vətən tarixşünaslığı üçün

---

[1] Musa Qasımlı. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. Bakı, "Mütərcim", 2015, s.149-256.
[2]Musa Qasımlı. Azərbaycan Respublikasının tarixi (1991-2021): 2 cilddə. I cild. Bakı, "Bakı Dövlət Universiteti", 2021; Yenə onun. Azərbaycan Respublikasının tarixi (1991-2021): 2 cilddə. II cild. Bakı, "Bakı Dövlət Universiteti", 2021.
[3]Əli Həsənov. Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru: (oktyabr 1991 – avqust 1997). Bakı, "Azərbaycan Universiteti", 1997.
[4] Əli Həsənov. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, "Azərnəşr", 1998.
[5] Əli Həsənov. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı, "Elm", 2000.
[6] Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005; yenə onun. Azərbaycanın geosiyasəti. Bakı, "Zərdabi LTD", 2015.
[7] Elman Nəsirov. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər). Bakı, "Qanun", 1998.

ilk böyük töhfələrdən biri hesab etmək olar. Müəllif 2003-cü ildə nəşr edilmiş "ABŞ və dünya 11 sentyabrdan sonra" adlı tədqiqat əsərində ABŞ-ın xarici siyasətinə ciddi təsir göstərmiş 2001-ci ilin məlum terror aktından sonrakı hadisələri, Birləşmiş Ştatların beynəlxalq terrorizmlə mübarizəyə başlamasını tədqiq edərkən bu kontekstdə ABŞ-Azərbaycan münasibətlərinin bir sıra mühüm aspektlərinə toxunmuşdur.[1] Müəllifin 2010-cu ildə nəşr edilmiş "Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri" adlı monoqrafiyasında beynəlxalq terrorizm fenomeni və ona qarşı ABŞ-ın mübarizə doktrinasının mahiyyəti və məzmunu, onun tətbiqi istiqamətləri və reallaşdırılma mexanizmləri daha geniş şəkildə araşdırılmışdır. Giriş, 4 fəsil və nəticədən ibarət olan bu monoqrafiyanın IV fəsli antiterror koalisiyası çərçivəsində ABŞ-Azərbaycan əməkdaşlığının tədqiqinə həsr olunmuşdur.[2] Müəllifin 2018-ci ildə nəşr edilmiş, giriş, 5 fəsil və nəticədən ibarət olan "ABŞ və beynəlxalq terrorizm problemi (2001-2010-cu illər)" adlı başqa bir tədqiqat əsərinin isə, "ABŞ-ın antiterror siyasətində Azərbaycan Respublikasının yeri və rolu" adlanan V fəslində XXI əsrin ilk onilliyində ABŞ-Azərbaycan münasibətlərində son dərəcə mühüm yer tutmuş hərbi və təhlükəsizlik sferasında ikitərəfli əməkdaşlıq geniş təhlil edilmişdir.[3]

Ə.Məmmədov 1999-cu ildə nəşr edilmiş "Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu-1997-ci il)" adlı 4 fəsildən ibarət monoqrafiyasının "Müstəqil dövlət quruculuğunda xarici siyasətin rolu" adlanan sonuncu fəslində Azərbaycanın xarici ölkələrlə, o cümlədən ABŞ-la ilkin siyasi, iqtisadi və mədəni əlaqələrini tədqiq etmişdir.[4]

M.Abdullayevin 2000-ci ildə nəşr olunmuş və 7 fəsildən ibarət olan "Beynəlxalq münasibətlər tarixi" adlı kitabının "90-cı illərdə Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdə iştirakı" adlanan sonuncu fəslində ölkəmizin müstəqilliyinin ilk illərində onun ABŞ ilə münasibətləri qısa şərh edilmişdir.[5]

F.İsmayılovun 2001-ci ildə işıq üzü görən və 5 fəsildən ibarət olan "Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində" adlı tədqiqat əsərində Azərbaycan Respublikası və ABŞ arasında ilk diplomatik münasibətlərin qurulmasından başlamış 2001-ci ilə qədər olan onillik ərzində Azərbaycanın ABŞ ilə münasibətləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində təhlil edilmiş, münaqişənin həllində ABŞ-ın mövqeyi geniş araşdırılmışdır.[6]

Z.Əliyevin 2001-ci ildə nəşr olunmuş və giriş, 2 fəsil, nəticədən ibarət olan "Beynəlxalq münasibətlərdə diasporların rolu" adlı əsərində ikinci fəslin "907-ci düzəliş və erməni-Azərbaycan diasporlarının mübarizəsi" başlıqlı yarımfəsli Azərbaycanın ABŞ ilə münasibətlərində çox mühüm məqam olan "907-ci düzəliş" probleminin araşdırılmasını həsr edilmişdir.[7] Müəllifin 2005-ci ildə işıq üzü görən "Dünya diasporları" adlı başqa bir tədqiqat əsərində də Azərbaycan-ABŞ münasibətlərinin bir sıra aspektlərinə, o cümlədən "907-ci düzəliş" məsələsinə toxunulmuşdur.[8]

A.Piriyevin 2005-ci ildə nəşr olunmuş və giriş, 4 fəsil, nəticədən ibarət olan "Siyasi strategiya və milli təhlükəsizlik" adlı irihəcmli monoqrafiyasında dünya dövlətlərinin, o cümlədən

---

[1] Elman Nəsirov. ABŞ və dünya 11 sentyabrdan sonra. Bakı, "Adiloğlu", 2003.
[2] Elman Nəsirov. Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı, "Elm və Təhsil", 2010, s.305-356.
[3] Elman Nəsirov. ABŞ və beynəlxalq terrorizm problemi. 2001-2010-cu illər. Bakı, "TEAS Press", 2018, s.271-308.
[4] Əli Məmmədov. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu-1997-ci il). Bakı, "Elm", 1999.
[5] Mahir Abdullayev. Beynəlxalq münasibətlər tarixi. Bakı, "Mütərcim", 2000.
[6] Füzuli İsmayılov. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı, "Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı", 2001.
[7] Zaur Əliyev. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı, "Nurlan", 2001.
[8] Zaur Əliyev. Dünya diasporları. Bakı, "Qismət", 2005.

ABŞ-ın siyasi strategiyasının əsas istiqamətləri və milli təhlükəsizlik problemi araşdırılmışdır. Sözügedən monoqrafiyanın III fəslində Azərbaycan Respublikası ilə ABŞ arasında strateji əməkdaşlıq ayrıca tədqiq edilmişdir.[1]

Azərbaycanın ABŞ-dakı ilk səfiri, eyni zamanda tədqiqatçı-alim H.Paşayevin 2006-cı ildə Nyu-Yorkda ingilis dilində və sonradan 2008-ci ildə Bakıda Azərbaycan dilində nəşr olunmuş "Yüksəkliyə doğru" adlı kitabı ABŞ-Azərbaycan münasibətləri probleminin Vətən tarixşünaslığına mühüm töhfə olmaqla yanaşı, həm də problemin mənbəşünaslıq bazasını zənginləşdirən tədqiqat əsəridir.[2] Xronoloji çərçivəsi 1992-2006-cı illəri əhatə edən bu kitab giriş, 4 fəsil və 3 əlavədən ibarətdir. Müəllif ölkəmizin ABŞ-dakı fövqəladə və səlahiyyətli səfiri kimi vəzifəsini başa vurduqdan sonra, 2007-ci ildə nəşr edilmiş "Bir səfirin manifesti" adlı digər tədqiqat əsərində Azərbaycan və ABŞ arasında münasibətlərin yaranma tarixini, bu münasibətlərin on beş il ərzində keçdiyi inkişaf mərhələlərini daha müfəssəl və orijinal bir tərzdə nəzərdən keçirmişdir.[3] Müəllif özü sözügedən əsərin yazılma məqsədini belə izah edir: "Ölkəmizin Vaşinqtonda ilk səfiri kimi bu mövzunu işıqlandırmaq məsuliyyətini həmişə hiss etmişəm. Dövri mətbuatda vaxtaşırı məqalə və müsahibələrim dərc olunmuşdur. Amma hesab edirdim ki, fikir və mülahizələrimi, yaddaşımda həkk olunmuş görüş və hadisələri təfərrüatı ilə yalnız ABŞ-da vəzifəmi başa vurduqdan sonra təqdim etmək daha düzgün olardı".[4]

E.Nəsibov 2006-cı ildə nəşr olunmuş və giriş, 3 fəsil, nəticədən ibarət olan "ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası" adlı monoqrafiyasında XX əsrin sonu-XXI əsrin başlanğıcında ABŞ-ın Cənubi Qafqaz regionundakı iqtisadi, hərbi-siyasi və təhlükəsizlik strategiyasından ibarət geostrateji maraqları kontekstində Azərbaycan-ABŞ münasibətlərinin bir sıra mühüm məqamlarını təhlil etmişdir.[5] Sözügedən monoqrafiyanın "ABŞ-ın Qafqaz regionunda geostrateji maraqları" adlanan birinci fəsli bu baxımdan xüsusilə diqqəti cəlb edir.

P.Darabadinin 2010-cu ildə Moskvada nəşr olunmuş və giriş, 8 fəsil, nəticədən ibarət olan "Qafqaz və Xəzər dünya tarixində və XXI əsrin geosiyasətində" adlı monoqrafiyasında Qafqaz və Xəzər regionunun müasir geosiyasi münasibətlər sistemində yeri və rolu müəyyənləşdirilir, XXI əsrin ilk onilliyində regionda cərəyan edən mürəkkəb siyasi-iqtisadi proseslərin dinamikası göstərilir. Müəllif Qafqaz və Xəzər regionunda müasir "geosiyasi oyunçuları" – ABŞ, Rusiya, Aİ, Türkiyə, Çin və d. mövqeyini təhlil edir. Monoqrafiya XXI əsrin əvvəllərində ABŞ-Azərbaycan münasibətlərini geosiyasi kontektsə tədqiqi baxımından Vətən tarixşünaslığında özünəməxsus yer tutur.[6]

İ.Musanın 2011-ci ildə nəşr olunmuş 7 bölmədən ibarət olan "Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" adlı irihəcmli kitabının "Azərbaycan Respublikasının Qərb dövlətləri ilə münasibətləri" adlanan 4-cü bölməsində Azərbaycan və ABŞ arasında ilk diplomatik münasibətlərin qurulması yığcam şəkildə şərh olunur. Sözügedən bölmənin "ABŞ-la

---

[1] Abbas Piriyev. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı, "BDU", 2005.
[2] Hafiz Pashayev. Racing Up Hill: Selected Papers of Azerbaijan's first ambassador to the United States of America. New York, "Global Scholarly Pubns", 2006; Yenə onun. Yüksəkliyə doğru. Bakı, "Azərbaycan Marketinq Cəmiyyəti", 2008.
[3] Paşayev H. Bir səfirin manifesti. Bakı, "Şərq-Qərb", 2007.
[4] Paşayev H. Bir səfirin manifesti. Bakı, "Şərq-Qərb", 2007, s.7.
[5] Elşən Nəsibov. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. Bakı, "Çıraq", 2006.
[6] Парвин Дарабади. Кавказ и Каспий в мировой истории и геополитике XXI века. Москва, «Весь Мир», 2010.

münasibətlərin xarakteri və perspektivləri" başlıqlı sonuncu yarımfəsli biləvasitə XX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan-ABŞ münasibətlərinin tədqiqinə həsr olunmuşdur.[1]

E.Arifin 2011-ci ildə işıq üzü görmüş "Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində" adlı monoqrafiyasının "Böyük dövlətlərin siyasi münasibətləri kontekstində erməni məsələsi və Ermənistan-Azərbaycan münaqişəsi" adlanan IV fəslinin ilk yarımfəslində Azərbaycanın ABŞ ilə münasibətləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində araşdırılmışdır.[2]

G.Quliyevanın 2011-ci ildə nəşr olunmuş "Azərbaycan yeni geosiyasi münasibətlər sistemində" adlı monoqrafiyasında Azərbaycan Respublikası yeni geosiyasi münasibətlərin subyekti kimi araşdırılmış, Azərbaycanın milli mənafeləri həm yeni Avropa geosiyasəti, həm də ABŞ və Rusiyanın geosiyasi maraqları kontekstində təhlil edilmişdir.[3]

N.Məmmədovun 2012-ci ildə nəşr olunmuş "Xarici siyasətin Azərbaycan modeli" və 2013-cü ildə nəşr olunmuş "Xarici siyasət: reallıqlar və gələcəyə baxış" adlı tədqiqat əsərlərində Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri və prioritetləri yeni dünya nizamına keçid aspektində təhlil edilərkən ölkəmizin ABŞ ilə münasibətlərinin araşdırılmasına da xüsusi yer verilmişdir.[4]

R.İbrahimovun 2014-cü ildə Vaşinqton şəhərində nəşr olunmuş "ABŞ-Azərbaycan münasibətləri: Bakıdan baxış" adlı tədqiqat əsərində 1991-ci ildən başlamış B.Obamanın prezidentliyinə qədər olan periodda iki ölkə arasındakı münasibətlər yığcam şəkildə şərh edilmiş, maraqlı təhlillər aparılmışdır.[5]

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçılarının 2017-ci ildə ərsəyə gətirdikləri "Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016)" başlıqlı məqalələr toplusunda "Azərbaycan – Amerika Birləşmiş Ştatları münasibətləri: 1991-2016" adlı irihəcmli məqalələrdən biri (müəllifi F.Çıraqov) göstərilən xronoloji çərçivədə iki ölkə arasında münasibətlər yeni aspektdə tədqiq edilmişdir.[6]

S.Qaraşova 2018-ci ildə nəşr olunmuş və 4 fəsildən ibarət olan "ABŞ-Rusiya: postsovet məkanı uğrunda mübarizə" adlı monoqrafiyasında dünyanın iki böyük güc dövlətinin postsovet məkanındakı gərgin mübarizəsi fonunda müasir beynəlxalq münasibətlər sistemi və beynəlxalq geosiyasi proseslərin xarakterini, ABŞ-ın geosiyasi strategiyası və onun reallaşdırılması mexanizmlərini tədqiq etmişdir.[7] Monoqrafiyanın "ABŞ-ın xarici siyasətində Cənubi Qafqaz regionunun yeri" adlanan III fəslində isə, ABŞ-Azərbaycan münasibətləri ayrıca araşdırılmışdır.

İ.Vəliyevin 2018-ci ildə nəşr olunmuş "Sabitlik və rifah naminə siyasət" adlı irihəcmli tədqiqat əsərində ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış və hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilən dövlət siyasətinin müxtəlif istiqamətləri təhlil edilir. Sözügedən əsərin VI fəslinin "ABŞ-Azərbaycan münasibətləri: etimada əsaslanan tərəfdaşlıq modeli" adlı

[1] İsmayıl Musa. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Bakı Universiteti", 2011.
[2] Emin Arif. Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində. Bakı, "Elm və təhsil", 2011.
[3] Gülgün Quliyeva. Azərbaycan yeni geosiyasi münasibətlər sistemində. Bakı, "Elm", 2011.
[4] Novruz Məmmədov. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, "Qanun", 2013; yenə onun. Xarici siyasətin Azərbaycan modeli. Bakı, "Çaşıoğlu", 2012.
[5] Rovshan Ibrahimov. U.S. – Azerbaijan relations: a view from Baku. Washington, "Rethink Institute", 2014.
[6] Fuad Çıraqov. Azərbaycan – Amerika Birləşmiş Ştatları münasibətləri: 1991-2016 // Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Bakı, "Poliart", 2017, s.355-398.
[7] Səbinə Qaraşova. ABŞ-Rusiya: postsovet məkanı uğrunda mübarizə. Bakı, "Səda", 2018.

yarımfəslində son onilliklərdə iki ölkə arasında münasibətlərin müxtəlif aspektləri nəzərdən keçirilmişdir.[1]

B.Bayramovanın 2019-cu ildə nəşr olunmuş, giriş, 3 fəsil və nəticədən ibarət olan "ABŞ-Azərbaycan münasibətləri (2001-2008-ci illər)" adlı monoqrafiyası sırf XXI əsrin başlanğıcında ABŞ-ın Azərbaycan ilə münasibətlərinin tədqiqinə həsr olunduğu üçün bəhs olunan problemin Vətən tarixşünaslığına mühüm qatqıdır.[2] Monoqrafiyada 2001-2008-ci illərdə ABŞ-Azərbaycan münasibətlərini şərtləndirən amillər, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ABŞ-ın mövqeyi, müxtəlif sferalarda ikitərəfli əməkdaşlıq təhlil edilir. Monoqrafiyanın ilk fəsli 2001-2008-ci illərdə ABŞ ilə Azərbaycan Respublikası arasında siyasi münasibətlər, ikinci fəsli iqtisadi-ticarət və enerji əməkdaşlığı, üçüncü fəsli isə, mədəniyyət, elm, təhsil və humanitar sahələrdə əlaqələrin tədqiqinə həsr olunub. Bununla yanaşı, müəllifin çoxsaylı elmi məqalələrində də XXI əsrin əvvəllərində ABŞ-Azərbaycan münasibətlərinin müxtəlif aspektləri tədqiq edilmişdir.[3]

M.İbrahimovun 2020-ci ildə nəşr edilmiş, giriş, 3 fəsil və nəticədən ibarət olan "Sahilyanı dövlətlərin xarici siyasətində Xəzər problemi (XX əsrin sonu–XXI əsrin əvvəlləri)" adlı monoqrafiyasında müasir dövrdə formalaşmış yeni tarixi şəraitdə aparıcı dünya dövlətlərinin, o cümlədən ABŞ-ın maraq dairələrində Xəzər bölgəsinin oynadığı rol ətraflı tədqiq olunmuşdur.[4] Bu baxımdan sözügedən əsəri Azərbaycan-ABŞ münasibətləri probleminin Vətən tarixşünaslığına qiymətli töhfə hesab etmək olar.

R.Dadaşovanın 2021-ci ildə nəşr olunmuş, giriş, 6 fəsil və nəticədən ibarət olan "Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı" adlı monoqrafiyası da Azərbaycan-ABŞ münasibətlərinin bir sıra aspektlərinin araşdırılması baxımından diqqəti cəlb edir. Belə ki, monoqrafiyanın III fəslində ölkəmizin BMT TŞ-nın 5 daimi üzvündən biri olan ABŞ ilə münasibətləri, Birləşmiş Ştatların BMT-də mövqeyi, habelə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunması istiqamətində ABŞ ilə aparılan danışıqlar ayrıca tədqiqat obyektidir.[5]

Son illərdə nəşr olunmuş bir sıra tədqiqat əsərlərində də ikitərəfli münasibətlərin qısa şərhinə rast gəlmək olar. M.Baxışovun ABŞ-ın çağdaş tarixi ilə bağlı çoxsaylı tədqiqat əsərlərində – "Amerika Birləşmiş Ştatlarının xarici siyasəti (1776-2016)", "Amerika Birləşmiş Ştatlarının yeni və müasir tarixi", o cümlədən "Beynəlxalq münasibətlər tarixi (1918-2003-cü illər)", "Avropa və Amerika ölkələrinin müasir tarixi" kitablarında müasir dövrdə Birləşmiş Ştatların Azərbaycan ilə münasibətləri probleminə yığcam şəkildə toxunulmuşdur.[6] T.Mustafazadənin 2021-ci ildə nəşr

[1] İsaxan Vəliyev. Sabitlik və rifah naminə siyasət. Bakı, "Təhsil", 2018, s.503-517.
[2] Bircə Bayramova. ABŞ-Azərbaycan münasibətləri (2001-2008-ci illər). Bakı, "Sabah", 2019.
[3] Bircə Bayramova. 2004-cü ildə Azərbaycan-ABŞ iqtisadi əməkdaşlığı. Tarix və onun problemləri, №3, 2010, s.112-117; yenə onun. Azərbaycan ilə ABŞ arasında hərbi təhlükəsizlik sahəsində əməkdaşlıq və beynəlxalq terrorizmə qarşı mübarizə (2001-2008-ci illər). Tarix və onun problemləri, №2, 2011, s.222-228; yenə onun. Azərbaycan ilə ABŞ arasında mədəni əlaqələr (2001-2008-ci illər). Tarix və onun problemləri, №2, 2012, s.166-170; yenə onun. Azərbaycan ilə ABŞ arasında kitabxanalararası əməkdaşlıq (2001- 2008-ci illər). Tarix və onun problemləri, №4, 2012, s.138-142; yenə onun. Elm-təhsil sahəsində ABŞ-Azərbaycan əməkdaşlığı. Bakı Universitetinin Xəbərləri, humanitar elmlər seriyası, №1, 2013, s.119-125.
[4] Mahir İbrahimov. Sahilyanı dövlətlərin xarici siyasətində Xəzər problemi (XX əsrin sonu–XXI əsrin əvvəlləri). Bakı, "Turxan", 2020.
[5] Ramilə Dadaşova. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı. Bakı, "ADMİU-nun mətbəəsi", 2021, s.134-148.
[6] Məmmədağa Baxışov. Amerika Birləşmiş Ştatlarının xarici siyasəti (1776-2016). Bakı, "Sabah", 2017; Yenə onun. Amerika Birləşmiş Ştatlarının yeni və müasir tarixi. Bakı, "3 saylı Bakı Mətbəəsi", 2018; Yenə onun. Avropa və

olunmuş “XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri” adlanan, giriş, 4 fəsil və nəticədən ibarət olan tədqiqat əsərinin sonuncu fəsli müstəqilliyin bərpasından sonra ölkəmizin beynəlxalq əlaqələrinin öyrənilməsinə həsr edilmişdir ki, burada Azərbaycan-ABŞ münasibətlərinə də xüsusi yer verilib.[1] Ç.Məmmədovun 2021-ci ildə nəşr edilmiş “Beynəlxalq münasibətlər tarixi. Müasir dövr” adlı iki hissəli kitabının “Yeni dünya nizamı: 1991-2021-ci illər” adlanan ikinci hissəsində Azərbaycanın 30 illik period ərzində xarici ölkələr, o cümlədən ABŞ ilə münasibətləri qısa şəkildə şərh edilmişdir.[2] Vətən tarixşünaslığında Azərbaycan Respublikası-ABŞ münasibətləri problemi Azərbaycanın müasir dövrdə dünyanın ən böyük hərbi-siyasi bloku olan NATO ilə əlaqələri kontekstində tədqiqi də maraq doğurur. Bu baxımdan Azər Əzimli, Almaz Əliyeva, Xatirə Hacıyeva, Rza Axundov kimi tədqiqatçıların əsərləri diqqəti cəlb edir. A.Əzimlinin 2001-ci ildə nəşr edilmiş “Azərbaycan-NATO münasibətləri (1992-2000)” adlı monoqrafiyasının tədqiqat predmeti XX əsrin 90-cı illərində Azərbaycan Respublikası ilə NATO arasında formalaşmış və inkişaf etmiş siyasi-hərbi münasibətlərdir.[3] Müəllif ikitərəfli münasibətlərin tədqiqinə Avro-Atlantika müstəvisində baş verən siyasi-hərbi proseslər və formalaşmaqda olan təhlükəsizlik sistemi prizmasından yanaşmışdır. Giriş, 4 fəsil və nəticədən ibarət olan monoqrafiyada NATO-nun yaradıcısı və ən əsas üzvü olan ABŞ-ın XX əsrin sonlarında Cənubi Qafqaz regionu, eləcə də Azərbaycan strategiyasının tədqiqi baxımından müəyyən istiqamətverici və faktoloji əhəmiyyətə malikdir. A.Əliyevanın 2012-ci ildə nəşr olunmuş “NATO-da hərbi-siyasi islahatlar və Azərbaycan Respublikası” adlı monoqrafiyasında isə, ABŞ və SSRİ arasındakı “soyuq müharibə”nin başa çatmasından sonra yaranmış yeni şəraitdə NATO-da həyata keçirilən hərbi-siyasi islahatlar və NATO-nun Cənubi Qafqaz regionunda rolu, xüsusilə Azərbaycan Respublikası ilə münasibətləri hərtərəfli araşdırılmışdır.[4] X.Hacıyevanın “Azərbaycan Respublikasının xarici siyasətində aparıcı Qərb dövlətləri və NATO (1991-1995)” adlı namizədlik dissertasiyasında müstəqilliyinin ilk 5 ilində Azərbaycanın ABŞ və digər qabaqcıl dövlətlərlə, o cümlədən NATO ilə münasibətləri araşdırılmışdır.[5] R.Axundov isə, öz tədqiqat işində Azərbaycanın NATO ilə əməkdaşlığının hərbi-siyasi aspektlərini müəyyənləşdirmiş və bu əməkdaşlığın inkişaf perspektivlərinə dair proqnozlar vermişdir.[6]

Azərbaycan-ABŞ münasibətləri problemi Vətən tarixşünaslığında çoxsaylı monoqrafiya, dərslik, elmi məqalələrlə yanaşı, müxtəlif dissertasiyalarda da öz əksini tapmışdır. U.Hüseynovanın “Azərbaycan Respublikası ABŞ-ın xarici siyasət maraqlarında” adlı namizədlik dissertasiyasında ABŞ-ın bütövlükdə Qafqaz regionundakı siyasi, iqtisadi və geostrateji maraqları kontekstində XX əsrin 90-cı illərində Azərbaycan-ABŞ münasibətləri tədqiq edilmişdir.[7] Giriş, 3 fəsil və nəticədən ibarət olan bu tədqiqat işinin ilk fəslində SSRİ-nin və dünya sosialist sisteminin dağılmasından sonra ABŞ-ın siyasi kursundakı dəyişikliklər, onun xarici siyasət prioritetlərinin qlobal miqyasda

Amerika ölkələrinin müasir tarixi (ikinci dünya müharibəsindən sonrakı dövr). Bakı, “3 saylı Bakı Mətbəəsi”, 2018; Yenə onun. Beynəlxalq münasibətlər tarixi (1918-2003-cü illər). Bakı, “3 saylı Bakı Mətbəəsi”, 2018.

[1]Tofiq Mustafazadə. XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri. Bakı, “Avropa”, 2021.

[2]Çingiz Məmmədov. Beynəlxalq münasibətlər tarixi. Müasir dövr: iki hissəli. İkinci hissə: Yeni dünya nizamı 1991-2021-ci illər. Bakı, “Elm və təhsil”, 2021.

[3] Azər Əzimli. Azərbaycan-NATO münasibətləri (1992-2000). Bakı, “Adiloğlu”, 2001.

[4] Almaz Əliyeva. NATO-da hərbi-siyasi islahatlar və Azərbaycan Respublikası. Bakı, “Yeni poliqrafist”, 2012.

[5] Xatirə Hacıyeva. Azərbaycan Respublikasının xarici siyasətində aparıcı Qərb dövlətləri və NATO (1991-1995). Tarix e. n. dər. al. üçün təq. ol. dis. Bakı, 2001.

[6]Rza Axundov. Azərbaycan-NATO əməkdaşlığının hərbi-siyasi aspektləri. Siyasi elmlər üzrə f.d. elmi dər. al. üç. təq. ed. dis. Bakı, 2014.

7Утарида Гусейнова. Азербайджанская Республика во внешнеполитических интересах США. Дис. канд. полит. наук. Баку, 2003.

dəyişməsi təhlil olunur. İkinci fəsildə müəllif Azərbaycan və ABŞ arasında ikitərəfli əlaqələrin iqtisadi və siyasi aspektlərini, üçüncü fəsildə isə Azərbaycan-Amerika münasibətlərinin əsas prioritetlərini, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsində sülhyaratma səylərini tədqiq etmişdir. Müəllifin 2000-ci ildə nəşr olunmuş "Azərbaycan-ABŞ. Əməkdaşlıq perspektivləri (90-cı illər)" adlı monoqrafiyası da bəhs etdiyimiz problemin Vətən tarixşünaslığında önəmli yer tutur.[1] N.Bədəlbəylinin "Azərbaycan Respublikası ilə ABŞ-ın elmi və mədəni əlaqələri (XX əsrin 90-cı illəri)" adlı namizədlik dissertasiyasında Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk illərdə ABŞ ilə elm, təhsil və mədəniyyət sahələrində əlaqələri tədqiqat obyektidir.[2] Giriş, 3 fəsil və nəticədən ibarət olan bu tədqiqat işinin birinci fəslində XX əsrin 90-cı illərində Azərbaycanın ABŞ ilə ilk əlaqələrinin qurulması, Azərbaycan-ABŞ münasibətlərinin ümumi siyasi konturları şərh edilmiş, ikinci fəsildə Azərbaycan Respublikası ilə ABŞ arasında elm və təhsil sferasında əlaqələr və nəhayət üçüncü fəsildə iki ölkə arasında ədəbiyyat, incəsənət və digər mədəni sahələrdə əlaqələr tədqiq olunmuşdur. S.Qaraşovanın "Rusiya və ABŞ-ın Cənubi Qafqazda geostrateji maraqları" adlı namizədlik dissertasiyasında müasir beynəlxalq-siyasi münasibətlər sistemində dünyanın iki nəhəng güc mərkəzinin ABŞ və Rusiya Federasiyasının Cənubi Qafqaz regionundakı geostrateji maraqları kontekstində bu iki dövlətin Cənubi Qafqaz respublikaları ilə siyasi münasibətləri təhlil edilmişdir.[3] Giriş, iki fəsil və nəticədən ibarət olan tədqiqat işinin "ABŞ-ın Cənubi Qafqazda geostrateji maraqları" adlanan ikinci fəslində əsas diqqət Birləşmiş Ştatların Cənubi Qafqaz regionunda geostrateji imperativlərinə və NATO-nun region ölkələri ilə əməkdaşlığının perspektivlərinə yönəlsə də, müəllif XX əsrin sonları-XXI əsrin başlanğıcında ABŞ-ın Azərbaycan ilə siyasi münasibətlərinin təhlilinə də xüsusi yer vermişdir.

A.Bəşirovanın "Azərbaycan-ABŞ münasibətləri Amerika mətbuatında" adlı namizədlik dissertasiyasında 1991-ci ildən 2001-ci ilə qədər olan dövrdə Azərbaycan-ABŞ münasibətləri bilavasitə Amerika mətbuat orqanlarının səhifələrində dərc olunmuş məlumatlar, xüsusən də hələ 1851-ci ildən buraxılan və ABŞ-ın ən böyük tirajlı qəzetlərindən biri olan "Nyu York Tayms" qəzetinin materialları əsasında tədqiq olunmuşdur. Struktur baxımdan giriş, iki fəsil və nəticədən ibarət olan tədqiqatın ilk fəslində 1991-2001-ci illərdə Azərbaycan-ABŞ münasibətlərini şərtləndirən amillər, ikinci fəslində isə iki ölkə arasındakı münasibətlərin "Nyu York Tayms" qəzetində necə işıqlandırılması əsas tədqiqat obyektidir.[4]

B.Hüseynin "ABŞ-ın Cənubi Qafqaz siyasətində neft amili"[5] və Əsmər Nəsibovanın "Azərbaycan Respublikasının neft strategiyası və ABŞ-ın Qafqaz siyasəti (1991-2008-ci illər)"[6] adlı fəlsəfə doktoru dissertasiyalarında müasir dövr Azərbaycan-ABŞ münasibətləri neft amili kontekstində tədqiq edilmiş, ABŞ-ın xarici siyasətində Cənubi Qafqazın yeri və rolu prizmasında nəzərdən keçirilmişdir.

G.Əliyevin "Cənubi Qafqazda geosiyasi maraqlar və Azərbaycanın sülh diplomatiyası" başlığı altında apardığı tədqiqat işində həm qlobal, həm də regional güc mərkəzlərinin Cənubi

[1]Утарида Гусейнова. Азербайджан-США. Перспективы сотрудничества (90-е годы). Баку, «Нурлан», 2000.
[2]Надира Бадалбейли. Научные и культурные связи Азербайджанской Республики и США (90-е годы XX века). Дис. канд. ист. наук. Баку, 2005.
[3]Сабина Гарашова. Геостратегические интересы России и США на Южном Кавказе. Дис. канд. полит. наук. Баку, 2005.
[4]Aynur Bəşirova. Azərbaycan-ABŞ münasibətləri Amerika mətbuatında ("Nyu York Tayms" qəzetinin materialları əsasında: 1991-2001-ci illər). Siyasi e. n. dər. al. üçün təq. ol. dis. Bakı, 2007.
[5]Bahar Hüseyn. ABŞ-ın Cənubi Qafqaz siyasətində neft amili. Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2013.
[6]Əsmər Nəsibova. Azərbaycan Respublikasının neft strategiyası və ABŞ-ın Qafqaz siyasəti (1991-2008-ci illər). Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2014.

Qafqaz regionuna dair siyasətində Azərbaycanın yeri və rolu araşdırılmışdır ki, burada ABŞ-ın da sözügedən region üzrə siyasəti kontekstində onun Azərbaycan ilə münasibətlərinə toxunulmuşdur.[1]

X.Heydərovanın "ABŞ-ın Cənubi Qafqaz siyasəti kontekstində ABŞ-Azərbaycan Respublikası münasibətləri" adlı adlı fəlsəfə doktoru dissertasiyasında XX əsrin sonu-XXI əsrin başlanğıcında ABŞ-Azərbaycan münasibətləri bütövlükdə ABŞ-ın Cənubi Qafqaz regionu üzrə siyasəti nöqteyi-nəzərdən tədqiq edilmişdir.[2]

A.Kamandari-Məmmədovanın "ABŞ-da Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti"[3] və İ.Hüseynovun "ABŞ-da Azərbaycan diasporunun yaranması və inkişafı (XX əsrin sonu-XXI əsrin əvvəlləri)"[4] adlı fəlsəfə doktoru dissertasiyalarında ikitərəfli münasibətlərin bir sıra mühüm aspektləri ABŞ-da Azərbaycan diasporu və lobbisinin formalaşması və mövcudluğu kontekstində araşdırılmış, azərbaycanlıların ABŞ-a miqrasiyası tarixi, ABŞ-da Azərbaycan lobbisi və diaspor təşkilatlarının yaranması kimi məsələlər hərtərəfli təhlil edilmişdir.

Ş.Məmmədovun "Azərbaycan Respublikasının ABŞ-la münasibətləri: siyasi təhlil" adlı fəlsəfə doktoru dissertasiyasında XX əsrin sonları-XXI əsrin əvvəllərində iki ölkə arasındakı münasibətlər elmi-politoloji prizmadan təhlil edilmişdir.[5] Giriş, 3 fəsil və nəticədən ibarət olan tədqiqat işinin "Azərbaycan-ABŞ münasibətlərinin konseptual əsasları" adlı ilk fəslində müəllif ABŞ-ın əsası hələ 1823-cü ildə "Monro doktrinası" ilə qoyulmuş uzunmüddətli xarici siyasət kursunun formalaşdırılmasını çağdaş dövrə qədər nəzərdən keçirmiş, bu dövr ərzində ABŞ-ın Cənubi Qafqaz, eləcə də Azərbaycana yönəli xarici siyasət doktrinaları və konsepsiyalarını təhlil etmişdir. Sözügedən dissertasiya işinin ikinci və üçüncü fəsillərinin tədqiqat obyekti Azərbaycan və ABŞ arasında siyasi və iqtisadi əlaqələrin, hərbi-strateji və humanitar sahədə əməkdaşlığın əsas istiqamətləridir.

R.Hüseynlinin "Azərbaycan və ABŞ beynəlxalq terrorizmə qarşı mübarizədə" adlı fəlsəfə doktoru dissertasiyasında XXI əsrdə qlobal xarakter alaraq bütün bəşəriyyət üçün son dərəcə ciddi təhlükəyə çevrilmiş terrorizm bəlasına qarşı ölkəmizin ABŞ ilə birgə mübarizəsi kontekstində ikitərəfli münasibətlər geniş şəkildə nəzərdən keçirilmiş, siyasi, iqtisadi, hərbi, təhlükəsizlik və digər sahələrdə iki ölkə arasında əməkdaşlıq araşdırılmışdır ki, bu da onu Azərbaycan-ABŞ münasibətləri probleminin Vətən tarixşünaslığına mühüm töhfə kimi xarakterizə etməyə əsas verir. 3 fəsildən ibarət olan tədqiqat işinin "Azərbaycan Respublikası ilə ABŞ arasında beynəlxalq terrorizmlə mübarizə sahəsində strateji tərəfdaşlıq" adlı sonuncu fəsli bu baxımdan xüsusilə diqqəti cəlb edir.[6]

**Nəticə.** Beləliklə, Azərbaycan Respublikasının dünyanın yeganə fövqəldövləti və əsas güc mərkəzlərindən biri olan ABŞ ilə münasibətləri keçən əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq Vətən tarixşünaslığındakı çoxsaylı araşdırmalarda – monoqrafiya, dərslik, elmi məqalələr, dissertasiya işlərində və s. geniş şəkildə öz əksini tapmış, mühüm tədqiqat obyekti

[1]Gündüz Əliyev. Cənubi Qafqazda geosiyasi maraqlar və Azərbaycanın sülh diplomatiyası. Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2009.

[2]Xatirə Heydərova. ABŞ-ın Cənubi Qafqaz siyasəti kontekstində ABŞ-Azərbaycan Respublikası münasibətləri. Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2017.

[3]Aygün Kamandari-Məmmədova. ABŞ-da Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti. Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.-nın avtoreferatı. Bakı, 2017.

[4]İsa Hüseynov. ABŞ-da Azərbaycan diasporunun yaranması və inkişafı (XX əsrin sonu-XXI əsrin əvvəlləri). Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.-nın avtoreferatı. Bakı, 2022.

[5]Şəhriyar Məmmədov. Azərbaycan Respublikasının ABŞ-la münasibətləri: siyasi təhlil. Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2018.

[6] Raminə Hüseynli. Azərbaycan və ABŞ beynəlxalq terrorizmə qarşı mübarizədə. Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.-nın avtoreferatı. Bakı, 2023.

olmuşdur. Həmin tarixşünaslıq materiallarını şərh edərək onların xarakteristikasını üzə çıxarmaq nəinki son onilliklərdə Azərbaycan-ABŞ münasibətlərinin keçdiyi inkişaf dinamikasını müxtəlif tədqiqatçı-alimlərin fərqli baxış bucaqları nöqteyi-nəzərindən öyrənməyə əlverişli şərait yaradır, həmçinin ikitərəfli münasibətlərin gələcək perspektivlərini müəyyənləşdirmək baxımından da əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Abbas Piriyev. **Siyasi strategiya və milli təhlükəsizlik.** Bakı, "BDU", 2005, 545 s.
2. Almaz Əliyeva. **NATO-da hərbi-siyasi islahatlar və Azərbaycan Respublikası.** Bakı, "Yeni poliqrafist", 2012, 279 s.
3. Aygün Kamandari-Məmmədova. **ABŞ-da Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti.** Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.-nın avtoreferatı. Bakı, 2017, 30 s.
4. Aynur Bəşirova. **Azərbaycan-ABŞ münasibətləri Amerika mətbuatında ("Nyu York Tayms" qəzetinin materialları əsasında: 1991-2001-ci illər).** Siyasi e. n. dər. al. üçün təq. ol. dis. Bakı, 2007, 190 s.
5. Azər Əzimli. **Azərbaycan-NATO münasibətləri (1992-2000).** Bakı, "Adiloğlu", 2001, 226 s.
6. **Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016).** Bakı, "Poliart", 2017, 904 s.
7. Bahar Hüseyn. **ABŞ-ın Cənubi Qafqaz siyasətində neft amili.** Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2013, 161 s.
8. Bircə Bayramova. **2004-cü ildə Azərbaycan-ABŞ iqtisadi əməkdaşlığı.** Tarix və onun problemləri, №3, 2010, s.112-117.
9. Bircə Bayramova. **ABŞ-Azərbaycan münasibətləri (2001-2008-ci illər).** Bakı, "Sabah", 2019, 244 s.
10. Bircə Bayramova. **Azərbaycan ilə ABŞ arasında hərbi təhlükəsizlik sahəsində əməkdaşlıq və beynəlxalq terrorizmə qarşı mübarizə (2001-2008-ci illər).** Tarix və onun problemləri, №2, 2011, s.222-228.
11. Bircə Bayramova. **Azərbaycan ilə ABŞ arasında kitabxanalararası əməkdaşlıq (2001- 2008-ci illər).** Tarix və onun problemləri, №4, 2012, s.138-142.
12. Bircə Bayramova. **Azərbaycan ilə ABŞ arasında mədəni əlaqələr (2001-2008-ci illər).** Tarix və onun problemləri, №2, 2012, s.166-170.
13. Bircə Bayramova. **Elm-təhsil sahəsində ABŞ-Azərbaycan əməkdaşlığı.** Bakı Universitetinin Xəbərləri, humanitar elmlər seriyası, №1, 2013, s.119-125.
14. Çingiz Məmmədov. **Beynəlxalq münasibətlər tarixi. Müasir dövr: iki hissəli. İkinci hissə: Yeni dünya nizamı 1991-2021-ci illər.** Bakı, "Elm və təhsil", 2021, 656 s.
15. Elman Nəsirov. **ABŞ və beynəlxalq terrorizm problemi. 2001-2010-cu illər.** Bakı, "TEAS Press", 2018, 344 s.
16. Elman Nəsirov. **ABŞ və dünya 11 sentyabrdan sonra.** Bakı, "Adiloğlu", 2003, 262 s.
17. Elman Nəsirov. **Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri.** Bakı, "Elm və Təhsil", 2010, 392 s.
18. Elman Nəsirov. **Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər).** Bakı, "Qanun", 1998, 136 s.
19. Elşən Nəsibov. **ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası.** Bakı, "Çıraq", 2006, 311 s.

20. Emin Arif. **Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində.** Bakı, “Elm və təhsil”, 2011, 324 s.
21. Əli Həsənov. **Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru: (oktyabr 1991 – avqust 1997).** Bakı, “Azərbaycan Universiteti”, 1997, 103 s.
22. Əli Həsənov. **Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996).** Bakı, “Elm”, 2000, 368 s.
23. Əli Həsənov. **Azərbaycanın geosiyasəti.** Bakı, “Zərdabi LTD”, 2015, 1056 s.
24. Əli Həsənov. **Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996).** Bakı, “Azərnəşr”, 1998, 315 s.
25. Əli Həsənov. **Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti.** Bakı, “Azərbaycan” nəşriyyatı, 2005, 752 s.
26. Əli Məmmədov. **Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu-1997-ci il).** Bakı, “Elm”, 1999, 360 s.
27. Əsmər Nəsibova. **Azərbaycan Respublikasının neft strategiyası və ABŞ-ın Qafqaz siyasəti (1991-2008-ci illər).** Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2014, 158 s.
28. Füzuli İsmayılov. **Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində.** Bakı, “Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı”, 2001, 152 s.
29. Gülgün Quliyeva. **Azərbaycan yeni geosiyasi münasibətlər sistemində.** Bakı, “Elm”, 2011, 423 s.
30. Gündüz Əliyev. **Cənubi Qafqazda geosiyasi maraqlar və Azərbaycanın sülh diplomatiyası.** Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2009, 162 s.
31. Hafiz Pashayev. **Racing Up Hill: Selected Papers of Azerbaijan’s first ambassador to the United States of America.** New York, “Global Scholarly Pubns”, 2006, 339 p.
32. Hafiz Paşayev. **Bir səfirin manifesti.** Bakı, “Şərq-Qərb”, 2007, 248 s.
33. Hafiz Paşayev. **Yüksəkliyə doğru.** Bakı, “Azərbaycan Marketinq Cəmiyyəti”, 2008, 336 s.
34. Heydər Əliyev. **Müstəqilliyimiz əbədidir. 46 cilddə.** Bakı, “Azərnəşr”, 1997-2013.
35. Xatirə Hacıyeva. **Azərbaycan Respublikasının xarici siyasətində aparıcı Qərb dövlətləri və NATO (1991-1995).** Tarix e. n. dər. al. üçün təq. ol. dis. Bakı, 2001, 168 s.
36. Xatirə Heydərova. **ABŞ-ın Cənubi Qafqaz siyasəti kontekstində ABŞ-Azərbaycan Respublikası münasibətləri.** Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2017, 171 s.
37. İlham Əliyev. **İnkişaf – məqsədimizdir. 128 cilddə.** Bakı, “Azərnəşr”, 2008-2023.
38. İsa Hüseynov. **ABŞ-da Azərbaycan diasporunun yaranması və inkişafı (XX əsrin sonu-XXI əsrin əvvəlləri).** Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.-nın avtoreferatı. Bakı, 2022, 30 s.
39. İsaxan Vəliyev. **Sabitlik və rifah naminə siyasət.** Bakı, “Təhsil”, 2018, 672 s.
40. İsmayıl Musa. **Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti.** Bakı, “Bakı Universiteti”, 2011, 776 s.
41. Mahir Abdullayev. **Beynəlxalq münasibətlər tarixi.** Bakı, “Mütərcim”, 2000, 344 s.
42. Mahir İbrahimov. **Sahilyanı dövlətlərin xarici siyasətində Xəzər problemi (XX əsrin sonu–XXI əsrin əvvəlləri).** Bakı, “Turxan”, 2020, 224 s.
43. Məmmədağa Baxışov. **Amerika Birləşmiş Ştatlarının xarici siyasəti (1776-2016).** Bakı, “Sabah”, 2017, 286 s.
44. Məmmədağa Baxışov. **Amerika Birləşmiş Ştatlarının yeni və müasir tarixi.** Bakı, “3 saylı Bakı Mətbəəsi”, 2018, 196 s.

45. Məmmədağa Baxışov. **Avropa və Amerika ölkələrinin müasir tarixi (ikinci dünya müharibəsindən sonrakı dövr).** Bakı, "3 saylı Bakı Mətbəəsi", 2018, 334 s.
46. Məmmədağa Baxışov. **Beynəlxalq münasibətlər tarixi (1918-2003-cü illər).** Bakı, "3 saylı Bakı Mətbəəsi", 2018, 334 s.
47. Musa Qasımlı. **Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1991-1995-ci illər.** Bakı, "Gənclik", 1996, 135 s.
48. Musa Qasımlı. **Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə.** Bakı, "Mütərcim", 2015, 640 s.
49. Musa Qasımlı. **Azərbaycan Respublikasının tarixi (1991-2021): 2 cilddə. I cild.** Bakı, "Bakı Dövlət Universiteti", 2021, 384 s.
50. Musa Qasımlı. **Azərbaycan Respublikasının tarixi (1991-2021): 2 cilddə. II cild.** Bakı, "Bakı Dövlət Universiteti", 2021, 520 s.
51. Musa Qasımlı. **Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri).** Bakı, "Mütərcim", 1997, 124 s.
52. Novruz Məmmədov. **Xarici siyasət: reallıqlar və gələcəyə baxış.** Bakı, "Qanun", 2013, 264 s.
53. Novruz Məmmədov. **Xarici siyasətin Azərbaycan modeli.** Bakı, "Çaşıoğlu", 2012, 464 s.
54. Ramilə Dadaşova. **Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı.** Bakı, "ADMİU-nun mətbəəsi", 2021, 344 s.
55. Raminə Hüseynli. **Azərbaycan və ABŞ beynəlxalq terrorizmə qarşı mübarizədə**. Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.-nın avtoreferatı. Bakı, 2023, 29 s.
56. Rovshan Ibrahimov. **U.S. – Azerbaijan relations: a view from Baku.** Washington, "Rethink Institute", 2014, 20 p.
57. Rza Axundov. **Azərbaycan-NATO əməkdaşlığının hərbi-siyasi aspektləri.** Siyasi elmlər üzrə f.d. elmi dər. al. üç. təq. ed. dis. Bakı, 2014, 187 s.
58. Səbinə Qaraşova. **ABŞ-Rusiya: postsovet məkanı uğrunda mübarizə.** Bakı, "Səda", 2018, 408 s.
59. Şəhriyar Məmmədov. **Azərbaycan Respublikasının ABŞ-la münasibətləri: siyasi təhlil.** Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2018, 163 s.
60. Tofiq Mustafazadə. **XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri.** Bakı, "Avropa", 2021, 544 s.
61. Zaur Əliyev. **Beynəlxalq münasibətlərdə diasporların rolu.** Bakı, "Nurlan", 2001, 150 s.
62. Zaur Əliyev. **Dünya diasporları.** Bakı, "Qismət", 2005, 349 s.
63. Ильхам Алиев. **Каспийская нефть Азербайджана.** Москва, «Известия», 2003, 712 с.
64. Надира Бадалбейли. **Научные и культурные связи Азербайджанской Республики и США (90-е годы XX века).** Дис. канд. ист. наук. Баку, 2005, 164 с.
65. Парвин Дарабади. **Кавказ и Каспий в мировой истории и геополитике XXI века.** Москва, «Весь Мир», 2010, 214 с.
66. Сабина Гарашова. **Геостратегические интересы России и США на Южном Кавказе.** Дис. канд. полит. наук. Баку, 2005, 158 с.
67. Утарида Гусейнова. **Азербайджанская Республика во внешнеполитических интересах США.** Дис. канд. полит. наук. Баку, 2003, 172 с.
68. Утарида Гусейнова. **Азербайджан-США. Перспективы сотрудничества (90-е годы).** Баку, «Нурлан», 2000, 176 с.

MÜƏLLİF HAQQINDA MƏLUMAT

Məmmədli Balamirzə Aydın oğlu – doktorant,
Bakı Dövlət Universitetinin Tarix fakültəsi,
Azərbaycan, Bakı.

INFORMATION ABOUT THE AUTHOR

Mammadli Balamirza Aydin – PhD student,
Faculty of History, Baku State University.
Azerbaijan, Baku.

YUBİLEYLƏR VƏ ƏLAMƏTDAR GÜNLƏR

## YAQUB MAHMUDOV VƏ AZƏRBAYCAN MİLLİ TARİX ELMİ

TOFİQ NƏCƏFLİ
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Azərbaycanın XV-XVIII əsrlər tarixi" şöbəsinin müdiri, t.e.d., dos.*

Xalqımızın qədim və zəngin tarixi keçmişinin unutdurulması, qəsdən saxtalaşdırılması və təhrif olunması dövlət siyasətinə çevrildiyi dövrdə, nə yaxşı ki rəsmi mükafat və təltiflər, yüksək vəzifələr və təriflər dalınca qaçmayıb, təqiblərdən qorxmayıb, ömrünü doğma xalqın həqiqi tarixini, əsl keçmişini araşdırmağa həsr edənlər də tapılırdı. Belələrindən biri də indi ömrünün 85-ci baharını yaşayan Yaqub Mahmudov idi.

Azərbaycan tarix elmində parlaq səhifə açan, milli tariximizi dirçəldən Yaqub Mahmudovun adı gələndə, ilk növbədə güclü məntiq, möhkəm iradə, dərin savad, hər şeyi sistemləşdirmək bacarığı, həyata, hadisələrə ali münasibət, ən əsası qəlbi Vətən, Torpaq sevgisi ilə çırpınan bir insan canlanır gözümüz önündə.

Yaqub müəllim bütün bu bacarıqlarını doğma Vətənimizin və xalqımızın tərəqqisi yolunda sərf edir, gələcəyimizə nəhəng körpülər salır, özündən sonra gələn nəslə tükənməz xəzinə yaradır.

Yaqub Mahmudov XV əsrin 60-cı illərinin sonunda meydana gəlmiş Azərbaycan Ağqoyunlu dövlətinin Avropa dövlətləri ilə münasibətləri tarixini tədqiq etməklə bir tərəfdən Azərbaycan dövlətçiliyi tarixinin pioneri kimi şöhrət qazandı, digər tərəfdən Azərbaycanın Qərb dövlətləri ilə diplomatik əlaqələrinin yaradılmasının tədqiqatçısı kimi Vətən tarixinə öz adını həkk etdirdi.

O, Azərbaycan dövlətçiliyi tarixində böyük önəm daşıyan Ağqoyunlu və Səfəvi imperiyalarının tarixini dünya miqyasına çıxarmaq üçün "Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri (XV əsrin II yarısı – XVII əsrin əvvəlləri)" adlı fundamental monoqrafiyasını Moskvada, Nyu-York-Londonda və Romada nəşr etdirdi. Bu əsər təkcə Yaqub Mahmudovun yox, həm də Azərbaycan tarix elminin böyük uğuru oldu.

Yaqub Mahmudov ilk dəfə olaraq Azərbaycan dövlətçiliyi tarixində xüsusi çəkisi olan "Kitab-Dədə Qorqud" eposunu ədəbiyyatçıların "inhisarından" çıxarmış və onu "tarixi təfəkkürün məhsulu kimi" tədqiq və təbliğ etmişdir. Bu, Yaqub Mahmudovun Azərbaycan dövlətçiliyi tarixinə gətirdiyi növbəti yeniliklərdən biri oldu. O, "Kitab-Dədə Qorqud" eposundakı faktları və məlumatları orta əsr mənbələrinin məlumatları ilə tutuşduraraq eposda əks olunan yer adlarının tarixiliyini sübut etdi və "Kitab-Dədə Qorqud"un dili ilə "Azərbaycan haradır?" sualına cavab tapdı. Yaqub Mahmudov sübut etdi ki, Azərbaycan xalqı dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır.

Yaqub Mahmudov öz tədqiqatlarında Oğuz türklərinin, o cümlədən Azərbaycan xalqının soykökündə duran Qaraqoyunlu və Ağqoyunlu tayfalarının Cənubi Qafqazın qədim tayfalarından olduğunu, hələ VI-VII əsrlərdən bu bölgədə yaşadıqlarını, Göycə gölü ətrafı bölgələrin Azərbaycan Oğuz tayfalarının qədim məskənlərindən olduğunu sübuta yetirmişdir.

Yaqub Mahmudov tarixi tədqiqatlara Azərbaycanın orta əsrlərindən başladı. O zaman bu dövrün tədqiqinə böyük ehtiyac var idi. Amma Yaqub Mahmudov Azərbaycanın çətin günlərində, onun qədim tarixi ilə bağlı tədqiqatlara ehtiyac duyulanda bu dövrün tədqiqatçısı olmağından imtina etmədi. Kutiləri, lullubiləri, iskitləri, kimeriləri Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətlərinin

sələfi kimi tədqiq etdi. Və bu tarixdən şərəf duydu. O, Tomris, Cavanşir, Babək, Saray Xatun, Qara Yusif, Uzun Həsən, Şah İsmayıl və bir çox fəxr etdiyimiz tarixi şəxsiyyətlərin sırasına yenilərini də əlavə etdi. Yaqub Mahmudov sovet dövründə qəddar, qaniçən kimi təbliğ olunan Nadir şah Əfşarı və Ağa Məhəmməd şah Qacarı aydınlığa çıxardı. Yaqub Mahmudov əsaslandırdı ki, əfşarlar da, qacarlar da bizlərdəndir, necə ki biz onlardanıq!

Yaqub Mahmudov ilk dəfə olaraq Azərbaycan dövlətçiliyi tarixində Heydər Əliyevin tarixi rolunu qələmə aldı onu, dünyanın ən görkəmli dövlət başçıları olan Mustafa Kamal Atatürk, Corc Vaşinqton, Otto Bismark, Cəvahirləl Nehru, Şarl de Qolla müqayisə etdi. Yaqub Mahmudov ilk dəfə olaraq Heydər Əliyevin dövlətçilik fəaliyyətini mərhələlərə böldü və bu mərhələlərin hər birinin xarakterik xüsusiyyətlərini təhlil etdi. Bütün bunların hamısına yekun vuran Yaqub Mahmudov Heydər Əliyevlə bağlı tədqiqatlarını bu cümlə altında birləşdirdi: "Heydər Əliyev Böyük Azərbaycanlı və Böyük Azərbaycançıdır".

Ulu öndər Heydər Əliyevin çağırış, tövsiyə və tapşırığı ilə Yaqub Mahmudovun rəhbərliyi altında və baş redaktorluğu ilə az vaxt içərisində Azərbaycan Xalq Cümhuriyyəti tarixinin müxtəlif problemləri ilə bağlı ciddi elmi araşdırmaları özündə əks etdirən iki cildlik Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası (Bakı: 2004-2005; yeni nəşri - 2014) nəşr olunmuşdur. Yaqub Mahmudov Azərbaycanın istiqlalı yolunda xidməti olmuş hər bir insanı ensiklopediyaya daxil etməklə, bir tərəfdən Vətən tarixini zənginləşdirdi, digər tərəfdən isə 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə oynadığı rolu milyonlarla Azərbaycan vətəndaşına hədiyyə etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmə göstərdiyi yüksək qayğını əsas götürən Yaqub Mahmudovun rəhbərliyi ilə Tarix İnstitutu XX əsrdə ermənilərin xalqımıza qarşı həyata keçirdiyi soyqırımı və etnik təmizləmə siyasətini beynəlxalq elmi ictimaiyyətə daha dolğun şəkildə çatdırmaq məqsədilə AMEA Rəyasət Heyəti və Türkiyə Cümhuriyyəti Atatürk Araşdırma Mərkəzi ilə birgə (2013-2018-ci illərdə) yüksək səviyyəli **5** Beynəlxalq elmi soyqırımı konfransı həyata keçirmişdir.

Yaqub Mahmudovun rəhbərliyi ilə həyata keçirilən elmi layihələrdən biri də *ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi və burada məskunlaşdırılması, xalqımıza qarşı ermənilərin həyata keçirdiyi soyqırımları və etnik təmizləmənin* araşdırılmasıdır. Bu elmi tədqiqat istiqamətini əks etdirən sənəd topluları nəşr olunmuş və institutun əməkdaşları bu sənədlər əsasında ölkəmizin bütün bölgələrində – Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, İrəvanda, Naxçıvanda, Urmiya gölü ətrafında və Şərqi Anadoluda ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımlarına ayrı-ayrılıqda qiymətli tədqiqat əsərləri həsr etmişlər.

Yaqub Mahmudov Azərbaycan tarixşünaslığında "itirilmiş torpaqların tədqiqi" elmi istiqamətinin müəllifi və rəhbəridir. "İtirilmiş torpaqların tədqiqi" Azərbaycan tarixşünaslığında həm elmi, həm də siyasi baxımdan, demək olar ki, eyni dərəcədə aktuallıq kəsb edən istiqamətlərdən biridir. Bu problemin elmi tərəfi Azərbaycanın tarixi ərazisi, sərhədləri, vilayətləri, siyasi və iqtisadi əlaqələrinin kompleks araşdırılması ilə bağlıdırsa, siyasi tərəfi – müasir dünyada sürətlə gedən inteqrasiya və qloballaşma prosesləri ilə paralel, millətlərin öz müqəddəratını təyin etmə hüququ və dövlətlərin ərazi bütövlüyünə hörmət prinsiplərinə riayət edilməsi şəraitində Azərbaycan xalqının öz tarixi torpaqlarına və tarixinə sahib çıxma zərurəti ilə əlaqədardır.

Yaqub Mahmudovun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Tarix İnstitutunda *"Azərbaycan tarixinə dair ilk mənbələrin nəşri"* layihəsinin həyata keçirilməsi sayəsində mühüm elmi uğura imza atılmışdır. Bu layihə çərçivəsində Moskva, Sankt-Peterburq, Dərbənd, Mahaçqala, Tiflis, Həştərxan, İstanbul, Ankara, Paris, London, Berlin və Dehli kimi şəhərlərin arxivlərində Azərbaycan tarixi ilə bağlı saxlanılan qiymətli sənədlər Tarix İnstitutuna gətirilmişdir. Bu layihənin

həyata keçirilməsi ilə *Azərbaycan tarixinin xüsusi məqsədlərlə təhrif olunmuş və saxtalaşdırılmış səhifələrinin yenidən yazılması, Azərbaycanın müxtəlif tarixi dövrlərdə itirilmiş torpaqlarının tarixinin* araşdırılaraq bugünkü nəsillərə olduğu kimi çatdırılması əsas tədqiqat obyektinə çevrildi.

Bu layihənin həyata keçirilməsi Azərbaycan tarixinin araşdırılmayan, öyrənilməsinə qadağalar qoyulan gerçək tarixinin hərtərəfli tədqiqinə geniş imkanlar yaratdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Yaqub Mahmudovun elmi fəaliyyətini yüksək qiymətləndirmiş, onu Azərbaycanın «böyük alimi», «böyük tarixçisi» adlandırmışdır.

Əziz Yaqub müəllim, xalqımızın elm, təhsil, ictimai-siyasi həyatına, müxtəlif elmi məktəblərin, xalqımızın milli tarixinin dirçəliş konsepsiyasının yaradılması və həyata keçirilməsinə həsr olunmuş, bütün həyatı boyu doğma Vətəninin və xalqının tərəqqisi yolunda yorulmadan, əzmlə mübarizə apararaq Vətən naminə yaşanan şərəfli ömrünüzün 85 baharında Sizi çoxsaylı tarixçilərimiz, qədirbilən oxucularımız, bir sözlə, Vətən ruhlu bütün yurddaşlarımız adından təbrik edir, Sizə can sağlığı və yeni-yeni yaradıcılıq sevincləri arzulayırıq!

# AZƏRBAYCAN TARİX QURUMU
# TARİX VƏ GERÇƏKLİK –2024

THE HISTORY & REALITY –2024
ИСТОРИЯ И РЕАЛЬНОСТЬ –2024

Formatı 60x84 $^{1}/_{8}$.
F.ç.v. 12. Tiraj 100 nüsxə.